**SƏBİNƏ ƏLİYEVA**

# ƏLİLLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ İMPLEMENTASİYASI

**Monoqrafiya**

**BAKI-2019**

**Elmi redaktor**: hüquq elmləri doktoru, professor Ə.İ.Əliyev

**Rəyçilər**: hüquq elmləri doktoru, professor R.F.Məmmədov

hüquq elmləri doktoru, professor Ə.İ.Sadıqov

**Səbinə Əliyeva.** Əlillərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının qanunvericiliyinə implementasiyası. Monoqrafiya. Bakı 2019, "Red N Line" NPM, 256 səh.

Hüquq elmləri üzrə fəlsəfə doktoru S.Y.Əliyevanın monoqrafiyasında müvafiq beynəlxalq hüquq normaları və milli qanunvericilik aktları, bu sahədə meydana çıxan fikir müxtəlifliyinin geniş təhlili əsasında əlillərin hüquqlarına dair beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının qanunvericiliyinə implementasiyası ilə bağlı müddəaları müəyyənləşdirmiş, eləcə də mövcud boşluqların aradan qaldırılması məqsədilə beynəlxalq və dövlətdaxili səviyyədə tənzimetməyə ehtiyacı olan istiqamətlər üzrə yeni normaların qəbulu ilə bağlı təklif və tövsiyələr irəli sürmüşdür. Tədqiqatçının təklif və tövsiyələrindən Azərbaycan Respublikasının əlillərin hüquqi statusuna dair normayaradıcılıq fəaliyyətində, bu kateqoriyadan olan şəxslərin hüquqlarının realizəsinə təsir göstərə bilən bir sıra qanunvericilik aktlarının təkmilləşdirilməsində, eləcə də lazımi beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyasında istifadə oluna bilər. Həmçinin monoqrafiyada irəli sürülən təklif və tövsiyələr əlillərin hüquqlarının qorunması və qanuni maraqlarının təmin edilməsi sahəsində dövlət qurumlarının strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bu sahədə islahatların həyata keçirilməsi üçün lazımi elmi-nəzəri mənbə rolunu oynaya bilər. Monoqrafiyanın materialları və müddəaları beynəlxalq hüquqla milli hüquq sisteminin (Azərbaycan Respublikasının milli qanunvericiliyi kontekstində) qarşılıqlı əlaqəsi baxımından gələcək elmi-nəzəri araşdırmalar üçün də əsas baza rolunu oynaya bilər. Eyni zamanda, monoqrafiyadan insan hüquqları, konstitusiya hüququ, əmək hüququ və s. istiqamətlərdə tədris prosesində geniş istifadə oluna bilər.

**ISBN:**

© Səbinə Əliyeva, 2019

# GİRİŞ

Beynəlxalq münasibətlərin durmadan dərinləşməsi və genişlənməsinə, tənzimetməyə ehtiyacı olan ictimai münasibətlərin inkişaf tendensiyasının davamlılığına baxmayaraq, hər bir zaman insan hüquqlarının qorunması və müdafiəsi xüsusi önəm və aktuallıq kəsb etmişdir. Eyni zamanda bu prosesin ümumidən xüsusiyə doğru inkişaf etməsi, habelə ayrı-ayrı subyektiv imkanlar və sosial qruplarla bağlı müxtəlif beynəlxalq sənədlərin qəbulu yarımsahəvi və institusional aspektlərin nəzərdən keçirilməsi zərurətini də meydana çıxartdı. Bu istiqamətdə əlillərin hüquqlarının müdafiəsi mühüm yer tutur. Müasir dövrdə dünya əhalisinin 15%-dən yuxarı hissəsi, yəni 1 mlrd.-dan çox insan məhz əlillikdən əziyyət çəkir ki, onun da 190 mln. nəfərini, yaxud 3,8%-ni "kəskin əlillik" diaqnozu qoyulan şəxslər təşkil edir. [1] Azərbaycan Respublikasında isə ölkə əhalisinin ümumi sayının 6%-ini, yaxud 568149 nəfərini əlillər və sağlamlıq imkanları məhdud şəxslər təşkil edir.[2]

Təcrübə göstərir ki, bu kateqoriyadan olan şəxslər, eyni zamanda cəmiyyətdə bir sıra məhdudiyyət və maneələrlə qarşılaşırlar. Onlara qarşı yönələn məhdudiyyətlər, yaxud yaradılan maneələr *(məsələn, qeyri-münasib norma, standart və siyasətin mövcudluğu, cəmiyyət tərəfindən mənfi münasibət və onların cəmiyyətə inteqrasiyadan məhrum olunması, xidmətlərin çatışmazlığı və daşınma imkanlarının zəifliyi, müyəssərlik problemləri və s.)* nəticədə həmin şəxslər arasında təhsil və əmək hüququnun pozulması kontekstində yoxsulluğun yaranmasına, habelə psixoloji meyarların *(məsələn, depressiya, özünə inamsızlıq, imkanlarının düzgün qiymətləndirilməməsi, özünü cəmiyyətdən təcridetmə və s.)* formalaşmasına gətirib çıxarır. Məhz bu baxımdan, əlillərin müdafiəsinə dair beynəlxalq hüquq normalarının qəbulu və reali-

[1] World Health Organization & The World Bank. World Report on disability. Valetta, 2011, 325 p.
[2] www.udpo.az/category.php?lang=1&content=346

zəsi mühüm əhəmiyyət kəsb edir. XX əsrin 40-cı illərindən başlayaraq davam edən bu proses özünü müxtəlif mərhələlər üzrə büruzə vermişdir. Həmin mərhələlər isə əlillərin hüquqlarının qorunması və müdafiəsi baxımından özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Belə ki, ilkin mərhələ kimi XX əsrin 40-cı illərinin sonundan 70-ci illərin əvvəllərinədək insan hüquqlarının qorunmasına dair beynəlxalq sənədlərdə əlillik, konkret subyektiv imkanların təminatı və tənzimetmə obyekti üçün yalnız bir element qismində çıxış etmişdir. XX əsrin 70-ci illərindən başlayaraq 2006-cı ilə qədər davam edən ikinci mərhələdə qəbul olunan beynəlxalq sənədlərdə əlillərə məxsus spesifik subyektiv imkanlar, eləcə də onlar üçün lazımi şəraitin yaradılmasına dair normalar formalaşdırıldı. "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının qəbulu isə üçüncü mərhələni şərtləndirmişdir. Sözügedən sənəddə öhdəlik xarakterli müddəaların və əlillərin hüquqlarına dair sahəvi rəhbər başlanğıcların təsbit olunması, əlil-qadın və əlil-uşaqların hüquqları və imkanlarının realizəsinin nəzərdə tutulması, habelə nəzarət mexanizminin formalaşdırılması onu kompleks beynəlxalq-hüquqi sənəd kimi qiymətləndirməyə əsas verir.

Bununla yanaşı, insan hüquqlarının müdafiəsinə digər müqavilə normaları *(məsələn, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Yerli xalqların hüquqları haqqında" 2007-ci il Bəyannaməsi, "Texniki və peşə təhsili haqqında" 1989-cu il Konvensiyası və s.)* və mexanizmlərinin *(məsələn, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə, Uşaq Hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə və s.)* rolu da qeyd olunmalıdır. Təsadüfi deyildir ki, dünyada əlillərin 95 milyonu məhz əlil-uşaqların, xüsusilə 14 yaşına qədər olan yeniyetmələrin payına düşür ki, onun da 13 milyonunu kəskin əlilliyi olan uşaqlar təşkil edir.[1] Azərbaycan Respublikasında isə bu göstərici 65482 nəfər, yaxud ümumi əlillərin 12%-dir. Qadın-əlillərin payı

---

[1] World Health Organization & The World Bank. World Report on disability. Valetta, 2011, 325 p.

isə 40%, yaxud 202450 nəfər təşkil edir.[1] Bütün bunlar onu göstərir ki, əlillərin hüquqlarının müdafiəsi təkcə ümumi kontekstdə deyil, həm də ayrı-ayrı qrupların müdafiəsi baxımından qiymətləndirilməlidir.

Bundan başqa, istər təcrübədə, istərsə də digərləri ilə ünsiyyət və cəmiyyətə inteqrasiya prosesində əlillər həm də ayrı-seçkiliyin qurbanları qismində çıxış edir. Bununla da bir sıra hallarda cəmiyyətin onlara qarşı antipatiyası və ayrı-seçkilik xarakterli fərqli münasibəti *(yəni“ableizm” faktorlarının meydana çıxması)*, eləcə də bu kateqoriyadan olan şəxslərin rüsvayçılıq, qorxu, təəssüf, tənə kimi alçaldıcı hərəkətlərin obyektinə çevrilməsi ehtimalı daha da güclənir.[2] Digər tərəfdən, əlillərin öz daxilində də ayrı-seçkilik hallarının, xüsusilə gender bərabərsizliyinin olması, əlil-qadınların cəmiyyətin daha çox “hüquqsuz və passiv” iştirakçısına çevrilməsinə gətirib çıxarır. Ümumiyyətlə, əlillik meyarına görə ayrı-seçkiliyin qadağan olunması beynəlxalq hüquq normalarında özünü həm birbaşa *(məsələn, BMT Baş Məclisinin 1991-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş “Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasına dair Prinsiplər”, “Əlillərin hüquqları haqqında” 2006-cı il BMT Konvensiyası, “Əsas hüquqlar haqqında” 2001-ci il Aİ Xartiyası və s.)*, həm də dolayısı yolla büruzə verir. Sonuncu hala daha çox insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilə mexanizmlərinin sənədlərində, yaxud beynəlxalq məhkəmə praktikasında rast gəlmək mümkündür. Nümunə qismində İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin “Əlilliyi olan şəxslər haqqında” 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəyi, Uşaq Hüquqları Komitəsinin “Əlilliyi olan uşaqların hüquqlarına dair” 2006-cı il tarixli 9 nömrəli Ümumi Rəyi, eləcə də AİHM-in təcrübəsi *(məsələn, Pretty Birləşmiş Krallığa qarşı” (2002), “Çam Türkiyəyə qarşı” (2016), “Quberina Xorvatiyaya qarşı”, “Glor*

[1] www.udpo.az/category.php?lang=1&content=346

[2] Rauscher L., McClintock M. Ableism curriculum design / Teaching for diversity and social justice. A Sourcebook. Edited by M.Adams, L.A.Bell, P.Griffin. New-York: Psychology Press, 1997, pp. 198-229

*İsveçrəyə qarşı" (2009), "İB Yunanıstana qarşı" (2013) və s.)* göstərilə bilər.

Azərbaycan Respublikasında isə əlillərin hüquqlarının qorunması sahəsində sahəvi qanunvericilik aktı və hüquqi tənzimətmə vasitəsi 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun sayılır. Bundan əlavə, əlillərin ayrı-ayrı subyektiv imkanlarını nizama salan dövlətdaxili qanunvericilik aktları da mövcuddur. Nümunə qismində "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" 5 iyun 2001-ci il tarixli Qanununu göstərmək olar. Həmçinin ayrı-ayrı ictimai münasibətlərin tənzimlənməsi sahəsində qəbul olunan çoxsaylı dövlət proqramları bu və ya digər mənada əlillərin müdafiəsinə dair normaları ehtiva etməklə, həm qanunvericilikdə olan boşluqların aradan qaldırılmasına, həm də bu kateqoriya şəxslərin müdafiəsinin müasir dövrün tələbləri ilə uyğunlaşdırılmasına xidmət edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiyaedici və inklüziv təhsil proqramlarının tətbiq edilməsi, onların bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, informasiya əldə etmək imkanlarının artırılması və cəmiyyətdən təcrid olunmasının qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi ilə bağlı müddəalar təsbit olunmuşdur. Ölkə Başçısının 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda isə bu şəxslərlə bağlı tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanması (bənd 2.8), eləcə də YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif təbəqələri (o cümlədən, əlillər) üçün hüquqi

maarifləndirmə sahəsində təlimçilərin hazırlanmasına (bənd 4.8) dair normalar öz əksini tapmışdır. Eyni zamanda dövlətimiz "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasına özünün 2 oktyabr 2008-ci il tarixli Qanunu ilə qoşulmuşdur.

Beləliklə, əlillərin müdafiəsinin vacibliyini və beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyasının əhəmiyyətini nəzərə alaraq, bu sahədə elmi araşdırmanın aparılmasının zəruriliyini və bu mövzunun aktuallığını bir sıra meyarlarla əlaqələndirmək olar. *Birincisi,* əlillərin müdafiəsi təkcə hüquqi tənzimetmənin obyekti deyil, həm də sosial, psixoloji, antropoloji amillərin məcmusu kontekstində nəzərdə keçirilməlidir. Yəni məsələyə yekcins baxımdan deyil, kompleks yanaşmaq vacibdir. *İkincisi,* əlillər, eyni zamanda ayrı-seçkiliyin subyekti qismində çıxış edirlər. Burada söhbət təkcə birbaşa şəkildə əlillik meyarına görə ayrı-seçkiliyin qadağan olunmasını deyil, həmçinin güman olunan ayrı-seçkilikdən gedir. Sonuncu isə daha çox insan hüquqlarının müdafiəsinə dair nəzarət mexanizmlərinin fəaliyyətində təzahür edir. *Üçüncüsü,* əlillərin hüquqlarının təminatı zamanı sahəvi rəhbər başlanğıcların nəzərə alınması vacibdir. Həmin prinsiplərin hüquqi mənbəyi qismində "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası çıxış edir. Bu prinsiplər beynəlxalq hüququn ümumtanınmış prinsipləri (xüsusilə, əsas insan hüquq və azadlıqlarına hörmət olunması, dövlətlərin əməkdaşlığı, beynəlxalq öhdəliklərin vicdanla icrası) əsasında realizə olunmaqla, əlillərin hüquqlarına və mənafelərinə toxunan digər normalarla qarşılıqlı əlaqədə götürülməlidir. *Dördüncüsü,* əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və qorunması təkcə sahəvi beynəlxalq sənədlər, yaxud təşkilati mexanizmlər tərəfindən həyata keçirilmir. Burada həm də insan hüquqlarının digər yarımsahə və institutlarını təşkil edən hüquqi normaların və institusional fəaliyyətin rolunu da nəzərə almaq lazımdır. Çünki ayrı-ayrı sosial qruplara (məsələn, qadınlar, uşaqlar, qaçqınlar, ahıllar, yerli xalqlar, miqrantlar, milli azlıqlar və s.) mənsub əlillərin hüquqlarının qorunması və müdafiəsi həm də bu qrupların hüquqlarına dair münasibətlərin tənzimlənməsi ilə sıx qarşılıqlı əlaqəyə ma-

likdir. *Beşincisi*, əlillərin hüquqlarına dair dövlətdaxili səviyyədə, o cümlədən Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər (qanunvericilik, təşkilati, xüsusi və s.) tədqiqatın mühüm hissəsini təşkil edir. Bu, bir tərəfdən əlillərin müdafiəsi ilə bağlı beynəlxalq öhdəliklərin nəzərə alınması və icrası, digər tərəfdən isə insan hüquqları və əsas azadlıqlarının qorunmasının mühümlüyü ilə əlaqədardır. Eyni zamanda əlillərin maddi-sosial təminatı, peşə hazırlığı, inkluziv təhsilin inkişafı, əlillər arasında gender bərabərliyinin təmini və digər ümdə vəzifələrin həyata keçirilməsi də mütləq şəkildə nəzərə alınmalıdır. *Altıncısı*, əlillərin müdafiəsi ilə bağlı istər beynəlxalq sənədlərdə, istərsə də dövlətdaxili qanunvericilik aktlarında mövcud olan boşluqların aşkar olunması və təhlili, habelə bunların aradan qaldırılmasına dair tövsiyə və təkliflərin verilməsi elmi-nəzəri, praktiki və qanunvericilik baxımından mühüm əhəmiyyət kəsb edir. *Yeddincisi*, yuxarıda qeyd olunan hallar təkcə əlillərlə bağlı tənzimetmə mexanizmi və elmi-nəzəri müddəalar çərçivəsində deyil, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi kontekstində nəzərdən keçirilməlidir.

Həmçinin onu da nəzərə almaq lazımdır ki, Azərbaycan hüquq elmində əlillərin hüquqlarının müdafiəsi məsələsi hal-hazıradək kompleks şəkildə tədqiq olunmamışdır. Bu və ya digər dərəcədə həmin şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı məsələlərin yalnız bir sıra aspektlərinin beynəlxalq hüquq (L.H.Hüseynov və b.), konstitusiya hüququ (Z.A.Əsgərov və b.), əmək və sosial təminat hüququ (M.N.Əliyev, K.T.Hüseynova, Ə.Ə.Mustafayeva, K.Z.Əliyeva və b.), insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin müxtəlif aspektləri – əcnəbilər hüququ (Ə.İ.Əliyev), sosial hüquqların müdafiəsi (Ş.İ.Əliyev, G.C.Nuriyeva və b.), məişət zorakılığına qarşı mübarizə və qadın hüquqları (N.M.Fərziyeva, G.R.Ələsgərova), uşaq hüquqları (N.A.Adilov), insan hüquqları sahəsində beynəlxalq normaların realizəsində Ombudsmanın rolu (S.İ.Abdullayeva) barədə həyata keçirilən elmi-tədqiqatlar çərçivəsində araşdırılmasını və bunların əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır.

Monoqrafiyanı hazırlayarkən müəllif Adilov N.A., Əliyev Ə.İ., Əliyev M.N., Həsənzadə S.B., Hüseynov L.H., Mehdiyev R.Ə., Məmmədov F.T., Musayev A.F., Rəcəbli H.M., Rzayev Ə.H., Aqeeva A.V., Amiridze S.P., Arqunova T.P., Qaşina N.N., Donkan İ.M., Equpova M.A., Javoronkov R.N., Kalinin A.M., Kulaqina E.V., Kuzmin V.P., Maliçenko V.S., Moldovan A.A., Polenov B.V., Fitisov A.V., Çeçelaşvili V., Şoxina E.A., Allan M., Altman B., Bueren G.V., Davis L.J., Doebber C.F., Harris D., Hendriks A., King J., Levav İ., Lord J., Morsink J., Rimmerman A., Sano R., Skotç İ.K., Steyn M.A., Stone D.A., Suzor N., Yellin E., Ziv N. və digər tanınmış alimlərin əsərlərinə istinad etmişdir.

Bundan əlavə, insan hüquqlarına dair çoxsaylı beynəlxalq sənədlər, beynəlxalq təşkilatların aktları, insan hüquqları müdafiəsi sahəsində ayrı-ayrı nəzarət mexanizmlərinin – İnsan Hüquqları Komitəsi, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə, Uşaq hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə, Avropa İnsan Hüquqları Məhkəməsi, Sosial Hüquqlar üzrə Avropa Komitəsi, İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının qərarları, Ümumdünya Səhiyyə Təşkilatının hesabat və tövsiyələri, habelə bu sahədə AR və çoxsaylı xarici ölkələrin qanunvericilik aktlarının müxtəlif müddəaları qarşılıqlı və müqayisəli əsaslarla geniş şəkildə təhlil olunmuşdur. Eyni zamanda, sahəvi nəzarət mexanizmi kimi Əlillərin hüquqları üzrə Komitənin müvafiq məsələlərlə bağlı ölkəmizdə keçirdiyi monitorinq, eləcə də bu monitorinq nəticəsində sözügedən qurum tərəfindən verilən təklif və tövsiyələr nəzərdən keçirilmişdir.

# I FƏSİL

# ƏLİLLƏRİN HÜQUQLARININ BEYNƏLXALQ-HÜQUQİ MÜDAFİƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ MÜHÜM İSTİQAMƏTLƏRİ: NƏZƏRİ VƏ PRAKTİKİ TƏNZİMETMƏ MEYİLLƏRİNİN TƏHLİLİ

## 1.1. “Əlil” və “əlillik” anlayışları əlillərin hüquqlarının qorunmasının əsas meyarı kimi: elmi-nəzəri araşdırmaların və hüquq normalarının müqayisəli analizi

Müasir beynəlxalq hüquqda və əksər dövlətlərin qanunvericiliyində insan hüquqlarının qorunması ümdə vəzifə olaraq istər cəmiyyətin və dövlət orqanlarının, istərsə də beynəlxalq təşkilatların qarşısında durur. Son onilliklər isə insan hüquqlarının qorunması və müdafiəsi sahəsində meydana çıxan yeni meyarlar, xüsusilə ayrı-ayrı sosial qruplara mənsub şəxslərin (qadınlar, uşaqlar, əlillər və s.) müdafiəsi daha çox müzakirə və tənzimetmə obyekti olaraq qalmaqdadır. Məhz bu baxımdan, əlillərin hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan şəxslərin hüquqlarının lazımınca qiymətləndirilməsi üçün, ilk növbədə, bir sıra anlayışlarının mahiyyət və məzmununun aşkar olunması zəruridir. “Əlil” və “əlillik” anlayışlarının tərifinin və məzmunun müəyyənləşdirilməsi də bu baxımdan əsas rola malikdir.

Aparılan elmi araşdırmalarda “əlil” və “əlillik” terminləri müxtəlif baxımdan izah olunur. Belə ki, bəzi müəlliflərin fikrincə, əlilliyi “pozulmuş vəziyyət” anlayışı ilə əvəz etmək, əlil terminini isə fərqli fiziki, psixi və digər vəziyyətlərə malik şəxs kimi ifadə etmək daha düzgün olardı.[1] “Əlillik” kateqoriyasına sosial baxımdan yanaşan digər qrup alimlər isə sözügedən terminlə

[1] Кузьмин В.П., Степашов Н.С. Регуляция жизненных затруднений незрячего населения. Курск: “Курский государственный медицинский университет”, 2004, 160 с.

bağlı aşağıdakı məsələləri önə çəkməyi vacib hesab edirlər:

1) Sosial münasibətlər sistemində yeri baxımından, əsas elementlər kimi fəaliyyət qabiliyyəti (yəni məhdud fəaliyyət qabiliyyəti), fəaliyyət imkanı və fəaliyyət hüququ tam qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir.

2) İctimai münasibətlər sistemində tutduğu mövqedən asılı olaraq, ardıcıl mərhələ formasında çatışmazlıq, reabilitasiya, uyğunlaşma, inteqrasiya dövrü fərqləndirilir.

3) Əmək münasibətləri sistemində yeri nöqteyi-nəzərindən, əlillik aşağıdakı mərhələlərin mövcudluğunu özündə ehtiva edir: əməyə uyğunlaşmanın qeyri-mümkünlüyü → peşəkar reabilitasiya → yeni əmək potensialının qazanılması → işə düzəlmə → uyğun iş → işədüzəlmənin nəticələrinin uğurla nəticələnməsi.[1]

Qeyd olunan fikirlə bağlı belə bir nəticəyə gəlmək olar ki, sosial baxımdan əlillik son nəticədə müsbət meyillərin formalaşması ilə nəticələnməlidir. Lakin bunu bütün əlillərə aid etmək mümkün deyildir. Bu, anadangəlmə qüsurlara malik olan şəxslərə, xüsusilə əqli qüsurları olan şəxslərə münasibətdə xüsusilə qeyd olunmalıdır.

Sosial mühitə uyğunlaşmanın tam və ya qismən zəifləməsi ilə xarakterizə olunan sosial çatışmazlığa və həyat fəaliyyətinin məhdudlaşmasına malik olan, eləcə də orqanizmin funksiyalarının davamlı pozulması nəticəsində sağlamlığı pozulan, habelə sosial müdafiəyə ehtiyacı olan şəxsləri "əlil" kateqoriyasına aid edən tədqiqatçılar bu anlayışı xarakterizə edən xüsusiyyətlər qismində aşağıdakı əlamətləri göstərirlər:

a) sağlamlığın pozulması (zaman etibarilə uzun müddətə davam etməsi və özünü ciddi şəkildə büruzə verməklə xarakterizə olunan, orqanizmin psixi, fizioloji və ya anatomik strukturunun, yaxud funksiyalarının itirilməsi və ya anomaliyası);

b) cəmiyyətin digər üzvləri tərəfindən əlilə qarşı ayrı-seçki-

---

[1] Фитисов А.В. Трудовая деятельность инвалидов как фактор их социализации и интеграции в обществе. Автореферат диссертации на соискание ученой степени кандидата социологических наук. Ставрополь, 2013, 24 с.

lik və sosial istisna formasında, eləcə də, nəticə etibarilə, şəxsin sosial çatışmazlığı ilə bu mühitə cavab reaksiyasına gətirib çıxaran, ətraf sosial mühitə, o cümlədən sosial yaşayış və sosial mühitə uyğunlaşmanın tam və ya qismən aşağı səviyyədə olması;

c) müvafiq yaş həddində olan insan üçün normal hesab olunan çərçivədə fəaliyyət vasitələrini (o cümlədən əmək) həyata keçirmək imkanlarının istənilən halda məhdudlaşdırılması və ya olmaması ilə xarakterizə olunan həyat fəaliyyətinin məhdudlaşması;

ç) şəxsə sosial müdafiə tədbirlərinin tətbiq olunmasının zəruriliyi.[1]

Elmi-nəzəri müddəalarda, xüsusilə sosial təminat məsələlərinin araşdırılmasına xüsusi önəm verilən ədəbiyyatlarda qeyd olunur ki, "əlillik" və ya "əlil" anlayışlarına yanaşmalar özünü üç formada büruzə verir: 1) adi; 2) normativ-hüquqi; 3) nəzəri (bu daha çox elmi əsərlərdə xəstəliyin modellərinin və onların təsnifatının müəyyənləşdirilməsi ilə xarakterizə olunur).[2]

Əlillərin hüquqları ilə bağlı məsələləri təhlil edən bəzi müəlliflər (məsələn, T.A.Lıxina və s.) hesab edirlər ki, beynəlxalq hüquq normalarının təhlili nəticəsində "əlillik" kateqoriyasının beynəlxalq-hüquqi anlayışının strukturunun və tərkib elementlərinin dəyişdirilərək, bu terminin "sağlamlığın fərdi qaydada pozulmasının sosial xarakteristikası" anlayışı ilə əvəzlənməsi məqsədəmüvafiq olardı. Bununla əlaqədar, müasir beynəlxalq hüquqda əlilliyi xarakterizə edən əlamətlər qismində aşağıdakı tərkib elementlərinin mövcudluğu ideyası irəli sürülür:

- Sağlamlığın pozulması;
- Mühit və münasibətlər baxımından müəyyən maneələrin mövcudluğu;
- Sağlamlığın pozulması ilə əlillərin cəmiyyətə inteqrasi-

---

[1] Ясырева И.Н. Право социального обеспечения о комплексной реабилитации инвалидов. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Пермь, 2007, 22 с.

[2] Аракчеев В.С. Пенсионное право России. СПб.: Изд–во «Юридический центр Пресс», 2003, 349 с.

yası və onlar tərəfindən müxtəlif növ insan hüquqlarının effektiv həyata keçirilməsinə mane olan maneələrin qarşılıqlı əlaqəsi arasındakı vəziyyət.[1]

S.B.Həsənzadə hesab edir ki, insan üçün normal hesab olunan şərtlərlə və şəraitdə bu və ya digər fəaliyyəti həyata keçirmək qabiliyyətinin anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və fiziki qüsurlar nəticəsində baş verən həyat fəaliyyətinin məhdudlaşması nəticəsində tamamilə və ya əhəmiyyətli dərəcədə itirilməsi əlillik hesab olunur.[2] Hüquq ensiklopedik lüğətlərdə isə "əlillik" xəstəlik, yaxud şikəstlik nəticəsində öz peşəsi və ya ixtisası üzrə əmək qabiliyyətinin həmişəlik və ya uzun müddətə tam və ya qismən itirilməsi, "əlil" isə fiziki və ya psixi xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs kimi xarakterizə olunur.[3]

Elmi ədəbiyyatlarda və aparılan araşdırmalarda, habelə müvafiq beynəlxalq sənədlərdə və dünya dövlətlərinin qanunvericilik aktlarında təsbit olunmuş "əlil" və "əlillik" anlayışlarının məzmununun daha düzgün və dəqiq şəkildə müəyyənləşdirilməsi məqsədilə əlilliyin modelləri və onların təsnifatından geniş şəkildə istifadə olunur. Bütövlükdə isə elmi-nəzəri ədəbiyyatlarda əlilliyin aşağıdakı modellərinin adı çəkilir:

- **Tibbi model.** Sözügedən model qüsurların meydana çıxması ilə özünü büruzə verir ki, bu da son nəticədə məhdudiyyətlərin yaranmasına gətirib çıxarır. Buna görə də şəxs müalicə olunmaqla və tibbi müdaxilə həyata keçirilməklə, həmin qüsurları aradan qaldırır və cəmiyyət içərisində "normallaşma" dövrünə qədəm qoyur. Yəni qarşıya çıxan bu problem sosial baxımdan

[1] Лыхина Т.А. Права инвалидов: проблемы международно-правового регулирования и международные обязательства Российской Федерации. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. СПб., 2011, 28 с.

[2] Həsənzadə S.B. Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsinin hüquqi təminatları. Bakı: "Elm" nəşriyyatı, 2006, 150 s.

[3] Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı: "Qanun nəşriyyatı", 2007, 1108 s.

şərtlənən maneələr olmadan fərdi xarakterə malikdir.[1]

**- Xeyriyyə/rifah modeli.** Tibbi modelə cavab tədbiri olaraq sosial təminatla bağlı yanaşmalar əsasında insanlara yardım göstərilməsinə istiqamətlənmişdir.

**- Sosial model.** Təhlil olunan modelə uyğun olaraq, əlillik fərdi qüsurlarla deyil, əlillərin cəmiyyətdən təcrid olunduğu və ya istisna edildiyi sosial sistemlər vasitəsilə müəyyən olunur. Onu da qeyd etmək lazımdır ki, insan hüquqlarının müdafiəsinə dair qəbul olunmuş beynəlxalq sənədlərə əsasən, sosial model bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərini özündə birləşdirir. Yəni bu model əlillərin cəmiyyətdə iştirakına mane olan halları onların çatışmazlığı ilə əlaqələndirən və uzun illər mövcud olan ideyanı inkar etməklə, burada əsas diqqəti ətraf mühitdə meydana çıxan maneələr üzərində qurmuşdur. Həmin maneələrə isə aşağıdakılar aid edilir: 1) lazımi qədər qiymət verilməməsinə gətirib çıxaran mövcud münasibət və rəy; 2) yerli və milli hökumət qurumlarının siyasəti, təcrübəsi və prosedurları; 3) səhiyyə, sosial təminat və təhsil sistemlərinin strukturu; 4) əhalinin qalan hissəsinin istifadə etdiyi binalara, nəqliyyat vasitələrinə, habelə digər ictimai resurslara çıxış imkanlarının məhdudlaşdırılması və ya ümumiyyətlə mövcud olmaması; 5) yoxsulluğun, eləcə də əlilliyi olan şəxslərin və onların ailə üzvlərinin tam və ya qismən cəmiyyətdən təcrid olunması.[2]

**- Formalaşma konsepsiyası.** Bu konsepsiya qlobal sosial təzahür forması sayılan aidiyyəti qurumlarda sosial dinamikanın əldə edilməsini nəzərdə tutur. Yəni əlilliyin qarşısının alınması siyasəti ilə məhdudiyyətlərin aradan qaldırılması siyasəti arasında körpü salacaq vasitə sayılır.

---

[1] Altman B. Disability Definitions, Models, Classification Schemes, and Applications / Handbook of Disability Studies. Edited by G.L.Albredht, K.D.Seelman, M.Bury. Thousand Oaks, CA: Sage Publications, 2001, pp. 97-122.
Amundson R. Disability, Handicap, and the Environment // Journal of Social Philosophy, 1992, Vol. 23, Issue 1, pp. 105-119.

[2] Promoting the Rights of Children with Disabilities. Innocenti Digest No. 13. Florence, The United Nations Children's Fund (UNICEF), 2007, 70 p.

- **İnsan müxtəlifliyi modeli.** Sözügedən modelə əsasən, əlilliyi olan şəxslərin üzləşdiyi problemlərin əksəriyyəti qəsdən həyata keçirilən istisnalar kimi deyil, həmin şəxslərin xarakteri ilə onların fiziki və sosial mühit arasında uyğunsuzluğun mövcudluğu ilə xarakterizə olunur. Məhz bu baxımdan, təhlil olunan modelə əsasən, "əlillik" sosial institutların nəzərdə tutulan qaydada reaksiya verməklə bağlı cari imkanlarından *(burada potensial imkanların nəzərə alınmasından söhbət gedə bilməz – kurs. müəl.)* kənarda olmaqla, fiziki və psixi əlamətlərin dəyişilməsinin genişlənmə tendensiyası kimi izah olunur.[1] Bununla əlaqədar, bəzi ədəbiyyatlarda əlilliyi olan şəxslər universal vahid şərt kimi əlilliklə [2], digər araşdırmalarda isə ümumi insan şəxsiyyəti[3] ilə əlaqələndirilir.

- **Biopsixo-sosial konsepsiya.** Qeyd olunan modeldə "əlillik" kateqoriyası insanın daxili və özünəməxsus xüsusiyyətləri ilə onun fiziki, bədən quruluşu, davranış və sosial-siyasi mühiti ilə qarşılıqlı əlaqəsinin nəticələrini özündə ehtiva edən çoxplanlı anlayış qismində nəzərdən keçirilir. Başqa sözlə, bu konsepsiya tibbi və sosial modellərin inteqrasiyası, vahid nöqtədə birləşməsi və qarşılıqlı əlaqəsi sayılır. Bu konsepsiya Ümumdünya Səhiyyə Təşkilatının əlillik və sağlamlığın qorunması ilə bağlı normayaradıcılıq fəaliyyətinə əsaslanır.[4]

Qeyd olunanlarla yanaşı, aparılan elmi araşdırmalarda əlillklə bağlı digər modellərin mövcudluğuna da rast gəlmək mümkündür. Belə ki, əlilliyi insanın qüsuru və ya çatışmazlığı (yəni sağlamlığın pozulması, əmək qabiliyyətinin itirilməsi və s.) kimi ifadə edən *mərkəzi - şəxsiyyət modeli*, əlilliyi insanın sağlamlığı-

---

[1] Scotch R.K., Schriner K. Disability as Human Variation: Implications for Policy // The Annals of the American Academy of Political and Social Science, 1997, No 549 (1), pp. 148-159.

[2] Zola I.K. Toward the necessary universalizing of a disability policy // The Milbank Memorial Fund Quarterly, 1989, No 67, Issue S3, pp. 401-428

[3] Davis L.J. Bending over Backwards: disability, dismodernism and other difficult positions. New York: New York University Press, 2002, 200 p.

[4] International Classification of Functioning, Disability and Health. Geneva: World Health Organization, 2001, 25 p.

nın pozulması ilə onun sosial mühitə uyğunlaşmasının qarşılıqlı əlaqəsi qismində ifadə edən *mərkəzi - əhali modeli* buna bariz nümunədir. Eyni zamanda yuxarıda göstərilən hər iki modelə dair səciyyəvi xüsusiyyətləri özündə birləşdirən, habelə əlilin cəmiyyətə inteqrasiyasının ikitərəfli xarakterə malik olmasını, yəni həm əlilin, həm də cəmiyyətin dəyişdirilməsinin vacibliyini zəruri hesab edən *qarışıq modelin* də adı çəkilir.[1]

Bir sıra hallarda aparılan araşdırmalarda əlilliyin modelləri fərqli kontekstdə, fəlsəfi və sosioloji yanaşmalar baxımından nəzərdən keçirilir. Belə ki, həmin modellərdə əlilin xəstəlik meyarından tutmuş onun cəmiyyətə inteqrasiyası və inkişafınadək olan mərhələnin bütün aspektləri öz əksini tapmışdır:

a) əlillərə xəstə insan kimi yanaşan və onları müalicənin obyekti kimi nəzərdən keçirən "xəstə insan" modeli;

b) qeyri-məqbul həyat tərzinin formalaşdırılması və qeyri-humanist rəftar nəticəsində əlilləri dəyər verilməyən varlıq kimi qeyd edən, eləcə də onun ətraf mühitlə qarşılıqlı əlaqəsinə süni maneələrin yaradılmasını özündə ehtiva edən "qeyri-insani" model.

c) əlillərin bir sıra kateqoriyalarını (əqli geriliyi olan insanlar, eşitmə qabiliyyəti olmayan şəxslər, psixi qüsurları olan şəxslər və s.) cəmiyyətə və onun inkişafına təhlükə yaradan qrup hesab edən "cəmiyyətə təhlükə" modeli. Bu modelin tərəfdarlarının fikrincə, potensial təhlükə mənbəyi kimi həmin əlilləri təcrid olunmuş ərazidə ciddi rejimdə və xüsusi nəzarət altında saxlamaq məqsədəmüvafiqdir.

d) "mərhəmət obyekti" modeli. Bu modelin irəli sürdüyü konsepsiyaya uyğun olaraq, fərdin əlilliyi onun şəxsiyyətinin inkişafına və özünürealizə cəhdlərinə dağıdıcı təsir göstərir. Yəni bu modelin tərəfdarlarının fikrincə, müəyyən qüsurları olan insana hər zaman yetkinlik yaşına çatmayan şəxs kimi yanaşmaq, onu

---

[1] Жаворонков Р.Н. Правовое регулирование труда и социального обеспечения инвалидов в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. докт. юрид. наук. Москва, 2014, 54 с.

cəmiyyətdən ayırmaqla mənfi elementli mühitdən müdafiə etmək lazımdır. Sözügedən model əlillər üçün münasib yaşayış mühitinin yaradılmasını məqbul hesab etsə də, onların təhsili və inkişafına dəstək göstərilməsini düzgün hesab etmir.

e) əlillərə göstərilən yardımları ixtisar etmək yolu ilə, onlara münasibətdə iqtisadi yükün azaldılmasını nəzərdə tutan "xüsusi xeyriyyəçilik obyekti" modeli;

f) imkanları məhdud şəxslərin təhsil və inkişafa cəlb olunmasının tərəfdarı olan, habelə bu kateqoriyadan olan şəxslərin digər insanlarla bərabər hüquqlar (yaşamaq hüququ, təhsil hüququ, mənsub olduğu və ya yaşadığı yerdə əmək hüququ, öz evində yaşamaq hüququ, dostlar seçmək hüququ, olduğu kimi qəbul edilmək hüququ və s.) daşımasını vurğulayan "inkişaf" modeli.[1]

"Əlillik" termininin elmi baxımdan araşdırılmasından başqa, həm də onun hüquq normalarında öz əksini tapmasına da diqqət yetirmək lazımdır. Çünki hər bir nəzəri fikir sonda praktiki fəaliyyətdə, xüsusilə normayaradıcılıq prosesində özünü büruzə verməli və həyata keçirilməlidir. Məhz bu baxımdan, əlillərin hüquqlarının qorunması sahəsində qəbul olunmuş beynəlxalq sənədlər mühüm əhəmiyyət kəsb edir. Belə ki, əlillər də daxil olmaqla, insan hüquqlarının müdafiəsinə dair beynəlxalq sənədlərdə təsbit olunmuş müddəalar təkcə fərdlərə məxsus subyektiv imkanları özündə ehtiva etmir, həmçinin insan hüquqlarının qorunması, müdafiəsi və yerinə yetirilməsinə dair dövlətlərin öhdəliklərini ifadə edir. Yəni ayrı-ayrı insan hüquqları, eləcə də müxtəlif kateqoriya sosial qruplara mənsub subyektiv imkanların təsbit olunması dolayısı ilə dövlətlərə yönəlmiş öhdəlik sayılmalıdır. Şübhəsiz ki, əlillərin hüquqlarının müdafiəsinə dair beynəlxalq sənədlər də istisnalıq təşkil etmir.

Təhlil olunan terminlərin tərifinə gəldikdə isə bu barədə, ilk növbədə, "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Kon-

[1] Амиридзе С.П. Лица с ограниченными возможностями здоровья: нравственно ли в обществе отношение к ним? // Научные исследования в образовании (Приложение к журналу «Профессиональное образование. Столица»), 2011, № 5, с. 20-23

vensiyasının adını çəkmək lazımdır. Belə ki, qeyd olunan beynəlxalq-hüquqi sənədə uyğun olaraq, əlil dedikdə, müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya ruhi pozuntuları olan insanlar başa düşülür. Bundan əlavə, Konvensiyada əlilliyin konkret növləri ilə bağlı olaraq bir sıra digər terminlərin (ünsiyyət, dil, şüurlu uyğunlaşma, universal dizayn), eləcə də bu kateqoriya şəxslərə qarşı ayrı-seçkiliyin qadağan olunması ilə bağlı müddəanın əsasını təşkil edəcək "əlillik əlamətinə görə ayrı-seçkilik" termininin anlayışı verilmişdir.

Eyni zamanda 2006-cı il Konvensiyasının tətbiqinin travma və xəstəliklərlə bağlı meydana çıxan qısamüddətli pozuntularla əlaqədar şəxslərə, eləcə də epizodik şəraitdə (məsələn, affekt vəziyyətində səhhətdə yaranan problemlər, astma və s.) sağlamlığı pozulan şəxslərə münasibətdə şamil olunması mümkündür. Bununla əlaqədar qeyd etmək lazımdır ki, sözügedən beynəlxalq sənədin 1-ci maddəsinin 1-ci bəndində konvensiyanın məqsədi bütün əlillərin hüquqları və əsas azadlıqlarının tam və bərabər şəkildə həyata keçirilməsinin təşviqi, müdafiəsi və təmin olunmasına yönəlmişdir. Məhz bu baxımdan bəzi müəlliflər tərəfindən 2006-cı il Konvensiyasında "əlillik" termini anlayışının "təkamül konsepsiyası"na əsaslanması ideyası irəli sürülür.[1]

"Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyasının 23-cü maddəsi isə "əqli və fiziki çatışmazlıq" ifadə formasına əsaslanmaqla, uşaqların əlilliyini bu meyarlarla əlaqələndirir. Qeyd olunan müddəa əlillik kateqoriyası almış uşaqların xüsusi ehtiyaclarının təmin olunması ilə əlaqədar ayrıca qulluq göstərilməsinin təmin edilməsinə yönəlmiş bir sıra öhdəlikləri müəyyən edir.[2]

Həmçinin "Əlillərin hüquqları haqqında" 1975-ci il BMT

---

[1] Seatzu F. The United Nations Convention on the Rights of Persons with Disabilities: the fundamental principles // Human rights and international law, 2008, No 3, pp. 534-559

[2] Shrivastava R. International Encyclopedia of women rights and children rights. Volume 2. New-Delhi: Mehra Offset Press, 2009, 601 p.

Bəyannaməsinin 1-ci bəndinə uyğun olaraq, anadangəlmə və ya digər fiziki yaxud əqli imkanlarında çatışmazlıqların mövcudluğu səbəbindən normal şəxsi və/və ya sosial həyat ehtiyaclarını müstəqil şəkildə tam, yaxud qismən ödəyə bilməyən şəxslər əlil kateqoriyasına şamil edilir.

BMT-nin əsas orqanlarından başqa, onun ixtisaslaşmış təsisatları da əlillərin hüquqlarının qorunması sahəsində özünəməxsus rol oynayır. Həmin təsisatlar içərisində isə Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fəaliyyəti xüsusilə seçilməkdədir. Məsələn, BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının 1-ci maddəsinə əsasən, fiziki və ya psixi çatışmazlıqları ilə əlaqədar iş əldə etmək, münasib işi saxlamaq və xidmət üzrə irəli çəkilmək imkanları məhdudlaşan şəxslər əlil kateqoriyasına şamil edilir. Eyni zamanda BƏT-in 2002-ci il tarixli "İş yerlərində əlilliyin idarə olunmasına dair Praktiki Məcəllə"sində fiziki, ruhi, intellektual və ya əqli çatışmazlığının tanınması nəticəsində müvafiq qaydada işlə təmin olunması, işə qaytarılması, iş yerinin saxlanması, habelə vəzifədə irəli çəkilməsi imkanları əhəmiyyətli dərəcədə azalan şəxslərin əlil hesab olunmasına dair müddəa mövcuddur.[1] ÜST-nin 1980-ci ildən etibarən müəyyən etdiyi anlayışa əsasən, "əlillik" insan üçün normal hesab olunan çərçivədə və ya qaydada nəzərdə tutulan fəaliyyəti həyata keçirmək (hər hansı çatışmazlıq nəticəsində) qabiliyyətinin olmaması, yaxud bununla bağlı məhdudiyyətlərin mövcudluğu kimi xarakterizə olunmuşdur.[2]

"Əlillik" və "əlil" anlayışlarının müəyyənləşdirilməsində regional beynəlxalq sənədlər də əhəmiyyətli rola malikdir. Nümunə qismində, 1999-cu il tarixli "Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Amerikaarası Konvensiyanı göstərmək olar ki, həmin beynəlxalq sənədin 1-ci

---

[1] Arthur O'Reilly. The right to decent work of persons with disabilities. Revised edition. Geneva: International Labour Office, 2007, 151 p.

[2] Allan M. Disability Tourism: Why do Disabled People Engaging in Tourism Activities? // European Journal of Social Sciences, 2013, Vol. 39, No 3, pp. 480-486

maddəsində "əlillik" termini gündəlik həyatın bir və ya bir neçə zəruri fəaliyyətini həyata keçirmək imkanını daimi və ya müvəqqəti olaraq məhdudlaşdıran, habelə iqtisadi və ya sosial mühitin doğurduğu, yaxud ağırlaşdırdığı fiziki, əqli və ya ruhi qüsurları ifadə edən termin kimi göstərilmişdir.[1] Avropa Şurasının Parlament Assambleyasının 1992-ci il tarixli 1185 nömrəli "Əlillərin reabilitasiyasına dair siyasət üzrə" Tövsiyəsində isə əlilliyi olan şəxslərin üzləşdikləri maneələr xüsusilə vurğulanmışdır. Belə ki, qeyd olunan sənəddə nəzərdə tutulan anlayışa əsasən, əlillik dedikdə, bütün insanların normal halda malik olduğu ailə həyatında və cəmiyyətdə əlillərin iştirakına əngəl törədə bilən fiziki, psixoloji, ruhi, sosial, mədəni, hüquqi və digər maneələrlə şərtlənən məhdudiyyət başa düşülür. Yəni bu məhdudiyyətlərə hərəkət, görmə, eşitmə, əqli/dərketmə və psixoloji narahatlıqlarla bağlı imkanların zəifliyi və çatışmazlıqların mövcudluğu, habelə qeyd olunan bir neçə hala eyni şəxsdə rast gəlinməsi daxildir.

Avropa İttifaqının institut və orqanlarının fəaliyyətində də "əlillik" kateqoriyasının müəyyənləşdirilməsi tendensiyasına rast gəlmək mümkündür. Belə ki, Avropa Komissiyası və təşkilatın Məşğulluq və Sosial Məsələlər üzrə Baş Direktoratlığının 2002-ci il tarixli "Sosial inteqrasiya məsələlərinə dair" Birgə Hesabatında "əlillik vəziyyəti" termini izah edilmişdir. Həmin sənədə uyğun olaraq, əlillik insanları kəskin yoxsulluq riskinə məruz qoyan amillərdən biridir. Bunun əsas səbəbi qismində isə əlillərin iqtisadi, sosial və siyasi həyatda tam şəkildə iştirak etmək imkanlarına malik olmaması, habelə yaşadıqları cəmiyyət tərəfindən qəbul olunan normal həyat keyfiyyəti və yaşayış standartlarına uyğunlaşmaq üçün gəlir və ya digər resurslara (şəxsi, ailə, sosial və mədəni) çıxış imkanlarının qeyri-mövcudluğu çıxış edir.[2]

Xüsusi sosial təbəqəni təşkil edən əlillərin hüquqi statusu-

---

[1] Doebber C.F.J. The principle of non-discrimination in international law. Washington, D.C.: CD Publishing, 2007, 473 p.

[2] Access to social rights for people with disabilities in Europe. Berlin: Council of Europe, 2003, 152 p.

nun müəyyən edilməsində dövlətdaxili qanunvericilik aktlarında bununla bağlı ayrı-ayrı terminlərin (məsələn, "əlil", "əlillik") anlayışının müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki müəyyən olunan anlayışlar şəxsin "əlil" kateqoriyasına aid edilməklə, beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulan hüquq və imkanlarının təmin edilməsi üçün əsas baza rolunu oynayır. Bundan əlavə, hər bir dövlətin səciyyəvi qanunvericilik aktları əlilliyin müyyənləşdirilməsi zamanı onun nəzəri ədəbiyyatlarda təhlil olunan modellərdən hansına əsaslanmasını da özündə ehtiva edir. Bu isə təkcə hüquq normalarının realizəsi baxımından deyil, həm də elmi araşdırma obyektini şərtləndirən vacib məsələlərdən biridir. Şübhəsiz ki, bu halda istər Azərbaycan Respublikasının qanunvericilik praktikası, istərsə də müxtəlif xarici dövlətlərdə qəbul olunan hüquq normaları maraq dairəsinə daxildir.

Qabaqcıl təcrübənin öyrənilməsi və müqayisəli təhlilin aparılması üçün, ilk növbədə, xarici dövlətlərin müvafiq qanunvericilik aktlarının araşdırılmasına diqqət yetirək. Məsələn, Çin Xalq Respublikasının "Əlillərin müdafiəsi haqqında" 28 dekabr 1990-cı il tarixli Qanununa əsasən, psixoloji, fizioloji, yaxud anatomik strukturda müəyyən orqanı və ya funksiyanı itirməsi nəticəsində əziyyət çəkən, habelə müəyyən fəaliyyəti normal şəkildə yerinə yetirmək imkanından tam və ya qismən məhrum olan şəxs əlil kateqoriyasına aid edilir. Bundan əlavə, sözügedən ölkənin qanunvericiliyinə uyğun olaraq, "əlilliyi olan şəxslər"lə bağlı bir sıra səciyyəvi xüsusiyyətlərin (görmə, eşitmə, danışıq və ya fiziki çatışmazlıqlar, əqli qüsurlar, psixiatriya çatışmazlıqları, çoxqat əlillik və/və ya digər qüsurlar) mövcudluğu da zəruri şərtlərdən sayılır.[1]

Əlilliyi olan şəxslərin bütövlükdə bir sıra maneələrlə - davranış, ekoloji, institusional və informasiya kimi maneələrlə qarşılamasını özündə ehtiva edən Hindistan qanunvericiliyi, xüsusilə

[1] Fritsch C. Right to Work? A Comparative Look at China and Japan's Labor Rights for Disabled Persons // Loyola University Chicago International Law Review, 2009, Volume 6, Issue 2, pp. 403-420

bu ölkənin "Əlilliyə malik olan şəxslər (bərabər imkanlar, hüquqların müdafiəsi və tam iştirak) barədə" 1995-ci il Qanunu əlilliyi olan şəxsi tibb müəssisəsi tərəfindən təsdiq olunduğu kimi istənilən növ əlilliyin 40%-dən az olmayan hissəsindən əziyyət çəkən fərdləri ifadə edir. Bununla əlaqədar, 1995-ci il Qanunu əlilliyin tibbi modelinə əsaslanmaqla, əlilliyin elementləri kimi aşağıdakıları müəyyən etmişdir:

- Korluq;
- Zəif görmə;
- Müalicə olunan cüzam;
- Eşitmə qüsurları;
- Dayanaqlı və ya hərəkət etmək imkanlarına malik avadanlıqlardan istifadənin zəruriliyinə əsaslanan əlillik;
- Əqli gerilik;
- Psixi xəstəlik.[1]

Yaponiyanın "Əlillər haqqında" 1993-cü il tarixli Əsas Qanununa uyğun olaraq, fiziki çatışmazlığı, əqli geriliyi və ya ruhi qüsurlarının olması səbəbindən gündəlik həyatı, yaxud cəmiyyətdəki fəaliyyəti uzun müddət ərzində əhəmiyyətli dərəcədə məhdudlaşan şəxslər əlil hesab olunur.[2]

"Əlilliyi olan şəxslər haqqında" 2006-cı il Uqanda Qanunu "əlillik" termininin izahı verməklə, eyni zamanda "əlil" kateqoriyasına aid edilən şəxslərlə bağlı hüquqi məsələləri və qanunvericilik tələblərini müəyyən etmişdir. Belə ki, sözügedən qanunvericilik aktına uyğun olaraq, əlillik məhdud iştirakla nəticələnən fiziki, əqli və ya ruhi çatışmazlıqlar və mühitlə bağlı maneələrin səbəb olduğu gündəlik həyat fəaliyyətinin əhəmiyyətli dərəcədə funksional məhdudlaşması sayılır. Eyni zamanda 2006-cı il Uqanda Qanunu "əlil" kimi insanın bir və ya bir neçə mühüm həyat fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilən fiziki,

---

[1] Know Your Rights Series: Rights of Persons with Disabilities. New Delhi: India National Human Rights Commission, 2010, 36 p.

[2] Fritsch C. Right to Work? A Comparative Look at China and Japan's Labor Rights for Disabled Persons // Loyola University Chicago International Law Review, 2009, Volume 6, Issue 2, pp. 403-420

intellektual, ruhi və ya əqli qüsurlara malik olan şəxsi müəyyən etmişdir. Həmçinin təhlil olunan qanuna əsasən, "əlilliyin kodlaşdırılması" terminindən istifadə olunur ki, bu da gündəlik fəaliyyətin zəruri funksiyalarının məhdudlaşmasının səbəbi qismində mövcud qüsurun özünü büruzə verməsi və ya həmin çatışmazlığın insanda uzunmüddətli təsir buraxması nöqteyi-nəzərindən qiymətləndirmə baxımından mühüm əhəmiyyət kəsb edir.[1]

Filippinin "Əlillər haqqında" 1992-ci il tarixli 7277 nömrəli Respublika Qanununun 4-cü maddəsinə uyğun olaraq, əqli, fiziki və ya ruhi qüsur nəticəsində, insan üçün normal sayılan qaydada və həddə fəaliyyətini həyata keçirmək sahəsində məhdudiyyət və ya müxtəlif çatışmazlıqlardan əziyyət çəkən şəxs əlil hesab olunur. Bu qanunvericilik aktında ifadə olunan "əlillik" anlayışı tibbi modellə əlaqəli olmaqla yanaşı, eyni zamanda 2006-cı il BMT Konvensiyasında ehtiva olunan insan müxtəlifliyi prinsipi ilə tam şəkildə uyğunluq təşkil etmir.[2]

Tailand Krallığının "Əlilliyi olan şəxslərin hüquq və imkanlarının genişləndirilməsi haqqında" 2007-ci il Qanunu və "Əlilliyi olan şəxslərin təhsilinin idarə olunması haqqında" 2008-ci il Qanununda "əlilliyi olan şəxslər" kateqoriyasının nəzərdə tutulan tərifi 2006-cı il BMT Konvensiyasındakı anlayışla tam üst-üstə düşür. Yəni sözügedən qanunvericilik aktlarında nəzərdə tutulan anlayışlarda təkcə çatışmazlıqların və ya əlilliyin mövcudluğu deyil, həm də cəmiyyətdə tam və effektiv iştirakın qarşısını alan maneələrin olması da önə çəkilir.[3]

İsrailin 1998-ci il tarixli "Əlilliyi olan şəxslər üçün bərabər hüquqlar haqqında Qanunu"nu "əlilliyi olan şəxslər"in anlayışı ilə bağlı məsələlərə tam və bütöv şəkildə yanaşmaqla, bu kateqo-

---

[1] Pieter Van Reenen T., Combrinck H. The UN Convention on the Rights of Persons with disabilities in Africa: Progress after 5 years // Sur – International journal on human rights, 2011, Vol. 8, No 14, pp. 133-165.

[2] Monitoring the Human Rights of Persons with Disabilities: Laws, Policies and Programs in the Philippines. Toronto: Disability Rights Promotion International (DRPI), 2009, 43 p.

[3] Namsiripongpun W. Human rights and disabled persons hiring // Law journal, 1998, Issue 4, No 28, pp.739-753.

riyaya daimi və ya müvəqqəti əsaslarla fiziki, ruhi və əqli çatışmazlıqları olan, habelə bunun nəticəsində ictimai həyatın bir və ya bir neçə əsas sahəsində fəaliyyət göstərməsi əhəmiyyətli dərəcədə məhdudlaşan şəxsləri aid etmişdir. Qanunda təsbit olunan bu anlayış insanı və onun əlilliyini qarşılıqlı əlaqədə nəzərdə tutmuşdur. Lakin İsrailin əvvəllər qüvvədə olan qanunvericiliyində əlilliyə şəxsin qüsurları və xəstəlik baxımından yanaşma mövcud olmuşdur.[1] Sözügedən qanunvericilik aktı isə hər hansı əsaslara görə məşğulluq sahəsində və ictimai nəqliyyatda, habelə ictimai xidmət, ictimai yerləşdirmə, telekommunikasiya və ya yaşayış məsələlərində ayrı-seçkiliyin qadağan olunmasını nəzərdə tutan ilk, dəqiq və geniş həcmli qanun sayılır. Hətta bu sahədə tədqiqat aparan bəzi alimlərin fikrincə, İsrailin sözügedən qanunu ilk dəfə olaraq müfəssəl və təkmil şəkildə “mülki hüquqlar haqqında qanunvericilik normaları”nı formalaşdırmaqla özündə ehtiva etmişdir.[2]

Macarıstanın “Əlilliyi olan şəxslərin hüquqları və onların bərabər imkanlarının təmin olunması haqqında” 1998-ci il tarixli Qanunu “əlil” terminini və bu kateqoriyaya mənsub şəxslərin sırasını müəyyən etməklə, onların müəyyən subyektiv imkanlarını da özündə ethiva etmişdir. Belə ki, təhlil olunan qanunvericilik aktına əsasən, ruhi, hərəkət, yaxud əqli imkanı nöqteyi-nəzərindən, eləcə də ünsiyyət qurmaq baxımından tam və ya əhəmiyyətli dərəcədə məhdudiyyətlər olduğu halda, habelə bütün bunların həmin şəxsin sosial həyatda aktiv iştirakına davamlı maneə törətdiyi təqdirdə, yaşayış yeri barədə tələblə çıxış etmək hüququ vardır.[3]

---

[1] Rimmerman A., Avrami S. Israel’s Equal Rights for Persons with Disabilities Law: legal base, process and impact. E-journal “International Journal of Disability, Community & Rehabilitation”, 2009, Vol. 8, No 3. - www.ijdcr.ca.

[2] Ziv N. Disability Law in Israel and The United State – a comparative perspective / Israel yearbook on human rights 1998. The Hague: “Kluwers Law International”, 1999, pp. 171-202

[3] Disability and non-discrimination law in the European Union. An analysis of disability discrimination law within and beyond the employment field. Luxembourg: European Commission Directorate-General for Employment, Social Affairs and Equal Opportunities, 2009, 89 p.

ABŞ-ın 1990-cı il tarixli "Əlil amerikanlar haqqında" Qanunu "əlilliyi olan məhdud şəxslər" kateqoriyasına aid olan şəxslərin müdafiəsinə yönəlmişdir. Qanunla nəzərdə tutulan "əlillik" anlayışı isə insanın gündəlik bir və ya neçə mühüm fəaliyyətini həyata keçirməsini məhdudlaşdıran fiziki və əqli qüsurları əhatə edir. Fərdin gündəlik bir və ya bir neçə mühüm həyat fəaliyyətini həyata keçirməsi qabiliyyətinin məhdudlaşmasının işəgötürənlər tərəfindən yüngülləşdirici hal kimi nəzərə alınması da ABŞ qanunvericiliyinin tələblərinin tərkib hissəsidir. Lakin bununla belə, müvafiq qanunvericilik aktının tələblərinə əsasən, narkotik vasitə istifadəçiləri, habelə bir qrup digər şəxslərə (homoseksual, biseksual, transvest, transseksual, pedofil, fiziki pozuntu olmadan gender dəyişikliyinə uğramış şəxslər və seksual davranışa malik digər şəxslər, qumar və ya mərc oyunlarına həris şəxslər, kleptomaniya, yaxud piromaniya xəstəliyinə düçar olmuş şəxslər) əlillik kateqoriyası şamil olunmur.[1] Bütövlükdə isə ABŞ qanunvericiliyində təsbit olunması baxımından əlillik, əsas etibarilə iki modeldə özünü büruzə verir. Belə ki, "Əlil amerikanlar haqqında" Qanun əlilliyə sosial-hüquqi model əsasında yanaşsa da, "Sosial təminat haqqında" Qanun isə müvafiq məsələyə iqtisadi model nöqteyi-nəzərindən yanaşır.[2]

Malta qanunvericiliyində əlillik fiziki və əqli qüsurlarla, Böyük Britaniyada bədənin hər hansı hissəsinin öz quruluşunu dəyişməsi və müəyyən hallarda ruh düşgünlüyünün və depressiyanın yaranması, Avstraliyada isə qavrama, əqli və fiziki qüsurlar, habelə bədənin hər hansı hissəsinin öz quruluşunu dəyişməsi və müxtəlif formaya düşməsi ilə xarakterizə olunur. Bununla belə, Avstraliya qanunvericiliyinin tələbinə əsasən, Hepatit və İİV (HİV) kimi xəstəliklərin və simptomların yaranmasına gətirib çı-

[1] Legal rights of persons with disabilities. November 2003. With sections revised April 2006. California-Sacramento: California Department of Justice, 2008, 78 p.
[2] International Disability Rights Monitor. Regional Report of Americas 2004. Chicago: International Disability Network, 2004. 465 p.

xaran xəstəlik və qüsurlar əlillik üçün əsas hesab olunmur.[1]

Almaniya qanunvericiliyinə gəldikdə, onu qeyd etmək lazımdır ki, bu ölkənin qanunvericilik aktlarında (məsələn, "Bərabər rəftar haqqında" 2006-cı il tarixli Federal Qanun və s.) əlilliyin və ya müdafiəyə ehtiyacı olan şəxslərin digər səciyyəvi xüsusiyyətləri barədə müddəalar öz əksini tapmamışdır. Bununla belə, sözügedən ölkənin Sosial Məcəlləsi və "Əlillərin bərabərliyinin təmin olunması haqqında" Qanunun müddəalarının təfsiri, habelə bu müddəaların həyata keçirilməsinə dair geniş hesabatlardan irəli gələrək əlilliyi xarakterizə edən əlamətləri göstərmək mümkündür. Belə ki, sözügedən ölkədə hüquqi baxımdan əlil fiziki funksiyaları, əqli bacarığı və ya psixoloji sağlamlığı müvafiq şəxsin yaş həddi üçün xarakterik olan insanlardan fərqlənən, habelə bu əlamətlərin 6 aydan çox müddətə davam etməsi və nəticə etibarilə şəxsin cəmiyyətdə iştirakına mane olmasına gətirib çıxaran halları özündə ehtiva edən şəxs sayılır.[2]

Azərbaycan Respublikasında "əlil" kateqoriyasına mənsub şəxslərin dairəsinin müəyyənləşdirilməsi, habelə "əlillik" terminin anlayışının müəyyən olunması baxımından qanunvericilik praktikasına gəldikdə isə, 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanunu qeyd etmək yerinə düşərdi. Belə ki, sözügedən qanunvericilik aktının 2-ci maddəsinə əsasən, anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs əlil sayılır. Qa-

---

[1] Gatt A. Protection of Disabled People under Maltese and European Law / Materials of Conference in University of Malta, European Documentation and Research Centre, Jean Monnet European Centre of Excellence, Working for an Inclusive Society, September 2005, pp. 129-142

[2] Disability and non-discrimination law in the European Union. An analysis of disability discrimination law within and beyond the employment field. Luxembourg: European Commission Directorate-General for Employment, Social Affairs and Equal Opportunities, 2009, 89 p.

nunda, eyni zamanda sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq kateqoriyasına mənsub şəxslərə (orqanizmin ümumi inkişafının pozulmasına səbəb olan müxtəlif əqli, ruhi, fiziki qüsurlar və xəstəliklər nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan uşaqlar) dair tələblər də öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, ölkəmizin qanunvericilik təcrübəsinə əsasən, şəxsin həyat fəaliyyətinin məhdudlaşması əlilin və sağlamlıq imkanları məhdud uşağın özünəxidmət, hərəkət, səmtlənmək, ünsiyyət, öz davranışına nəzarət, habelə təhsil almaq, əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini və ya imkanlarını tamamilə, yaxud qismən itirilməsində təzahür edir.

Bununla belə, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında bu kateqoriya şəxslər "sağlamlıq imkanları məhdud şəxs" kimi xarakterizə olunur. Belə ki, 5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunun 1-ci maddəsinə əsasən, sağlamlıq imkanları məhdud şəxs dedikdə, xüsusi şərait yaradılmadan təhsil almasında çətinliklər yaranan fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olan şəxs başa düşülür. Göründüyü kimi, bu iki qanunvericilik aktı arasında ziddiyyət olmaqla yanaşı, həm də beynəlxalq-hüquqi sənədlərlə uyğunsuzluq təşkil edir. Çünki "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 1-ci maddəsində bu termin "əlilliyi olan şəxs" *(ingiliscə - persons with disabilities)* kimi qeyd olunmuşdur.

Qeyd olunanları nəzərə alaraq, "əlil" və "əlillik" anlayışlarının mahiyyət və məzmunun müəyyən olunması ilə bağlı aşağıdakı nəticələrə gəlmək olar:

1. Müvafiq terminlər əlillərin hüquqi statusunun müəyyən olunması, habelə onlar üçün nəzərdə tutulan hüquq, imtiyaz və güzəştlərin təminatı və yerinə yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, əlil hesab olunacaq şəxslərin dairəsinin müəyyən edilməsində dəqiqliyə, düzgünlüyə və şəffaflığa yol açmaqla yanaşı, həm də bu sahədə mövcud neqativ halların qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir.

2. Əlil hesab olunacaq şəxslərin dairəsinin müəyyənləşdirilməsi, eləcə də əlillik meyarının aşkar olunarkən, tibbi meyarların və insan sağlamlığının pozulması vacib olduğu qədər, bu terminlərin hüquqi baxımdan təsbit olunması da önəmli məsələlərdən biridir. Çünki son nəticə hüquq normalarına əsaslanmaqla, şəxsə əlil statusunun verilməsi, hüquq və azadlıqların təmini, habelə nəzərdə tutulan imtiyaz və güzəştlərin həyata keçirilməsi beynəlxalq hüquq normaları və dövlətdaxili qanunvericilik əsasında yerinə yetirilir.

3. "Əlillik" terminin müəyyənləşdirilməsi zamanı əsas diqqəti tibbi modelin tələblərinə yönəltmək lazımdır. Çünki istənilən şəxsin əlil statusu alması üçün mütləq şəkildə hər hansı tibbi meyarlar (məsələn, fiziki, psixoloji, əqli, ruhi) özünü büruzə verməli və bütün bunlar mütəxəssislər tərəfindən təsdiqlənməlidir. Şübhəsiz ki, bu halda sağlamlığın pozulmasına yol açan, habelə şəxs nəticəsini qabaqcadan gördüyü və bununla belə qəsdən yol verdiyi hərəkətlər (məsələn, narkomaniya, toksikomaniya, kleptomaniya, piromaniya, alkoqolizm və s.) istisna hal olaraq nəzərə alınmalıdır. Çünki sonuncu halların əlilliklə bağlı hər hansı əlaqəsi yoxdur.

4. Əlilliyin tibbi modeli ilə yanaşı, digər modellərin də səciyyəvi cəhətlərindən istifadə olunması zəruridir. Çünki sonrakı mərhələlərdə əlillərin cəmiyyətə adaptasiyası, ruh düşgünlüyünə yol verilməməsi və onların psixoloji vəziyyətinin düzgünlüyünün təmin olunması, əmək-peşə münasibətlərinin düzgün qurulması, sosial həyat şəraiti ilə bağlı təminatın lazımınca həyata keçirilməsi həmin şəxslərin gələcək həyatında mühüm rol oynayır.

5. "Əlil" və "əlillik" terminlərinin mahiyyət və məzmununun müəyyən olunması zamanı məsələyə birtərəfli deyil, kompleks şəkildə yanaşmaq lazımdır. Belə ki, həmin kateqoriyalarla yanaşı, "sosial məhdudiyyət", "maneə", "qüsur" və digər bu kimi anlayışları təhlil etməklə, əlil kateqoriyasına daxil olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi və onların hüquqlarının müdafiəsi daha düzgün şəkildə təmin edilmiş olar.

## 1.2. Əlillərin hüquqlarının müdafiəsi və təminatında sahəvi prinsiplərin yeri və rolu

Əlillərin hüquqlarının müdafiəsində sahəvi rəhbər başlanğıcların formalaşması mühüm əhəmiyyət kəsb edir. Çünki həmin prinsiplər bu kateqoriya şəxslərin subyektiv imkanlarının qorunması sahəsində istiqamətverici rol oynamaqla yanaşı, həm də digər beynəlxalq hüquq normaları arasında "körpü" funksiyasını yerinə yetirir. Bunun üçün, ilk növbədə prinsip terminini izah etmək lazımdır ki, bu da hüquq normalarında ifadə olunan və hüququn mahiyyətini müəyyən edən ideya, başlanğıc, rəhbər qaydalar hesab olunur. Bundan əlavə, hüquqda prinsiplər aşağıdakı səciyyəvi əlamətlərə malikdir:

1) Bu qaydalar ictimai inkişafın obyektiv qanunlarını əks etdirir.

2) Hüquq normalarında birbaşa, yaxud dolayısı ilə təsbit olunması mümkündür.

3) Hüquqyaradıcılıq fəaliyyətinin əsasını təşkil etməklə, istiqamətverici funksiya rolunu oynayır.[1]

Müvafiq kateqoriya şəxslərin hüquqlarının müdafiəsinə dair sahəvi prinsiplərin hüquqi təsdiqinə gəldikdə isə "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyası 1945-ci il BMT Nizamnaməsi, 1970-ci il tarixli "BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannaməsi, habelə ATƏM-in (indiki ATƏT-in) 1975-ci il Helsinki Yekun Aktında öz əksini tapmış beynəlxalq hüququn ümumtanınmış və əsas prinsiplərinə[2] əsaslanmaqla, bu spesifik rəhbər başlanğıcları müəyyən etmişdir. Həmçinin insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin prinsipləri (məsələn, humanizm, şəxsiyyətin ləyaqəti, fərdə daha əlverişlilik, insan hüquqlarının ayrılmazlığı, şəxsiyyətin təhlükəsizliyi, bərabərlik və bərabəhüquqluluq, ayrıseçkiliyin qadağan olunması, inkişaf prinsipi və s.) də mütləq şə-

---

[1] Гаврилов С.М. Правоведение. Учебное пособие. В 2 ч. Ч. I. Основы теории государства и права. Самара: Изд-во Самар. гос. аэрокосм. ун-та, 2012, 92 с.

[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: "Qanun" nəşriyyatı, 2012, 368 s.

kildə nəzərə alınmalıdır.[1] Yəni deduksiya metodundan istifadə etsək, bu halda beynəlxalq hüququn əsas prinsipləri, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin rəhbər başlanğıcları və əlillərin hüquqlarına dair prinsiplər bütöv kompleks olmaqla bir-birini tamamlamalıdır. Eyni zamanda insan hüquqlarının qorunması və müdafiəsinə təsir göstərən digər vasitələri də nəzərdən qaçırmaq olmaz. Nümunə qismində hüquqi dövlətin prinsiplərini (hüququn prioriteti, insan və vətəndaşın hüquqi müdafiəsi, hüquq və qanunun aliliyi, dövlət hakimiyyətinin müxtəlif qollarının fəaliyyətinin hüquqi məhdudlaşdırılması) [2] göstərmək olar ki, bu rəhbər başlanğıcların realizəsi və təmini insan hüquqlarının qorunması ilə bilavasitə bağlılığa malikdir. Çünki beynəlxalq hüquq normalarında ehtiva edilmiş insan hüquqlarının realizəsi, müdafiəsi və qorunması məhz hüquqi dövlətdə mümkündür.

Bir məsələyə də diqqət yetirmək lazımdır ki, həmin rəhbər başlanğıcların müvafiq beynəlxalq-hüquqi sənəddə təsbiti, yaxud sadəcə onların adının qeyd olunması kifayət etmir. Çünki istənilən rəhbər başlanğıc, o cümlədən 2006-cı il Konvensiyasının 3-cü maddəsində təsbit olunmuş prinsiplər öz-özlüyündə kompleks mahiyyət və məzmuna malikdir. Bu prinsiplərin mahiyyət və məzmunu isə təkcə ümumi və xüsusi hüquq normalarına deyil, həm də bu sahədə elmi-nəzəri araşdırmalara əsaslanır. Eyni zamanda istənilən prinsip digərləri ilə bu və ya digər dərəcədə qarşılıqlı əlaqəyə malikdir. Yəni əlillərin hüquqlarının qorunmasına dair hər hansı prinsipi fərdi qaydada və təcrid olunmuş şəkildə deyil, əksinə, kompleks olaraq nəzərdən keçirmək lazımdır. Nümunə qismində ayrı-seçkiliyə yol verilməməsi prinsipinin digərləri (cəmiyyətə tam və səmərəli cəlb olunma və daxilolma; əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; imkanların bərabərliyi; əlil uşaqların inkişaf edən qabiliyyəti-

[1] Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin sahəvi prinsipləri və Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyi // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2009, № 3, s. 100-110

[2] Məmmədov R.F., İsmayılova Ə.N., Hacıyev C.M. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri. Bakı: "Azərnəşr", 2009, 416 s.

nə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət) ilə qarşılıqlı əlaqəsini göstərmək olar. Bunun üçün isə Konvensiyada ehtiva olunmuş hər bir prinsipin mahiyyət və məzmununu ayrı-ayrılıqda təhlil etmək yerinə düşərdi:

**1) Şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması prinsipi.** İlk növbədə bir məsələyə toxunmaq lazımdır ki, Konvensiya bu prinsipi bir neçə elementdən ibarət şəkildə formalaşdırmışdır. Həmin elementlərə şəxsi seçim azadlığı, insan ləyaqəti, şəxsi sərbəstlik, seçim etmək müstəqilliyi aiddir ki, bunların hər biri "insanın malik olduğu hüquqlara və onun fərdi xüsusiyyətlərinə hörmət olunması" kateqoriyasının obyektini təşkil edir. Yəni bu elementlərin müəyyənləşdirilməsi ilə yanaşı, onlara hörmət olunmasına dair zəruri müddəanın təsbit olunması vacib şərtlərdən biridir. Bununla yanaşı, bir spesifik cəhətə də toxunmaq yerinə düşərdi ki, 2006-cı il Konvensiyası yalnız bu elementləri özündə birləşdirən sahəvi prinsipin adını çəkməklə kifayətlənmiş və həmin rəhbər başlanğıcın tərkib elementlərinin izahına yer ayırmamışdır.

Qeyd olunan çatışmazlıqlara baxmayaraq, sözügedən prinsipin tərkib hissəsini təşkil edən elementlər, bütövlükdə 2006-cı il Konvensiyasının ümumi istiqamətini təşkil etməklə, cəmiyyətin üzvü kimi əlilliyi olan şəxslərin insan ləyaqəti və sərbəstliyini müdafiə edən bütün insan hüquqları və əsas azadlıqlardan istifadəsinə şərait yaradır. Eyni zamanda Konvensiyada ehtiva olunan "insan ləyaqətinə hörmət olunması" termini 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin preambulasında ifadə olunan "bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və alınmaz hüquqlarını qəbul etməyin azadlığın, ədalətin və ümumi sülhün təməli olması" müddəası ilə uyğunluq təşkil edir. Bundan əlavə, müvafiq prinsipdə təsbit olunan, şəxsi seçim etmək azadlığının daxil olduğu fərdi sərbəstlik anlayışı fərdi özünü müəyyənetmə ilə sıx qarşılıqlı əlaqəyə malikdir.[1]

---

[1] Power A., Lord J.E., Franco A.S. Active citizenship and disability: implementing the personalization of support. Cambridge: Cambridge University Press, 2013, 524 p.

Bu prinsipin tərkib elementləri ilə bağlı məsələləri, eyni zamanda insan hüquqlarının müdafiəsinə dair beynəlxalq sənədlərin müddəaları və nəzarət mexanizmlərinin fəaliyyəti əsasında da təhlil etmək yerinə düşərdi. Belə ki, 1996-cı il tarixli "Yenidən baxılmış Avropa Sosial Xartiyası"nın I hissəsinin 15-ci bəndində ifadə olunmuş *"hər bir əlilin müstəqillik............ hüququ vardır"* müddəasındakı [1] əlillin müstəqilliyə malik olması bu prinsipin beynəlxalq normativ təsdiqinin bir hissəsi sayıla bilər.

**2) Ayrı-seçkiliyə yol verilməməsi prinsipi.** Sözügedən rəhbər başlanğıc beynəlxalq hüquqda birbaşa, yaxud dolayısı yolla öz əksini tapmışdır. Birinci halda, beynəlxalq sənədlərdə əlillik meyarı əsasında ayrı-seçkiliyin qadağan olunması nəzərdə tutulur. Belə ki, BMT Baş Məclisinin 1991-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasına dair Prinsiplər"in 1-ci maddəsi [2], "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 2-ci maddəsi, "Əsas hüquqlar haqqında" 2001-ci il Avropa İttifaqı Xartiyasının 21-ci maddəsi və digər beynəlxalq-hüquqi normalar əlilliyə görə ayrı-seçkiliyin qadağan olunmasını birbaşa olaraq nəzərdə tutmuşlar. Eyni zamanda beynəlxalq-hüquqi təcrübədə, xüsusilə insan hüquqlarının müdafiəsinə dair nəzarət mexanizmlərinin fəaliyyətində əlilliyə görə və əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyinə dair müddəalar öz əksini tapmışdır. Buna nümunə qismində, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin "Əlilliyi olan şəxslər haqqında" 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəyinin 5-ci bəndini göstərmək olar. Sözügedən

---

[1] Human rights in international law. Basic texts. 2nd edition. Strasbourg: Council of Europe Publishing, 2000, 538 p.

[2] Collection of international instruments and legal texts concerning refugees and others of concern to UNHCR. Volume 1: Refugees, asylum, statelessness, internally displaced persons, migrants, human rights. Geneva: United Nations Publications, 2007, 631 p.; Volume 2. International instruments: international humanitarian law, international criminal law, international maritime and aviation law, miscellaneous. Geneva: United Nations Publications, 2007, 1020 p.; Volume 3. Regional instruments: Africa, Middle East, Asia, Americas. New-York: United Nations Publications, 2007, 1403 p.

müddəaya əsasən, 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 2.2-ci maddəsində nəzərdə tutulan *"digər vəziyyətlərə görə"* kateqoriyası [1] həm də əlilliyə görə ayrı-seçkilik hallarını əhatə edir.

Analoji vəziyyətə Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) təcrübəsində də rast gəlmək mümkündür. Çünki "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Konvensiyasının 14-cü maddəsində bir sıra meyarlara görə ayrı-seçkiliyin qadağan edilməsinə dair norma nəzərdə tutulsa da, əlilliklə bağlı müddəaya rast gəlmək qeyri-mümkündür. Şübhəsiz ki, bu da həmin beynəlxalq-hüquqi sənədin qəbulu dövrü ilə əlaqələndirilə bilər. Bununla belə, sonrakı mərhələlərdə həmin normaya düzəliş və ya əlavə etmək yerinə düşərdi. Məhz bu boşluq AİHM-in qərarları vasitəsilə doldurulmaqdadır. Belə ki, qəbul olunan çoxsaylı qərarlarda vurğulanmışdır ki, 1950-ci il Konvensiyasının 14-cü maddəsində qeyd olunan *"hər hansı digər əlamətlərə görə"* ifadə forması əlillik və sağlamlığın pozulmasının müxtəlif hallarına da tətbiq edilə bilər. Bu isə əlillərə qarşı ayrı-seçkiliyin bilavasitə deyil, güman olunan mənada, yəni genişləndirici təfsir formasını özündə ehtiva edir. Bunu AİHM-in təcrübəsinə əsaslanmaqla təhlil etmək yerinə düşərdi. Məsələn, *"Pretty Birləşmiş Krallığa qarşı"* (2002) işi üzrə qərar degenerativ xəstəlikdən əziyyət çəkən ərizəçinin intiharına cinayət məsuliyyəti yaratmadan köməklik göstərilməsi ilə bağlı hökumətdən təminat almaq istəyinə dair iddiası əsasında çıxarılmışdır. Lakin burada meydana çıxan problem ondan ibarətdir ki, Birləşmiş Krallığın qanunvericiliyində intihara kömək etmək istənilən halda adamöldürmə cinayəti hesab olunur. Nəticədə ərizəçi şəxsi həyata hörmət hüququ çərçivəsində müdafiə olunan öz bədəni ilə bağlı qərar vermək hüququnun ayrı-seçkiliklə əlaqədar pozulmasına dair iddia irəli sürmüşdür. Məhkəmə isə bununla bağlı qərarında bildirmişdir ki, fiziki olaraq özünə qəsd etmək iqtidarında olan və olmayan insanlar arasında qoyulan fərqlərin aradan qaldırılması

[1] Beynəlxalq sənədlər toplusu. I cild. Bakı: "Qanun" nəşriyyatı, 2008, 960 s.

zəruridir. Çünki Məhkəmənin qənaətinə görə, qanundan istisnaların müəyyən olunması təcrübədə sui-istifadə hallarına yol açmaqla, yaşamaq hüququnun müdafiəsinə xələl gətirə bilər.[1]

Məhkəmənin baxış predmeti olan digər iş – *"Çam Türkiyəyə qarşı"* işi (2016) ərizəçinin gözdən əlil olması ilə əlaqədar, onun Türkiyə Milli Musiqi Akademiyasına qəbulundan imtina olunması ilə bağlıdır. Ərizəçi bu cür imtinaya yol verilməsini dövlətin onun təhsil hüququnu pozması kimi dəyərləndirmişdir. Məhkəmə isə bu iş üzrə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 14-cü maddəsində ehtiva olunan ayrı-seçkiliyin qadağan olunması, habelə həmin Konvensiyaya Əlavə 1 saylı Protokolun 2-ci maddəsində nəzərdə tutulan təhsil hüququnun pozulması qənaətinə gəlmişdir. Eyni zamanda ərizəçinin qəbulundan imtinanın Musiqi Akademiyasının prosedur qaydalarına əsasən həyata keçirildiyini müəyyən edən Məhkəmə göstərmişdir ki, şəxs musiqi təhsili almaq üçün kifayət qədər mükəmməl təhsil keyfiyyətlərinə malik olsa da, məhz onun kor olması imtinaya gətirib çıxarmışdır. Bundan əlavə, Məhkəmə əlilliyi olan şəxsin təhsildən istifadə imkanlarını asanlaşdırmaq üçün qənaətbəxş səviyyədə yerləşmə vasitələrinin mövcudluğunun zəruriliyinə də toxunmuşdur.[2]

*"Quberina Xorvatiyaya qarşı işi"*nin (2016) baxış obyekti qismində kəskin fiziki qüsurları olan uşağın atasının həmin uşağın ehtiyaclarına uyğun mülkiyyətin əldə edilməsi zamanı müvafiq vergi qurumlarının ona güzəşt etməməsi ilə əlaqədar irəli sürdüyü iddia çıxış edir. Bununla əlaqədar, Məhkəmə 1950-ci il Konvensiyasına Əlavə 1 nömrəli Protokolun 1-ci maddəsi (mülkiyyətin qorunması) ilə yanaşı, Konvensiyanın 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan olunması) pozulması qənaətinə gəlmişdir. Eyni zamanda Məhkəmə bildirmişdir ki, vergidən azad olun-

---

[1] Keown J. European Court of Human Rights: Death in Strasbourg – assisted suicide, the Pretty case, and the European Convention on Human Rights // International journal of constitutional law, 2003, Vol. 1, Issue 4, pp. 722-730

[2] www.gocmenhukuk.com/304nsan-haklar305-hukuku/cam-v-turkey-application-no-5150008-ahs-md-14-ve-birinci-protokol-md-2

maqla, digər şəxslərlə müqayisədə ailəsinin mənzil və yaşayış ehtiyaclarının təmin olunması üçün əsas infrastrukturla bağlı ərizəçinin fərqli şəraitini tanımamaqla yanaşı, yerli qurumlar müvafiq vergi qanunvericiliyinin tətbiqinə məhdud yanaşma nümayiş etdirmişlər. Beləliklə, həmin dövlət orqanları əlilliyi olan şəxslərin binalara giriş imkanlarının təmin edilməsinə dair milli qanunvericilik normalarının tələblərini, eləcə də bununla bağlı Xorvatiyanın "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasından irəli gələn öhdəliklərini pozmuşdur.[1]

Qeyd olunan məsələyə AİHM-in digər işlər *(məsələn, "Glor İsveçrəyə qarşı" (2009), "G.N. İtaliyaya qarşı" (2009), "Kiyutin Rusiyaya qarşı" (2011), "İB Yunanıstana qarşı" (2013) və s.)* üzrə çıxartdığı qərarlarında da rast gəlmək mümkündür.

Bununla yanaşı, beynəlxalq təcrübədə əlillərə qarşı "de-fakto ayrı-seçkilik" anlayışına da rast gəlmək mümkündür. Belə ki, Uşaq Hüquqları Komitəsinin "Əlilliyi olan uşaqların hüquqlarına dair" 2006-cı il tarixli 9 nömrəli Ümumi Rəyinin 9-cu (c) bəndinə əsasən, əlil-uşaqlara qarşı de-fakto ayrı-seçkiliyin qarşısının alınması və ləğvi məqsədilə geniş informasiya-maarifləndirmə və təhsil kampaniyalarının keçirilməsi nəzərdə tutulmuşdur. Qeyd olunan müddəadan belə bir nəticəyə gəlmək mümkündür ki, hüquqi baxımdan əlil-uşaqlara qarşı ayrı-seçkiliyi qadağan edən kifayət qədər beynəlxalq hüquq normaları və milli qanunvericilik aktları qəbul edilmişdir. Lakin qadağanedici hüquq normalarının mövcudluğu hələ onların icrası demək deyildir. Məhz bu baxımdan, Ümumi Rəyin 9-cu (c) bəndi hüquq normaları və onun əsasında müəyyən olunan mexanizmlərin fəaliyyəti ilə real praktiki şəraitin uyğunlaşdırılmasına yönəlmişdir. Burada isə əsas önəm hüquq normalarının ictimai münasibətlərdə düzgün və hüquq normalarının ruhuna uyğun icrasına verilmişdir.

Eyni zamanda bir məsələni də nəzərə almaq lazımdır ki, əlillərə tətbiq olunan güzəşt və imtiyazlar heç də ayrı-seçkilik kimi qiymətləndirilməməlidir. Bununla bağlı müddəalar hüquq nor-

---

[1] www.bailii.org/eu/cases/ECHR/2016/287.html

malarında da öz əksini tapmışdır. Bunun bariz nümunəsi kimi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16-cı maddəsinin 2-ci hissəsinə görə, əlillərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir. Bununla yanaşı, əlillərlə bağlı müəyyən funksiyaları həyata keçirən müəssisə və təşkilatlara da edilən güzəştlər heç də ayrı-seçkilik kimi dəyərləndirilə bilməz. Məsələn, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" 5 iyun 2001-ci il tarixli Qanunun 4.0.8-ci maddəsində təsbit olunmuş xüsusi təhsili həyata keçirən müəssisələrə vergi və rüsum ödənilməsində qanunvericiliklə müəyyən olunmuş güzəştlərin tətbiq edilməsinə dair müddəa xüsusi təhsil sahəsində dövlətin vəzifələrindən biri kimi ehtiva edilmişdir *(mövcud rəhbər başlanğıcın mahiyyəti və məzmunu ayrıca olaraq 1.3-cü paraqrafda ətraflı şəkildə təhlil edilmişdir – kurs. müəllifindir).*

**3) Cəmiyyətə tam və səmərəli cəlb olunma və daxilolma prinsipi.** Mövcud rəhbər başlanğıc "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasında ifadə olunmaqla yanaşı, digər beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. İlk növbədə, bu sahədə BMT-nin normayaradıcılıq fəaliyyətinin nəticəsi sayılan Baş Məclisin 1993-cü il tarixli "Əlillərin cəmiyyət həyatının bütün sahələrinə pozitiv və tam daxil olması və bu prosesdə BMT-nin aparıcı rolu haqqında" Qətnaməsini göstərmək olar. Belə ki, həmin sənəddə bir sıra məsələlərin tənzimlənməsinə, habelə ehtiyatların yenidən bölgüsü vasitəsilə aşağıdakı məsələlərin həllinə yer verilmişdir:

- əlillərin və onların ailələrinin, yaxud cəmiyyətlərinin ehtiyaclarının BMT sistemində təmsil olunması;
- BMT sistemində bütün ixtisaslaşmış qurumlar, xüsusilə BƏT, ÜST, YUNESKO, BMT İP, YUNİSEF arasında siyasətin işlənib hazırlanması, təbliğat fəaliyyətinin həyata keçirilməsi və əlaqələrin qurulması vasitəsilə əlilliyi olan şəxslərin ehtiyaclarının təmin edilməsinə dair effektiv əlaqələndirmənin və səylərin rasionallaşdırılmasının təmin olunması;
- əlilliyi olan şəxslərin və onların ailələrinin, yaxud cəmiyyətlərinin BMT sistemi çərçivəsində bərabər imkanlarının və tam

iştirakının təşviq olunması;

- üzv-dövlətlər və təşkilatın struktur tərkib hissələri, qeyri-hökumət təşkilatları və digər müvafiq qurumlarla əməkdaşlıq şəraitində əlilliyi olan şəxslərin bərabər imkanlarının və cəmiyyətdə tam iştirakının təminatı ilə bağlı hərtərəfli yardım göstərilməsi.

Bu məsələdə tənzimetmə funskiyasını həm də digər universal və regional beynəlxalq sənədlər yerinə yetirir. 1996-cı il tarixli "Yenidən baxılmış Avropa Sosial Xartiyası"nın I hissəsinin 15-ci bəndində ifadə olunmuş *"hər bir əlilin......... sosial inteqrasiya və ictimai həyatda iştirak etmək hüququ vardır"* müddəası,[1] eləcə də 1989-cu il tarixli "Əlillərlə bağlı insani resursların inkişafı sahəsində fəaliyyətə dair Tallin Rəhbər Prinsipləri" də bunu sübut edir. Belə ki, sonuncu sənəddə birbaşa olaraq göstərilir ki, bu insanlar müqəddəratlarını müstəqil müəyyən etmək və imkanlarını tam həyata keçirməyə cəhd göstərən şəxslər kateqoriyasına aiddir. Məhz bu baxımdan, sözügedən sənədin tələbinə əsasən, əlillərin cəmiyyətin digər üzvləri ilə bərabər şəraitdə peşə hazırlığı və işədüzəlmə hüququ təmin olunmalıdır.[2]

Bir sıra hallarda bu rəhbər başlanğıc cinsi meyar baxımından nəzərdən keçirilə bilər. Bunun bariz nümunəsi kimi Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitənin 1991-ci il tarixli 18 nömrəli "Əlil-qadınlar haqqında" Ümumi Tövsiyəsində əlil-qadınların sosial və mədəni həyatın bütün sahələrində iştirak imkanlarının mümkünlüyü ehtiva edilmişdir.

Hətta xarici ölkələrin konstitusiyalarında bu prinsipin hüquqi qüvvəsi ilə bağlı müddəalara rast gəlmək mümkündür. Belə ki, Türkiyə Konstitusiyasının 61-ci maddəsinə əsasən, dövlət əlilliyi olan şəxslərin müdafiəsi və onların cəmiyyət həyatına inteqrasiyasının təmin olunması üçün tədbirlər görür .[3] Polşa Konstitusiyasının 69-cu maddəsində isə fiziki və ya əqli qüsurları olan şəxslərin yaşayışı,

---

[1] Human rights in international law. Basic texts. 2nd edition. Strasbourg: Council of Europe Publishing, 2000, 538 p.

[2] Алисиевич Е.С. Поощрение и защита прав уязвимых групп в международном праве. Учебно-методический комплекс. М.: РУДН, 2012, 225 с.

[3] Türk anayasa hukuku mevzuatı. Editör E.Abdulhakimoğulları. Ankara: Adalet Yayınevi, 2011, 587 s.

işə uyğunlaşması, habelə sosial kommunikasiya və əlaqələrinin təmin olunması üçün dövlət hakimiyyəti orqanları tərəfindən zəruri yardım göstərilməsinə dair öhdəlik öz əksini tapmışdır.[1]

Sözügedən rəhbər başlanğıcın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, burada iki əsas tərəf mövcuddur. Tərəflərdən biri öz hüquqlarının təminatına çalışan və cəmiyyətə daxil olaraq effektiv inteqrasiyaya meyil edən əlilliyi olan şəxslər sayılır. Bu şəxslər, eyni zamanda onları cəmiyyətdən təcrid edən və iştirak imkanlarını məhdudlaşdıran maneələrlə əhatə edildiyindən, dövlətdən öhdəliklərin icrasını təmin edən tərəf rolunu da oynayırlar. Qarşı tərəf qismində çıxış edən dövlət lazımi hüquq normalarının qəbulu və müvafiq tədbirlərin görülməsi üçün bilavasitə cavabdehlik daşıyır.[2]

**4) Əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması prinsipi.** Sözügedən rəhbər başlanğıc hüquqi baxımdan, əsas etibarilə, "Əlillərin hüquqların haqqında" Konvensiyanın müxtəlif müddəaları ilə sıx qarşılıqlı əlaqəyə malikdir. Təhlil olunan digər prinsiplərdən fərqli olaraq, sözügedən rəhbər başlanğıc daha çox 2006-cı il Konvensiyasının müxtəlif maddələri ilə sıx qarşılıqlı əlaqəyə malikdir. Praktiki cəhətdən isə mövcud prinsip hüquqi müdafiə xarakteri daşımaqla özünü daha çox bərabər əsaslarla əmək və məşğulluq hüququnun müdafiəsində göstərir. Eyni zamanda bu rəhbər başlanğıc ayrı-seçkiliyin qadağan olunması prinsipi ilə birgə tətbiq olunmaqla, əlillik meyarlarına görə insanların təsnifləşdirilməsi və kateqoriyaya bölünməsini istisna edir.[3]

Bir məsələni də nəzərə almaq lazımdır ki, insanın zahiri görünüşündə mövcud olan müxtəliflik onun həyatının ayrılmaz və

---

[1] Xarici dövlətlərin konstitusiyaları. Bakı: "Qanun" nəşriyyatı, 2010, 388 s.

[2] Lorens J.C. Human rights and the inclusive society / Globalization and human rights: challenges and answers from a European perspective. Edited by J.Ballesteros, E.F.Ruiz-Galvez, P.Talavera. Dordrecht: Springer, 2012, pp. 51-74

[3] Hirschberg M., Papadopoulos Ch. "Reasonable Accommodation" and "Accessibility": Human Rights Instruments Relating to Inclusion and Exclusion in the Labor Market // Societies, 2016, Vol. 6, Issue 1, pp. 1-16

təbii hissəsidir.[1] Yəni insanların xarici görünüşünə görə, onlar barəsində mühakimə yürütmək və mənfi rəy formalaşdırmaq yolverilməz olduğu qədər, həm də insan hüquqlarının pozulması və həmin şəxslərin təhqir edilməsidir. Digər tərəfdən, insanların zahiri görünüşündə olan qüsur və ya uyğunsuzluğun sonradan hər hansı səbəblərə (məsələn, qəza halları, müharibələrin nəticələri, riskli əmək fəaliyyəti ilə məşğul olma və s.) görə baş verən dəyişikliklər nəticəsində yaranmasını da nəzərə almaq lazımdır.

Bundan əlavə, bütövlükdə insan hüquqlarına dair normalarda təsbit olunan dəyər qismində özünü büruzə verən bu prinsip fərdləri insan hüquqlarının aktiv subyekti kimi nəzərdən keçirir. Həmçinin bəşəri müxtəlifliyin təbii tərkib hissəsi sayılan əlilliyə hörmət olunması onun müxtəlif meyarlara görə "modelləşdirilməsi"ni inkar etməklə, fərdə şəxsiyyət kimi yanaşmanı tələb edir.[2]

Təhlil olunan rəhbər başlanğıcla bağlı digər mövqelərə də rast gəlmək mümkündür. Belə ki, bir sıra elmi ədəbiyyatlarda bu rəhbər başlanğıc bioetikanın tərkib hissəsi kimi nəzərdən keçirildiyi halda,[3] əlillik səbəbi ilə doğulmayan uşağın qəsdən məhv olunması, yaxud abort edilməsi digər qrup müəlliflər tərəfindən mövcud prinsipin pozuntusu kimi qiymətləndirilir.[4]

Ümumilikdə isə zahiri görünüşü, psixoloji aspektləri, yaxud əlilliyi yaradan digər səbəblərə görə heç bir fərq qoymadan bu kateqoriya şəxslərə qarşı dözümlü davranılması[5] insan hüquqları-

---

[1] Sabatello M. Children`s bioethics: the international biopolitical discourse on harmful traditional practices and the right of the child to cultural identity. Leiden: Martinus Nijhoff Publishers, 2009, 312 p.

[2] Lord J.E. Accommodating genes: disability discrimination and international human rights law / Generic discrimination. Transatlantic perspectives on the case for a European – level legal response. Edited by G.Quinn, A.D.Paor, P.Blanck. New-York: Routledge, 2015, pp. 226-242.

[3] Ouelette A. Bioethics and disability. Towards a disability – conscious bioethics. Cambridge: Cambridge University Press, 2011, 371 p.

[4] Joseph R. Human rights and the unborn child. Leiden: Martinus Nijhoff Publishers, 2009, 368 p.

[5] Амиридзе С.П. Лица с ограниченными возможностями здоровья: нравственно ли в обществе отношение к ним? // Научные исследования в образовании

na hörmət prinsipinin tərkib hissəsi olmaqla yanaşı, əxlaqi, sosial, mədəni, psixoloji hazırlığın müsbət tərəfinin göstəricisi sayılır.

**5) İmkanların bərabərliyi prinsipi.** İlk növbədə qeyd etmək yerinə düşərdi ki, istər beynəlxalq hüquqda, istərsə də dövlətdaxili qanunvericilikdə müxtəlif aspektlərdən qiymətləndirilməklə, bərabərlik termini üç mənada ifadə olunur: 1) formal və ya hüquqi bərabərlik; 2) nəticə bərabərliyi; 3) imkanların və ya strukturun bərabərliyi.[1]

*Hüquqi bərabərlik* birbaşa şəkildə ayrı-seçkiliyi qadağan etməklə, irqi, gender, əlillik və ya cinsi mənsubiyyət baxımından potensial fərqləndirmənin qarşısının alınmasına yönəlmişdir. Bu anlayış daha çox əlillərin hüquqlarının müdafiəsi ilə məşğul olan, eləcə də əlilliyin tibbi modelinin aradan qaldırılmasına çalışan təşkilat və şəxslərin tələblərinə cavab verir. Yəni sözügedən yanaşma öz-özlüyündə əlilliyin problem olmadığını ehtiva edir. Cəmiyyətin bütün üzvlərinə əmtəə, xidmət və vasitələrə bərabər çıxış imkanlarının verilməsi həmin üzvlər arasında mövcud olan fərqlərin öncədən nəzərdən keçirilməsini tələb edir. *Nəticə bərabərliyi* əlilliyin və onun nəticəsinin birgə təhlilini şərtləndirir. Bir məsələyə xüsusilə diqqət yetirmək lazımdır ki, məşğulluq sahəsində və iş yerlərində nəticə bərabərliyinin pozulması halları özünü daha qabarıq şəkildə büruzə verir. Belə ki, əlilliyi olan şəxsə və sağlam insana eyni məbləğdə əmək haqqının verilməsi əslində insana verilən bərabər dəyər və ləyaqətin bərabər qiymətləndirilməsi kimi nəzərdən keçirilsə də, nəticə etibarilə bərabərlik pozulur. Çünki verilən əmək haqqının məbləğinin bərabərliyinə baxmayaraq, onun əlilliyi olan şəxsin ehtiyaclarını tam ödəməsi mümkünsüz və qeyri-realdır. Əlil-şagird və əlil-tələbənin adi orta və ya ali məktəbdə təhsil alması da nəticə bərabərliyinin pozulmasına gətirib çıxarır. Eyni zamanda nəticə bərabərliyi bir sıra

(Приложение к журналу «Профессиональное образование. Столица»), 2011, № 5, с. 20-23.

[1] Degener Th. International Disability Law – A New Legal Subject on the Rise: The Interregional Experts' Meeting in Hong Kong, December 13-17, 1999 // Berkeley Journal of International Law, 2000, Vol. 18, Issue 1, pp. 180-195.

problemlərin də mövcudluğunu ortaya qoyur. Onlardan ən ümdəsi məsuliyyət məsələsi və dövlətin ümumi rifah halının düzgün dəyərləndirilməsidir. Digər iki anlamdan fərqli olaraq, *imkanların bərabərliyi* nəticəni nəzərə almadan yalnız şans bərabərliyini əsas götürür və müasir qlobal iqtisadi model kimi bazar iqtisadiyyatı ilə vəhdətdə nəzərdən keçirilir. Başqa sözlə, bərabər imkan cəmiyyətə daxil olma və inteqrasiyaya maneə törədən stereotip və struktur maneələri kimi başa düşülür. Həmin stereotip fəaliyyətin əsası qismində çıxış etdiyi təqdirdə, bundan imtina olunması normal haldır. Bununla belə, cəmiyyətə real çıxış və daxilolma imkanlarını ifadə edən ətraf mühitin, yaxud sosial həyatın dəyişməsini də nəzərə almaq lazımdır.

Beynəlxalq təşkilatların əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı fəaliyyətində onlar üçün bərabərliyin təmin olunmasına xüsusi diqqət yetirilməkdədir. BMT Baş Məclisinin qəbul etdiyi və 1983-1992-ci illəri əhatə edən "Əlilliyi olan şəxslər üçün BMT Onilliyi", habelə "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı"nın vəzifələrinin icrası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, Fəaliyyət Proqramında nəzərdə tutulan əsas vəzifələr qismində profilaktika, reabilitasiya və imkanların bərabərliyini xüsusilə qeyd etmək lazımdır. Çünki dinamik anlayış sayılan bərabərlik ümumi sosial inkişafa uyğun olaraq çevik şəkildə inkişaf edir. İmkanların bərabərliyi isə cəmiyyətdə mövcud olan sistemlərə əlillərin müyəssərliyinin təşviqi prosesini özündə ehtiva edir.[1]

Onu da qeyd etmək lazımdır ki, imkanların bərabərliyi kontekstində xüsusi tədbirlərin qəbulunun digər insanların hüquqlarının pozulması və onlara qarşı ayrı-seçkiliyə yol verilməsi kimi qiymətləndirilməsi düzgün addım deyildir. Bu müddəa beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş normaların tələbindən irəli gəlir. Belə ki, BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası

[1] Nagata K.K. Key issues at global and regional levels in the process towards the international Convention on the rights of persons with disabilities // Asia Pacific Disability Rehabilitation Journal, Vol. 15, No. 1, 2004, pp. 36-44

və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının 4-cü maddəsinə uyğun olaraq, əlil-işçilərlə digər işçilər arasında imkan və rəftarın effektiv bərabərliyinə yönəlmiş xüsusi müsbət tədbirlərin görülməsi digər işçilərə qarşı ayrı-seçkilik kimi qiymətləndirilə bilməz.

Digər tərəfdən, əlillərin bərabərliyinin təmin edilməsinə dair əsas standartlar qismində ayrı-seçkiliyə yol verilməməsi, insan ləyaqətinə hörmət olunması, bərabərlik və özünəməxsusluq (sərbəstlik) kimi prinsiplər çıxış edir. Lakin T.A.Lıxinanın fikrincə, əlillərlə bağlı bərabərlik prinsipi imkanların bərabərliyinin təmin olunması baxımından nəzərdən keçirilməlidir. Eyni zamanda beynəlxalq hüququn hüquq-müdafiə xarakterli səciyyəvi rəhbər başlanğıcı sayılan özünəməxsusluq prinsipi əlillər tərəfindən müxtəlif subyektiv imkanların həyata keçirilməsi zamanı onların mümkün müstəqilliyinin maksimum səviyyədə təmin olunmasını ehtiva edir.[1] Bu fikirlə razılaşmaq qeyri-mümkündür. Çünki imkanların bərabərliyi prinsipi əlillərlə cəmiyyətin digər üzvləri arasında fərqlərin və maneələri aradan qaldırılması, istənilən sahədə (məsələn, təhsil, məşğulluq, cəmiyyətdə qərarların qəbulunda iştirak, nəqliyyat vasitələrindən maneəsiz istifadə və s.) bərabər imkanların təmin edilməsini şərtləndirir. Bu bərabərlik təmin edildikdən sonra, şübhəsiz ki, şəxsin sərbəstliyi də meydana çıxır. Yəni imkanların bərabərliyi prinsipinin təmin edilməsində, ilk növbədə müvafiq hüquq normalarının qəbulu və onların realizəsi üçün lazımi şəraitin yaradılması, eləcə də bu sahədə maarifləndirmə işinin gücləndirilməsi və səlahiyyətli dövlət qurumları ilə vətəndaş cəmiyyətinin aidiyyəti institutlarının qarşılıqlı əlaqəsinin düzgün qurulmasına diqqət yetirmək lazımdır.

İnsan hüquqlarının müdafiəsinə dair ümumi və universal beynəlxalq-hüquqi sənədlərdə bərabərlik və ayrı-seçkiliyə yol ve-

---

[1] Лыхина Т.А. Права инвалидов: проблемы международно-правового регулирования и международные обязательства Российской Федерации. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. СПб., 2011, 28 с.

rilməməsinin sintezini özündə ehtiva edən və kompleks müddəa kimi qiymətləndirilən eyniadlı rəhbər başlanğıc öz əksini tapmışdır. Nümunə qismində "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Paktı göstərmək olar ki, həmin beynəlxalq-hüquqi sənədin 2-3 və 26-cı maddələri bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin beş əsas elementini müəyyən etmişdir. Həmin elementlərə hüquqlardan bərabər istifadə edilməsi prinsipi, kişi və qadının bərabərliyi prinsipindən irəli gələn ümumi bərabərlik prinsipi, hüquq norması və məhkəmə qarşısında bərabərlik prinsipi, qanun tərəfindən bərabər müdafiə prinsipi, eləcə də ayrı-seçkiliyə yol verilməməsi prinsipi aiddir.[1]

**6) Müyəssərlik prinsipi.** Müyəssərlik prinsipi ilə bağlı müddəa beynəlxalq-hüquqi baxımdan ilk dəfə olaraq, 2006-cı il Konvensiyasında hərətərəfli və kompleks şəkildə öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, müyəssərlik təkcə sözügedən beynəlxalq-hüquqi sənədlə bağlı sahə qismində deyil, eyni zamanda həmin aktda ehtiva olunan əsas prinsip və başlıca normativ istiqamətlərdən biri kimi nəzərdən keçirilməlidir. Məhz bu baxımdan, müyəssərlik prinsipi onu ifadə edir ki, əlilliyi olan şəxslər, digər insanlarla bərabər şəkildə və əsaslarla, nəqliyyat, informasiya-kommunikasiya (o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemləri), şəhər və kənd yerlərində ictimaiyyət üçün nəzərdə tutulan və əldə edilməsi imkanları açıq olan istənilən digər vasitə və xidmətlərə çıxış hüququna malikdirlər.[2]

BMT Baş Məclisinin qəbul etdiyi "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı"nda müyəssərliyin əsas və fundamental elementi kimi qərarların qəbulu prosesində əlillərin hərtərəfli iştirakına kömək göstərilməsi qeyd olunmuşdur. Buna isə həyatlarına bilavasitə aid olan dövlət siyasətinə təsir etmək iqtidarında

---

[1] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, 506 s.

[2] Halvorsen R. Introduction to the symposium: digital freedom and disability – lessons from Europe and the United States // European Yearbook of Disability Law, 2010 Vol. 2, pp. 73-76

olan əlillərin özünəyardım qruplarının həvəsləndirilməsi yolu ilə nail olmaq olar.[1]

Bundan əlavə, BMT-nin Baş Məclisinin 1994-cü ildə keçirilən 48-ci sessiyasında qəbul olunmuş "Əlillər üçün imkanların bərabərləşdirilməsinə dair Standart Qaydalar"ın 5-ci qaydasında cəmiyyətin bütün sahələrində imkanların bərabərləşdirilməsi prosesində müyəssərliyin ümumi əhəmiyyətinin tanınması xüsusilə qeyd edilməklə, bu hal özünü iki istiqamətdə büruzə verir: 1) fiziki mühitə müyəssərliyin təmin olunması üçün fəaliyyət proqramlarının təqdim olunması; b) informasiya və kommunikasiyaya müyəssərliyin təmin olunması üçün lazımi tədbirlərin görülməsi.

Onların hər biri isə özünün müxtəlif istiqamətlərinə malikdir. Belə ki, fiziki mühitə müyəssərliyə bu mühitdə iştirakla bağlı maneələrin aradan qaldırılması üçün tədbirlərin görülməsi, maddi və ya fiziki mühitin layihələndirilməsi və qurulması işlərinə cəlb olunan peşəkar memar və mühəndis-inşaatçıların əlillərə dair siyasət və müyəssərliyə nail olunması tədbirləri ilə yaxından tanış edilməsi, müyəssərliyə dair tələblərin layihələndirilmə prosesinin başlanğıcında dizayn və tikinti məsələlərinə daxil edilməsi, müyəssərliklə bağlı norma və standartların işlənib hazırlanması zamanı əlil təşkilatı ilə məsləhətləşmələrin həyata keçirilməsi kimi məsələlər aiddir.

İnformasiya və kommunikasiyaya müyəssərlik isə özünəməxsus elementləri ifadə edir. Məsələn, əlillərin, eləcə də onların ailələrinin və qanuni nümayəndələrinin bütün mərhələlərdə həmin şəxslərin diaqnozu və hüquqları, o cümlədən müvafiq xidmət və proqramları barədə məlumatlara malik olmaları; informasiya xidmətləri və sənədlərin əlillərin müxtəlif qrupları üçün əlyetərliliyinin təmin edilməsinə dair dövlətlər tərəfindən strategiyanın işlənib hazırlanması; kar uşaqların təhsilində, onların ailələri və cəmiyyətlərində dil işarələrindən istifadəyə diqqət yetirilməsi; əlilli-

[1] Nagata K.K. Key issues at global and regional levels in the process towards the international Convention on the rights of persons with disabilities // Asia Pacific Disability Rehabilitation Journal, Vol. 15, No. 1, 2004, pp. 36-44

yi olan şəxslərin digər kommunikasiya ilə bağlı ehtiyaclarının nəzərə alınması; xidmətlərin əlyetərliliyinin təmini üçün kütləvi informasiya vasitələri, xüsusilə, televiziya, radio və qəzetlərin dövlət tərəfindən təşviq olunması; geniş ictimaiyyətə təqdim olunan yeni kompüterləşdirilmiş informasiya və xidmət sistemlərinin əlillər üçün müyəssərlik tələblərinə uyğunlaşdırılması; informasiya xidmətlərinin əlyetərliliyinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi zamanı əlil təşkilatları ilə məsləhətləşmələrin aparılması və s.

Bunların hər biri də özünəməxsus tərkib elementlərinə malikdir. Məsələn, fiziki mühitdə iştirakla bağlı maneələrin aradan qaldırılması cəmiyyətin bütün sahələrində, o cümlədən mənzil və binalara daxilolma, ictimai və nəqliyyatın digər növlərinin xidmətlərindən yararlanma, küçə və digər bayır mühitindən istifadə ilə bağlı fiziki maneələrin ləğvini nəzərdə tutur. Bu hal həm zəruri qanunvericilik aktlarının və standartların qəbulu, həm də onların icrası üçün praktiki tədbirlərin görülməsi kimi hərəkətləri əhatə edir. Bundan əlavə, informasiya xidmətləri və sənədlərin əlillərin müxtəlif qrupları üçün əlyetərliliyinin təmin edilməsinə dair dövlətlər tərəfindən strategiyanın işlənib hazırlanması vəzifəsi tələb edir ki, Brayl əlifbası, audio vasitələr, irihəcmli çap üsulları və digər müvafiq texnologiyalar görmə qüsurlu şəxslərin yazılı informasiya və sənədlərə çıxışının təmini üçün istifadə edilməlidir. Şübhəsiz ki, eşitmə qüsurlu və ya çətin qavrayan şəxslər üçün səsli informasiyaya çıxışın təmini üçün də analoji qaydalar nəzərdə tutulur. Kar uşaqların təhsilində, onların ailələri və cəmiyyətlərində dil işarələrindən istifadəyə diqqət yetirilməsi isə göstərir ki, dil işarələrinin təcrüməsinə dair xidmətlərdən digər insanlar arasında ünsiyyətin daha da asanlaşdırılması məqsədilə istifadə edilməlidir.

Bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır ki, qeyd olunan müddəalar bütövlükdə dövlətlərin öhdəlikləri kontekstində nəzərdən keçirilməlidir.

**7) Kişi və qadınların bərabərliyi prinsipi.** İlk növbədə qeyd etmək lazımdır ki, bu məsələyə insan hüquqlarının sahəvi

prinsipi kimi bərabərlik prinsipinin təsir qüvvəsi, xüsusilə onun cinsi bərabərlik elementi kontekstində yanaşmaq yerinə düşərdi. Çünki insan hüquqlarının qorunmasına dair qəbul olunmuş ümumi beynəlxalq sənədlərdə bərabərlik kontekstində cinsi bərabərliyin təmin olunması ilə bağlı müddəalar ehtiva edilmişdir. Nümunə qismində 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" (maddə 2), 1966-cı ildə qəbul olunmuş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" (maddə 2) və "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" (maddə 2), "İnsan hüquqları haqqında" 1969-cu il Amerikaarası Konvensiya (maddə 1), "İnsan və xalqların hüquqlarına dair" 1981-ci il Afrika Xartiyası (maddə 2), "İslamda insan hüquqlarına dair" 1990-cı il Qahirə Bəyannaməsi (maddə 1) və digər beynəlxalq sənədləri göstərmək olar. Bəzi hallarda beynəlxalq tənzimetmə sferasında gender bərabərliyinə dair "qeyri-standart" yanaşmalara da rast gəlmək mümkündür. Məsələn, "İslamda insan hüquqlarına dair" 1990-cı il Qahirə Bəyannaməsinin 6-cı maddəsində kişi-qadın bərabərliyi insan ləyaqəti baxımından nəzərdən keçirilir.

Beynəlxalq təşkilatların fəaliyyətində, həmçinin ayrı-ayrı fəaliyyət sferalarında gender bərabərliyinə xüsusi önəm verilməkdədir. Belə ki, Avropa İqtisadi Birliyi Şurasının "İşəgötürmə, peşə təhsili, xidmət üzrə irəliçəkmə və əmək şəraiti haqqında" 1976-cı il tarixli 207 nömrəli Direktivi, eləcə də həmin sənədə dəyişiklikləri nəzərdə tutan Avropa İttifaqı Parlamenti və Şurasının birgə qəbul etdiyi 2002-ci il tarixli Direktivində qadın-kişi bərabərliyinin formalaşdırılmasını məqsəd və vəzifə kimi müəyyən etmişdir.

Əksər dövlətdaxili qanunvericilik aktlarında olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyası da kişi-qadın bərabərliyinə (maddə 25.2) dair müddəanı özündə ehtiva edir ki, bu da formal və ya hüquqi bərabərliyi nəzərdə tutur.

Bununla belə, bir məsələyə də diqqət yetirmək lazımdır ki, gender bərabərliyi təkcə hüquqi baxımdan deyil, həm də psixoloji kontekstdən araşdırılmalıdır. Çünki hüquq normalarında qadın-

kişi bərabərliyinə dair istənilən sayda müddəaların təsbit olunmasına baxmayaraq, real həyatda hüquqları pozulan tərəf qismində əksərən qadınlar çıxış edir. Məhz bu baxımdan, psixoloji baxımdan makro, mezo və mikro çərçivələrdə, habelə ayrı-ayrı şəxsiyyətlər səviyyəsində qiymətləndirilən gender münasibətləri geniş mənada sosial baxımdan və cəmiyyətdəki rolundan asılı olaraq, müxtəlif tərəflərdən təhlil olunur: 1) dövlət nümayəndələri və gender qrupları arasında özünü büruzə verən, habelə cəmiyyətdə sosial baxımdan təşkil olunmuş münasibətlər; 2) müxtəlif gender qrupları arasında münasibətlər; 3) ayrı-ayrı cinsin subyektləri arasında təzahür edən cinslərarası münasibətlər; 4) konkret cinsin nümayəndəsi olaraq şəxsiyyətin özünə münasibəti.[1]

Göründüyü kimi, kişi-qadın bərabərliyi induksiyadan deduksiyaya doğru, yəni cəmiyyətin məsələyə münasibətindən başlayaraq, fərdin özünə münasibəti və verdiyi qiymətə qədər keçən uzunmüddətli bir yoldur. Bu istiqamətdə bərabərliyin və bərabərhüquqluluğun təmin olunması isə son nəticədə cinslərarası dözümlülüyə əsaslanır.

Müasir dövrdə təkcə cinslərarası bərabərliyin olması kifayət etmir. Eyni zamanda hər hansı keyfiyyəti (məsələn, əlilliyinə görə) baxımından kişi-qadın bərabərliyinin təmini probleminin həlli də önə çəkilmişdir. Bunu isə həm müxtəlif spektrli ictimai münasibətlərdə baş verən çatışmazlıq və nöqsanların aradan qaldırılması, həm də bu sahədə olan hüquq normalarının işlək mexanizminin düzgün qurulması tələb edir. Qeyd olunanları nəzərə alaraq, tədqiqatın obyekti kimi əlil-kişi və əlil-qadınlar arasında bərabərliyin təmin olunması üzərində dayanmağımız daha düzgün olardı. Məsələnin birinci tərəfi, yəni əlil-kişi və əlil-qadınlar arasında bərabərliyin təmininə mane olan ictimai münasibətlərdəki nöqsan və çatışmazlıqlar ən problemli məqamlardan biridir. Yəni əksər hallarda cəmiyyət tərəfindən əlil-qadınlar əlil-kişilərə nisbətən daha aşağı səviyyədə dəyərləndirilir, alçaldılır, eləcə də bir

---

[1] Клецина И.С. Психология гендерных отношений. Автореф. дисс. на соиск. учен. степ. докт. психолог. наук. Санкт-Петербург, 2004, 39 с.

sıra hüquqlardan (məsələn, təhsil hüququ, əmək hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq hüququ və s.) məhrum olunmasına şərait yaradılır. Əlil-qadınlar həm də məişət zorakılığının subyekti qismində çıxış edirlər ki, bu da onların cəmiyyətə çıxış imkanlarını və cəmiyyətə inteqrasiyasını tamamilə məhdudlaşdırmaq həddinə, əksər hallarda onların cəmiyyətdən təcrid olunmaqla tək və köməksiz qalmasına gətirib çıxarır.[1] Hətta "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının 6.1-ci maddəsində *"İştirakçı-dövlətlər əlil qadın və qızların çoxsaylı ayrı-seçkiliyə məruz qaldığını etiraf edir"* müddəası da artıq bunun beynəlxalq birlik tərəfindən təsdiqi sayılmalıdır.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq hüquq normaları təkcə gender bərabərliyi kontekstində kişi və qadınların bərabərliyini müəyyən etmir, eyni zamanda müxtəlif vəziyyətlərdə (o cümlədən, əlillik halında) olan əks cinsin nümayəndələri üçün imkan və rəftarların bərabərləşdirilməsinə səy göstərir. Belə ki, BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının 4-cü maddəsinə uyğun olaraq, əlil kişi və qadın işçilər üçün imkan və rəftarın bərabərliyinə hörmət olunmalıdır.[2]

İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsində müasir tendensiyalardan biri də əlil-qadınlarla bağlı məsələlərin ayrıca norma şəklində təsbit olunmasıdır. Hətta "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının əlillərlə bağlı əvvəlki beynəlxalq sənədlərlə müqayisədə gətirdiyi yeniliklərdən biri də əlil-qadınlara dair xüsusi normanın təsbit edilməsidir. Belə ki, Konvensiyanın 6-cı maddəsi məhz həmin məsələlərin hüquqi təminatına yönəlmişdir ki, bu da əlil-qadınların hüquqlarının qorunması, müdafiəsi və realizəsi kontekstində dövlətlərin öhdəlik-

---

[1]Ellis B., Bashall R. Understanding our history the personal is political / Disabled women and domestic violence: responding to the experiences of survivors. Edited by R.K.Thiara, G.Hague, R.Bashall, R.Ellis, A.Mullender. Philadelphia: Jessica Kingsley Publishers, 2012, pp. 82-105

[2] Bronstein A. International and comparative labour law: current challenges. Geneva: Palgrave Macmillan, 2009, 320 p.

lərini özündə ehtiva edir.[1] Qeyd olunanları nəzərə alaraq, adıçəkilən öhdəlikləri aşağıdakı qaydada müəyyənləşdirmək olar:

- əlil-qadınların bütün insan hüquqlarını və əsas azadlıqlarını tam və bərabər həyata keçirməsini təmin etmək üçün tədbirlərin görülməsi. Bu halda söhbət bütövlükdə insan hüquqlarının müdafiəsi sahəsində bərabərliyin təmini ilə bağlı görülən hərtərəfli (qanunvericilik, institusional, xüsusi və s.) tədbirlərin həyata keçirilməsindən gedir. Məhz həmin ümumi qaydalara əsaslanmaqla, kişi-qadın bərabərliyinin əlil-kişi və əlil-qadınların bərabərliyinə təsiri önə çəkilir. Yəni burada söhbət, ilk növbədə, qadınlarla kişilər arasında (o cümlədən, əlil-qadınlarla əlil-kişilər arasında) bərabərliyin formalaşdırılması üçün beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası, zəruri dövlətdaxili qanunvericilik aktlarının qəbulu, beynəlxalq və dövlətdaxili nəzarət mexanizmlərinin effektivliyinin təmin olunmasından gedir. Digər tərəfdən, bu hal əlil-qadınların cəmiyyətə inteqrasiyası və adaptasiyası, özünəinam və özünütəsdiq hisslərinin formalaşması üçün zəmin yaradır. Bu zəmin isə əlillərin hüquqlarının müdafiəsi kontekstində və bazasında əlil-qadınlarla bağlı xüsusi normaların qəbulunun zəruriliyini şərtləndirir. Ümumi norma olaraq isə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1979-cu il Konvensiyasının 1-ci maddəsində öz əksini tapan və cinsi əlamətə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyəti özündə birləşdirən ayrı-seçkilik anlayışını əldə rəhbər tutmaq lazımdır. Çünki məhz bu normada gender bərabərsizliyi kontekstində bütün sahələrdə, yəni siyasi, mülki, iqtisadi, sosial, mədəni və digər sahələrdə insan hüquqlarının və əsas azadlıqların zəiflədilməsi, yaxud onun minimuma endirilməsi ayrı-seçkiliyə yol açan əsas kimi qiymətləndirilir.

- əlil-qadınların qeyd olunan sənəddə ehtiva olunmuş insan hüquqlarını və əsas azadlıqlarını həyata keçirməsinə və realizə etməsinə zəmanət vermək məqsədilə, onların hərtərəfli inkişafının təmin olunması, vəziyyətlərinin yaxşılaşdırılması, eləcə də hüquq

[1] www.un.org/disabilities/convention/conventionfull.shtml

və imkanlarının genişləndirilməsi üçün bütün lazımi tədbirlərin görülməsi. Bu öhdəliyin həyata keçirilməsi isə bilavasitə 2006-cı il Konvensiyasının özü ilə bağlıdır. Çünki həmin beynəlxalq-hüquqi sənəddə birbaşa olaraq, əlillərin subyektiv imkanları kimi təsbit olunmuş müddəalar, eyni zamanda əlil-qadınlara da aiddir. Bununla da həmin hüquqların əlil-qadınlara münasibətdə təminatı təxirəsalınmaz vəzifədir. Həmçinin bu öhdəliyin yerinə yetirilməsi zamanı əsas diqqət əlil-qadınlarla əlil-kişilər arasında bərabərliyin təmin olunmasına, habelə cəmiyyətə inteqrasiya və adaptasiya baxımından onlar üçün bərabər imkan və şəraitin yaradılmasına yönəlməlidir.

Əlil-qadınlara qarşı ayrı-seçkiliyin qadağan olunması, həmçinin sahəvi nəzarət mexanizmlərinin sənədlərində də öz əksini tapmışdır. Belə ki, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitənin "Əlil-qadınlar haqqında" 1991-ci il tarixli 18 nömrəli Ümumi Tövsiyəsində əlil-qadınlara, əsas etibarilə iki kontekstdə yanaşılmışdır: 1) xüsusi yaşayış və həyat tərzləri baxımından ikiqat ayrı-seçkiliyə məruz qalan və bu proseslərdən əziyyət çəkən sosial təbəqə kimi; 2) əhalinin xüsusilə həssas hissəsini təşkil edən sosial qrup kimi.

Bundan əlavə, Komitənin "Qadınlar və sağlamlıq haqqında" 1999-cu il tarixli 24 nömrəli Ümumi Tövsiyəsi qadınları kişilərdən bir sıra meyarlar (bioloji, psixo-sosial, sosial-iqtisadi) baxımından fərqləndirməklə, onların sağlamlığının qorunmasına dair ehtiyac və tələbatlarına həssaslıqla və diqqətlə yanaşılmasının zəruriliyini özündə ehtiva edir. Eyni zamanda Tövsiyənin 12 (1)-ci maddəsinin 25-ci bəndi bu sahədə mövcud olan problemlər və onların aradan qaldırılması yollarını göstərmişdir:

1) bütün yaşlarda olan əlil-qadınların səhiyyə müəssisələrinə fiziki çıxış imkanlarında müəyyən problemlərin yaranması;

2) gender bərabərsizliyi, zorakılıq, yoxsulluq, silahlı münaqişə, təxliyə və sosial məhrumiyyətlərdən irəli gələn digər qeyri-mütənasib formalardan əziyyət çəkməsi baxımından, eləcə də risklərlə üzləşmə ehtimalının yüksək səviyyədə olmasını nəzərə

alaraq, psixi pozuntuları olan qadınların xüsusilə həssas təbəqəni təşkil etməsi;

3) tibbi xidmətlərin əlil-qadınların ehtiyaclarına, eləcə də onların hüquq və ləyaqətinə hörmət olunması ilə uyğunluğun təmin olunması üçün zəruri tədbirlərin görülməsi.

Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə həm insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq-hüquqi aktlar, həm də əksər ölkələrin milli qanunvericiliyində gender bərabərliyinin pozulması, habelə cinsi fərqlərə görə qadınlara qarşı ayrı-seçkilik hallarına yol verilməsi cinayət məsuliyyəti də daxil olmaqla, konkret hüquqi məhrumiyyətlərin yaranmasına gətirib çıxarır.[1] Bununla əlaqədar, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsinə əsasən, bərabərlik hüququnun pozulması hüquqazidd və ictimai-təhlükəli əməl sayılmaqla, cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

Bundan əlavə, gender bərabərliyinin pozulması kontekstində, əlil-kişi və əlil-qadınların bərabərsizliyinin qadağan olunması ilə bağlı müddəalar insan hüquqlarının müdafiəsinə dair bir sıra nəzarət mexanizminin, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında *(məsələn, "Abdulaziz, Cabales və Balkandali Birləşmiş Krallığa qarşı" (1985),*[2] *"Hoogendijk Niderlanda qarşı" (2005)*[3] *və s.)* öz əksini tapmışdır.

**8) Əlil-uşaqların inkişaf edən qabiliyyətinə və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət prinsipi.** Sözügedən prinsipin mahiyyətinin düzgün anlaşılması və təhlili üçün, ilk növbədə uşaq və əlil-uşaq terminlərinin düzgün qiymətləndirilməsi vacibdir. Belə ki, "Uşaq hüquqları haqqında" 1989-cu il

---

[1] Бондарь Н.С. Гражданин и публичная власть: конституционное обеспечение прав и свобод в местном самоуправлении. Учебное пособие. М.: Изд. дом «Городец», 2004, 352 с.

[2] International women`s rights cases. Edited by R.Emerton, K.Adams, A.Byrnes, J.Connors. London: Cavendish Publishing Limited, 2005, 779 p.

[3] Henrard K. A patchwork of "successful" and "missed" synergies in the jurisprudence of the ECHR / Synergies in minority protection European and international law perspectives. Edited by K.Henrard, R.Dunbar. Cambridge: Cambridge University Press, 2008, pp. 314-364

Konvensiyasının 1-ci maddəsinə uyğun olaraq, fərdin uşaq statusu əldə etməsi üçün iki əsas şərt müəyyən edilmişdir:

1. Şəxsin 18-dən aşağı yaş həddində olması;

2. Aidiyyəti dövlətdaxili qanunvericilikdə yetkinlik yaşına daha öncə çatmış hesab olunmaması.[1]

Əlil-uşaqlara gəldikdə, bununla bağlı, ilk növbədə, "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının 7-ci və "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyasının 23-cü maddələrini xüsusilə önə çəkmək lazımdır.[2] Belə ki, 2006-cı il Konvensiyasında əlil-uşaqların anlayışı verilməsinə baxmayaraq, bununla bağlı sözügedən beynəlxalq-hüquqi sənədin 1-ci maddəsində ehtiva olunmuş "əlilliyi olan şəxs" kateqoriyasının izahına diqqət yetirmək lazımdır. Bu halda belə qənaətə gəlmək mümkündür ki, əlil-uşaq, müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar hesab olunur. Lakin 1989-cu il Konvensiyasının 23-cü maddəsində əlil-uşaqlar yalnız əqli və ya fiziki çatışmazlığı olan insanlar dairəsinə aid edilir. Qeyd olunanları nəzərə alaraq, fikrimizcə, əlil-uşaqların statusunun müəyyənləşdirilməsi zamanı 2006-cı il Konvensiyasının müddəalarının nəzərə alınması daha düzgün olardı. Çünki bu kateqoriyadan olan şəxslərin vəziyyətinin yüngülləşdirilməsi baxımından, bu beynəlxalq-hüquqi sənədin tənzimetmə sferası daha genişdir. Bu isə psixi, yaxud ruhi pozuntuları olan uşaqların müdafiəsinin tənzimetmədən kənarda qalması problemini aradan qaldırır. Fikrimizcə, məhz bununla əlaqədar, 1989-cu il Konvensiyasının 23-cü maddəsində göstərilən şəxsləri "əqli, yaxud fiziki çatışmazlığı olan uşaq", 2006-cı il Konvensiyasının 7-ci maddəsində təsbit olunan insanları isə "əlil-uşaq" adlandırmaq tamamilə yerinə düşərdi. Çünki birinci termin əlil-uşaqla bağlı bütün meyarları tam şəkildə özündə əks etdirmir. Lakin gələcəkdə 2006-cı il Konvensiyasının

---

[1] Beynəlxalq sənədlər toplusu. I cild. Bakı: "Qanun" nəşriyyatı, 2008, 960 s.

[2] Yenə orada, s.48-49, 54-55

da təkmilləşdirilməyə ehtiyacı vardır. Belə ki, bir sıra xəstəliklərin (məsələn, HİV, hepatit, cüzam, xüsusilə təhlükəli sayılan yoluxucu xəstəliklər və s.) əlilliyin təyin olunması üçün meyarı kimi müəyyən edilməməsi müasir dövrdə əsas çatışmazlıqlardan biridir və həmin şəxslərin hüquqlarının pozulması qismində nəzərdən keçirilməlidir.

Bununla belə, 1989-cu il Konvensiyasının da əhəmiyyətini kiçiltmək olmaz. Çünki qəbul olunduğu dövr üçün ilk dəfə əlil-uşaqların müdafiəsinə dair genişhəcmli normaları özündə ehtiva etmişdir. Həmin normaları ümumiləşdirərək aşağıdakı qaydada təsnifləşdirmək olar:

1) əlil-uşaqların ləyaqətinin təmin olunması, özünəinam hisslərinin artırılması və cəmiyyət həyatında onların fəal iştirakını asanlaşdıran şəraitdə tam dəyərli və ləyaqətli həyat sürmələri;

2) əlil-uşaqların qayğı hüququnun təmin edilməsi kontekstində bununla əlaqədar qarşı tərəfin (yəni valideyn, qəyyum, himayəçi və s.) öhdəliklərinin müəyyənləşdirilməsi;

3) əqli, yaxud fiziki çatışmazlığı olan uşaqların bir sıra subyektiv imkanlardan (məsələn, təhsil hüququ, peşə hazırlığı hüququ, tibbi xidmət almaq hüququ, sağlamlığın qorunması və bərpası hüququ, əmək hüququ, istirahət hüququ, şəxsiyyətin püxtələşməsinə gətirib çıxaran mədəni və mənəvi inkişaf hüququ) spesifik əlamətlər nəzərə alınmaqla, istifadəsi ilə bağlı lazımi şəraitin yaradılması;

4) əlil-uşaqlarla bağlı müxtəlif məsələlər üzrə məlumat mübadiləsi və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına xüsusi diqqət yetirilməsi.

Göründüyü kimi, 1989-cu il Konvensiyası əlil-uşaqların müdafiəsi ilə bağlı səciyyəvi cəhətləri və ayrı-ayrı subyektiv imkanların realizəsini nəzərdə tutsa da, 2006-cı il Konvensiyası məsələyə daha qlobal səviyyədə yanaşmışdır. Bundan əlavə, 1989-cu il Konvensiyasında uşaqların əlilliyinə dair meyarlar tibbi modelə əsaslandığı halda, 2006-cı il Konvensiyası tibbi və sosial modellərin məcmusunu, habelə psixoloji amilləri (məsələn,

özünəinam və özünütəsdiq hisslərinin formalaşması, bacarıq və vərdişlərini realizə etmək imkanına malikolma və s.) əsas götürməklə, mövcud məsələyə kompleks olaraq yanaşmışdır. Əlil-uşaqlarla bağlı Konvensiyanın 7-ci maddəsi isə əlillərin beynəlxalq-hüquqi müdafiəsinə aşağıdakı yenilikləri gətirmişdir ki, bu da müvafiq kateqoriya şəxslərin subyektiv imkanlarının qorunması kontekstində dövlətlərin öhdəlikləri qismində özünü büruzə verir:

a) əlil-uşaqların digər uşaqlarla bərabərliyinin təmini;

b) həmin bərabərlik çərçivəsində bütün insan hüquqlarını və əsas azadlıqlarını tam həyata keçirməsinə dair zəruri tədbirlərin görülməsi;

c) əlil-uşaqların bütün hərəkətləri zamanı onların ali maraqlarına diqqət ayrılması;

d) yaşlarına və yetkinlik səviyyələrinə uyğun olan tərzdə fikirlərini sərbəst ifadə etmək və bu hüquqların realizəsi üçün zəruri yardımlar almasının təminatı.

Müqayisəli təhlildən belə qənaətə gəlmək olar ki, 2006-cı il Konvensiyası əlil-uşaqlarla bağlı məsələyə daha qlobal və kompleks yanaşmışdır. Məhz bununla əlaqədar, bu sahədə araşdırma aparan bəzi müəlliflərin fikrincə, qeyd olunan hüquqlarının mövcudluğuna və bununla əlaqədar dövlətlərin üzərinə müvafiq öhdəliklərin qoyulmasına baxmayaraq, əlil-uşaqların hüquqlarının qorunması və müdafiəsi, əsas etibarilə, dörd mühüm elementlə (qayğı və müdafiə; iqtisadi təhlükəsizlik; əlil-uşaqların sağlamlığı və onlara dəstək göstərilməsi; əlil-uşaqların cəmiyyətə daxil olması) sıx şəkildə bağlılığa malikdir. Həmin elementlərin hər biri isə öz-özlüyündə müəyyən məzmunu ifadə edir. Bunu elementlərin təhlili prosesində də aydın şəkildə görmək olar:

1) Əlil-uşaqlara qayğı və müdafiənin mahiyyəti ondan ibarətdir ki, bu kateqoriyaya aid edilən hər bir insan həyat və sağlamlığının qorunması, istismardan, eləcə də sui-istifadə hallarından və zəruri ehtiyacların (məsələn, qida, mənzil yaxud sığınacaq, təhsil və s.) təminatına olan etinasızlıqdan müdafiə hüququ-

na malikdir. Adekvat olmayan qayğı və müdafiə əlil-uşaqların zəif sağlamlıq, sosial təcrid və yeksənək həyat tərzi, rifah halının aşağı səviyyədə olması və sui-istifadə kimi məsələlərin daxil olduğu qənaətbəxş olmayan ömür sürməsinə gətirib çıxarır.

2) Qayğı və müdafiə iqtisadi təhlükəsizliklə bilavasitə sıx bağlılığa malikdir. Belə ki, qayğı və müdafiə əlil-uşağın yaşadığı ailələrin iqtisadi vəziyyətini, yaxud dövlət tərəfindən təmin olunan ehtiyatları şərtləndirir. Digər tərəfdən, iqtisadi təhlükəsizlik yoxsulluq vəziyyətində olan ailələrə münasibətdə dövlət tərəfindən sosial müdafiə proqramlarının icrasını zəruri edir.

3) Əlil-uşaqlarla bağlı qayğı və müdafiə siyasətinin düzgün qurulması, habelə onların minimum zəruri təminatları üçün vacib olan iqtisadi imkanların yetərliliyi bir sıra vəzifələrinin realizəsini tələb edir. Həmin vəzifələrə əlil-uşaqların sağlamlığının qorunması, onlara hərtərəfli dəstək göstərilməsi, habelə beynəlxalq hüquq normalarının tələbləri və milli qanunvericiliyin müddəaları çərçivəsində onlara təhsil imkanlarının verilməsi (məsələn, inkluziv təhsil və s.) daxildir.

4) Yuxarıda qeyd olunan hər üç elementin birgə təsiri və mexanizmi son nəticədə əlil-uşaqların sosial baxımdan cəmiyyətə daxil olması və inteqrasiyası, o cümlədən onların tam adaptasiyasında kəsişir və bir-birinə nüfuz edir. Sözügedən əlamət əlil-uşaqların öz icma və cəmiyyətlərində tanınmaq və hərtərəfli üzvü olmaq, eləcə də yaşayış tərzinə dair qərarların qəbulunda aktiv səs hüququna malik olmaq hüququnu özündə daşıyır. Bu element isə özlüyündə iki əsas şərtin mövcudluğunu ehtiva edir. Bunlardan birincisi əlil-uşaqların öz ailə və cəmiyyətlərində digər uşaq və yetkinlik yaşına çatmayan insanlarla bərabər şəkildə sosial iştirak üçün bütün imkanlara malik olması ilə bağlıdır. İkinci şərt isə digər uşaqlarla müqayisədə bu kateqoriyadan olan şəxslərə qarşı cəmiyyət üzvləri tərəfindən ayrı-seçkiliyə yol verilməməsini müəyyən edir.[1]

---

[1] Shang X., Fisher K.R. Disability policy in China: child and family experiences. New-York: Routledge, 2016, 256 p., pp.14-22

Əlillərin hüquqlarının müdafiəsinə dair sahəvi rəhbər başlanğıcların, o cümlədən əlil-uşaqlarla bağlı sözügedən rəhbər başlanğıcın təhlili zamanı müvafiq beynəlxalq nəzarət mexanizmlərinin (xüsusilə Uşaq Hüquqları Komitəsinin) də normayaradıcılıq və digər fəaliyyəti nəzərə alınmalıdır. Çünki Uşaq Hüquqları Komitəsi uşaqlarla bağlı daha konkret və institusional rəhbər başlanğıcların formalaşmasına müsbət təkan vermişdir. Belə ki, Uşaq Hüquqları Komitəsi ayrı-seçkiliyin yolverilməzliyini (maddə 2), uşaqlar barəsində bütün tədbirlərin yerinə yetirilməsi zamanı əsas diqqətin uşaqların mənafelərinə yönəlməsi (maddə 3), yaşamaq, sağ qalmaq və inkişaf hüququnu (maddə 6), baxışlarını sərbəst ifadə etmək azadlığını (maddə 12) Konvensiyanın ümumi prinsipləri kimi nəzərdən keçirmişdir. Yəni Komitənin mövqeyinə görə, ümumi prinsiplər onu ifadə edir ki, qeyd olunan maddələr Konvensiyada təsbit olunmuş subyektiv imkanların implementasiyası və həyata keçirilməsində tam şəkildə ifadə olunmalıdır. Bu isə uşaqlardan sui-istifadə, habelə insanlara baxımsızlıq və etinasızlıq hallarının qarşısının alınmasına yönəlmiş bir sıra öhdəlik xarakterli müddəaları müəyyən edir:

1) Uşaqlara qarşı ayrı-seçkiliyin qadağan olunması kontekstində dövlət özünün uşaqlardan sui-istifadə və onlara etinasızlığın qarşısının alınmasına dair inkişaf və implementasiya proqramlarında həssas uşaq qruplarına xüsusi diqqət yetirilməlidir. Həssas uşaq qruplarına isə irqi, etnik, dini və ya dil azlıqlarına mənsub uşaqlar, əlil-uşaqlar və qız uşaqları aid edilir.

2) Uşaqlara dair aktlarda, eləcə də nəzarət mexanizmlərinin qərar və hərəkətlərində uşağın mənafelərinin daha yaxşı təmin edilməsinin universal və konkret anlayışı yoxdur. Bununla belə, istənilən halda uşağın mənafeyinin daha yaxşı təmin edilməsi üstünlük təşkil edən amillər sırasında ilkin yeri tutmalıdır. Belə ki, sui-istifadə və etinasızlığa qarşı uşağın müdafiəsinə dair zəruri tədbirlərin görülməsi zamanı valideynlərin rolu nəzərə alına bilər, lakin effektiv şəkildə müdafiə olunması üçün uşağın maraq və mənafeyi həlledici olmalıdır.

3) "Uşaq hüquqları haqqında" Konvensiyanın 12-ci maddəsində ehtiva olunmuş öz baxışlarını sərbəst ifadə etmək azadlığı, sui-istifadə və etinasızlıq hallarından uşağın müdafiəsi hüququ təkcə məhkəmə proseslərinə tətbiq olunmur, eyni zamanda profilaktika siyasətinin yerinə yetirilməsinə də şamil edilir. Bir sözlə, uşaq qərarın qəbulu və siyasətin işlənib hazırlanmasında maksimum dərəcədə iştirak etməlidir.[1]

Bundan əlavə, əlil-uşaqların üzləşdiyi əsas problemlərdən biri də onların təhsil hüququnun realizəsi zamanı uğursuzluqlara düçar olması və müəyyən fərqləndirmələrə məruz qalmalıdır. Şübhəsiz ki, bu hal ayrı-ayrı regionlar, xüsusilə mühafizəkar meyillərin və digər sosial normaların (məsələn, tayfa adətləri, əlil-uşaqları cəmiyyətin "lazımsız və xəstə" ünsürü kimi nəzərdən keçirən baxışlar və s.) üstünlük təşkil etdiyi ərazilər üçün daha spesifikdir. Lakin beynəlxalq-hüquqi səviyyədə əlil-uşaqların təhsil hüququnun realizəsinin prinsipləri formalaşmışdır. Belə ki, ilk növbədə, deduksiya metoduna istinad etsək, beynəlxalq hüquq normalarında əlil-uşaqların təhsil hüququnun təmini ilə bağlı səciyyəvi rəhbər başlanğıcların (məsələn, bərabərlik, inkluzivlik, ayrı-seçkiliyin yolverilməzliyi və s.) hüquqi təsdiqinə dair qənaətə gəlmək olar.[2] Həmin prinsiplər istər insan hüquqlarının qorunmasına dair ümumi beynəlxalq sənədlər (məsələn, 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Paktı, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Paktı, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası, "Uşaq hüquqları haqqında" 1989-cu il BMT Konvensiyası və s.), istərsə də təhsil hüququ sa-

---

[1] Doek J.E., Kimberly S.C. The child`s right to freedom from violence: The UN Convention to the rights of the child and UNCRC General Comment 13 / Child abuse and neglect worldwide. Volume 1. Understanding, defining and measuring child maltreatment. Edited by J.R.Conte. Santa-Barbara, 2014, pp. 205-240

[2] Егупова М.А. Принципы равенства, инклюзии и недискриминации в реализации права на образование лицами с ограниченными возможностями здоровья // Журнал «Человек. Сообщество. Управление», 2010, № 2, с. 112-121

həsində sahəvi beynəlxalq aktlara ("Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" 1960-cı il Konvensiyası, "Texniki və peşə təhsili haqqında" 1989-cu il Paris Konvensiyası, "Hamı üçün təhsil haqqında" 1990-cı il Ümumi Bəyannamə və s.) əsaslanmaqla, əlillərin, xüsusilə əlil-uşaqların təhsilinə dair rəhbər başlanğıclar formalaşdırmışdır. Şübhəsiz ki, əlil-uşaqların təhsilinə dair beynəlxalq hüquq normalarının (məsələn, 1982-ci il tarixli "Əlillərlə bağlı Ümumdünya Fəaliyyət Proqramı", 1993-cü il tarixli "Əlillər üçün bərabər imkanların təmin olunmasına dair Standart Qaydalar", "Xüsusi ehtiyacları olan uşaqların təhsili sahəsində prinsiplər, siyasət və praktiki fəaliyyət haqqında" 1994-cü il Salamanka Bəyannaməsi və s.) bu prinsiplərinin hüquqi bazasının möhkəmləndirilməsi sahəsində rolunu da xüsusilə qeyd etmək lazımdır.

Beləliklə, əlil-uşaqların təhsilinə təminat verən beynəlxalq hüquq normalarının və beynəlxalq standartların məcmusunu aşağıdakı şəkildə xarakterizə etmək mümkündür:

- Təhsil sahəsində beynəlxalq müqavilə normalarının ümumi inkişaf tendensiyası müvafiq kateqoriya şəxslərin təhsil sferasında əsas inkişaf istiqamətlərini müəyyən etməkdən ibarətdir.
- Xüsusi statusa malik uşaqların təhsil hüququnun təminatına dair normaların beynəlxalq-hüquqi sənədlərində təsbit olunmasının əsas istiqaməti hər bir kəsin təhsil hüququnu özündə əks etdirməsi, habelə sağlamlıq imkanları məhdud yetkinlik yaşına çatmayan şəxslər və əlil-uşaqlar üçün əlavə subyektiv imkanlar nəzərdə tutmasıdır.
- Ayrı-seçkiliyin yolverilməzliyi, insanların hüquqi statusunda istənilən fərqləndirmənin qadağan olunması və hər bir kəsin birmənalı olaraq hüquq və azadlıqlara malik olması kimi məsələlər təhsil sahəsində qəbul olunan beynəlxalq sənədlərdə təsbit olunmaqla, həmin sənədlərin icrası kontekstində onların realizəsi təmin edilir.
- Sağlamlıq imkanları məhdud uşaqların və əlil-uşaqların təhsil hüququnun beynəlxalq-hüquqi normativ əsası ilə bağlı spe-

sifik cəhət ondan ibarətdir ki, həmin şəxslərin bu hüququna dair əksər müddəalar tövsiyə xarakterli normalar formasında özünü büruzə verir.[1]

Onu da qeyd etmək lazımdır ki, 2006-cı il Konvensiyasından başqa, digər beynəlxalq sənədlərdə də əlillərin müdafiəsinə dair çoxsaylı rəhbər başlanğıclara rast gəlinir. Həmin prinsipləri tənzimetmə predmetindən asılı olaraq, iki hissəyə ayırmaq olar. Birinci halda, bu prinsiplər bütövlükdə əlillərin hüquqlarının qorunması və müdafiəsinin təminatına yönəlmişdir. Buna nümunə olaraq, Avropa Şurası Nazirlər Komitəsinin 5 aprel 2006-cı il tarixli Tövsiyəsi ilə qəbul olunan "Əlilliyi olan insanların hüquqlarının və cəmiyyətdə iştirakının təşviq edilməsi üzrə Fəaliyyət Planı: 2006-2015-ci illər ərzində Avropada əlilliyi olan şəxslərin həyat keyfiyyətinin yaxşılaşdırılması" adlı sənədin 2.7-ci bəndində fundamental prinsiplərin təsbit olunmasını göstərmək olar. Doğrudur, həmin sənəddə 2006-cı il Konvensiyasının 3-cü maddəsində ehtiva olunan prinsipləri təkrarlayan müddəalara (məsələn, ayrı-seçkiliyin yolverilməzliyi, imkanların bərabərliyi, kişi və qadın bərabərliyi, əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması) rast gəlinməsinə baxmayaraq, fərqli, yaxud yeni rəhbər başlanğıclar da təzahür etməkdədir. Məsələn, şəxsi seçim azadlığı da daxil olmaqla, ləyaqət və fərdi müstəqillik, bütün əlillərin cəmiyyətdə tam iştirakı, yaşayış tərzinə təsir edən bütün qərarların qəbulunda fərdi qaydada və ya təmsil olunduqları təşkilatlar vasitəsilə cəmiyyət səviyyəsində iştirak və s.

İkinci halda isə əlillərin müdafiəsinə dair rəhbər başlanğıclar məhdud çərçivədə, yəni sahəvi xarakter daşıyır. Belə ki, BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyasının II hissəsi belə sahəvi prinsiplərin bir hissəsini müəyyən etmişdir:

[1] Ушанков И.В. Конституционно-правовые гарантии прав на образование детей с ограниченными возможностями здоровья и детей-инвалидов в условиях социального правового государства. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М., 2015, с.25

1) milli şərait, təcrübə və imkanlara uyğun olaraq, hər bir dövlətin əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu məsələlərinə dair milli siyasəti formalaşdırması, yerinə yetirməsi və mütəmadi şəkildə dövri olaraq nəzərdən keçirməsi (maddə 2);

2) müvafiq peşə reabilitasiyası tədbirlərinin bütün kateqoriya əlillərə şamil edilməsinin təmini, habelə açıq əmək bazarında əlillər üçün məşğuliyyət imkanlarının təşviqinə dair siyasətin yürüdülməsi (maddə 3);

3) əlillərin peşə reabilitasiyası və məşğulluğuna dair siyasətin bütövlükdə əlil-işçilərlə digər işçilər arasında imkanların bərabərliyi prinsipinə əsaslanması (maddə 4);

4) işəgötürənlərin və işçilərin nümayəndəli təşkilatlarının, habelə əlillər təşkilatları və əlillərlə bağlı struktur tərkib hissələrin müvafiq siyasət, habelə peşə reabilitasiyası fəaliyyəti ilə bağlı dövlət və özəl qurumlar arasında əməkdaşlığı və əlaqələndirməni təşviq edəcək tədbirlər barədə məsləhətləşmələr aparmasının zəruriliyi (maddə 5).[1]

Bundan əlavə, BƏT-in "Əlillərin peşə reabilitasiyası haqqında" 1955-ci il tarixli 99 nömrəli Tövsiyəsinin 3-cü hissəsinin 5-ci bəndində birbaşa olaraq vurğulanmışdır ki, əlilliyi olmayan şəxslərin təlimində tətbiq olunan peşə hazırlığının prinsip, tədbir və üsulları tibbi və təhsil şəraitinin yol verdiyi dərəcədə əlilliyi olan şəxslərə də şamil olunmalıdır.[2] Yəni mövcud beynəlxalq sənədin "yumşaq norma" olmasına baxmayaraq, əlilliyi olan şəxslərlə əlillər arasında bərabərliyin təmin edilməsinə yönəlmişdir.

Eyni zamanda müxtəlif regional təşkilatların normativ aktlarında da əlillərin müdafiəsinə dair rəhbər başlanğıclara rast gəl-

---

[1] ILO Vocational Rehabilitation and Employment (Disabled Persons) Convention (No. 159) and Recommendation (No. 168). United Nations Convention on the Rights of Persons with Disabilities. Geneva: ILO, 2008, p. 4

[2] Saul B., Kinley D., Mowbray J. The International Covenant on economic, social and cultural rights: commentary, cases and materials. Oxford: Oxford University Press, 2014, p. 308

Forsythe D.P. Encyclopedia of human rights. Volume 1. Afghanistan – democracy and right to participation. Oxford: Oxford University Press, 2009, p. 36

mək mümkündür. Buna nümunə olaraq, MDB-nin 25 noyabr 2008-ci il tarixli "Əlillərin sosial müdafiəsi haqqında Model Qanun"unu[1] göstərmək olar. Belə ki, Model Qanunun 3-cü maddəsində bərabər imkanların bərabərliyi və əlillər üçün sosial maneələrin ləğvinə dair dövlət siyasətinin prinsipləri öz əksini tapmışdır. Doğrudur, mövcud müddəanın prinsip adlandırılmasına baxmayaraq, mahiyyət və məzmun etibarilə, bu, özünü iki ayrı-ayrı istiqamətdə büruzə verir. Birinci halda, əlillərin subyektiv imkanları formasında təsbit olunmuşdur. Məsələn, ənənəvi mühitdə yaşamaq hüququ, bütün səviyyələrdə qərarların qəbulunda iştirak hüququ, cəmiyyətin ümumi sosial və iqtisadi inkişafında fəal iştirak hüququ, adi təhsil, səhiyyə, sosial xidmət çərçivəsində zəruri yardım almaq hüququ və s.

Model Qanunda dövlət siyasətinin prinsiplərinin ikinci tərəfini əlillərə bərabər imkanların yaradılmasına görə dövlətin öhdəlikləri təşkil edir. Məsələn, əlillik prinsipinə görə ayrı-seçkiliyin qadağan olunması; əlillər və onların müxtəlif qrupları barədə vəziyyətə dair statistik məlumatların müntəzəm toplanması; əlillərlə bağlı milli proqramların işlənib hazırlanması və dəstəklənməsi; əlillərin iqtisadi və sosial vəziyyətinə dair proqramların işlənib hazırlanmasına onları təmsil edən təşkilatların cəlb olunması; əlillərlə bağlı məsələlərdə elmi-tədqiqat institutları ilə əməkdaşlığın həyata keçirilməsi və elmi tədqiqatların nəticələrinin mübadilə olunması və s.

Beləliklə, "Əlillərin hüquqları haqqında" Konvensiyanın 3-cü maddəsində təsbit olunan rəhbər başlanğıclar baza prinsipləri olaraq qalmaqdadır. Çünki bu prinsiplər, bir tərəfdən əlillərin cəmiyyətə inteqrasiyasını, digər tərəfdən isə hüquqi bərabərliyi və onlara qarşı ayrı-seçkiliyin qadağan olunmasını nəzərdə tutur. Eyni zamanda bu rəhbər başlanğıclar əlillərin müdafiəsinə dair ümumi prinsiplər sayılmaqla, ədalət mühakiməsi sahəsində rəyin formalaşdırılması və planlaşdırılmanın həyata keçirilməsi, eləcə də bununla bağlı sistem və proseslərin yerinə yetirilməsi üçün zə-

[1] Информационный бюллетень, 2009, № 43, с. 402-428

min qismində çıxış etməlidir. Onlar, həmçinin qanun və qaydaların inkişafına, habelə onların təfsirinə təsir göstərməlidir. Onu da qeyd etmək lazımdır ki, həmin ümumi rəhbər başlanğıclar əlilliyi olan bütün şəxslərə, eləcə də psixo-sosial və əqli qüsurları olan insanlara münasibətdə tətbiq olunur. Şübhəsiz ki, onların realizəsi beynəlxalq hüququn ümumtanınmış prinsipləri (xüsusilə əməkdaşlıq, beynəlxalq öhdəliklərin vicdanla icrası, insan hüquq və əsas azadlıqlarına hörmət olunması) və insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin sahəvi rəhbər başlanğıcları ilə birgə şəkildə həyata keçirilməlidir.

Bununla belə, həmin rəhbər başlanğıclar öz-özlüyündə müəyyən tərkib elementlərinə malikdir. Bunu hətta BMT tərəfindən aparılan təhlillər və onların nəticələri də sübut edir. Həmin tərkib elementlərinə aşağıdakılar aiddir:

- əlilliyi olan şəxslərin cəmiyyətdə tam şəkildə iştirak hüququnun təmin olunması, habelə onların cəmiyyətə inteqrasiyası məqsədilə bərabər sosial iştirak qismində dəyərləndirilməsi;
- həmin kateqoriyadan olan şəxslərin ehtiyaclarının "xüsusi" mənada deyil, sosial və iqtisadi məqsədlərin ayrılmaz tərkib hissəsi kimi anlaşılması, eləcə də tam inteqrasiya, əldəetmə imkanlarının mümkünlüyü, maneəsiz fiziki və sosial mühitin formalaşdırılması zərurliyinin nəzərə alınması (məsələn, seçki prosesində əlverişli səsvermə yerlərinin və seçki hüququnun həyata keçirilməsi üçün lazımi şəraitlə, habelə asan başa düşülən və istifadə edilən formatda prosedur və materiallarla təmin edilmə və s.);
- mövcud fərqlərə və qüsurlara hörmətlə yanaşma, qadın, kişi, qız və oğlan uşaqlarının bərabər şəraitdə tam şəkildə iştirakının təmin olunma tərzini özündə birləşdirən ictimai mühitin yaradılması;
- digər şəxslərlə bərabər şəkildə hüquq qabiliyyətinin təmin olunması, həyata keçirilməsi və qərar qəbul olunması prosesində iştirak imkanlarının təmin olunması üçün psixi-sosial və ya əqli qüsurlara malik şəxslərə yardım göstərilməsi üçün zəruri hallarda əlavə tədbirlərin görülməsi;

- digərləri ilə bərabər əsaslarla və insan hüquq və əsas azadlıqlarına hörmət olunmaqla əlilliyi olan şəxslər tərəfindən hər hansı fəaliyyətin həyata keçirilməsi və ya bu fəaliyyətin tanınması ilə bağlı fərqlərə, istisnalara və ya inkar etmələrə yol verilməsi (məsələn, idarə etməsinin qeyri-mümkünlüyü əsas gətirilməklə, əlil qadının bank hesabı açmasına qadağa qoyulması, həyati fəaliyyəti və iş rejimi üçün vacib olan hər hansı bədən üzvündə (göz, ayaq və s.) qüsurların mövcudluğu əsas gətirilərək, onun işlə təminatından imtina olunması və s.);

- əlillərin şəxsi sərbəstliyinə hörmətin onların müəyyən məsələlərdə (həyatda müvafiq seçim imkanı, şəxsi həyatda müdaxilələrin minimuma endirilməsi, şəxsi qərarların qəbul olunması və s.) digərləri ilə bərabər əsaslarla iştirakının təminatında öz ifadəsini tapması;

- əlilliyi olan şəxslərin ləyaqətinin müdafiəsi zamanı, fiziki, psixoloji və ya emosional ziyan təhdidi olmadan onların təcrübə və fikirlərinin formalaşdırılması və qiymətləndirilməsinin vacibliyi;

- işəgötürən tərəfindən hər hansı işçinin ləyaqət və şəxsiyyətinin alçaldılması (məsələn, əmək prosesində görmə qüsuru olan şəxslərin "korlar üçün" yazılmış formadan istifadəyə məcburetmə və s.) yolu ilə ləyaqətə hörmət vəzifəsindən imtinanın yolverilməzliyi;

- fərqlər nəticəsində meydana çıxan müxtəlifliyə olan hörmətin qarşılıqlı anlaşma kontekstində digər insan tərəfindən qəbul olunması ilə şərtlənməsinin vacibliyi, eləcə də əlilliyin insan müxtəlifliyi və humanizm prinsipləri əsasında qəbul edilməsinin zəruriliyi;

- bədbəxt hadisələrin qarşısının alınması ilə bağlı halların, o cümlədən sağlam uşaq doğumunun və analığın mühafizəsinin ictimai təhlükəsizlik və səhiyyə ilə adekvat şəkildə təmin edilməsi.[1]

[1] United Nations Office of the High Commissioner for Human Rights. Monitoring the Convention on the Rights of Persons with Disabilities. New-York & Geneva, 2010, pp. 17-23

Aparılan təhlilləri və qeyd olunanları nəzərə alaraq, aşağıdakı müddəaları özündə ehtiva edən nəticələrə gəlmək olar:

1) Əlillərin hüquqlarına dair prinsiplər bir-birilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Yəni onların kompleks qiymətləndirilməsi və təmini əlillərin hüquqlarının qorunması və müdafiəsi üçün geniş zəmin yarada bilər.

2) Azərbaycan Respublikasının milli qanunvericiliyində əlillərin hüquqlarına dair prinsiplərin öz əksini tapmasına diqqət yetirilməlidir. Çünki əlillərin hüquqların qorunmasına yönəlmiş sahəvi milli qanunvericilik aktı sayılan "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il tarixli Qanun bir sıra müddəalar, o cümlədən prinsiplərin ehtiva olunmaması baxımından 2006-cı il Konvensiyası ilə uyğunsuzluq təşkil edir. Doğrudur, müyəssərlik prinsipinin bir sıra elementlərinin təsbit olunması heç də prinsipin bütövlükdə qanunvericilik baxımından əhatə olunması demək deyildir. Digər tərəfdən, Konvensiyada təsbit olunan digər rəhbər başlanğıcların bəzisinə isə qanunda rast gəlmək qeyri-mümkündür. Şübhəsiz ki, Qanunun və Konvensiyanın qəbul tarixləri arasında fərq nisbəti də nəzərə alınmalıdır. Lakin hüququn dinamiklik funksiyası imkan verir ki, yeni qanunvericilik aktı qəbul olunmaqla, dəyişən ictimai münasibətləri tənzimləsin.

3) Yuxarıda araşdırılan rəhbər başlanğıcların təkcə qanunvericilik baxımından nəzərdə tutulması məsələnin yalnız bir tərəfini təşkil edir. Onun əsasını isə həmin müddəaların praktiki baxımdan realizəsi təşkil edir. Çünki dövrünün ictimai münasibətlərini tənzimləməyən hüquq normalarının "yalançı normaya" çevrilmə ehtimalı daha yüksəkdir. Eyni zamanda mütərəqqi normanın yalnız norma olaraq qalması və onun həyata keçirilməməsi həmin normanın subyekti olan şəxslərin (o cümlədən, əlillərin) hüquqlarının pozulmasına təkan verir. Yəni insan hüquqlarının qorunmasına dair müddəa və prinsiplərin həm normativ məzmu-

nu, həm də onun real praktiki tətbiqi qarşılıqlı əlaqədə, zəncirvari şəkildə sıx bağlılığa malik olmalıdır.

### 1.3. Beynəlxalq hüquq normalarında və dövlətdaxili qanunvericilikdə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunması

XX əsrin II yarısından etibarən insan hüquqlarının qorunması və müdafiəsi qlobal miqyasda beynəlxalq birliyin qarşısında duran vəzifəyə çevrildiyindən, onun pozulmasına yol açan vasitələrin, o cümlədən ayrı-seçkiliyin qarşısının alınması və aradan qaldırılması da mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Sonrakı illərdə qəbul olunan çoxsaylı beynəlxalq sənədlərdə, eləcə də insan hüquqlarının müdafiəsinə dair konvension nəzarət mexanizmlərinin fəaliyyətində ayrı-seçkiliyin qadağan olunması dəfələrlə vurğulanmışdır. Belə ki, 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" (maddə 7), 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" (maddə 26) və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" (maddə 2), "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası (maddə 14), "Əsas hüquqlar haqqında" 2000-ci il Avropa İttifaqı Xartiyası (maddə 21), "İnsan hüquqları haqqında" 1994-cü il Ərəb Xartiyası (maddə 2), "İnsan hüquqları və əsas azadlıqları haqqında" 1995-ci il MDB Konvensiyası (maddə 20), 1969-cu il tarixli "İnsan hüquqları haqqında" Amerikaarası Konvensiya (maddə 1), "İnsan və Xalqların hüquqları haqqında" 1981-ci il Afrika Xartiyası (maddə 2), "İnsan hüquqları üzrə" 2012-ci il ASEAN Bəyannaməsi (maddə 3) və insan hüquqlarının müdafiəsinə dair qəbul olunmuş digər ayrı-ayrı beynəlxalq sənədlərdə müxtəlif əsaslar üzrə ayrı-seçkiliyin qadağan olunmasına dair müddəalar öz əksini tapmışdır.

Bundan əlavə, insan hüquqlarının müdafiəsinə dair beynəlxalq nəzarət mexanizmləri də öz qərarlarında ayrı-seçkiliyin qadağan olunması ilə bağlı məsələlərə dəfələrlə toxunmuşlar. Məsələn, İnsan Hüquqları Komitəsi özünün 18 nömrəli Ümumi Rəyində "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"da öz

əksini tapmış "ayrı-seçkilik" bütün hüquqların və əsas azadlıqların hər bir şəxs tərəfindən bərabər əsaslarla tanınmasına, istifadəsinə və həyata keçirilməsinə xələl gətirən və ya zərər vuran, yaxud bu məqsədləri güdməklə, irqi, rəng, cinsi, dil, dini, siyasi və ya digər əqidəyə, milli və ya sosial mənşəyə, mülkiyyət, doğum və ya digər vəziyyətə əsaslanan hər hansı fərq, istisna, məhdudiyyət və ya üstünlüyü nəzərdə tutan anlayış qismində başa düşülür. Bundan əlavə, müvafiq sənəddə Paktla qadağan olunan ayrı-seçkiliyin geniş vüsət almasına gətirib çıxaran və ya bu hala köməklik göstərən şəraitin qarşısının alınması və ləğv edilməsi üçün dövlətlər tərəfindən müsbət tədbirlərin görülməsini tələb edən bərabərlik prinsipinin təmini də xüsusilə vurğulanır.[1]

Avropa İnsan Hüquqları Məhkəməsinin *"Kiyutin Rusiyaya qarşı"* işi üzrə 2011-ci ildə çıxardığı qərarında göstərilmişdir ki, Özbəkistan vətəndaşı olan ərizəçi 2003-cü ildə Rusiya Federasiyasına gələrək, bu ölkənin vətəndaşı ilə nikaha daxil olmuş və həmin nikahdan bir qız övladı dünyaya gəlmişdir. Lakin ərizəçi Rusiya Federasiyasında yaşama icazəsi üçün müraciət etsə də, İİV yoxlaması nəticəsində müvafiq xəstəliyin daşıyıcısı kimi onun bu ölkədə yaşamasından imtina edilmişdir. Bununla əlaqədar, Məhkəmə qərarında müəyyən etmişdir ki, səlahiyyətli dövlət qurumlarının qəbul etdikləri mübahisəli qərarı ictimai sağlamlığın qorunması ilə əlaqədar qanunauyğun hesab etsələr də, səhiyyə sahəsində ekspertlərin və beynəlxalq qurumların gəldiyi qarşılıqlı razılığa əsasən, İİV-ə yoluxmuş şəxslərin ölkəyə girişinə qadağan qoyulması heç də ictimai sağlamlıq probleminə istinad edilməklə əsaslandırıla bilməz. Eyni zamanda göstərilmişdir ki, qısa müddət ərzində yoluxma ehtimalı olan vəba və ya sarı qızdırma kimi yoluxucu xəstəliklərin yüksək yoluxuculuq qabiliyyəti ilə əlaqədar, bu xəstəlik daşıyıcılarının hərəkətinin məhdudlaşdırılmasına baxmayaraq, ölkə ərazisində İİV daşıyıcısı olan şəxsin yaşaması öz-

[1] Hendriks A. Disabled Persons and their Right to Equal Treatment: Allowing Differentiation While Ending Discrimination // Health and Human Rights, 1995, Vol. 1, No 2, pp. 152-173

özlüyündə ictimai sağlamlıq üçün təhlükə yaratmır. Rusiya Federasiyası tərəfindən qəbul olunan qərarın məhdud mənada "mülahizə azadlığı konsepsiyası"na əsaslandığı qənaətinə gələn Məhkəmə adıçəkilən işi həm də müvafiq xəstəliyə yoluxmuş qısamüddətli turizm məqsədilə ölkəyə gələnlər, xaricdə bir müddət yaşayıb ölkəyə qayıdan Rusiya vətəndaşları və bu dövlətdə uzunmüddətli yaşamaq üçün müraciət edən insanlar arasında qoyulan fərqlər baxımından təhlil etmişdir.

Beləliklə, Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, səlahiyyətli dövlətdaxili qurumlar müvafiq qərarın qəbulu zamanı yalnız qanunvericilik müddəalarını nəzərə almış, ərizəçinin sağlamlıq vəziyyəti və onun Rusiyadakı ailə əlaqələrinə diqqət yetirməmişdir. Qeyd olunanlar əsasında Məhkəmə ərizəçinin sağlamlıq vəziyyətinə görə ayrı-seçkiliyin qurbanı olmasına dair yekun nəticəni müəyyən etmişdir. Hüquqi baxımdan isə Məhkəmə bildirmişdir ki, fiziki əlilliyin mövcudluğu və sağlamlıqda meydana müxtəlif çatışmazlıqlar "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan olunması) təsiri altına düşməklə, beynəlxalq birlik tərəfindən ifadə olunan fikirlərə tamamilə uyğun yanaşmadır. Bütövlükdə götürdükdə isə sağlamlıq vəziyyəti əsasında mövcud olan fərq, o cümlədən İİV infeksiyası ayrı-seçkiliyin "digər vəziyyəti" anlayışını şərtləndirməklə, 1950-ci il Avropa Konvensiyasının 8-ci maddəsi (şəxsi və ailə həyatına hörmət hüququ) ilə birgə şəkildə 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan olunması) tətbiqini zəruri edir.[1]

İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası isə "ayrı-seçkilik" terminin izah olunması zamanı insan hüquqlarına dair BMT sisteminə əsaslanmışdır. Belə ki, Komissiyanın baxış predmeti olmuş *"Purohit və Moore Qambiyaya qarşı"* işi üzrə 2003-cü ildə çıxarılan qərarda göstərilmişdir ki, "ayrı-seçkilik"

---

[1] Levitan S. Kiyutin: Protecting the Human Rights of Persons Living with HIV/AIDS Beyond Immigration // Boston College International and Comparative Law Review, 2013, Vol. 35, Issue 3, pp. 49-61

hüquqların bərabər şəkildə həyata keçirilməsinə xələl gətirilməsi və ya onun alçaldılması ilə nəticələnən hər hansı fərq, istisna və ya üstünlüyü ifadə edir.[1]

Sözügedən məsələ çərçivəsində ayrı-ayrı sosial qruplara qarşı yönələ bilən ayrı-seçkilik hallarının aradan qaldırılması da mühüm tədqiqat obyekti sayılmalıdır. Şübhəsiz ki, bu məsələdə əlillər xüsusilə mühüm əhəmiyyət kəsb edir. Çünki onların sağlamlığında mövcud olan çatışmazlıqlar və belə şəxslərə qarşı ayrı-seçkiliyə yol verilməsi təkcə onların maddi və sosial vəziyyətlərinin pisləşməsinə gətirib çıxarmır, eyni zamanda mənəvi və ruhi durğunluğun meydana çıxmasına əsaslı təsir göstərir.

Əlillərə qarşı ayrı-seçkiliyin qarşısının alınması və aradan qaldırılmasına dair məsələlər müxtəlif sahəvi beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Belə ki, "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının 2-ci maddəsinə əsasən, "əlillik əlamətinə görə ayrı-seçkilik" termini məqsədi və ya nəticəsi siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı digər sahədə bütün insan hüquqlarının və əsas azadlıqlarının digərləri ilə bərabər səviyyədə tanınmasının, realizə olunmasının və ya həyata keçirilməsinin məhdudlaşdırılmasından və ya inkar olunmasından ibarət əlilliklə bağlı istənilən fərqqoyma, istisna və məhdudiyyətlərin tətbiq edilməsi kimi xarakterizə olunmuşdur. Bundan əlavə, Konvensiyanın ümumi rəhbər başlanğıclarından biri qismində ayrı-seçkiliyə yol verilməməsi prinsipi (maddə 3) təsbit olunmuş, eləcə də əlillərə münasibətdə ayrı-seçkilik yaradan mövcud qanunların, qərarların, adət və əsasların dəyişdirilməsi və ya ləğv olunması üçün bütün lazımi tədbirlərin, o cümlədən qanunvericilik tədbirlərinin görülməsi (maddə 4) iştirakçı-dövlətlərin ümumi öhdəliyi öz əksini tapmışdır.

Onu da qeyd etmək lazımdır ki, müvafiq beynəlxalq sənədin

---

[1] Viljoen F. The justiciability of socio-economic and cultural rights: experience and problems / Human rights in education, science and culture. Legal developments and challenges. Edited by Y.Donders, V.Volodin. Paris: Ashgate – UNESCO, 2007, pp. 53-110

12-ci maddəsi (qanun qarşısında bərabərlik) əlillərin ləyaqəti və fərdi sərbəstliyinə hörməti, eləcə də sərbəst şəkildə öz seçimlərini həyata keçirmək və ayrı-seçkiliyə yol verilmədən cəmiyyətdə tam və effektiv şəkildə iştirak məsələsini özündə ehtiva edən konvension prinsiplərə (yəni 2006-cı il Konvensiyasında təsbit olunmuş rəhbər başlanğıclara) uyğun olaraq təfsir edilməlidir. Həmçinin 12-ci maddə əlillərə məxsus hüquqların müdafiəsi ilə məşğul olan ictimai təşkilatlar tərəfindən irəli sürülən *"iştirakımız olmadan barəmizdə heç nə həyata keçirilməməlidir"* şüarı üçün əsas və fundamental ifadə forması sayıla bilər.[1]

Sözügedən Konvensiya bərabər əsaslar üzrə və ayrı-seçkiliyə yolverilmədən əlillərin mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlardan (ayrı-seçkiliyə yol verilmədən qanun qarşısında bərabərlik; yaşamaq hüququ; azadlıq və təhlükəsizlik hüququ; qanun qarşısında bərabər tanınma və hüquq qabiliyyəti; işgəncələrdən və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəza növlərindən azadolma; istismar, zorakılıq və təhqirdən azadolma; yerdəyişmə azadlığı və vətəndaşlıq; yerli icmalarda yaşamaq hüququ; ifadə və fikir azadlığı; sərbəstliyə hörmət; evə və ailəyə hörmət; təhsil hüququ; sağlamlıq hüququ; əmək və məşğulluq hüququ; qənaətbəxş həyat səviyyəsi və sosial müdafiə hüququ; siyasi və ictimai həyatda iştirak hüququ; mədəni həyatda iştirak hüququ) istifadəsini, yerinə yetirməsini və həyata keçirməsini nəzərdə tutur.

Bununla yanaşı, təhlil olunan beynəlxalq sənəd əlillərə qarşı ayrı-seçkiliyi təkcə onların sağlamlığındakı qüsur və çatışmazlıqlar baxımından deyil, həmçinin cins, yaş, etnik, gender və digər əsaslar nöqteyi-nəzərindən də qadağan edir. Məhz bu baxımdan, 2006-cı Konvensiyasında əlilliyi olan iki spesifik kateqoriya şəxslərə – əlil-uşaqlara və əlil-qadınlara qarşı ayrı-seçkiliyin qarşısının alınması və aradan qaldırılması təsbit olunmuşdur. Onu da

[1] Pearl A.L. Article 12 of the United Nations Convention on the Rights of Persons with Disabilities and the Legal Capacity of Disabled People: The Way Forward? // Leeds Journal of Law & Criminology, Vol. 1, No. 1, pp. 1-30

qeyd etmək lazımdır ki, müvafiq kateqoriya şəxslərə qarşı ayrı-seçkiliyin qadağan olunması digər sahəvi beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Belə ki, "Uşaq hüquqları haqqında" 1989-cu il BMT Konvensiyasının 23-cü maddəsində əlil-uşaqlarla bağlı müddəalar təsbit olunmuş, lakin hüquqi baxımdan ayrı-seçkiliyin qadağan olunması və bərabərliyin təmini ümumi kontekstdə – Konvensiyanın 2-ci maddəsinin təsir qüvvəsinə əsasən həll edilir. "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1979-cu il BMT Konvensiyası da əlil-qadınlara qarşı ayrı-seçkiliyin qarşısının alınması və qadağan olunmasını məhz analoji hal üzrə dəyərləndirir.

Eyni zamanda əlillərin 2006-cı il Konvensiyasında ehtiva olunmuş subyektiv imkanlarının realizəsi üçün müəyyən müddəalar nəzərdə tutulmuşdur ki, həmin normalar insan hüquqlarının həyata keçirilməsi və müdafiəsi baxımından bu kateqoriyadan olan şəxslərə əsaslı yardım göstərir, eləcə də müvafiq sferada dövlətlərin öhdəliklərinin icrasına şərait yaradır. Həmin normalara aiddir:

1) əlillərin öz hüquq və vəzifələrini daha yaxşı mənimsəməsi üçün maarifləndirmə işlərinin yerinə yetirilməsi;

2) bütün hüquqların həyata keçirilməsi və yerli cəmiyyətdə sərbəst yaşaması üçün mühüm əhəmiyyət kəsb edən istifadə imkanlarının təşviqi;

3) müdafiənin təmin edilməsi üçün dövlətlər tərəfindən konkret tədbirlərin görülməsini tələb edən əlilliyin səbəbi qismində çıxış edən risk vəziyyətləri və fövqəladə humanitar vəziyyətlər barədə məlumatlandırılma;

4) əlilliyi olan şəxslərin öz hüquqlarının müdafiəsi üçün mühüm əhəmiyyət kəsb edən ədalət mühakiməsinin təmin olunması;

5) müvafiq kateqoriya şəxslərin sərbəstliyinin təşviq olunması üçün şəxsi bütövlüyün qorunması və inkişafı üçün zəruri tədbirlərin görülməsi;

6) anadangəlmə və sonradan qazanılan əlilliyə malik şəxslə-

rin maksimum sərbəstliyinin və imkanlarının aşkar olunması və qorunub saxlanması üçün abilitasiya və reabilitasiya;

7) təhlil olunan kateqoriyadan olan şəxslərin hüquqlarının təşviqi və müdafiəsinə dair siyasətin formalaşdırılmasının və yerinə yetirilməsinin əsas bazası qismində çıxış edən statistik göstəricilər və məlumatların toplanması.[1]

Elmi-nəzəri ədəbiyyatlarda da müvafiq kateqoriya şəxslər ayrıca qrup şəklində xarakterizə olunur. Məsələn, bu sahədə araşdırma aparan K.Nikonov xüsusi qayğı və müdafiəyə ehtiyacı olan uşaqların aşağıdakı müxtəlif kateqoriyalara ayrılmasını təhlil etmişdir:

- beynəlxalq və qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrdə iştirak edən uşaqlar;
- zorakı hərəkətlərə məruz qalan uşaqlar;
- valideyn himayəsindən məhrum olmuş və onları əvəz edən şəxsləri itirən uşaqlar;
- əlil-uşaqlar;
- qaçqın-uşaqlar;
- qanunla mübahisəli olan uşaqlar.[2]

Bununla yanaşı, əlil-uşaqların sosial müdafiəsinin təkmilləşdirilməsi ilə bağlı ayrı-ayrı problemlər əhəmiyyətli dərəcədə regional spesifikliyə malikdir. Məhz bununla bağlı, aparılan rəy sorğularında və nəzərə alınan ictimai fikirlər əsasında sözügedən məsələ ilə bağlı ümumiləşdirilmiş aşağıdakı müddəaları göstərmək məqsədəmüvafiq olardı:

1) müxtəlif ailə tiplərində əlillərin maddi vəziyyətinin eyni xarakterə malik olmaması, yəni sosial ədalətsizliyin mövcudluğu;

2) əlil-uşaqların yaşadıqları ailələrdə tibbi xidmətlərlə bağlı

---

[1] From Exclusion to Equality. Realizing the rights of persons with disabilities. Handbook for Parliamentarians on the Convention on the Rights of Persons with Disabilities and its Optional Protocol. Geneva: UN –DESA, OHCHR, IPU 2007, 152 p., pp.15-18

[2] Никонов К. Современные теоретические аспекты международно-правовой защиты ребёнка. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М., 2010, с. 21

xərclərin səviyyəsinin artması (bu hal ailə büdcəsinin təxminən 20-40%-ni təşkil edir);

3) əlillərin təhsil imkanlarının realizəsinin qənaətbəxş səviyyədə olmaması;

4) əlil-uşaqların gələcək peşə yönümü ilə əmək bazarının real şəraiti arasında uyğunsuzluğun olması;

5) asudə vaxtın səmərəli keçirilməsi formasının əlil-uşaqlarla bağlı fərdi qaydada və səciyyəvi olaraq tətbiqinə üstünlük verilməsi;

6) işədüzəlmə sahəsində əlillərin daha geniş sosial güzəştlərə malik olmasına cəhd göstərilməsi, eləcə də normal həyat və iş fəaliyyəti üçün ilkin şəraitin dövlət tərəfindən təmin olunması.[1]

Beləliklə, bütövlükdə bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır ki, 2006-cı il Konvensiyası tibbi modelə əsaslanan əlilliyin qarşısının alınmasını deyil, əlillik əlamətlərinə görə ayrı-seçkiliyə yol verilməsi hallarının aradan qaldırılması tendensiyasını özündə ifadə edir.[2] Məsələ ondan ibarətdir ki, fiziki çatışmazlığın tibbi baxımdan qiymətləndirilməsi əmək qabiliyyətindəki fərqlərdən daha çox, işin xarakterində və iş yerinin sosial təşkilində ifadə olunur. Yəni əlillik tibbi fakt deyil, əksinə sosial elementlərə malik struktur kimi özünü büruzə verir.[3] 1975-ci il tarixli "Əlillərin hüquqları haqqında Bəyannamə"nin 10-cu bəndi isə ayrı-seçkilik, alçaldıcı və ya təhqiredici xarakteri özündə daşıyan istənilən növ istismar, tənzimetmə və rəftardan əlillərin müdafiəsini nəzərdə tutur.

Bundan əlavə, əlillərə qarşı ayrı-seçkiliyin qarşısının alınması və qadağan olunmasına dair zəruri tədbirlərin görülməsi ilə

---

[1] Донкан И.М. Инвалидность как основа социальной эксклюзив: пути преодоления ситуации // Вестник Хабаровской государственной академии экономики и права, 2008, № 6, с. 92-98

[2] United Nations Office of the High Commissioner for Human Rights. Monitoring the Convention on the Rights of Persons with Disabilities. New-York & Geneva, 2010, 68 p., pp.23

[3] Yellin E., Nevitt M., Epstein W. Toward an epidemiology of work disability // Milbank Memorial Fund Quarterly, 1980, Vol. 58, Issue 3, pp. 386-415

bağlı digər beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin ixtisaslaşmış təsisatları çərçivəsində bir sıra sənədlər qəbul edilmişdir. Nümunə qismində əmək və məşğulluq sahəsində beynəlxalq siyasətin yerinə yetirilməsinə cavabdeh olan, habelə bu sahədə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunmasını əsas vəzifə kimi müəyyən edən Beynəlxalq Əmək Təşkilatını (BƏT) göstərmək olar. Belə ki, BƏT-in 1958-ci il tarixli "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik barədə" 111 nömrəli Konvensiyası "ayrı-seçkilik" terminini əmək və ya məşğulluq sahəsində imkan və rəftarla bağlı bərabərliyə ziyan vuran və ya xələl gətirə bilən istənilən əsaslar üzrə iştirakçı-dövlətlər tərəfindən tətbiq olunan fərq, istisna və ya üstünlük qismində xarakterizə etməklə, iş yerlərində ayrı-seçkiliyin qadağan edilməsinə dair münasibətləri nizama salır. Ayrı-seçkiliyə yol verilməməsi üçün işçi kvotasının nəzərdə tutulması ilə bağlı müsbət fəaliyyətin və oxşar tədbirlərin görülməsini nəzərdə tutan Konvensiyanın 5-ci maddəsinə əsasən, BƏT tərəfindən qəbul olunan müdafiə və ya yardım tədbirləri ayrı-seçkilik forması qismində nəzərdən keçirilə bilməz.

Bəzi hallarda isə BƏT-in sənədlərində əlilliyə görə ayrı-seçkiliyin qadağan olunmasına birbaşa deyil, dolayı yolla rast gəlmək mümkündür. Belə ki, BƏT-in 1964-cü il tarixli 122 nömrəli "Məşğulluq siyasəti haqqında" Konvensiyada əlillik məsələsinə toxunulmasa da, müvafiq sənədin irqi, rəng, cinsi, dini, siyasi fikir, milli mənsubiyyət və ya sosial mənşəyinə görə məşğulluq sahəsində seçim azadlığı və bərabər imkanlara tətbiq edilmədiyi göstərilmişdir.[1] BƏT-in "Əlillərin peşə reabilitiasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyası müvafiq kateqoriya şəxslərə qarşı ayrı-seçkilik hallarının qadağan olunması və onların cəmiyyətə reabilitasiyası ilə bağlı bir sıra müddəalar nəzərdə tutulmuşdur:

- dövlətdaxili şərait, təcrübə və imkanlara uyğun olaraq, işti-

[1] Fritsch C. Right to Work? A Comparative Look at China and Japan's Labor Rights for Disabled Persons // Loyola University Chicago International Law Review, 2009, Volume 6, Issue 2, pp. 403-420

rakçı-dövlətlər tərəfindən əlillərin peşə reabilitasiyası və məşğulluğu sahəsində milli siyasətin işlənib hazırlanması, həyata keçirilməsi və dövri olaraq nəzərdən keçirilməsi;

- peşə reabilitasiyası ilə bağlı müvafiq tədbirlərin bütün kateqoriya əlillərə, habelə azad əmək bazarında əlillərin peşə məşğuliyyəti imkanlarına dair yardımlara şamil edilməsi;
- əlillərin və işçilərin imkanlarının bərabərliyi prinsipinə əsaslanan siyasətin mövcudluğunun təmin olunması;
- əlil kişi və qadınlar üçün rəftar və imkanların bərabərliyinə əməl olunması;
- əlillər və digər işçilər üçün bərabər rəftar və imkanların təmin olunmasına yönəlmiş xüsusi müsbət tədbirlərin digər işçilərə münasibətdə ayrı-seçkilik sayılmaması.

Eyni zamanda əlillərin müdafiəsini nəzərdə tutan və onlara qarşı ayrı-seçkiliyin qadağan olunmasını özündə ifadə regional beynəlxalq sənədlərdə də müvafiq məsələyə toxunulmuşdur. Qeyd olunanların bariz nümunəsi kimi, əsas vəzifəsi müvafiq kateqoriyadan olan şəxslərə qarşı ayrı-seçkiliyin bütün formalarının qarşısını almaq və aradan qaldırmaq, habelə onların cəmiyyətə tam inteqrasiyasını təşviq etmək olan "Əlillərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1999-cu il Amerikaarası Konvensiya həm də terminoloji təfsir baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, Konvensiyanın 1-ci maddəsinə əsasən, "əlillərə qarşı ayrı-seçkilik" dedikdə, əlillərin tanıdığı, realizə etdiyi və ya həyata keçirdiyi insan hüquqları və əsas azadlıqlarının inkar edilməsi və ya onlara xələl gətirilməsi ilə nəticələnməklə, yaxud bu məqsədi güdməklə, bütövlükdə əlillik, o cümlədən əvvəllər qazanılmış və ya hazırda mövcud olan əlillik vəziyyəti, əlilliyin qeydiyyatı əsasında irəli sürülən istənilən fərq, istisna və ya məhdudiyyət nəzərdə tutulur.

Lakin bir məsələni də qeyd etmək lazımdır ki, Konvensiyaya uyğun olaraq, əlilliyi olan şəxslərin sosial inteqrasiyası və ya fərdi inkişafı üçün qəbul olunan fərqlər, yaxud güzəştlər ayrı-seçkiliyi yaradan amillər qismində nəzərdən keçirilə bilməz. Çünki

bu fərq və üstünlüklər öz-özlüyündə müvafiq kateqoriya şəxslərin bərabərlik hüququnu məhdudlaşdırmır, eləcə də həmin şəxslər bu kimi hallara (yəni fərq, üstünlük və s.) məcbur edilmirlər. Eyni zamanda Amerikaarası Konvensiya əlillikdən əziyyət çəkən şəxslərə qarşı ayrı-seçkiliyi aradan qaldırmaq və onu ləğv etmək üçün müvafiq tədbirlərin görülməsi ilə bağlı ümumi öhdəliklər qoymuşdur[1].

Bununla belə, sözügedən beynəlxalq-hüquqi sənədin çatışmayan cəhəti fərdlərin Amerikaarası Komissiya və Amerikaarası Məhkəməyə fərdi şikayət prosedurunun müəyyən edilməməsidir.[2]

Regional tənzimetmə baxımından məsələyə kompleks baxımdan yanaşdıqda belə qənaətə gəlmək mümkündür ki, ayrı-seçkiliyin yolverilməzliyinə əsaslanmaqla, insan hüquqlarının müdafiəsi və təşviqinə yönəlmiş regional xarakterli beynəlxalq-hüquqi sənədlərdə, eyni zamanda əlavə meyar kimi yaş amili də nəzərdən keçirilir.[3]

Dövlətdaxili qanunvericilik aktları da əlillərə qarşı ayrı-seçkiliyi qadağan edən normaları özündə ehtiva edir. Bu, həm ayrı-seçkiliyin bütövlükdə və ümumi olaraq qadağan edilməsi kontekstində əlillərin digər insanlarla bərabərliyinin təmin olunması, həm də spesifik olaraq əlillərə qarşı ayrı-seçkilik hallarının yolverilməzliyinə dair normaları ehtiva edən qanunvericilik aktlarına da aiddir. Müasir dövrdə sonuncu kateqoriyaya aid edilə bilən qanunvericilik aktları özünəməxsus kəmiyyət və keyfiyyət göstəricilərinə malikdir ki, bu da əlillərin müdafiəsi və qorunmasının dövlətlər qarşısında duran prioritet məsələ olduğunu göstərir. Belə ki, Konstitusiyanın 25-ci maddəsində təsbit olunan hər bir kəsin qanun və məhkəmə qarşısında bərabərliyini, habelə insan və

[1] Kälin W., Künzli J. The Law of international human rights protection. New-York, 2009, p.50.

[2] Rodriguez-Pinzon D., Martin C. The Prohibition of torture and ill-treatment in the Inter-American Human Rights System. Geneva: World Organization Against Torture, 2006, 294 pp.37

[3] Никонов К. Современные теоретические аспекты международно-правовой защиты ребёнка. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М., 2010, с.3

vətəndaş hüquqlarının və azadlıqlarının irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmasının qadağan olunmasını əsas konstitusion norma kimi rəhbər tutan 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar barəsində ayrı-seçkiliyin qadağan olunması və bu halın qanunla təqib olunması nəzərdə tutulur.

Azərbaycan Respublikasının digər qanunvericilik aktları da əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyini nəzərdə tutur. Belə ki, işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzim edən, eləcə də fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyənləşdirən Əmək Məcəlləsi müvafiq kateqoriya şəxslərlə bağlı bir sıra müddəaları ehtiva edir. Məsələn, əlillərin və 18 yaşınadək sağlamlıq imkanları məhdud olan işçilərin reabilitasiyası problemləri sahəsində dövlət siyasətinin həyata keçirilməsi (maddə 14); qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsinin ayrı-seçkilik hesab edilməməsi (maddə 16); əlillərin və 18 yaşınadək sağlamlıq imkanları məhdud olan işçilərin, gənclərin (yeniyetmələrin) əməyindən istifadə etməklə əlavə iş yerləri yaradan müəssisələrə güzəştlərin müəyyən olunmasına dair kollektiv sazişlərə öhdəliklərin daxil edilməsi (maddə 38); 1-ci və 2-ci qrup əlil olan işçilər üçün, həftəlik iş saatının 36 saatdan artıq olmaması (maddə 91); əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlillərə və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyətinin 42 təqvim günündən az olmayaraq verilməsi (maddə 119) və s.

Bu sahədə xarici ölkələrin qanunvericilik təcrübəsi də xüsusilə mühüm əhəmiyyət kəsb edir. Məsələn, Almaniya Konstitusiyasının 3-cü maddəsinin 3-cü hissəsində əlilliyə görə hər hansı şəxsə qarşı ayrı-seçkiliyə yol verilməsinin qeyri-mümkünlüyü barədə müddəa öz əksini tapmışdır. Bundan əlavə, sözügedən dövlətin ayrı-ayrı qanunvericilik aktlarında da əlillərə və sağlamlıq imkanları məhdud olan şəxslərə qarşı ayrı-seçkiliyin qadağan edilməsinin müxtəlif aspektləri, eləcə də onların cəmiyyətə reabilitasiyasını təşviq edən hallar ehtiva olunmuşdur. Belə ki, "Sosial Təhlükəsizlik Məcəlləsi"nin XI kitabının 71-ci paraqrafına uyğun olaraq, işçisinin sayı 20 nəfər və daha çox olan özəl şirkətlər və dövlət qurumları öz iş yerlərinin 5% -ni ağır əlilliyi olan kişi və qadınlar hesabına doldurmalıdırlar. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, müvafiq qanunvericilik aktına əsasən, təqaüd fondu şəxsə əlillik dərəcəsini 50% və ondan yuxarı səviyyədə təqdim etdiyi təqdirdə, şəxs ağır dərəcəli əlil sayılır. Şübhəsiz ki, buna əməl etməmə cərimə formasında cəza tədbirlərinin tətbiqinə gətirib çıxarır.[1]

Əlillərə və sağlamlıq imkanları məhdud şəxslərə qarşı ayrı-seçkiliyin qadağan olunmasını özündə ehtiva edən digər qanunvericilik aktı – Almaniyanın "Əlillərin bərabərliyinin təşviqi haqqında" 2002-ci il tarixli Qanunun məqsədi bu kateqoriyadan olan şəxslərə qarşı ayrı-seçkiliyin ləğvi və cəmiyyət həyatında onların cəmiyyətin digər üzvləri ilə birgə bərabər iştirakını təmin etməkdir. Buraya, həmçinin şəxsin özünə inamlı həyat tərzinin formalaşmasına gətirib çıxaran tədbir və tələblər daxildir. Qanunda mühüm əhəmiyyət kəsb edən müddəalardan biri də "maneələrin olmaması" prinsipidir. Bu rəhbər başlanğıcın əsas mahiyyəti kənar təsir və müdaxilə olmadan əlilləri maksimum səviyyədə müstəqil və özünə inamlı şəxsiyyətə çevirməkdir. Bundan əlavə, sözügedən prinsip bir sıra halları özündə birləşdirməklə, aşağıdakı məsələlərə tətbiq olunur:

[1] Welti F. The SGB IX, book 9 of the German Social Code in the development of social security law // Rehabilitation, 2002, Vol. 41, Issue 4, pp. 268-273

1) iş yerlərində əlillərin ehtiyaclarının ödənilməsi üçün zəruri şərait və imkanların yaradılması;

2) ictimai küçə, meydan və nəqliyyat vasitələrində əlillər üçün müyəssərliyin təmin olunması;

3) ictimai binalara, piyada keçidlərinə və dəmiryolu stansiyalarına əlil arabalarının normal girişi üçün lazımi şəraitin yaradılması;

4) əlaqə və ünsiyyət vasitələrindən bərabərhüquqlu istifadə kontekstində görmə qüsurlu insanların aidiyyəti dövlət sənədləri ilə tanış olmasına dair imkanların müəyyənləşdirilməsi, eləcə də dil işarələrinin izahı üçün şəxsin dövlət orqanları tərəfindən pulsuz tərcüməçi xidməti ilə təmin olunması.[1]

Bütövlükdə isə sözügedən qanunvericilik aktı mühüm müddəaları özündə ehtiva edir. Məsələn, əlillərə qarşı ayrı-seçkiliyi qadağan edən konstitusion normanın federal səviyyədə həyata keçirilməsi, əlil qadınların bərabərliyinin təmini, dil işarələrinin tanınması, görmə qüsurlu şəxslər üçün federal internet xidmətləri və inzibati formaların qurulması, bu kateqoriya əlillər üçün seçkilərdə maneəsiz iştirakla bağlı müddəaların nəzərdə tutulması, əlil təşkilatlarla etibarnamələrin verilməsi, peşə və məşğuliyyət sahəsində qəbul olunan aktlarda ayrı-seçkiliyin qadağan olunmasına dair müddəaların daxil edilməsi, əlillər üçün ombudsmanın yaradılması, nəqliyyat imkanlarının təmini[2] və s.

Almaniyanın "Bərabər rəftar haqqında" 2006-cı il tarixli Federal Qanununun məqsədi etnik mənsubiyyəti, gender, din və ya etiqad, əlillik, yaş senzi və ya cinsi baxımdan ayrı-seçkiliyi ləğv etməkdir. Qanun şəxsin əziyyət çəkdiyi ayrı-seçkiliyə, xüsusilə məşğulluq və digər mülki məsələlər sahəsində bərabərsizliyə qar-

---

[1] Begay R.C., Brown B.G., Bounds R.G. Disability as a human perception: personal and professional reactions to American Indian families` narratives about their children`s disabilities / Disabilities. Insights from across fields and around the World. Volume 1. The experience: definitions, causes and consequences. Edited by C.A.Marshall, E.Kendall, M.E.Banks, R.M.S.Gover. London: Praeger Perspectives, 2009, pp. 87-107.

[2] Yenə orada

şı məhkəmə müdafiəsini nəzərdə tutur. Yəni işədüzəlmə zamanı digər ərizəçilərlə bərabər peşə və ixtisasa yiyələnən əlillər ayrı-seçkiliklə üzləşdiyi təqdirdə, bu barədə işəgötürənə qarşı iddia ilə çıxış etmək hüququna malikdir.[1]

Bundan əlavə, digər xarici ölkələrin təcrübəsinin öyrənilməsi də maraqlı məqamlardan sayılmalıdır. Belə ki, İtaliya Konstitusiyasının 38-ci maddəsində əmək qabiliyyəti olmayan şəxslərin sosial qayğı və yardım almaq hüququ, əlillik zamanı işçilərin ehtiyacları ilə bağlı maddi vəsaitlə təminat hüququ, habelə əlilliyi olan və sağlamlıq imkanları məhdud şəxslərin təhsil və peşə təlimi almaq hüququ ifadə olunmuşdur.[2] Avstriya Konstitusiyasının 7-ci maddəsi əlilliyə görə ayrı-seçkiliyin qadağan olunmasını nəzərdə tutur. Kanadanın "Hüquqlar haqqında Xartiyası"nın 15-ci maddəsinin 1-ci bəndi də əlilliyə əsaslanan ayrı-seçkiliyi qadağan etməklə, əlilliyi olan şəxslərin vəziyyətinin yaxşılaşdırılması üçün istənilən fərqə əsaslanmanın yolverilməzliyini özündə ehtiva edir. Portuqaliya Konstitusiyasının 71-ci maddəsi müvafiq kateroqiya şəxslərin hüquqi vəziyyətinin konkret qanuni müdafiənin predmeti olmasına dair normanı ehtiva etməklə, həm də bu sahədə konkret rəhbər başlanğıcın – fiziki və əqli imkanları məhdud olan şəxslərin, əlilliklə əlaqədar, həyata keçirilməsi və icrası qeyri-mümkün olan hüquq və vəzifələr istisna olmaqla, digər bütün konstitusion hüquq və vəzifələrə malik olması prinsipi öz əksini tapmışdır. Bundan əlavə, Konstitusiyanın 74-cü maddəsinin 2-ci bəndinə əsasən, dil əlamətinin müdafiə olunması və yerinə yetirilməsi dövlətin təhsil siyasəti çərçivəsində həyata keçirilir. Finlandiya Konstitusiyasının 5-ci maddəsində bərabərlik prinsipi konstitusion formada öz əksini tapmış, eyni zamanda əlillik meyarına görə ayrı-seçkiliyin açıq-aşkar şəkildə qadağan olunmasına da təsir göstərmişdir. İsveç Konstitusiyasının 8-ci maddəsinin 2-ci bəndi fiziki, əqli və ya psixoloji qüsurlar baxımından yol ve-

---

[1] Weiss M., Schmidt M. Labour law and industrial relations in Germany. Fourth revised edition. The Hague: Wolters Kluwer, 2008, pp. 68-70, 79-83, 94-95

[2] Qaracayev C.Y. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: "NAT MMC", 2011, 132 s., s. 38

rilən ayrı-seçkiliyi birbaşa olaraq qadağan edir. Estoniya Konstitusiyasının 28-ci maddəsi əlilliyi olan şəxslərin hökumətin və yerli özünüidarəetmə orqanlarının xüsusi qayğısı altında yerləşdirilməsini nəzərdə tutur. İnsan hüquqları və əsas azadlıqlarını müdafiə edən, habelə qanun qarışısında bərabərliyi özündə ehtiva edən Sloveniya Konstitusiyasının 52-ci maddəsində əlilliyi olan şəxslərin qanunla nəzərdə tutulmuş müdafiə və peşə təlimi ilə təmin olunmasına dair müddəa öz əksini tapmışdır. Yəni bu dövlətin konstitusion normalarının və qanunvericiliyinin tələblərinə uyğun olaraq, fiziki və əqli baxımdan çatışmazlıqlara malik olan uşaqlar və kəskin fərqləri özündə birləşdirən digər kateqoriya şəxslər cəmiyyətin fəal həyatında iştirak etmək məqsədilə təhsil və təlim hüququna malikdirlər.[1]

ABŞ-ın Sosial Təhlükəsizlik Proqramının tələblərindən irəli gələrək, Məşvərətçi Şura əlillər üçün nəzərdə tutulan kompensasiyanın tibbi ekspertiza və ya yoxlamadan sonra obyektiv olaraq təyin edilməsi ilə bağlı olaraq məhdudlaşdırılmasını məqsədəmüvafiq hesab etmişdir.[2] Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, əlilliklə bağlı istənilən proqram və tədbirlərin təsir xarakteri həmin proqramların əsaslandığı əlilliyin konseptual modellərindən daha çox asılıdır. Belə ki, son 25 il ərzində ABŞ-da əlilliklə bağlı daha çox azlıqda olan qruplara dair mövcud olan model üstünlük təşkil edir və əlillərlə bağlı məsələlərə bilavasitə təsir göstərir. Bu modelin özünəməxsusluğu ondan ibarətdir ki, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətdə tam şəkildə iştirakı ilə bağlı üzləşdikləri ilkin maneə qismində ayrı-seçkilik çıxış edir. Eyni zamanda sözügedən model siyasi reaksiya və yanaşma olaraq mülki hüquqların strategiyasının təsdiqini vacib sayır. Bununla yanaşı, insanın müxtəlifliyi anlayışına əsaslanan, eləcə də əlillərin inteqrasiya məqsədlərinin əlavə strategiyasını şərtləndirən əlilliyin al-

---

[1] Legislation to counter discrimination against persons with disabilities. 2nd edition. Edited by Heinz-Dietrich Steinmeyer. Berlin: Council of Europe Publishing, 2003, 143 p., pp.32-33

[2] Stone D.A. Diagnosis and the dole: the function of illness in American distributive politics // Journal of Health Politics, Policy and Law, 1979, No 4, pp. 507-521

ternativ modeli təklif olunur.[1]

Türkiyə Konstitusiyası isə əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin ləğvi və onların bərabərlik hüququnun təmin edilməsinə özünəməxsus şəkildə yanaşmışdır. Belə ki, dövlətin əsas qanununun 61-ci maddəsinə uyğun olaraq, dövlət bu şəxsləri müdafiə etməklə, layiqli həyat səviyyəsinin imkanlarından istifadə etmək üçün onlara lazımi şərait yaradır. Bundan əlavə, Konstitusiyanın 104-cü maddəsində cinayət törətməyə görə məhkum olunmuş şəxslərin əlilliyinə görə cəzadan tam və ya qismən azad olunmasının mümkünlüyünə dair norma öz əksini tapmışdır. Həmçinin Konstitusiyanın 50-ci maddəsində əqli və fiziki qüsurları olan şəxslərin iş şəraiti baxımından xüsusi olaraq müdafiə olunmasına dair müddəanın təsbit olunması isə bərabərlik hüququnun pozulması deyil, əksinə bu kateqoriya şəxslərin səciyyəvi xüsusiyyətlərinin nəzərə alınması ilə əlaqədardır.[2]

1997-ci il Tailand Konstitusiyasının 4-cü maddəsinə uyğun olaraq, insan ləyaqəti, habelə insanların hüquq və azadlıqlarının müdafiə olunması təsbit edilmişdir. Eyni zamanda Konstitusiyanın 30-cu maddəsində bütün insanların qanun qarşısında bərabər olması və bərabər hüquqlardan istifadə etməsi, habelə fiziki və ya sağlamlıq vəziyyətinə görə qoyulan ayrı-seçkiliyin qadağan olunması nəzərdə tutulur. Konstitusiyanın 43-cü maddəsinə əsasən, qanunvericiliklə nəzərdə tutulan qaydada əlillərin dövlətdən maddi yardım və digər vəsaitlər əldə etmək hüququ ehtiva olunmuşdur.

Bundan əlavə, 1999-cu il tarixli "Təhsil haqqında" Tailand Milli Qanununun 6 və 8-ci maddələri bu ölkənin təhsil siyasətinin məqsəd və prinsiplərinə həsr olunmuşdur ki, bu da təhsilin Tailand xalqının bütün aspektlərdə (psixi və fiziki sağlamlıq; intellekt; bilik; əxlaq; toxunulmazlıq; digər insanlarla birgə firavan

---

[1] Scotch R.K., Schriner K. Disability as Human Variation: Implications for Policy // The Annals of the American Academy of Political and Social Science, 1997, No 549 (1)

[2] Türk anayasa hukuku mevzuatı. Editör E.Abdulhakimoğulları. Ankara: Adalet Yayınevi, 2011, s. 24, 27, 43

yaşamaq imkanlarını özündə ifadə edən həyat tərzi) tam inkişafına yönəlməsini nəzərdə tutur. Bundan əlavə, tədrisə dair müddəalar aşağıdakı prinsiplərə əsaslanmalıdır:

1) hər bir şəxs üçün ömürlük təhsil almaq imkanı;

2) təhsil verilməsində cəmiyyətin bütün təbəqələrinin iştirakı;

3) bilik və təlim prosesində iştirak edən orqanların fasiləsiz inkişafı.[1]

Cənubi Afrika Respublikasının (CAR) 1998-ci il tarixli "Məşğulluq sahəsində bərabərlik haqqında" 55 nömrəli Qanunu iş yerlərində bərabərlik hüququnun təmin edilməsinə və təşviqinə dair münasibətləri nizama salır. Qanunun əsas məqsədi iş yerlərində bərabərliyə, habelə bütün peşə kateqoriyaları və işçi qüvvəsi səviyyələri üzrə həssas qrupların bərabər təmsilçiliyinə nail olmaqdır. Həmçinin sözügedən qanunvericilik aktının 6-cı maddəsinə əsasən, heç bir şəxs işçiyə qarşı, məşğulluq siyasəti və ya iş təcrübəsi sahəsində, habelə əlillik də daxil olmaqla, bir yaxud bir neçə əsaslar üzrə birbaşa olaraq və ya bilavasitə ədalətsiz şəkildə ayrı-seçkiliyə yol verə bilməz. Bundan əlavə, qanunvericiliyin bu sahədə qarşıya qoyduğu məqsədə nail olmaq üçün işəgötürənlərdən məşğulluq siyasəti və təcrübəsi sahəsində mövcud olan ədalətsiz ayrı-seçkiliyin ləğvi tələb olunur. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, təcrübədə ayrı-seçkiliyin ləğvi və qadağan olunması bərabərliyin yeganə təminatı sayılmır, eyni zamanda müəyyən həssas qruplara məxsus şəxslər (o cümlədən əlillər) üçün bərabər imkanların təşviq olunması üçün müvafiq xüsusi tədbirlərin görülməsi zəruridir. Məhz bununla əlaqədar, 1998-ci il Qanunu müvafiq sahələr üzrə ixtisaslaşmış əlillərin məşğulluğunun təmin edilməsi də daxil olmaqla, işçi qüvvəsinin fərdi qaydada qiymətləndirilməsi üçün məşğulluq sahəsində bərabərliyə nail

[1] Cheausuwantavee T., Cheausuwantavee Ch. Rights, Equality, Educational Provisions and Facilities for Students with Disabilities in Thailand: Legal and Practical Perspectives over the Past Decade // Disability, CBR and inclusive development journal, 2012, Vol. 23, No 1, pp. 70-91

olunmasını işəgötürənlərə həvalə edir.[1]

Təhlil olunan qanunvericilik aktının davamı olaraq, CAR-ın 2002-ci il tarixli "Qabaqcıl təcrübə Məcəlləsi: Əlillərin məşğulluğunun əsas aspektləri" (bəzi hallarda onu "Əlillik Məcəlləsi" də adlandırırlar) adlı sənəd əlillər üçün bərabər imkanların və ədalətli rəftarın təşviq olunmasına dair işəgötürənlər və işçilər üçün rəhbər qaydalar rolunu oynayır. Məcəllə hüquq və vəzifələri mənimsəmək, özünütəsdiqi təşviq etmək, iş yerlərində əlillərin öz hüquqlarını yerinə yetirməsini və onlardan istifadəsini təmin etmək məqsədilə mübahisələri azaltmaq üçün işçi və işəgötürənlərə kömək rolunu oynayır. Eyni zamanda Məcəllə əlillərin məşğulluq sahəsinə verdiyi töhfələr barədə maarifləndirmə sisteminin yaradılması, eləcə də bu kateqoriyadan olan şəxslərin bacarıqlarından tam şəkildə istifadə olunması ilə bağlı işəgötürənlərin təşviq olunmasına yardım göstərilməsi vəzifəsini də müəyyən etmişdir.[2]

Ayrı-seçkiliyin yolverilməzliyi və bərabərlik hüququnun ehtiva olunduğu Malavi Respublikasının Konstitusiyası əlilliyin ayrı-seçkiliyin qadağan olunmuş zəmini kimi tanınmasını özündə ehtiva edir. Bundan əlavə, sözügedən dövlətin 2012-ci il tarixli "Əlillik haqqında Qanunu" da bu sahədə mövcud olan müxtəlif münasibətlərin tənzimlənməsinə yönəlmişdir. Bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, sözügedən qanunvericilik aktı əlillik anlayışını bu kateqoriyanın sosial modelinə daha çox uyğun şəkildə müəyyən etmişdir. Digər məsələlərlə yanaşı, 2012-ci il Qanunun 11-ci maddəsi digər sahələrdə, o cümlədən təhsil sferasında əlillərə qarşı ayrı-seçkiliyə yol verilməsini qadağan edir.[3]

Avstraliyanın 1992-ci il tarixli "Əlilliyə görə ayrı-seçkiliklə mübarizə haqqında" Qanunu əmək və məşğulluq, təhsil, binalara daxilolma, əmtəə, xidmət və avadanlıqların təchizatı, yerləşdir-

---

[1] Marumoagae M.C. Disability discrimination and the right of disabled persons to access the labor market // PER / PELJ, 2012, Vol. 15, No 1, pp. 345-428

[2] Yenə orada.

[3] Chilemba E.McD. The right to primary education of children with disabilities in Malawi: A diagnosis of the conceptual approach and implementation // African Disability Rights Yearbook, 2003, Vol. 1, pp. 3-26

mə, əmlak üzərində sərəncam və ya torpaqla bağlı pay, klublara və birləşmiş assosiasiyalara üzvlük, idman, eləcə də Avstraliya federal qanunları və proqramlarının sahəsində əlilliyə görə birbaşa və dolayı ayrı-seçkiliyi qadağan edir. Bundan əlavə, müvafiq qanunvericilik aktına uyğun olaraq, "əlillik" anlayışı özündə keçmiş, cari və gələcək əlillik vəziyyətini, genetik baxımdan əlilliyə uyğun gələn meyarları, əlilliyin təzahür forması qismində çıxış etməklə, əlilliyə gətirib çıxaran şərait və davranışı birləşdirir. Onu da qeyd etmək lazımdır ki, sözügedən qanun təkcə yuxarıda qeyd olunan meyarlar əsasında deyil, həmçinin əlillərin birliyinin mövcudluğuna görə ayrı-seçkiliyi qadağan edir.[1]

Dövlətdaxili qanunvericilik aktları ilə yanaşı, bir sıra ölkələrin məhkəmə təcrübəsi də əlilliyin ayrı-seçkilik obyekti kimi seçilməsinin qarşısının alınmasında mühüm rol oynayır. Məsələn, Zambiya Ali Məhkəməsinin baxış obyekti olmuş *"N.O.Broserton Zambiyanın Seçki Komissiyasına qarşı" (2011)* işində seçki prosesində əlilliyi olan bir neçə şəxsə qarşı ayrı-seçkiliyə yol verildiyinə görə Zambiya Əlil Təşkilatları Federasiyası vasitəsilə müvafiq kateqoriya şəxslər tərəfindən bu ölkənin Seçki Komissiyasına qarşı iddia irəli sürülmüşdür. İddianın irəli sürülməsində əsas məqsəd seçki prosesi zamanı seçki məntəqələrinə giriş imkanı olmayan əlillərin zəruri ehtiyaclarının adekvat şəkildə ödənilməməsi olmuşdur. Bu isə Zambiya Konstitusiyasının 23 və 75-ci maddələrini pozmaqla əlilliyi malik olan şəxslərə qarşı qanunsuz ayrı-seçkiliyə yol verilməsi, habelə sərbəst, vicdanlı, gizli və layiqli seçki hüququnun pozulması ilə nəticələnmişdir. Bununla əlaqədar, Məhkəmənin 2011-ci ildə çıxardığı qərarında birbaşa olaraq göstərilmişdir ki, seçki hüququna malik bütün vətəndaşlar hər hansı şəxsə səs vermək hüququnda, yəni aktiv seçki hüququnun realizəsində azaddırlar. Bununla əlaqədar, onlara hər hansı vasitə ilə maneə törədilə bilməz. Eyni zamanda Zambiyanın "Əlilliyi

---

[1] Harris L.J. The Americans with Disabilities Act and Australia`s Disability Discrimination Act: Overcoming the Inadequacies // Loyola of Los-Angeles International and Comparative Law Review, 1999, Vol. 22, Issue 51, pp. 51-98

olan şəxslər haqqında" Qanunun müddəaları nəzərə alınmaqla, Konstitusiyanın 23-cü maddəsinə ayrı-seçkiliyi qadağan edən hallardan biri kimi əlilliyin də daxil edilməsini məqsədəmüvafiq hesab etmişdir.[1]

Aparılan təhlillər və elmi araşdırmalar nəticəsində bir məsələyə də diqqət yetirmək lazımdır ki, əlillərin müstəqil həyatı konsepsiyası çərçivəsində işlənib hazırlanmış kompleks istiqamətli model ayrı-seçkiliyin hər hansı təzahür formasını və sözügedən sosial qrupların müvafiq əlamətlərə görə fərqləndirilməsini istisna edir.[2] Digər tərəfdən, əlillərə qarşı ayrı-seçkiliyin mövcudluğu özünü ictimai dəyərlər sistemində və müasir cəmiyyətdə onlara hörmət edilməməsi ilə büruzə verir. Bu isə həmin kateqoriya şəxslərin təhsil, tibbi yardım, sosial-məişət şəraiti və digər sosial xidmətlər, eləcə də layiqli işlə təmin edilməməsi ilə şərtlənir. Nəticədə əlillərin əksəriyyəti hüquqsuz və cəmiyyət tərəfindən rədd edilmiş insanlar sırasına aid edilməklə, maddi və mənəvi baxımdan qeyri-münasib şəraitdə təcrid olunmuş vəziyyətdə yaşayırlar. Lakin cəmiyyətdə gedən inkişafla əlaqədar, əlillərin ətraf mühitə uyğunlaşması zərurəti, habelə onların həyat fəaliyyəti üçün müəyyən ehtiyacları və bu ehtiyacların təmin edilməsinin vacibliyi özünü büruzə verir.[3]

Məhz bununla əlaqədar, bəzi müəlliflərin fikrincə, ayrı-seçkiliyin qarşısının alınması və onun qadağan olunmasının əsas bazası qismində çıxış edən konkret konsitusion subyektiv imkan – bərabərlik hüququ iki strateji istiqamət üzrə nəzərdən keçirilməklə qarşıya qoyulan məqsədlərə nail olmanı özündə ehtiva edir. Həmin istiqamətlərdən birincisi mövcud qeyri-bərabər vəziyyətin aradan qaldırılmasını nəzərdə tutan "faktiki bərabərlik" qismində

---

[1] Moyo J.N. Voting and democracy. A study of the Electoral Politics in Zimbabwe. Harare: University of Zimbabwe Publications, 1992, 244 p., pp.63-66

[2] Воеводина Е.В. Социальная адаптация студентов с ограниченными возможностями здоровья к условиям высшего учебного заведения. Автореф. дисс. на соиск. учен. степ. канд. социол. наук. М., 2012, с.14

[3] Меринова В.Н. Особенности интеграции в общество лиц с ограниченными возможностями здоровья. Автореф. дисс. на соиск. учен. степ. канд. социолог. наук. Иркутск, 2007, с.10

qiymətləndirildiyi halda, ikinci istiqamət artıq baş vermiş ayrı-seçkilik nəticəsində zərər çəkmiş şəxslərin müdafiəsi və təşviqinə yönəlmiş tədbirlərin həyata keçirilməsini şərtləndirilir.[1]

Beləliklə, əlillərə qarşı ayrı-seçkilik hallarının aradan qaldırılması və ləğv edilməsi ilə bağlı hüquq normalarının və elmi-nəzəri müddəalarının təhlili nəticəsində aşağıdakı ümumiləşdirilmiş müddəaları qeyd etmək olar:

1) 26 noyabr 2016-cı il tarixdə keçirilən referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə "*Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar*" müddəasının əlavə olunması onlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi və cəmiyyətin digər üzvləri ilə bərabərliyin təmin olunması istiqamətində atılmış mühüm addımdır. Çünki yeni müddəanın əlavə olunmasına qədər, 38-ci maddədə öz əksini tapan sosial təminat hüququnun təmin edilməsi və müdafiəsinə dair norma istisna olmaqla, Azərbaycan Respublikasının Konstitusiyasında digər hər hansı tənzimləyici vasitəyə rast gəlmək qeyri-mümkün idi. Yeri gəlmişkən, əlilliyə görə ayrı-seçkiliyin qadağan edilməsinə dair normalara bir sıra dövlətlərin (məsələn, Almaniya, Avstriya, CAR, Finlandiya, İsveç və s.) konstitusiyalarında da rast gəlmək mümkündür.

2) Əksər hallarda əlillərə qarşı ayrı-seçkilik ümumi ayrı-seçkilik kontekstində nəzərdən keçirilir. Lakin bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, hər bir halda əlillərin digər insanlarla bərabərliyini cinsi, siyasi, ictimai, sosial mənsubiyyət bərabərliyi kontekstində qiymətləndirmək bəzi hallarda düzgün nəticələrə gətirib çıxarmır. Çünki əlillərə qarşı ayrı-seçkilik daha çox sağlamlığın pozulması və bu baxımdan onların cəmiyyət tərəfindən qeyri-adekvat qarşılanması ilə bağlıdır. Məhz bununla əlaqədar,

---

[1] Dupper O. Affirmative Action and Substantive Equality: the South African experience // South Africa Mercantile Law Journal, 2002, Vol. 14, pp. 275-292

dövlətlərin konstitusiyalarında ayrı-seçkiliyin qadağan edilməsi və bərabərliyin təmini ilə bağlı təsbit olunmuş normalara əlilliyə və ya sağlamlığın pozulmasına görə ayrı-seçkiliyin qadağan olunmasına dair müddəanın da daxil edilməsi məqsədəmüvafiq hesab edilməlidir.

3) Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına əlillərə qarşı ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı müddəanın daxil edilməsi daha effektiv ola bilər. Nümunə qismində, Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nı göstərmək olar. Doğrudur, həmin sənəddə irqi ayrı-seçkiliklə mübarizə, o cümlədən qadınlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi ilə bağlı müddəalar öz əksini tapsa da, əlillik meyarı üzrə yol verilə bilən ayrı-seçkiliyin qarşısının alınması və onun aradan qaldırılmasına dair hər hansı norma mövcud deyildir. Cəmiyyətə adaptasiyadan kənarda qalmaqla və işsiz təbəqəsini formalaşdırmaqla, nəticədə psixoloji gərginliyə daha çox məruz qalan qrup kimi əlillər yoxsulluğun "inkişafı" üçün aparıcı meyar rolunu oynaya bilər. Məhz bu baxımdan, sözügedən Dövlət Proqramına əlillik meyarı üzrə ayrı-seçkiliyin qarşısının alınması və qadağan olunmasına dair müddəa daxil edilməlidir.

4) Əlillərə qarşı ayrı-seçkiliyin əleyhinə mübarizə təkcə dövlətlər tərəfindən ümumi tədbirlərin görülməsi və beynəlxalq hüquqla nəzərdə tutulan öhdəliklərinin icrası vasitəsilə deyil, həmçinin qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyəti institutlarının fəal iştirakı ilə həyata keçirilməlidir. Bu, bir tərəfdən müvafiq məsələnin həlli ilə bağlı səlahiyyətli dövlət qurumlarına zəruri köməklik göstərilməsi ilə bağlı olduğu halda, digər tərəfdən aidiyyəti beynəlxalq qurumlara (xüsusilə, Əlillərin hüquqları üzrə Komitəyə) təqdim olunan hesabatların ətraflı və şəffaf şəkildə tərtib olunmasının əsasını təşkil edə bilər.

5) Əlillərin pozulmuş hüquqlarının bərpası, xüsusilə ayrı-seçkilikdən qorunmanın məhkəmə müdafiəsi ilə bağlı təcrübə da-

ha da inkişaf etdirilməlidir. Şübhəsiz ki, insan hüquqlarının müdafiəsi və əlillərin hüquqi statusu ilə bağlı universal beynəlxalq sənədlərin əsas müddəaları rəhbər tutulmaqla, regional özünəməxsusluq mütləq şəkildə nəzərə alınmalı və insan hüquqlarının müdafiəsinə dair regional beynəlxalq məhkəmə qurumlarının təcrübəsinə dövlətdaxili səviyyədə əksər hallarda istinad olunmalıdır.

# II FƏSİL

# ƏLİLLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİNDƏ UNİVERSAL VƏ REGİONAL MÜQAVİLƏ VƏ İNSTİTUSİONAL MEXANİZMLƏRİN TƏHLİLİ: QARŞILIQLI TƏSİR VASİTƏLƏRİNİN ÜMUMİ XARAKTERİSTİKASI

## 2.1. Əlillərin hüquqlarının qorunması və müdafiəsinə universal mexanizmlərin təsirinin əsas aspektləri: müqayisəli təhlil və sistemli yanaşma

XX əsrin 40-50-ci illərindən başlayaraq, insan hüquqlarının müdafiəsi və qorunması beynəlxalq hüquqda artıq ənənə halını almışdır. Həmin dövrdən başlayaraq, dövlətlər arasında beynəlxalq münasibətlərin dərinləşməsi və genişlənməsi, inteqrasiya meyillərinin artması, habelə informasiya texnologiyalarının sürətlə inkişafı insan hüquqlarının qorunması və müdafiəsinə də öz təsirini göstərmişdir. Hətta müasir dövrdə nəinki insan hüquqlarının qorunması və müdafiəsi, eyni zamanda bu sahədə yeni tendensiyaların (məsələn, bazar münasibətlərinin tənzimlənməsi şəraitində insan hüquqlarının müdafiəsi ,[1] insan hüquqlarına dair hüquqşünaslıqda peşə məsuliyyəti[2] və s.) meydana çıxdığını aydın şəkildə görmək mümkündür. Bununla belə, istər elmi-nəzəri ədəbiyyatlarda irəli sürülən əksər müddəa və konsepsiyalarda, istərsə də beynəlxalq hüquq normalarında insan hüquqlarının dövlətin iradəsindən asılı olmamasına dair fikirlər mövcud olsa da,

[1] Woods J.M., Lewis H. Human Rights and the Global Marketplace: economic, social and cultural dimensions. New-York: Martinus Nijhoff, 2005, 959 p.
International human rights lawyering: cases and materials. Edited by R.G.Steinhardt, P.L.Hoffmman, C.N.Camponovo. Saint-Paul: West Academic Publishing, 2009, pp.661-848
Cassel D. Human Rights and Business Responsibilities in the Global Marketplace // Business Ethics Quarterly, 2011, Vol. 11, Issue 2, pp. 261-274

[2] International human rights lawyering: cases and materials. Edited by R.G.Steinhardt, P.L.Hoffmman, C.N.Camponovo. Saint-Paul: West Academic Publishing, 2009, pp.1196-1253

onun pozulması halları da yetərincədir. Digər tərəfdən, bütövlükdə insan hüquqlarının pozulması faktları ilə yanaşı, dünyanın müxtəlif regionlarında ayrı-ayrı kateqoriya şəxslərin (xüsusilə, qadın, uşaq, əlillər və s.) inteqrasiyadan və cəmiyyətdən kənarda qalması halları da müşahidə edilməkdədir. Məhz bu baxımdan, təkcə beynəlxalq sənədlərdə insan hüquqlarına dair müddəaların öz əksini tapması kifayət etmir, eyni zamanda həmin normaların düzgün realizəsi üçün beynəlxalq nəzarət mexanizmlərinin dövlətlər üzərində effektiv ciddi nəzarəti zəruridir. Digər tərəfdən, insan hüquqlarının, xüsusilə əhalinin həssas və zəif qruplarına (o cümlədən əlillərə) məxsus subyektiv imkanların mütəmadi şəkildə pozulduğu, yaxud müxtəlif səbəblərə görə pis halda müdafiə olunduğu ölkələr və regionlarda vəziyyətin qənaətbəxş səviyyəyə çatdırılması üçün beynəlxalq əməkdaşlığın həyata keçirilməsi zəruridir. Bu, ayrı-ayrı qrupların, o cümlədən əlillərin hüquqlarının qorunması və müdafiəsinə xüsusilə şamil edilməlidir. Çünki müasir dövrdə kifayət qədər milli, regional və beynəlxalq hüquq normalarının mövcudluğuna, habelə beynəlxalq qurumların fəaliyyətinin və qeyri-hökumət təşkilatlarının səylərinin daha qabarıq formada özünü büruzə verməsinə baxmayaraq, əlillik praktiki olaraq bütün fəaliyyət sahələrinin maraqlarına toxunan qlobal problemlərdən biri kimi təzahür etməkdədir.[1]

Bundan əlavə, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın vacibliyi və zəruriliyi beynəlxalq sənədlərdə də öz əksini tapmış və aydın formada ifadə edilmişdir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 2005-ci il tarixli 60/156 nömrəli[2] və 2011-ci il tarixli 66/152 nömrəli[3] “İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi haq-

---

[1] Абашидзе А.Х., Маличенко В.С.Международно-правовые основы защиты прав инвалидов // Журнал «Медико-социальная экспертиза и реабилитация», 2014, № 1, с. 32-36

[2] Resolutions and Decisions Adopted by the General Assembly During Its 60th Session. Volume I - Resolutions (13 September – 23 December 2005). Geneva: United Nations Publications, 2006, 540 p., pp.375-376

[3] www.udpo.az/read.php?lang=1&content=1473

qında" qətnamələrində dövlətlərin, BMT-nin insan hüquqlarının müdafiəsinə dair aidiyyəti mexanizm və prosedurlarının insan hüquqlarının qorunması və müdafiəsinin təminatında qarşılıqlı əməkdaşlığa, anlaşmaya və dialoqa diqqət yetirmələrinin mühümlüyü ehtiva edilmişdir. Eyni zamanda 1993-cü ilin iyununda keçirilən İnsan hüquqları üzrə Ümumdünya Konfransında qəbul olunmuş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramının 1-ci bəndində birbaşa olaraq göstərilmişdir ki, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi BMT-nin məqsədlərinə tam şəkildə nail olmaq üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin insan hüquqları və əsas azadlıqlarının bütün insanların ayrılmaz hüquqları olması, eləcə də onların müdafiəsi və qorunmasının hökumətlərin ən ümdə vəzifəsi sayılmasına dair müddəalar da həmin sənədlərin tərkib hissəsi sayılır.[1] Bundan əlavə, BMT-nin İnsan Hüquqları Ali Komissarının mandatından biri də insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın təşviqidir.[2]

Beynəlxalq hüquq normalarından başqa, elmi-nəzəri müddəalarda da insan hüquqlarının qorunması sahəsində beynəlxalq əməkdaşlıq müxtəlif aspektlərdən (məsələn, əməkdaşlıq və dialoqun vəhdət forması, qlobal dəyər və s.) təhlil olunur. Belə ki, insan hüquqlarının qorunmasını əməkdaşlıq və dialoqun vəhdət forması kimi qəbul edən müəlliflərin fikrincə, əməkdaşlıq insan hüquqlarının qorunması və müdafiəsi üçün vicdanlı praktiki fəaliyyəti özündə ehtiva etdiyi halda, dialoq bu prosesə yardım göstərir. Bununla belə, son nəticə olaraq, həm əməkdaşlıq, həm də dialoq insan hüquqlarının və ya onun qorunmasının genişləndirilmə-

[1] Collection of international instruments and legal texts concerning refugees and others of concern to UNHCR. Volume 1: Refugees, asylum, statelessness, internally displaced persons, migrants, human rights. Geneva: United Nations Publications, 2007, 631 p.; Volume 2. International instruments: international humanitarian law, international criminal law, international maritime and aviation law, miscellaneous. Geneva: United Nations Publications, 2007, 1020 p.; Volume 3. Regional instruments: Africa, Middle East, Asia, Americas. New-York: United Nations Publications, 2007, 1403 p., pp.973

[2] Lawson E. Encyclopedia of human rights. Second edition. Washington: Taylor&Francis Publishers, 1996, pp.673

sini nəzərdə tutur.[1] İnsan hüquqlarını və bu sahədə qəbul olunan beynəlxalq standartları qlobal dəyər kimi nəzərdən keçirən alimlər isə hesab edirlər ki, sonuncular beynəlxalq səviyyədə əldə edilən ən mühüm nailiyyətdir. Bu normalar isə davranışları istiqamətləndirməklə, münasibətləri və əxlaqı formalaşdırmaqla, habelə mövcud təcrübəni dəyişdirməklə və şəraitə uyğunlaşdırmaqla, ədalətli hüquq qaydasının əsasını təşkil edən insanın şərəf və ləyaqətinə hörmət olunmasına dair universal standartların möhkəmlənməsini təmin edir.[2] Eyni zamanda insan hüquqlarının səciyyəvi əlamətlərini[3] də nəzərə almaqla, bu sahədə qəbul olunan beynəlxalq normaların əhəmiyyətini daha dərindən dərk etmək olar. Fikrimizcə, qeyd olunan fikirlərə kompleks yanaşmaqla, insan hüquqlarının qorunması və müdafiəsi praktikasına tətbiq etmək daha düzgün olardı. Çünki insan hüquqları, ilk növbədə qlobal dəyər qismində nəzərdən keçirilməklə, eyni zamanda dövlətlə və cəmiyyətlə fərdlər, yaxud onların qrupları arasında qarşılıqlı əməkdaşlıq və dialoq şəraitində realizə oluna bilər. Belə ki, insan hüquqlarının müdafiəsinə dair normaların nəzərdə tutulması və ya onların dövlətdaxili qanunvericiliyə inkorporasiya edilməsi ilə yanaşı, müəyyən sosial qruplarla (məsələn, qadınların, uşaqların, əlillərin və s.) dövlət arasında hərtərəfli dialoq qurulmalıdır. Bu dialoq prosesində həmin qrupların konkret problemləri, yerli şəraitdən irəli gələn spesifik ehtiyacların təmin olunması və ayrı-ayrı növ insan hüquqlarının realizə imkanlarının praktiki vəziyyətlə uyğunlaşdırılması məsələləri dəqiq şəkildə müzakirə olunmalıdır. Şübhəsiz ki, bu, insan hüquqlarının dövlətin iradəsindən asılı olmayaraq mövcudluğuna dair müddəaya heç bir halda xələl gətirməməlidir.

Əlillərin hüquqlarının müdafiəsinə dair universal səviyyədə

---

[1] Ramcharan B.G. Contemporary human rights ideas: rethinking theory and practice. Second edition. New-York: Routledge, 2015, 232 p., pp.132

[2] Shestack J.J. Globalization of Human Rights Law // Fordham International Law Journal, 1997, Vol. 21, Issue 2, pp. 558-568

[3] Qənbərov D.M. İnsan hüquqlarının nəzəri-hüquqi əsasları və onların qorunması problemi. Bakı: "Papirus NP", 2016, 136 s. s.117-119

həyata keçirilən tədbirlərə gəldikdə isə bu hal elmi ədəbiyyatlarda müxtəlif aspektlərdə nəzərdən keçirilir. Məsələn, bəzi hallarda sözügedən məsələyə məhdud çərçivədə yanaşılmaqla və yalnız BMT-nin fəaliyyəti baxımından qiymətləndirilməklə, bu sahədə görülən işlər tarixi mərhələlər üzrə təsnifləşdirilir. Yəni daha dəqiq ifadə etsək, məsələyə konkret beynəlxalq qurum və tarixilik nöqteyi-nəzərindən yanaşan bir sıra müəlliflərin fikrincə, müvafiq sferada mövcud olan beynəlxalq tənzimetməni üç mərhələ üzrə təhlil etmək olar:

1) Əlillərin insan hüquqlarının subyekti qismində tanınmasını özündə ehtiva edən birinci mərhələ (XX əsrin 40-cı illəri – 70-ci illərin ortaları). Sözügedən dövrdə əlillər, əsasən sosial təminat hüququnun subyekti qismində qiymətləndirilmişdir. Bu isə öz hüquqi təsdiqini 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” 1966-cı il Beynəlxalq Paktında tapmışdır. Eyni zamanda bu mərhələdə əlillər nəinki sosial təminat hüququnun subyekti olaraq nəzərdən keçirilmiş, eləcə də digər insanlarla bərabər şəkildə lazımi şəraitdən istifadəni nəzərdə tutan ayrı-ayrı subyektiv imkanların subyekti qismində dəyərləndirilmişdir. Belə ki, qeyd olunan məsələlər müxtəlif beynəlxalq sənədlərdə – “Sosial tərəqqi və inkişaf haqqında” 1969-cu il Bəyannaməsi, “Əqli geriliyi olan şəxslərin hüquqları haqqında” 1971-ci il Bəyannaməsi, “Əlillərin hüquqları haqqında” 1975-ci il Bəyannaməsi və s.-də öz əksini tapmışdır.

2) Əlilliyin tibbi-sosial modelinə əsaslanan, habelə əlillərin hüquqlarının müdafiəsinin beynəlxalq-hüquqi tənzimlənməsini nəzərdə tutan ikinci mərhələ. Bu mərhələdə əlilliyin tibbi-sosial modelini əsas götürən müəyyən beynəlxalq sənədlər (1982-ci il tarixli “Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı”, 1991-ci il tarixli “Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasının Prinsipləri”, 1993-cü il tarixli “Əlillər üçün bərabər imkanların təmin edilməsinə dair Standart Qaydalar” və s.) qəbul edilmişdir. Həmin sənədlərdə əlilliyin profilaktika və əlillərin reabilitasiyasına, eləcə də iqtisadi, sosial və

mədəni hüquqların realizəsində əlillərin digər şəxslərlə bərabər imkanlarının təmin edilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi öz əskini tapmışdır.

3) "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının qəbulu və bununla da əlillərin hüquqlarının müdafiəsinə dair məsələlərin hüquqi tənzimlənməsini özündə ehtiva edən üçüncü mərhələ. Sözügedən beynəlxalq-hüquqi sənədin qəbulu mövcud sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsinə yeni yanaşmanın əsasını qoydu.[1]

Lakin müəyyən səbəblər baxımından bu fikirlə tam şəkildə razılaşmaq qeyri-mümkündür. Çünki *birincisi*, əlillik və əlillərin hüquqlarının qorunmasına dair müddəalar təkcə BMT-nin normayaradıcılıq fəaliyyətində özünü büruzə vermir, eyni zamanda digər universal beynəlxalq müqavilələrdə və beynəlxalq konfransların yekun sənədlərində özünü büruzə verir. *İkincisi*, yuxarıda qeyd olunan təsnifatda BMT-nin ayrı-ayrı ixtisaslaşmış təsisatlarının (məsələn, BƏT, YUNİSEF, ÜTT, ÜƏT, İKAO və s.) hüquqi aktlarında əlillərin müvafiq hüquq və imkanlarının realizəsi üçün nəzərdə tutulan müddəalar diqqətdən kənarda qalır. *Üçüncüsü,* insan hüquqlarının müdafiəsinə dair müqavilə mexanizmlərinin (məsələn, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə, Uşaq Hüquqları Komitəsi və s.) fəaliyyəti və əlillərlə bağlı qəbul etdiyi müddəalar müasir dövrdə ayrı-ayrı kateqoriya əlillərin (məsələn, əlil-uşaqlar, əlil-qadınlar və s.) hüquqlarının qorunması və müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki burada söhbət təkcə bütövlükdə əlillərin hüquqlarının qorunması və müdafiəsindən getmir. Belə ki, əlil kateqoriyasına aid edilən şəxslərin arasında da zəif və ayrı-seçkiliyə məruz qalma ehtimalı yüksək olan sosial qruplar (uşaqlar, qadınlar və s.) xüsusilə diqqəti cəlb edir. Məsələn, qadın stereotiplərinin yerli-yersiz qabardılması əksər hallarda əlil-qadınlarda passivlik və asılılıq halları-

---

[1] Жаворонков Р.Н. Правовое регулирование труда и социального обеспечения инвалидов в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. докт. юрид. наук. Москва, 2014, с.24-25

nın meydana çıxması ilə nəticələnir.[1] Əlil-qadınlara qarşı ayrı-seçkiliyin digər forması cəmiyyətdə, yaxud ictimai həyatın müxtəlif sferalarında təzahür edir. Belə ki, əlil-qadınların əlil-kişilərə nisbətən peşə reabilitasiyasına cəlb edilməsinə dair proseslərin zəif və ləng inkişafının müşahidə olunması, həmin şəxslərin sterilizasiyası, yaxud onlara nikahın qadağan olunması[2] son nəticədə əlil-qadınların cəmiyyətdən təcrid olunmasına gətirib çıxarır. Bu isə əlil-qadınların qarşıya çıxan problemləri təkbaşına və müstəqil şəkildə, seçim etmək azadlığı əsasında həll etmək imkanlarını minimuma endirir. Həmçinin əlil-qadınlar ailədaxili məsələlərdə ailə öhdəliklərinin icrası sahəsində müəyyən problemlərlə üzləşdiyindən, əksər hallarda məişət zorakılığı, habelə digər xoşagəlməz və hüquqazidd əməllərə məruz qalırlar.[3] Məişət zorakılığı isə bərabərlik hüququnun pozulması ilə yanaşı, istər ailə münasibətlərində, istərsə də cəmiyyətdə fiziki, psixi və cinsi zorakılıq hallarını əhatə edir.[4]

Qeyd olunanları nəzərə alaraq, əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində universal səviyyədə həyata keçirilən fəaliyyəti kompleks şəkildə nəzərdən keçirməklə, aşağıdakı formada qruplaşdırmaq olar:

1) Əlillərin hüquqlarının qorunması və müdafiəsinə dair müddəaları özündə əks etdirən müxtəlif universal beynəlxalq sənədlərin (ümumi və sahəvi) qəbulu və onların realizəsi;

2) Beynəlxalq ictimai həyatın ayrı-ayrı sahələri üzrə ictimai münasibətlərin tənzimlənməsinə və bu tənzimetmədən irəli gələn müvafiq insan hüquqlarının qorunmasına cavabdeh olmaqla, əlil-

---

[1] Encyclopedia of Women and Islamic cultures. Volume 3. Family body, sexuality and health. Edited by S.Joseph. Leiden: Brill, 2006, pp.99

[2] Quinn G., Degener Th. Human Rights and Disability: the current use and future potential of United Nations human rights instruments in the context of disability. New-York: United Nations publications, 2002, pp. 127

[3] Ballan M.S., Freyer M.B. Self-Defense among Women with Disabilities an Unexplored Domain in Domestic Violence Cases // Violence Against Women, 2012, Vol. 18, No. 9, pp. 1083-1107

[4] Qaracayev C.Y. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: "NAT MMC", 2011, s.24-27

lərin subyektiv imkanlarına dair fəaliyyəti də özündə ehtiva edən BMT-nin müxtəlif ixtisaslaşmış təsisatlarının normayaradıcılıq və praktiki mexanizmləri;

3) Ayrı-ayrı növ insan hüquqlarının qorunması və ya müxtəlif kateqoriya şəxslərin subyektiv imkanlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq müqavilə mexanizmlərinin fəaliyyəti;

4) Beynəlxalq qeyri-hökumət təşkilatlarının əlillərin müdafiəsində rolu və bununla dövlətlərarası mexanizmlərin fəaliyyətinə təsirinin əsas aspektləri.

İrəli sürdüyümüz bu təsnifatda əlillərin hüquqlarının qorunmasına dair beynəlxalq normaların yaradılması məsələsi mühüm əhəmiyyət kəsb etməklə yanaşı, həm də mürəkkəb tarixi inkişafa və struktura malikdir. Belə ki, insan hüquqlarının müdafiəsinə dair beynəlxalq fəaliyyətin ilkin dövründə, xüsusilə XX əsrin 40-50-ci illərində əlillik sadəcə ayrı-ayrı insan hüquqlarının tətbiq dairəsinə daxil olan bir element kimi müəyyən edilmişdir. Nümunə qismində, 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 25.1-ci maddəsində ehtiva olunan sosial təminat hüququnu[1] və 1966-cı ildə qəbul olunmuş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"ın 12.1-ci maddəsində öz əksini tapmış fiziki və psixi sağlamlığın ən yüksək səviyyəsinə nail olmaq hüququnu (yəni sağlamlığın qorunması hüququnu) göstərmək olar.[2]

Əlillərin hüquqları ilə bağlı sonrakı dövrlərdə qəbul olunan beynəlxalq sənədlər isə bu kateqoriyadan olan şəxslərin statusunun müxtəlif aspektlərini, yaxud konkret meyar üzrə təzahür edən qüsurları özündə daşıyan şəxslərin beynəlxalq-hüquqi müdafiəsini özündə əks etdirməyə başlamışdır. Onu da qeyd etmək lazımdır ki, həmin beynəlxalq sənədlərdə əlillərin hüquqları ilə bağlı məsələyə kompleks şəkildə deyil, yalnız məhdud çərçivədə yana-

---

[1] Morsink J. The Universal Declaration of human rights: origins, drafting and intent. Philadelphia: University of Pennsylvania Press, 2000, pp.335

[2] Beynəlxalq sənədlər toplusu. I cild. Bakı: "Qanun" nəşriyyatı, 2008, s. 15

şılmışlar. Belə ki, "Əqli geriliyi olan şəxslərin hüquqları haqqında" 1971-ci il Bəyannaməsi yalnız bu kateqoriyaya aid edilən əlillərə məxsus spesifik subyektiv imkanları (məsələn, tibbi yardım və müalicə hüququ, təhsil hüququ, əmək qabiliyyətinin bərpası, himayə olunmaq hüququ, maddi təminat və kifayət qədər həyat səviyyəsi hüququ, zəruri hallarda qəyyumun ixtisaslaşmış xidmətlərindən istifadə hüququ, istismardan, sui-istifadədən və alçaldıcı rəftardan müdafiə hüququ) ehtiva etməsinə baxmayaraq, 1975-ci ildə qəbul olunan "Əlillərin hüquqları haqqında Bəyannamə"ni əlillərin hüquqlarının beynəlxalq-hüquqi baxımdan məcəlləşdirilməsinin ilk nümunəsi hesab etmək olar. Belə ki, həmin beynəlxalq sənəddə əlillərə məxsus müəyyən subyektiv imkanların təsbit olunması bu sahədə yenilik hesab edilməlidir. Məsələn, insan ləyaqətinə hörmət hüququ, əlillərə sərbəstlik imkanlarının verilməsi üçün nəzərdə tutulan tədbirlərə malik olmaq hüququ, spesifik xüsusiyyətlər (protez və ortopedik aparatlar) nəzərə alınmaqla, tibbi, psixoloji və ya funksional müalicə hüququ, sağlamlığın bərpası hüququ, təhsil hüququ, əmək qabiliyyətinin bərpası hüququ, iqtisadi və sosial təminat, habelə qənaətbəxş həyat səviyyəsi hüququ, imkanlarına uyğun şəkildə iş yerləri əldə etmək və saxlamaq hüququ, məhsuldar və mükafatlandırıla bilən fəaliyyətlə məşğul olmaq hüququ, həmkarlar ittifaqına üzv olmaq hüququ, ailə üzvlərinin əhatəsində və ya onları əvəz edən mühitdə yaşamaq hüququ, ictimai fəaliyyətin bütün növlərində çalışmaq hüququ, istismardan müdafiə hüququ, ixtisaslaşmış hüquqi yardım almaq hüququ və s.

XX əsrin 80-ci illərində isə əlillərin hüquqlarının təminatı və onlar üçün müvafiq şəraitin yaradılması universal beynəlxalq təşkilatların, xüsusilə BMT-nin normayaradıcılıq fəaliyyətində daha qabarıq şəkildə təzahür etməyə başlamışdır. Burada digər bir fərqləndirici əlamət ondan ibarətdir ki, bu müddəalar fəaliyyət proqramı, yaxud xüsusi qaydalar formasında təsbit olunmuşdur. Bununla belə, həmin sənədlər heç də bir-birini təkrar etmir. Bunun bariz nümunəsi kimi BMT-nin 1982-ci il tarixli "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı"nı, yaxud 1993-cü ildə qəbul

edilmiş "Əlillər üçün bərabər imkanların təmin edilməsinə dair Standart Qaydalar"ı göstərmək olar. Belə ki, "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı" bütövlükdə üç əsas məqsəd (əlilliyin qarşısının alınması, əmək qabiliyyətinin bərpası, sosial həyat və inkişaf prosesində əlillərin bərabərliyi və tam iştirakının təmini) üzərində qurulduğu və əsas məqsədi iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə sosial həyat və inkişaf prosesində əlillərin bərabər şəraitdə tam iştirakının təmininə yönəldiyi[1] halda, "Əlillər üçün bərabər imkanların təmin edilməsinə dair Standart Qaydalar" – 22 qaydanı müəyyən etməklə, onları dörd istiqamət üzrə təsnifləşdirmişdir:

1) Bərabər iştirak üçün zəmin (maairfləndirmə, tibbi yardım, reabilitasiya, dəstək xidmətləri);

2) Bərabər iştirak üçün hədəf sahələri (müyəssərlik, təhsil, məşğulluq, gəlir formalaşdırılması və sosial təminat, ailə həyatı və fərdi bütövlük, mədəniyyət, rekreasiya və idman, din);

3) Tədbirlərin icrası (məlumat və tədqiqat, siyasətin formalaşdırılması və planlaşdırma, qanunvericilik, iqtisadi siyasət, işin əlaqələndirilməsi, əlilləri birləşdirən təşkilatlar, fərdi təlimlər, qaydaların icrası üzərində milli monitorinq və qiymətləndirmə proqramları, texniki və iqtisadi əməkdaşlıq, beynəlxalq əməkdaşlıq);

4) Monitorinq mexanizmləri.

Bundan əlavə, Qaydalarda ənənəvi terminlərlə yanaşı (məsələn, əlillik, qüsur), reabilitasiya, imkanların bərabərliyi, profilaktika kimi kateqoriyaların da izahı verilmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, sözügedən beynəlxalq sənəddə "profilaktika" termini iki mənada – ilkin və əlavə profilaktika formasında nəzərdən keçirilir. İlkin profilaktika fiziki, əqli, psixi və ya ruhi

[1] Stein M.A., Lord J.E. The United Nations Convention on the rights of persons with disabilities: process, substance and prospects / International human rights law in a global context. Edited by F.G.Isa, K.D.Feyter. Bilbao: University of Deusto, 2009, pp. 495-519; Абашидзе А.Х., Маличенко В.С.Международно-правовые основы защиты прав инвалидов // Журнал «Медико-социальная экспертиза и реабилитация», 2014, № 1, с. 32-36

pozuntuların meydana gəlməsinin qarşısının alınmasına yönəldiyi halda, əlavə profilaktika daimi funksional məhdudiyyət, yaxud əlilliyə səbəb olan pozuntunun aradan qaldırılması kimi ifadə edilmişdir.[1]

Əlillər üçün lazımi şəraitin yaradılması, xüsusilə onların sağlamlığının qorunmasına dair məsələlər sonrakı dövrlər digər beynəlxalq sənədlərdə (məsələn, BMT Baş Məclisinin 1991-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş “Psixi xəstəlikdən əziyyət çəkən şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasına dair Prinsiplər”[2] və s.) öz əksini tapmağa başlamışdır. Bununla belə, öhdəlik xarakterli müddəaları özündə birləşdirməklə, yeni dövrün tələblərini nəzərə alan və müvafiq şəxslərin ayrı-ayrı kateqoriyasının (əlil-uşaqlar, əlil-qadınlar və s.) hüquqi vəziyyətini müəyyən edən, eləcə də sahəvi rəhbər başlanğıcların dəqiq dairəsini nəzərdə tutan beynəlxalq-hüquqi sənədin qəbuluna olan zərurət özünü büruzə verməkdə idi. Məhz bu məqsədlə, 2006-cı ildə “Əlillərin hüquqları haqqında” Konvensiya qəbul olundu. Bununla da əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində beynəlxalq-hüquqi tənzimetmə sahəsində yeni tendensiya və inkişaf meyarları təzahür etdi. Ən əsası isə bu sənəd müvafiq şəxslərin hüquqları və subyektiv imkanlarının realizəsi istiqamətində beynəlxalq nəzarət mexanizminin formalaşmasına gətirib çıxartdı (*Konvensiyanın rolu və əhəmiyyəti dissertasiya işinin 2.2 paraqrafında daha geniş təhlil ediləcəkdir – kurs. müəllifindir*).

Eyni zamanda əlillərin hüquqlarının qorunmasına dair sahəvi və kompleks beynəlxalq-hüquqi sənədin qəbulundan öncə, bu kateqoriyadan olan şəxslərin müdafiəsi artıq qlobal müzakirə ob-

---

[1] Key Resolutions of the United Nations General Assembly 1946-1996. Edited by D.Rauschning, K.Wiesbrock, M.Lailach. Cambridge: Cambridge University Press, 1997, pp.387-395

[2] Callard F., Sartorius N., Arboleda-Florez J., Bartlett P. et. Mental illness, discrimination and the law: fighting for social justice. New-Delhi: A John Wiley§Sons Ltd. Publications, 2012, pp.270-286

Janardhana N., Naidu D.M. Inclusion of people with mental illness in community based rehabilitation: need of the day // International Journal of Psychosocial Rehabilitation, 2012, Vol. 16, No 1, pp. 117-124

yektinə çevrilməkdə idi. Yəni mövcud halda söhbət təkcə əlillərin hüquqlarının qorunması və müdafiəsindən getmirdi, eyni zamanda onların ictimai həyatın müxtəlif sahələrində (məsələn, yoxsulluğun azaldılması, ətraf mühitin davamlılığının təmin olunması, gender bərabərliyi, informasiya texnologiyalarının inkişafı və s.) fəal iştirakının təmin olunması da ümdə vəzifələrdən birinə çevrilmişdir. Məhz bu baxımdan, 2000-ci ilin sentyabrında keçirilən BMT-nin Zirvə Toplantısı mühüm əhəmiyyət kəsb edir ki, həmin tədbirdə qəbul olunmuş "Minilliyin Bəyannaməsi"ndə bir sıra məsələlərə, o cümlədən əlillərlə bağlı problemlərin həlli üçün qarşıya qoyulan məqsədlər çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsinə diqqət yönəlmişdir:

**1) Kəskin yoxsulluğun və səfalətin aradan qaldırılması (məqsəd 1).** Məlum olduğu kimi, yoxsulluq əlilliyin əsas səbəblərindən biri olmaqla, onun aradan qaldırılmasına ciddi şəkildə maneə törədir. Aparılan hesablamalara əsasən, dünyada əlilliyin 50%-dən çoxu yoxsulluqla bağlıdır ki, bu da aradan qaldırılması mümkün olan əlilliyi özündə ehtiva edir. Bu halda əsas zəmin isə ana və uşağın pis və qeyri-kafi şəkildə qidalanması, o cümlədən infeksion xəstəliklərin geniş vüsət almasıdır. Yəni lazımi şəkildə qidalanmama, infeksion xəstəlikləri yaradan səbəblərin vaxtında aradan qaldırılmaması və son nəticədə xəstəliklərin geniş miqyasda yayılması əlillik riskini də artırır.

**2) Ümumi ibtidai təhsilin təmin olunması (məqsəd 2).** Bu məsələ əlillərin cəmiyyətə inteqrasiyası və adaptasiyasına, habelə onların reabilitasiyası çərçivəsində cəmiyyətin tamhüquqlu üzvü sayılması fikrinin möhkəmlənməsinə əsaslı şəkildə təsir göstərir. Hətta statistik göstəricilərə nəzər salsaq, görə bilərik ki, dünyanın inkişaf etməkdə olan ölkələrində orta məktəbdən məhrum olan əlilliyi olan şəxslərin say nisbəti 98% qiymətləndirilir.

**3) Gender bərabərliyinin təmin olunmasına köməklik göstərilməsi, habelə qadınların hüquq və imkanlarının genişləndirilməsi (məqsəd 3).** Əlil-qadınların 3/2-nin digər qadınlara nisbətən daha çox fiziki və cinsi zəmində zorakılığa daha çox mə-

ruz qalması müasir dövrdə narahatedici amillərdən biridir. Bütövlükdə isə istənilən halda əlil-qadınlar cəmiyyətdə ikiqat əlverişsiz vəziyyətlə qarşılaşırlar. Çünki həm gender, həm də əlilliklərinə görə onların müxtəlif fəaliyyət növlərindən çıxarılması və məhrum edilməsi özünü geniş şəkildə büruzə verir.

**4) Uşaq ölümünün azaldılması (məqsəd 4).** Bir məsələni qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, bəzi ölkələrdə əlil-uşaqların ölüm dərəcəsi 80% nisbətində qiymətləndirilir. Yəni əlil və sağlam uşaqların ölüm dərəcəsinin nisbəti 80 və 20% nisbətində dəyərləndirilir.

**5) Ana sağlamlığının yaxşılaşdırılması (məqsəd 5).** Bu məqsədin həyata keçirilməsini vacib edən şərt ondan ibarətdir ki, dünyada 20 mln. qadın hamiləlik və ya doğuş zamanı ağırlaşmalar nəticəsində əlillik qazanır. Başqa sözlə, doğuşdan əvvəlki anomal vəziyyət inkişaf etməkdə olan ölkələrdə uşaqlarda baş verən əlilliyin başlıca səbəbi qismində çıxış edir. Bununla belə, əlilliyin bu formasının qarşısının qısa müddət ərzində alınması mümkündür.

**6) İİV/QİÇS, malyariya və digər yoluxucu xəstəliklərlə mübarizə aparılması (məqsəd 6).** Müasir dövrdə yoluxucu xəstəliklər əlilliyin yaranma səbəblərinin əsas vasitəsi qismində çıxış edir. Belə ki, əlillər İİV/QİÇS xəstəliklərinə yoluxmaq üçün xüsusilə həssas kateqoriya sayılırlar. Bu isə bir qayda olaraq, zəruri xidmətlərin çatışmazlığı, habelə qeyd olunan yoluxucu xəstəliklərin qarşısının alınması və müalicəsi barədə məlumata çıxış imkanlarının qeyri-mövcudluğu ilə bağlıdır. Digər tərəfdən, malyariya xəstəliyi nəticəsində 10 uşaqdan biri nevroloji pozuntuya malik olur ki, bu da tədris prosesində müəyyən çatışmazlıqların və əlaqələndirmə funskiyanın itməsi kimi xüsusiyyətləri özündə ehtiva edir.

**7) Ətraf mühitin davamlılığının təmin olunması (məqsəd 7).** Ekoloji tarazlığın korlanması, ətraf mühitin keyfiyyətinin qeyri-kafi vəziyyətdə olması, təbiətə antropogen təsirin güclənməsi insanların sağlamlığının pozulmasına təsir edən ilkin amillər sırasındadır. Məhz bu baxımdan, ətraf mühitin düzgün idarə olunma-

ması və ekoloji vəziyyətin böhran həddinə çatdırılması əlilliyin başlıca səbəbi qismində çıxış edir. Şübhəsiz ki, bu məsələdə ətraf mühit faktorunu yalnız kompleks şəkildə qiymətləndirmək düzgün olmazdı. Onun ayrı-ayrı elementlərinin insan sağlamlığına təsirini də nəzərdən keçirmək vacib məsələlərdən biridir. Məsələn, təmiz suyun çatışmazlığı, yaxud onun əldə edilməsi imkanlarının məhdudlaşdırılması traxoma və son nəticədə korluğu yaradan səbəblərdən biri sayılır.

**8) İnkişaf naminə qlobal tərəfdaşlığın formalaşdırılması (məqsəd 8).** Hazırda əlillərlə informasiya texnologiyaları arasında qarşılıqlı və mütənasib münasibətlərin vəziyyəti, demək olar ki, heç də ürəkaçan vəziyyətdə deyil. Çünki bu kateqoriyadan olan şəxslərin əksəriyyəti yeni texnologiyalara, xüsusilə informasiya və kommunikasiya texnologiyalarına (İKT) çıxış imkanlarına malik deyildir. Bu sahədə əsas problem internet səhifələrinin əksəriyyətinə əlillərin çıxış imkanlarının mövcud olmaması, eləcə də bununla əlaqədar zəruri olan yardımçı texnologiya, avadanlıq və digər inventarlar və onların quraşdırılması üçün yüksək məbləğdə vəsaitin tələb olunmasıdır.[1]

Bundan əlavə, 1993-cü ilin iyununda keçirilən İnsan hüquqları üzrə Ümumdünya Konfransında qəbul olunmuş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı silahlı münaqişələr zamanı mülki əhalinin, xüsusilə onun həssas təbəqəsi sayılan qadınların, uşaqların, ahılların və əlillərin hüquqlarının pozulmasının qarşısının alınması diqqəti xüsusi olaraq cəlb etmişdir. Eyni zamanda insan hüquqları və əsas azadlıqlarının universallığını xüsusilə vurğulayan bu beynəlxalq sənədlər əlilləri də qeyd-şərtsiz olaraq həmin universallığın tərkib hissəsi kimi nəzərdən keçirmişdir.[2]

[1] From Exclusion to Equality. Realizing the rights of persons with disabilities. Handbook for Parliamentarians on the Convention on the Rights of Persons with Disabilities and its Optional Protocol. Geneva: UN –DESA, OHCHR, IPU 2007, pp.6

[2] Collection of international instruments and legal texts concerning refugees and others of concern to UNHCR. Volume 2. International instruments: international

Bununla belə, insan hüquqlarının müdafiəsinə dair qəbul edilmiş beynəlxalq sənədlərin bir hissəsini müxtəlif sosial qrupların (məsələn, uşaqlar, yerli xaqlar və s.) subyektiv imkanlarının realizəsi və onların təşviqinə yönəlmiş aktlar təşkil edir. Məhz həmin aktların bir hissəsində əlillərin hüquqlarının qorunmasına dair müddəalar da öz əksini tapmışdır. Bunun bariz nümunəsi kimi "Uşaq hüquqları haqqında" 1989-cu il BMT Konvensiyasının 23-cü maddəsində əlil-uşaqların hüquqlarının qorunması və bu sahədə iştirakçı-dövlətlərin öhdəliklərinin icrası qismində həyata keçirilməsi zəruri olan tədbirlərə dair müddəanı göstərmək olar.[1] Əlil-uşaqların hüquqlarının qorunması və müdafiəsi sahəsində normanın 1989-cu il Konvensiyasına daxil edilməsi uşaq hüquqlarına kompleks və praqmatik yanaşmanın təzahür forması sayılmalıdır. Burada söhbət təkcə xüsusi sosial təbəqə kimi uşaqların hüquqlarının müdafiəsindən deyil, eyni zamanda əlil və digər uşaqlar arasında sosial və psixoloji fərqlərin aradan qaldırılmasından gedir. Çünki insanın cəmiyyətdə özünəinam hisslərinin formalaşması və şəxsiyyət kimi inkişaf tendensiyası hələ uşaq yaşlarından özünü büruzə verməyə başlayır. Qeyd olunanların mövcudluğu isə insanın malik olduğu hüquq və digər imkanların realizəsinə səy göstərməsinə bilavasitə təsir edir. Məhz bu baxımdan, 1989-cu il Konvensiyası mühüm əhəmiyyət kəsb edir. Konvensiyanın 23-cü maddəsinə gəldikdə isə, sözügedən norma əlil-uşaqlarla bağlı məsələlərə bir neçə istiqamətdən yanaşmışdır:

1) Əlil-uşaqlara şəxsiyyət kimi yanaşılmaqla, onların dəyərli və layiqli həyat səviyyəsi hüququ öz əksini tapmışdır. Məhz bu hüququn təmini əlil-uşağın ləyaqətini təmin etməklə yanaşı, həm də onun özünəinam hisslərini artırır və cəmiyyətin həyatında fəal iştirakını asanlaşdırır. Bununla belə, bir məsələni də nəzərə almaq lazımdır ki, hazırkı dövrdə 1989-cu il Konvensiyasında nəzərdə tutulan əlil-uşaq anlayışı "Əlillərin hüquqları haqqında" 2006-cı

---

humanitarian law, international criminal law, international maritime and aviation law, miscellaneous. Geneva: United Nations Publications, 2007, pp.977;

[1] Shrivastava R. International Encyclopedia of women rights and children rights. Volume 2. New-Delhi: Mehra Offset Press, 2009, pp.319-320

il tarixli BMT Konvensiyasında ehtiva olunan "əlil" termini ilə üst-üstə düşmür. Belə ki, birinci sənəd əlil-uşaqları yalnız əqli və fiziki çatışmazlıq baxımından qiymətləndirir ki, bu da məhdud mənada əlillik hesab olunur. Çünki əlilliyə gətirib çıxaran digər qüsur və ya pozuntular (məsələn, ruhi, psixi, yoluxucu xəstəliklərin daşıyıcısı olma və s.) 1989-cu il Konvensiyasında tənzimetmə predmetindən kənarda qalmışdır.

2) Dövlətlər tərəfindən təşviqedici tədbirlərin həyata keçirilməsinin vacibliyi əlil-uşaqlara və onların valideynlərinə, yaxud qəyyumlarına münasibətdə müvafiq tədbirlərin (qayğı, pulsuz yardım təminatı, həvəsləndirmə tədbirlərinin görülməsi və s.) icrasını şərtləndirir.

3) Konvensiyada əlil-uşaqların hüquqlarını *(məsələn, təhsil hüququ, peşə hazırlığı hüququ, tibbi xidmət hüququ, sağlamlığın bərpası hüququ, əmək hüququ)* təsbit edən müddəalar bir sıra məqsədlərlə *(uşağın sosial həyata mümkün qədər tam şəkildə cəlb edilməsi; uşağın mədəni və mənəvi inkişafı, uşaq şəxsiyyətinin püxtələşməsi)* sıx qarşılıqlı əlaqəyə malikdir. Yəni əlil-uşaqların malik olduqları hüquqların və digər imkanların dövlət tərəfindən təminatı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsinə xidmət etməlidir.

4) Sözügedən beynəlxalq-hüquqi sənədə uyğun olaraq, müvafiq imkanların və şəraitin yaradılması (dövlətlərin müvafiq imkanlarının yaxşılaşdırılması, biliklərin zənginləşdirilməsi, təcrübənin artırılması) məqsədilə, əlil-uşaqların vəziyyəti və onların hərətərəfli inkişafına dair bəzi məsələlər (profilaktik səhiyyə və tibbi xidmət; psixoloji və funksional müalicə sahəsində məlumat mübadiləsi; reabilitasiya, ümumtəhsil və peşə hazırlığının üsullarına dair məlumatların yayılması və istifadəsi) üzrə dövlətlərin əməkdaşlığı xüsusi önəm kəsb edir. Həmin əməkdaşlıqda isə inkişaf etməkdə olan ölkələrin tələbatının nəzərə alınması və bununla bağlı onlara yardım edilməsi vacib amillərdən biridir.

Bu məsələdə bir sıra meyarları, xüsusilə əlil-uşaqların təhsili, sağlamlığı, peşə təhsili və gələcək məşğulluğu istiqamətində

atılan addımları nəzərə almaq lazımdır. Bütün bunların hamısı isə özünəməxsus spesifik keyfiyyət və elementlərə malikdirlər. Belə ki, əlil-uşaqların işə qəbulu üçün minimum yaş həddi nəzərə alınarkən müxtəlif universal və regional sahəvi sənədlərin (məsələn, BƏT-in "İşə qəbul üçün minimum yaş həddi haqqında" 1973-cü il tarixli 138 nömrəli Konvensiyasının 2.3-cü maddəsi[1], "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"nın 7.3-cü maddəsi[2] və s.) tələbləri də nəzərə alınmalıdır. Digər tərəfdən, əlil-uşaqların təhsili ilə bağlı məsələyə gəldikdə, Uşaq Hüquqları Komitəsinin 1 iyul 2003-cü il tarixli "Uşaq hüquqları haqqında Konvensiya kontekstində yeniyetmələrin sağlamlığı və inkişafı haqqında" Ümumi Rəyində müvafiq kateqoriyadan olan uşaqların keyfiyyətli təhsil almalarına dair müddəalar, o cümlədən əlil-uşaqlar üçün xüsusi təhsil proqramlarının yaradılması və mümkün olduğu təqdirdə, onların adi ümumtəhsil məktəblərinə inteqrasiyası məsələsi öz əksini tapmışdır. Hətta bir sıra ölkələrin məhkəmələri (məsələn, ABŞ, Kanada, Avstraliya, Almaniya, Hollandiya) öz qərarlarında ümumtəhsil məktəblərində əlil-şagirdlərin inteqrasiyasını əsas gətirməklə, inklüzivlik metodunu müəyyən etmişlər.[3]

Uşaq hüquqlarının qorunması sahəsində qəbul edilmiş digər beynəlxalq sənədlərdə də əlil-uşaqların hüquqlarının qorunmasına dair müddəaya rast gəlmək mümkündür. Bunun bariz nümunəsi kimi 1990-cı il tarixli "Uşaqların salamatlığının, müdafiəsinin və inkişafının təmin edilməsi haqqında" Ümumdünya Bəyannaməsində təsbit olunan vəzifələrdən biri də əlil-uşaqlara böyük diqqət yetirilməsi, qayğı göstərilməsi və kömək edilməsinin zəruriliyidir.[4] "Yerli xalqların hüquqları haqqında" 2007-ci il BMT

---

[1] Human rights in international law. Basic texts. 2nd edition. Strasbourg: Council of Europe Publishing, 2000, pp.50

[2] Yenə orada, s. 296

[3] A commentary on the United Nations Convention on the rights of child. Article 28. The right to education. Edited by M.Verheyde. Leiden: Martinus Nijhoff Publishers, 2006, 69 p., pp.44-45

[4] Adilov N.A. Müasir beynəlxalq hüquq və Azərbaycan Qanunvericiliyində uşaq hüquqlarının müdafiəsi (nəzəri və praktiki məsələlər). Bakı: "AYPARA-3" Nəşriyyat Poliqrafiya Müəssisəsi, 2010, 288 s., s.236

Bəyannaməsi də əlillərin hüquqlarının qorunmasına yer ayırmışdır. Belə ki, Bəyannamədə yerli xalqlara mənsub olan ayrı-ayrı şəxslərlə (ahıllar, qadınlar, gənclər, uşaqlar) yanaşı, əlillərin hüquqlarına və xüsusi ehtiyaclarına diqqət yetirilməsinin vacibliyi (maddə 21.2), habelə Bəyannamənin icrası zamanı bu halların nəzərə alınmasının zəruriliyi (maddə 22.1) öz əksini tapmışdır.[1]

Bundan əlavə, müxtəlif insan hüquqlarının müdafiəsi və ya onların ayrı-ayrı aspektlərinin beynəlxalq-hüquqi nizamlanması prosesində də əlillərin maraqları nəzərə alınmışdır. Qeyd etdiklərimizin bariz nümunəsi kimi "Texniki və peşə təhsili haqqında" 1989-cu il Paris Konvensiyasının 2.4-cü maddəsində fiziki çatışmazlıqları olan şəxslərin, yaxud əhalinin əlverişsiz şəraitdə yaşayan digər quplarnın xüsusi ehtiyaclarına diqqət yetirilməsinin vacibliyi, eləcə də həmin insanların texniki və peşə məktəbinin imkanlarından yararlanması üçün müvafiq tədbirlərin görülməsinə dair dövlətlərin öhdəlikləri öz əksini tapmışdır.[2] Doğrudur, Paris Konvensiyası yalnız fiziki çatışmazlığa malik şəxslərin maraqlarının nəzərə alınmasını ehtiva etsə də, müəyyən mənada əlillərin hüquqlarının qorunması və müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda bu sənəd qəbul edildiyi dövr üçün əlillərin xüsusi və ayrı-ayrı hüquqlarının müdafiəsindən irəli gələn ehtiyaclarının təmini istiqamətində irəli doğru atılmış addımdır.

Həmçinin kollektiv hüquqların ehtiva olunduğu beynəlxalq sənədlərdə də əlillərin hüquqlarının qorunmasına dair müddəalara rast gəlmək mümkündür. Bunun bariz nümunəsi kimi 1969-cu il tarixli "Sosial tərəqqi və inkişaf haqqında" Bəyannamədə göstə-

---

[1] Bevan-Brown J. Including people with disabilities: an indigenous perspective // International journal of inclusive education, 2013, Vol. 17, Issue 6, pp. 571-583
Hickey H. Indigenous people with disabilities: the missing link / Human rights and disability advocacy. Edited by M.Sabatello, M.Schulze. Philadelphia: University of Pennsylvania Press, 2014, pp. 157-169

[2] Егупова М.А. Принципы равенства, инклюзии и недискриминации в реализации права на образование лицами с ограниченными возможностями здоровья // Журнал «Человек. Сообщество. Управление», 2010, № 2, с. 112-121

rilmişdir ki, sosial tərəqqi və inkişaf insan hüquqları və əsas azadlıqlarına hörmət olunmasında və həyata keçirilməsində cəmiyyətin bütün üzvlərinin həyatının maddi və mənəvi səviyyəsinin mütəmadi şəkildə artırılmasına yönəlmişdir. Bunun həyata keçirilməsi üçün bir sıra əsas məqsədlər qarşıya qoyulmuşdur ki, həmin məqsədlərdən biri də sözügedən sənədin 11-ci maddəsində nəzərdə tutulan əlillərin hüquqlarının və rifahının, habelə fiziki və əqli qüsurlardan əziyyət çəkən insanların müdafiəsi və təmini sayılır.[1]

Bəzi hallarda isə beynəlxalq sənədlərdə əlillərin müdafiəsi məsələsi birbaşa şəkildə təsbit olunmur, lakin onların müddəalarının genişləndirici və məntiqi təfsiri nəticəsində həmin normanın əlillərin hüquqlarının müdafiəsinə toxunması qənaətinə gəlmək mümkündür. Nümunə qismində 1960-cı il tarixli "Təhsildə ayrı-seçkiliyin qadağan olunmasına dair" YUNESKO Konvensiyasını[2] göstərmək olar. Belə ki, sözügedən beynəlxalq-hüquqi sənəddə təhsil imkanlarının bərabərliyi prinsipi ehtiva olunmaqla, təhsil sferasında istənilən ayrı-seçkilik forması qadağan edilmişdir. Doğrudur, həmin sənəddə ayrı-seçkilik kateqoriyası əlilliyə görə məhrumiyyət, fərqləndirmə, yaxud istisnaya məruz qalmanı nəzərdə tutmasa da, YUNESKO-nun fəaliyyətindəki "hamı üçün bərabər və tam təhsil imkanları" şüarı təhsil hüququnun bütün həssas təbəqələrin nümayəndələrinə (o cümlədən əlillərə) şamil olunmasını və inkluziv təhsilin inkişafını nəzərdə tutur. Eyni zamanda Konvensiyanın 1-ci maddəsində "ayrı-seçkilik" terminin izahı zamanı göstərilən istənilən təhsil növü və səviyyəsinə hər hansı şəxslərin, yaxud qrupların çıxış imkanlarının məhdudlaşdırılması, onlar üçün ləyaqəti alçaldan şəraitin yaradılması, yaxud milli standartlarda məhdudlaşdırıcı, fərqləndirici müddəaların qeyd olunmasına dair tərkib elementləri də fikrimizi təsdiq edir. Həmçinin bu beynəlxalq sənədin 4-cü maddəsində dövlətlərin öh-

[1] Brownlie`s documents on human rights. Sixth edition. Edited by S.I.Brownlie, G.S.Goodwin-Gill. Oxford: Oxford University Press, 2010, pp.67

[2] Documents on autonomy and minority rights. Edited by H.Hannum. Dordrecht: Martinus Nijhoff Publishers, 1993, 779 p., pp.27-32

dəliklərindən biri kimi qeyd olunan *"təhsil məsələsində imkan və davranış bərabərliyinin təşviq olunmasına səy göstərilməsi"* müddəası da bunun bariz nümunəsi sayılmalıdır.

Beləliklə, əlillərin hüquqlarının qorunması və müdafiəsinə dair müddəaları özündə əks etdirən müxtəlif universal beynəlxalq sənədlərin qəbulu və onların realizəsi istiqamətində həyata keçirilən fəaliyyəti aşağıdakı qaydada xarakterizə etməklə ümumiləşdirmək olar:

1) İlkin mərhələ kimi XX əsrin 40-cı illərinin sonundan 70-ci illərinin əvvəllərinədək insan hüquqlarının qorunmasına dair beynəlxalq sənədlərdə əlillik konkret subyektiv imkanların təminatı və tənzimetmə obyekti üçün yalnız bir element qismində çıxış etmişdir.

2) XX əsrin 70-ci illərindən başlayaraq müasir dövrümüzədək davam etməklə, əhalinin həssas qrupu hesab olunmaqla, ayrıca beynəlxalq sənədlər (məsələn, 1975-ci ildə qəbul olunan "Əlillərin hüquqları haqqında Bəyannamə") vasitəsilə əlillərə məxsus spesifik subyektiv imkanlar ehtiva edilməyə başlamışdır. Artıq nəinki əlillərin, hətta onların ayrı-ayrı qruplarının özünəməxsus statusunu və subyektiv imkanlar sırasını müəyyən edən beynəlxalq sənədlərin (məsələn, "Əqli geriliyi olan şəxslərin hüquqları haqqında" 1971-ci il Bəyannaməsi) qəbulu tendensiyası təzahür etdi. Eyni zamanda əlillərin hüquqlarının qorunması və onlar üçün lazımi şəraitin yaradılması müxtəlif universal beynəlxalq sənədlərin, xüsusilə BMT-nin normayaradıcılıq fəaliyyətinin müxtəlif təzahür formalarında (məsələn, 1982-ci il tarixli "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı", 1993-cü il tarixli "Əlillər üçün bərabər imkanların təmin edilməsinə dair Standart Qaydalar" və s.) öz əksini tapmışdır. Bununla belə, qeyd olunan beynəlxalq sənədlərin müəyyən çatışmazlıqları (məsələn, normaların öhdəlik xarakterli olmaması, lazımi nəzarət mexanizminin qeyri-mövcudluğu, əlillərin hüquqlarına dair rəhbər başlanğıcların təsbit olunmaması, əlillərin zəif və həssas təbəqəsini təşkil edən əlil-uşaqlar, yaxud əlil-qadınlara dair müddəaların nəzərdə tutulma-

ması və s.) bu sahədə yeni və kompleks müddəaları özündə əks etdirən beynəlxalq-hüquqi sənədin, yəni "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının qəbulu zərurətini şərtləndirdi.

3) İnsan hüquqlarının müdafiəsinə dair ümumi beynəlxalq sənədlər və əlillərin hüquqlarına dair sahəvi beynəlxalq aktlardan başqa, ayrı-ayrı sosial qruplara yönəlmiş (məsələn, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Yerli xalqların hüquqları haqqında" 2007-ci il Bəyannaməsi və s.) və ya subyektiv imkanların məzmununu ifadə edən (məsələn, "Texniki və peşə təhsili haqqında" 1989-ci il Konvensiyası və s.) beynəlxalq-hüquqi normalarda da əlillərə dair müddəalara rast gəlmək mümkündür. Bu sənədlərin mövcudluğu və realizəsi əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyini, yəni onların digər insanlarla bərabər hüquq və imkanlara malik olduğunu şərtləndirir. Vəzifələrə gəldikdə isə qeyd olunmalıdır ki, əlillərin fiziki və ya psixi vəziyyətində olan qüsur və ya çatışmazlıq, şübhəsiz ki, onların müəyyən vəzifələrin (məsələn, vətəni müdafiə) icrasına maneə törədir. Onların bu vəzifələrin yerinə yetirilməsindən azad edilməsi digər insanlara münasibətdə heç də ayrı-seçkilik deyil, əlillərə verilən güzəşt, imtiyaz, yaxud istisna kimi dəyərləndirilməlidir.

Onu da qeyd etmək lazımdır ki, BMT-nin ixtisaslaşmış təsisatları da əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində öz səlahiyyətləri çərçivəsində bir sıra zəruri tədbirlər görmüşlər. Məsələn, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) 2013-cü ildə qəbul etdiyi "Əlilliklə bağlı inkluziv aqrobiznesin inkişafına dair" Banqkok Tövsiyələrində əlillərlə bağlı bir sıra məsələlərə toxunmuşdur:

1) Bütün səviyyələrdə əlillərin müdafiəsini dəstəkləyən stimullaşdırıcı siyasətin genişləndirilməsi, əlillərlə bağlı fəaliyyəti dəstəkləyən şəbəkələrin, habelə inkluziv aqrobiznesin inkişafı sahəsində məsul olan dövlət və xüsusi sektorların yaradılması, yaxud gücləndirilməsi (bənd 1);

2) Aqrobiznes sahəsində effektiv iştirakın təmin olunması məqsədilə, unikal bilik və bacarıqların cəlb olunmasına əsaslan-

maqla, əlillərin çıxış imkanına malik olduğu texnologiya və infrastrukturlara investisiyaların qoyulması, habelə onlara dair elmi-tədqiqatların dəstəklənməsi və işlənib hazırlanması (bənd 4);

3) Əlyetərli kredit və faiz şərtlərinin müəyyən olunması, habelə maliyyə sektoruna məxsus digər lazımi şəraitin yaradılması yolu ilə, əlillərin müvafiq kreditlərin əldə olunmasına çıxış imkanlarının yaxşılaşdırılması (bənd 5).[1]

Aqrobiznes sahəsində əlillərin inkişafı məsələsi elmi-nəzəri araşdırmalarda, əsas etibarilə üç elementdən (əlil-sahibkarların fəaliyyətinin aktivliyi və məhsuldarlığı; əlil-sahibkarların bilik, bacarıq və vərdişlərinin aşkar olunması; alıcı və ya sifarişçilərin tələb və onlara yönəlmiş təkliflərin daha düzgün qiymətləndirilməsi) ibarət kompleks məsələ kimi nəzərdən keçirilir.[2] Yəni həmin elementlərin hər biri səciyyəvi xüsusiyyətlər, funksiyalar və rəhbər başlanğıclara malik olsa da, son nəticədə vahid kompleksi təşkil etməklə əlillərin bu sahədə bilik və bacarıqlarının üzə çıxarılması kontekstində onların cəmiyyətə inteqrasiyası və adaptasiyasının təmininə yönəlir. İkincisi, bu inkişaf tendensiyası əlillərin məşğulluq və peşə hazırlığının formalaşmasına, habelə onlarda özünəinam və özünütəsdiq hisslərinin formalaşmasına çox mühüm təsir göstərir. Üçüncüsü, əlil sahibkarların imkanlarından yararlanmaqla, əlilliyin elementlərinin mövcud olduğu sahibkarlığın inkişafına təkan verilməsi öz-özlüyündə əlillərin maraq və mənafelərinin, eləcə də onların qarşılaşdıqları problemlərin qabarıq şəkildə cəmiyyətə çatdırılmasını şərtləndirir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1952-ci il tarixli “Sosial təminat (minimum standartlar) haqqında” 102 nömrəli Konvensiyası əlillərin məşğuliyyəti və peşə reabilitasiyasına dair məsələlərə iki kontekstdən yanaşır. Belə ki, birinci halda, Konvensiyanın 35-ci maddəsi əlil-işçilərin müvafiq işlə təmin olunması

[1] www.fao.org/asiapacific/news/detail-events/en/c/170605/

[2] Sano R. Knowledge Management-based Classification Method for Disability-Inclusive Business // Disability, CBR and Inclusive Development Journal, 2014, Vol. 25, Issue 3, pp. 5-23

məqsədilə səhiyyə xidmətləri göstərən dövlət qurumları və institutları ilə peşə reabilitasiyasına dair ümumi xidmətlərlə əməkdaşlığını nəzərdə tutur. Sözügedən beynəlxalq-hüquqi sənəddə əlillərlə bağlı nəzərə çarpan ikinci istiqamət isə qüsurlu insanların peşə reabilitasiyasının təmin edilməsi üçün milli qanunvericilik aktlarında zəruri müddəaların təsbit olunmasıdır. Əlilliyə görə müavinətə dair müddəaları özündə ehtiva edən bu beynəlxalq-hüquqi sənədi bütövlükdə təhlil etdikdə, belə qənaətə gəlmək olar ki, Konvensiya nəzərdə tutulan sosial risklərə uyğun olan digər sosial təminat tədbirlərini də özündə ehtiva edir. Bunun bariz nümunəsi kimi tibbi xidmət, xəstəliyə görə müavinət, işsizliyə görə müavinət, qocalığa görə müavinət, istehsalat travması ilə əlaqədar müavinət, ailə müavinəti, hamiləliyə və doğuşa görə müavinət, ailə başçısını itirməyə görə müavinəti göstərmək olar .[1] BƏT-in “Əlillərin peşə reabilitasiyası və məşğulluğu haqqında” 1983-cü il tarixli 159 nömrəli Konvensiyası və 168 nömrəli Tövsiyəsi isə əlillərin sosial vəziyyətinin yaxşılaşdırılmasına və bu kateqoriyadan olan şəxslərin iqtisadi rifahının təmin olunmasına, eləcə də onlara ictimai həyatda fəal şəkildə iştirak etmək imkanının verilməsinə yönəlmişdir.[2]

Bundan əlavə, BƏT-in qəbul etdiyi digər bir sıra sənədlər (məsələn, “Sənaye və ticarət müəssisələrinin işçiləri, sərbəst peşə sahibləri, həmçinin evdə çalışan və ev qulluqçularının icbari sığortası haqqında” 1933-cü il tarixli 37 nömrəli Konvensiyası,[3] “Kənd təsərrüfatında çalışan işçilərin əlilliyə görə icbari sığortası haqqında” 1933-cü il tarixli 38 nömrəli Konvensiyası,[4] “Əlilliyə, qocalığa və ailə başçısını itirməyə görə sığortalanmanın ümumi

[1] Лаптев Г.С. Конвенция МОТ № 102 «О минимальных нормах социального обеспечения» как источник права социального обеспечения // Вестник Омского Университета. Серия «Право», 2010, № 1, с. 111-115

[2] Бородко Н.П., Греченков А.А., Киселева Л.А. Международная организация труда: структура и деятельность. Учебное пособие. М.: «Издательство деловой и учебной литературы», 2006, с. 55

[3] International labour conventions and recommendations. Volume 1: 1919-1951. Geneva: ILO, 1996, 660 p., pp.191-198

[4] Yenə orada, s. 199-207

prinsipləri haqqında” 1933-cü il tarixli 43 nömrəli Tövsiyə,[1] “Əlilliyə, qocalığa və ailə başçısını itirməyə görə sığortadan irəli gələn hüquqların müdafiəsi beynəlxalq əməkdaşlıq sisteminin qurulması haqqında” 1935-ci il tarixli 48 nömrəli Konvensiya[2], “Əlillər də daxil olmaqla, yaşlıların peşə təlimi haqqında” 1950-ci il tarixli 88 nömrəli Tövsiyə[3], “Əlillərin peşə hazırlığı haqqında” 1965-ci il tarixli Qətnamə, “Əlil-işçilərin peşə hazırlığına dair” 1968-ci il Qətnaməsi,[4] “Əlillərin peşə reabilitasiyası haqqında” 1955-ci il tarixli 99 nömrəli Tövsiyə,[5] “Əlilliyə, qocalığa və ailə başçısını itirməyə görə müavinətlər haqqında” 1967-ci il tarixli 128 nömrəli Konvensiya,[6] “Əlilliyə, qocalığa və ailə başçısısını itirməyə görə müavinətlər haqqında” 1967-ci il tarixli 131 nömrəli Tövsiyə[7] və s.) əlillərin peşə hazırlığı və reabilitasiyası kontekstində onların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasına yönəlmiş mühüm tədbirləri özündə ehtiva edir. Bu tədbirlər öz-özlüyündə təkcə əlillərin reabilitasiyasına dair stimullaşdırıcı müddəaları müəyyən etmir, eyni zamanda bu sahədə müvafiq zəruri tədbirlərin (qanunvericilik, inzibati, xüsusi və s.) görülməsi istiqamətində dövlətlər üçün ümumi vəzifə və öhdəlikləri bildirir.

Ümumdünya Turizm Təşkilatının (ÜTT) “Turist səfərlərinin asanlaşdırılması haqqında” 2009-cu il tarixli Bəyannaməsində bir sıra kateqoriya şəxslərin, o cümlədən əlilliyi olan şəxslərin turizm səyahətlərinin sadələşdirilməsi və asanlaşdırılmasına dair tədbirlərin görülməsinə önəm verilməsini nəzərdə tutur. Hətta Bəyannamənin 4-cü bəndində əlilliyi olan şəxslər arasında turizmin təş-

---

[1] Yenə orada, s. 248-254
[2] Yenə orada, s.264-272
[3] Yenə orada, s. 631-369
[4] Vocational rehabilitation and employment of disabled persons. Geneva: ILO, 1998, pp.3
[5] International labour conventions and recommendations. Volume 2: 1952-1976. Geneva: ILO, 1996, pp.59-67
[6] Servais J.M. International labor law. The Hague: Kluwer Law International, 2005, 346 p., pp.258-262
[7] International labour conventions and recommendations. Volume 2: 1952-1976. Geneva: ILO, 1996, pp.391-394

viqi və onların turist səfərlərinin asanlaşdırılmasına dair müəyyən tədbirlərin həyata keçirilməsi tövsiyə olunur. Həmin tədbirlərə turist səfərlərinin sərbəst və maneəsiz həyata keçirilməsi üçün bərabər imkanların və şəraitin yaradılması (*əlilliyi olan şəxslər üçün əlyetərli olan turizm internet səhifələri və müəssisələri yaratmaq, eləcə də əlavə xərc tələb olunmadan həmin şəxslərə xüsusi vasitələr təklif etmək*), turizm və səyahətlər üzrə ümumi qayda və prinsiplərə əsaslanmaqla əlilliyi olan şəxslərin turist səfərləri üçün spesifik kadr hazırlığının təmini (*turizmlə bağlı İnternet səhifələrinin, müəssisələrinin və xidmət sahələrində çalışan heyətə xüsusi təlimlərin təklif olunması, həmçinin onların əlillərlə bağlı turizm işlərinə hazırlanması*), habelə bu sahədə maarifləndirmənin həyata keçirilməsi və inkişafına dair (*əlilliyi olan şəxslər üçün mövcud əlyetərli infrastrukturlar, habelə turist səyahətləri zamanı əlillərin üzləşdikləri problemlər barədə dəqiq və ətraflı məlumatları çap etmək*) məsələlər aiddir.

Bundan başqa, ÜTT-nin 2014-cü il tarixli "Müyəssər turizm haqqında" San-Marino Bəyannaməsində turizmin həm əlillər və xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün güzəşt və üstünlük mənbəyi, həm də onun səyahət və turizmdən kənarda olan çoxsaylı sahələr üçün ciddi iqtisadi əhəmiyyəti xüsusilə vurğulanmışdır. Eyni zamanda bu kateqoriyadan olan şəxslər üçün turizm səyahətinin sadələşdirilməsini turizmin inkişafı siyasətinin mühüm elementi kimi nəzərdən keçirən Bəyannamə dövlətlərin həyata keçirməsi tövsiyə olunan bir sıra tədbirləri müəyyən etmişdir:

a) Əlilliyi olan şəxslər üçün əlyetərli olan turizmə dair internet səhifələri və müəsissələrinin yaradılması, eləcə də heç bir xərc tələb olunmadan bu kateqoriya insanlar üçün xüsusi imkanların təklif olunması;

b) Müvafiq kateqoriyadan olan şəxslərlə işləmək üçün hazırlıq məqsədilə, turizm müəssisələri, xidmətləri və internet səhifələrinin əməkdaşlarına xüsusi təlimlərin keçirilməsinin təklif olunması;

c) Əlilliyi olan insanlar üçün mövcud əlyetərli obyektlər,

habelə turizm səyahətləri zamanı həmin şəxslərin üzləşə bildikləri problemlər barədə dəqiq və ətraflı məlumatların çap edilməsi.[1]

Ümumdünya Turizm Təşkilatının Baş Assambleyasının 2005-ci ildə Dakar şəhərində keçirilən sessiyasında qəbul olunan "Hamı üçün müyəssər turizm haqqında" Qətnaməsi isə müvafiq məsələyə üç aspektdən yanaşmışdır:

1) əlyetərli xidmətlər və imkanları dəqiq və ətraflı şəkildə göstərən turizm informasiyası və təbliğatı;

2) əlil istehlakçıların üzləşdiyi problemlərlə tanış olmaq və onları həll etmək iqtidarında olan turizm müəssisələrinin və turizmlə bağlı xidmət sahələrinin əməkdaşları üçün kadr hazırlığı və ixtisasartırma fəaliyyətinin təşkili;

3) müxtəlif infrastrukturlarda (məsələn, parklanma əraziləri, lift və digər qaldırıcı qurğular, ictimai telefon xidmətləri, terminal və stansiyalar, yerləşmə vasitələri, qidalanma müəsssisələri və ictimai iaşə xidmətləri, muzeylər və turistlərin marağını cəlb edən digər analoji müəssisələr, konfrans imkanları və s.) əlil-turistlərin öz ehtiyaclarını asanlıqla və maneəsiz ödəməsi üçün dövlətlər tərəfindən həyata keçirilməsi zəruri olan ümumi və xüsusi tələblər.[2]

"Turizm vasitəsilə sülh haqqında" 2000-ci il Əmman Bəyannaməsinin 2-ci bəndində isə səyahət etmək hüququ əsassız məhdudiyyətlər tətbiq edilmədən, o cümlədən əlilliyi və xüsusi ehtiyacları olan şəxslər üçün səyahət asanlaşdırılmaqla həyata keçirilməsi zəruri olan fundamental insan hüququ kimi nəzərdən keçirilir.[3] Göründüyü kimi, fundamental insan hüququnun mahiyyət

---

[1] Ivanovic A.M. Business opportunity and social responsibility: growing importance of accessible e-tourism for senior tourists and persons with disabilities / New business opportunities in the growing e-tourism industry. Edited by E.Hajime. New-York: IGI Global, 2015, pp. 303-337

[2] Allan M. Disability Tourism: Why do Disabled People Engaging in Tourism Activities? // European Journal of Social Sciences, 2013, Vol. 39, No 3, pp. 481

Lovelock B., Lovelock K.M. The ethics of tourism: critical and applied perspectives. New-York: Routledge, 2013, 384 p., pp.171-172

[3] Singh Sh., Singh T.V. Volunteer tourism: new pilgrimages to the Himalayas / New horizons in tourism: strange experiences and stranger practices. Edited by T.V.Singh. Cambridge: CABI Publishing, 2004, pp. 181-194

yət və məzmunu izah olunarkən, müasir inkişaf tendensiyasını nəticəsi olaraq əlillərin və sağlamlıq imkanları məhdud insanların maraq və mənafeləri də mütləq şəkildə nəzərə alınır.

Müyəssər turizmin özünün izahına gəldikdə, qeyd etmək lazımdır ki, bu özünü bir sıra əlamətlərin mövcudluğu şəklində büruzə verir. Məsələn, nəzərdə tutulan turizm məhsulları, xidmətləri və mühitinin universal şəkildə təqdim olunması, həmin xidmətlərdən sərbəst, digərləri ilə bərabər şəkildə və layiqli formada istifadə olunmasının mümkünlüyü, müyəssər turizmin inkişafı zamanı bir sıra meyarların (xüsusilə, hərəkət, görmə, eşitmə, idraki və s.) nəzərə alınması, turizm xidmətlərinin göstərilməsinə sərmayə qoyan səhmdarların birgə və qarşılıqlı fəaliyyət əsasında qurulan əməkdaşlığı və s.

Onu da qeyd etmək lazımdır ki, müyəssər turizmin inkişafı üçün ən önəmlisi səhmdarlar arasında əməkdaşlığın düzgün qurulması və bu sahədə beynəlxalq-hüquqi tələblərin nəzərə alınmasıdır. Bütün bunların əsas realizə vasitəçisi qismində isə dövlətlər çıxış edir. Yəni dövlət beynəlxalq hüquq normaları ilə turizm sahəsində fəaliyyət göstərən səhmdarlar arasında əsas hərəkətverici mexanizm rolunu oynayır. Digər tərəfdən, bir sıra tələblərə riayət olunması da məqsədəmüvafiq hallardan hesab olunur:

- Turizm sənayesi mütəxəssislərinin maarifləndirilməsi səviyyəsinin yüksəldilməsi və bu işə xüsusi diqqət yetirilməsi;
- İqtisadi imkanların zəifliyinə baxmayaraq, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi yolu ilə turizm iştirakı hüququnun təmin olunması;
- Universal dizaynın spesifik prinsiplərinə riayət olunması;
- Müyəssərlik dərəcəsindən asılı olmayaraq, bütün sahələrdə düzgün məlumatın təqdim olunması üçün istifadə imkanları mümkün və sadə olan texnologiyaların inkişafı və tətbiqi;
- sistemli və kompleks perspektivli sahə sayılan turizmin bir-biri ilə qarşılıqlı asılılıq təşkil edən elementlərdən (ətraf mühit, nəqliyyat, turizm informasiyası, turizm infrastrukturları, aparaturizm və s.) ibarət zəncirvari həlqə şəklində universal müyəssərlik obyekti qismində çıxış etməsi;

- səyahət və turizmdə universal müyəssərliyə öz töhfəsini verə bilən qabaqcıl təcrübənin təşviqi və mübadiləsi;

- beynəlxalq və regional səviyyələrdə turizmə universal müyəssərlik sahəsində maraqlı tərəflərlə əməkdaşlığın gücləndirilməsi, habelə dövlət qurumları ilə özəl sektor arasında tərəfdaşlığa turizm sektorunun, qeyri-hökumət təşkilatlarının və əlillərin nümayəndələrinin cəlb olunması.[1]

BMT-nin ixtisaslaşmış təsisatlarından olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) da əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər həyata keçirməklə, normayaradıcılıq fəaliyyətinə xüsusi önəm vermişdir. Nümunə qismində bu beynəlxalq təşkilat çərçivəsində 2013-cü ildə qəbul olunmuş "Korların, görmə qüsurlu və çap informasiyasını qavramaq imkanı məhdud şəxslərin nəşr edilmiş əsərlərə girişini asanlaşdırmaq haqqında" Marakeş Müqaviləsini göstərmək olar. Həmin beynəlxalq-hüquqi sənəddə bir sıra terminlərin (məsələn, "əsər", "surətin əlyetərli forması", "səlahiyyətli orqan") izahına diqqət yetirilmiş, 3-cü maddədə isə benefisiar şəxs sayıla bilən şəxslərin kateqoriyası müəyyən edilmişdir. Belə ki, Müqaviləyə uyğun olaraq bu kateqoriyaya görmə qabiliyyəti ilə bağlı pozuntunun istənilən formasından asılı olmayaraq, üç qrup şəxslər aid edilir:

1) Korlar;

2) Görmə qabiliyyəti pozulmuş, və ya qavrama, yaxud oxuma üçün məhdud imkanlara malik olan, habelə görmə qabiliyyətinin bərpası qeyri-mümkün şəxslər, habelə heç bir pozuntu və ya məhdud qabiliyyət olmadan çap məhsullarını əhəmiyyətli dərəcədə qavraya bilməyən şəxslər;

3) Fiziki qüsurlar nəticəsində kitabı saxlamaq və ya onunla davranmaq imkanlarından məhrum olan, habelə hər hansı kitabın bu və ya digər səviyyədə adi qaydada oxunmasına mane olan gözün fokuslaşmasında və ya onun hərəkət etdirilməsində qüsurlara

[1] Zajadacz A. The contribution of the geography of disability to the development of "accessible tourism" // "Tourism", 2015, No 25, Issue 1, pp. 19-27

malik olan şəxslər.[1]

Sözügedən beynəlxalq müqaviləni bütövlükdə təhlil edərkən onun üç əsas funksiyaya malik olduğu qənaətinə gəlmək olar. *Birincisi*, sözügedən sənəd qeyri-kommersiya xarakterli müəlliflik hüququna dair istisnaların qəbulu və əsərlərin əlilliyi olan şəxslər üçün əlyetərli variantlarının yayılmasına dair öhdəlikləri müəyyən edir. Bu müddəa iştirakçı-dövlətlərdən öz qanunvericilik aktlarını inkişaf etmiş ölkələrin riayət etdiyi standartlara uyğunlaşdırılmasını tələb edir. Bir məsələni də qeyd etmək lazımdır ki, bu beynəlxalq müqavilə icazə hallarından daha çox istisnaları müəyyən edən nadir beynəlxalq vasitələrdən biri hesab olunur. Çünki Mərakeş Müqaviləsi müəlliflik hüququnun müstəsna hüquqlarına dair istisnaları, o cümlədən müəlliflik hüquqlarının maraqlarının möhkəmləndirilməsinə dair maksimum səviyyədə qaydaları müəyyən edir. *İkincisi*, müvafiq beynəlxalq-hüquqi sənəd çap informasiyasını qavramaq imkanları məhdud olan şəxslərə kömək məqsədilə aidiyyəti qurumlar tərəfindən əlyetərli surətlərin digər iştirakçı-ölkənin analoji qurumları və həmin ölkələrdə yaşayan əlilliyi olan şəxslərə yayılmasına rəsmi icazə verilməsini şərtləndirir. Eyni zamanda Mərakeş Müqaviləsinin şərtlərinə əsasən, çap informasiyasını qavramaq imkanları məhdud olan şəxslərə köməklik göstərən təşkilatların könüllü reyestrinin yaradılması yolu ilə üzv-dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, məlumat mübadiləsi prosedurlarının formalaşdırılmasına dair məsələlərin həyata keçirilməsi ÜƏMT-ə həvalə edilmişdir. Bu isə qarşıya çıxan bir sıra problemlərin həllinə, xüsusilə hər bir əsər və əqli mülkiyyət məhsulunun surətlərinə fərdi girişin kodlaşdırılmasının konkret ölkənin institutları tərəfindən həyata keçirilməsini nəzərdə tutan mövcud sistemin qeyri-effektivliyinin azaldılmasına kömək edir. *Üçüncüsü*, Müqavilənin nəzərdə tutduğu

[1] Wechsler A. WIPO`s Global Copyright Policy Priorities: The Marrakesh Treaty to facilitate access to published works for persons who are blind, visually impaired, or otherwise print disabled // European Yearbook of International Economic Law 2015. Edited by C.Herrmann, M.Krajewski, J.Ph.Terheche. Berlin: Springer, 2016, pp. 391-406

məhdudiyyət və istisnalardan müvafiq şəxslərin istifadəsinin qarşısını almayan xüsusi sxemlərin dövlətlər tərəfindən təqdim olunması nəzərdə tutulur. Bu isə əlilliyi olan şəxslərə və ya onların nümayəndələrinə elektron kitab və digər əsərlərə qoyulmuş asanlıqla daxil edilə bilən rəqəmsal kodların verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sonuncu hal, öz növbəsində onların əsərlərə və işlərə daxil olmaq üçün müvafiq texnologiyadan istifadəsinə şərait yaradır.[1]

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İKAO) Baş Katibliyinin qəbul etdiyi 1990-cı il tarixli "Hava limanlarında xidmətlərə dair Rəhbər Qaydalar"ın 12.3.29-cü bəndinə uyğun olaraq, yanğından mühafizə və qəza-xilasetmə işləri ilə əlaqədar ekipaj heyətinin üzvləri hava gəmisinin enməsindən öncə bir sıra məlumatları bu funksiyanı yerinə yetirən şəxslərə təqdim etməlidirlər. Həmin məlumatlara digər məsələlərlə (maye yük, göyərtədə olan şəxslərin sayı, kabinələrin quruluşu, sərnişilərin kateqoriyalar üzrə bölgüsü, konkret vəziyyətin tələb etdiyi digər məlumatlar və s.) yanaşı, həmçinin əlillər və sağlamlıq imkanları məhdud şəxslər barədə informasiya da daxildir.[2] Göründüyü kimi, əlillərin hüquqlarının qorunması, xüsusilə çətin və ekstremal şəraitdə onların mühafizəsi və müdafiəsi beynəlxalq birlik tərəfindən hərtərəfli şəkildə nəzərə alınmışdır.

İKAO Baş Katibliyinin qəbul etdiyi "Əlilliyi olan şəxslərin hava nəqliyyatından istifadə imkanlarına dair Rəhbər Qaydaları"nın 3-cü bəndinə əsasən, hava gəmilərinin və limanlarının operatorları, yerüstü xidmət operatorları, habelə turagentliklər səyahət etməyi planlaşdıran əlilliyi olan şəxslərə hərəkət zamanı əlyetərli xidmətlər və həmin xidmətlərin əldə edilməsi qaydaları barədə məlumat verilməsi üçün bütün zəruri tədbirləri görməlidirlər. Eyni zamanda aşağıdakı məlumatların hava limanları və hava gə-

[1] Harpur P., Suzor N. Copyright protections and disability rights: turning the page to a new international paradigm // University of New South Wales Law Journal, 2013, Vol. 36, Issue 3, pp. 745-778
[2] Expediting aircraft recovery at airports. A synthesis of airport practice. Consultant C.D.Prather. Washington: Transportation Research Board, 2012, pp.47

misinin operatorları tərəfindən ictimaiyyətə çatdırılması da ümdə şərtlər sırasına aiddir: 1) iş vaxtı; 2) hava nəqliyyatı vasitələrinin saxlanması yerlərinin yerləşdiyi ərazilər; 3) enmə və toplanma ərazilərinin yerləşdiyi məkanlar; 4) əlyetərli və zəruri məlumatları əldə etmək üçün telefon nömrələri; 5) əlil arabaları və ya elektrik arabalarına dair xidmətlər; 6) heyvanlara xidmətlərin göstərildiyi ərazilər; 7) əlyetərli terminalarası daşıma vasitələri; 8) əlyetərli və mümkün yerüstü daşıma xidmətləri; 8) qeyri-səyahət funksiyasını həyata keçirən tərəfdaşlara yaxınlaşma; 9) şikayətlərin həlli üzrə xidmətlər; 10) ilkin xəbərdarlıq tələbləri; 11) qeydiyyat və yola düşmə vaxtları; 12) əlavə və ya köməkçi hərəkət vasitələrinin daşınmasına dair tələblər; 13) hava nəqliyyatından enmə üçün zəruri olan vasitələr daxil olmaqla, hava limanında və uçuş zamanı lazımi xidmət növləri.[1]

Eyni zamanda qaydalarda əlilliyi olan şəxslərə göstərilən bir sıra xidmətlər üçün heç bir xərc və ya məsrəf tələb olunmadığına dair müddəalar öz əksini tapmışdır. Belə ki, bu kateqoriyadan olan şəxslərin təyinat nöqtəsinə və ya hava limanına çatdırılması üçün nəzərdə tutulan vasitələr itdiyi, zədələndiyi, zərurət olmadan gecikdirildiyi və ya məhv edildiyi təqdirdə, hava nəqliyyatının operatoru müvəqqəti əvəzedici vasitə ilə onu təmin etməlidir. Bu təminat üçün isə əlilliyi olan və ya onu müşayiət edən şəxsdən heç bir vəsait və ya xərc tələb olunmur.

Əlillərin hüquqlarının müdafiəsi və qorunması sahəsində universal səviyyədə fəaliyyətin araşdırılması zamanı insan hüquqlarının müdafiəsinə dair müqavilə mexanizmlərinin təcrübəsini də nəzərdən keçirmək yerinə düşərdi. Doğrudur, insan hüquqlarının qorunmasının ayrı-ayrı aspektlərinə, habelə müxtəlif sosial qruplarının müdafiəsinə dair müddəaları əks etdirməsinə baxmayaraq, həmin mexanizmlər bu və ya digər dərəcədə əlillərin subyektiv imkanlarının qorunmasına da toxunmuşdur. Məsələn, Uşaq Hüquqları Komitəsinin 2006-cı il tarixli "Əlilliyi olan uşaq-

[1] Abeyratne R. Aviation and international cooperation. Human and public policy issues. Cote-Saint-Luc: Springer, 2015, 287 p., pp.168-169

ların hüquqlarına dair" 9 nömrəli Ümumi Rəyi bu kateqoriyadan olan uşaqların müdafiəsi ilə bağlı müddəaları əks etdirir. Bütövlükdə isə həmin müddəaları bir neçə istiqamətdə təsnifləşdirmək olar:

1) Xüsusi olaraq əlil-uşaqlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi ilə bağlı dövlətlər tərəfindən zəruri tədbirlərin görülməsi öhdəliyinin nəzərdə tutulması. Həmin öhdəliklərin icrası Ümumi Rəyin 9-cu bəndinə ehtiva olunmuşdur. Məsələn, əliliyin ayrı-seçkiliyə zəmin yaradan hallardan biri kimi nəzərdən keçirilməsini qadağan edən konstitusion müddəaların və ya digər hüquqi sənədlərin qəbulu, əlil uşaqların hüquqlarının pozulmasına qarşı effektiv tədbirlər nəzərdə tutulması və həmin tədbirlərə bu kateqoriyadan olan uşaqların və ya onların valideynlərinin çıxış imkanlarının təmin olunması, əlil-uşaqlara qarşı ayrı-seçkiliyin qarşısının alınması və onun ləğvi məqsədilə maarifləndirmə tədbirlərinin və təhsil kampaniyalarının həyata keçirilməsi və s.

2) Müvafiq beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyasına dair lazımi dövlətdaxili tədbirlərin görülməsi. İstənilən beynəlxalq məsələdə olduğu kimi bu sahədə də, istər dövlətdaxili mexanizmlərin fəaliyyətinin düzgün qurulması, istərsə də digər nəzarət formalarının fəaliyyətinə lazımi şəraitinin yaradılmasının vacibliyi öz əksini tapmışdır. Bu isə özünü bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan üç müstəqil həlqənin fəaliyyətinin qənaətbəxş səviyyədə təşkilini şərtləndirir. Həmin mexanizmin bir həlqəsini dövlətdaxili tədbirlər *(məsələn, milli qanunvericilik, milli fəaliyyət planları və siyasətlərinin işlənib hazırlanması, statistik məlumatların və xidmətlərin formalaşdırılması, büdcə vəsaitlərinin təmin olunması, aidiyyəti dövlət qurumları tərəfində əlaqələndirici şəxslərin təyin olunması)*, ikinci həlqəsini beynəlxalq fəaliyyətin təmini *(məsələn, beynəlxalq əməkdaşlıq və texniki yardım)*, üçüncü həlqəsini isə qeyri-dövlət nəzarəti *(məsələn, müstəqil monitorinq mexanizmləri, vətəndaş cəmiyyəti institutları və s.)* təşkil edir. Şübhəsiz ki, bütün bu hissələrin daim işlək səviyyədə olması, habelə dinamik təkmilləşdirmə və inkişaf tenden-

siyasının təmin olunması üçün müəyyən vasitələrin də daim nəzərdən keçirilməsi vacib amillərdən biridir. Bu amillərə isə bilik və təcrübə mübadiləsi, eləcə də mütəxəssislər tərəfindən təlimlərin keçirilməsini aid etmək olar.

3) Əlil-uşaqların malik olduğu hüquqların hüquqi baxımdan müəyyənləşdirilməsi. Həmin subyektiv imkanlar müəyyən edilərkən təkcə ənənəvi insan hüquqlarının xarici ifadə formasına diqqət yetirilməmiş, eyni zamanda bu kateqoriya şəxslərin spesifikliyini nəzərdə tutan hüquqların qorunması və müdafiəsinə dair müddəalar da öz əksini tapmışdır. Nümunə qismində müvafiq informasiya və kütləvi informasiya vasitələrinə çıxış hüququ, ictimai nəqliyyat vasitələri və obyektlərə çıxış hüququ, ailə dəstəyi və valideyn məsuliyyəti, əlilliyin erkən müəyyən olunması, kompleks qayğı, yetkinlik yaşına çatmayan şəxslərin sağlamlığı və inkişafı, özünü müəyyənetmə və öz gücünə inam, təhsil hüququnun ümumi prinsip və meyarları əsasında inkluziv təhsilin inkişafı, peşə təhsili və hazırlığı hüququ kimi müddəaları göstərmək olar.

4) Xüsusi müdafiə tədbirləri. Həmin tədbirlərin spesifikliyi onda ifadə olunur ki, burada, bir tərəfdən uşaqlar, o cümlədən əlil-uşaqlar üçün səciyyəvi olan ədalət mühakiməsinin formalaşmasına şərait yaradan yuvenal ədliyyə sisteminin yaradılmasına müddəalar təsbit olunmuş, digər tərəfdən, köməksiz və məhrumiyyətlərə məruz qalan ayrı-ayrı kateqoriya uşaqlara (məsələn, küçə uşaqları, cinsi istismara məruz qalan uşaqlar, silahlı münaqişələrin iştirakçısı olan uşaqlar, qaçqın uşaqları, məcburi köçkün uşaqları, milli azlıqlara və yerli xalqlara mənsub uşaqlar) dair normalar öz əksini tapmışdır.[1]

[1] Weissbrodt D., Hansen J.C., Nesbitt N.H. The Role of the Committee on the Rights of the Child in Interpreting and Developing International Humanitarian Law // Harvard Human Rights Journal, 2011, Vol. 24, Issue 1, pp. 115-154; Bueren G.V. Committee on the rights of the child / Social rights jurisprudence: emerging trends in international and comparative law. Edited by M.Langford. Cambridge: Cambridge University Press, 2008, pp. 569-590

Komitənin Ümumi Rəyində diqqəti çəkən məqamlardan biri də gender bərabərliyi kontekstində uşaqlar arasında cinsi ayrı-seçkiliyin qadağan olunmasına dair müddəanın öz əksini tapmasıdır. Belə ki, əlil-qızların daha məqbul şəkildə müdafiəsini, habelə onların bütün xidmətlərə çıxış imkanlarını və cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə lazımi tədbirlər və zəruri hallarda əlavə tədbirlər görməklə, onlara xüsusi diqqət yetirilməsi dövlətlərin üzərinə qoyulan öhdəlik kimi Ümumi Rəyin 10-cu bəndində təsbit olunmuşdur. Yəni bu müddəada gender bərabərliyi problemi önə çəkilməklə, əlil-qızlar müdafiəyə daha çox ehtiyacı olan subyektlər qismində qiymətləndirilir. Çünki bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası bəzi hallarda müəyyən neqativ hallarla (məsələn, cinsi istismar; insan alverinin və ya məcburi əməyin obyektinə çevrilmə; seksual qısnama; bəzi regionlarda, xüsusilə Afrikada tayfa adətlərinə görə qızların “hüquqsuz canlı varlıqlar” sayılması və s.) üzləşir. Məhz bu baxımdan, Ümumi Rəyin sözügedən müddəası qız uşaqlarına, xüsusilə əlil-qızlara qarşı baş verən sistematik və kütləvi pozuntu hallarının qarşısının alınması və aradan qaldırılmasında mühüm vasitə rolunu oynaya bilər.

Bütövlükdə isə Uşaq Hüquqları Komitəsinin Ümumi Rəyi bir sıra hallar baxımından mühüm addım sayıla bilər:

1) “Uşaq hüquqları haqqında” 1989-cu il Konvensiyasının müddəalarına əsaslanmaqla, əlil-uşaqların digər uşaqlarla bərabər səviyyədə hüquqlardan istifadəsi və onların cəmiyyətə inteqrasiyası üçün zəmin yaradır. Eyni zamanda Konvensiyada nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi və müvafiq beynəlxalq hüquq normalarının dövlətdaxili hüquqa implementasiyası üçün əsas hüquqi vasitə qismində çıxış edir.

2) Ümumi Rəyin əhəmiyyəti həm də ondan ibarətdir ki, bu sənəd uşaq hüquqlarının qorunması və müdafiəsi sahəsində müqavilə mexanizmi tərəfindən qəbul edilmişdir. Yəni insan hüquqlarının qorunması sahəsində meydana çıxan müasir beynəlxalq ictimai münasibətlər hər hansı beynəlxalq sənədin qəbulu ilə ya-

naşı, onun nəzarət mexanizminin formalaşması və effektiv təmini ilə bağlı zərurəti də özündə ehtiva edir. Məhz bu baxımdan, iştirakçı-dövlətlərin öhdəliklərinin icrası və onlar tərəfindən yol verilən hər hansı pozuntunun nəticələrinin aradan qaldırılması son nəticədə Komitənin yurisdiksiyasında "toqquşur və kəsişir".

3) Uşaq hüquqlarının müdafiəsinə dair dövlətlərin öhdəliklərinin icrası kontekstində əlil-uşaqlarla yanaşı, digər kateqoriya uşaqların (məsələn, küçə uşaqları, cinsi istismara məruz qalan uşaqlar, silahlı münaqişələrin iştirakçısı olan uşaqlar, qaçqın uşaqları, məcburi köçkün uşaqları, milli azlıqlara və yerli xalqlara mənsub uşaqlar) maraq və mənafelərinə toxunan müddəaları da özündə ehtiva edir.

Bundan əlavə, uşaqların hüquqları və maraqlarına toxunan müxtəlif məsələlər üzrə Uşaq Hüquqları Komitəsinin qəbul etdiyi digər sənədlərdə də əlil-uşaqlarla bağlı müddəalara rast gəlmək mümkündür. Məsələn, "Təhsilin məqsədləri haqqında" 2001-ci il tarixli 1 nömrəli Ümumi Rəy, "Yuvenal ədliyyə sahəsində uşaq hüquqları", "Konvensiyaya əsasən yerli xalqların uşaqları və onların hüquqları haqqında" 2009-cu il tarixli 11 nömrəli Ümumi Rəy, "Zorakılığın bütün formalarından uşağın müdafiə hüququ haqqında" 2011-ci il tarixli 13 nömrəli Ümumi Rəy, 2013-cü il tarixli "Uşağın istirahət, asudə vaxt, oynamaq, rekreasiya fəaliyyəti, mədəni həyat və incəsənət hüququna dair" 17 nömrəli Ümumi Rəy, "Uşağın səhiyyə sisteminin ən mükəmməl xidmətlərindən istifadəsi hüququ haqqında" 2013-cü il tarixli 15 nömrəli Ümumi Rəy və s.

Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitənin 1991-ci il tarixli 18 nömrəli "Əlil-qadınlar haqqında" Ümumi Tövsiyəsində müvafiq kateqoriya şəxslərlə bağlı konkret məsələlər üzrə lazımi tədbirlərin görülməsi, xüsusilə təhsil, məşğulluq, səhiyyə xidmətlərindən istifadə və sosial təminat sahəsində bərabərliyin təmin olunması nəzərdə tutulmuşdur.[1] Qeyd olunan sənədin töv-

[1] Yearbook of the United Nations 1991. Volume 45. Dordrecht: Martinus Nijhoff Publishers, 1992, pp., 687

siyə xarakterli olmasına baxmayaraq, qarşıya qoyulan məqsəd və vəzifələrin icrasına nəzarət də prioritet məsələlərdən biridir. Məhz bunun nəticəsində Ümumi Tövsiyəyə uyğun olaraq, əlil-qadınların vəziyyəti barədə dövri hesabatların təqdim olunması dövlətlərə nəzarət mexanizminin təzahür forması sayılmalıdır.

İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin "Əlilliyi olan şəxslər haqqında" 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəyində əlillik və əlillərə qarşı ayrı-seçkilik terminlərinin izahı verilir, eyni zamanda əlillərin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"da təsbit olunmuş hüquqlardan (kişi və qadın bərabərliyi; əmək hüququ və əlaqəli hüquqlar; sosial təminat hüququ; ailənin, ana və uşaqların müdafiəsi hüququ; münasib həyat səviyyəsi hüququ; fiziki və psixi sağlamlıq hüququ; təhsil hüququ; mədəni həyatda iştirak və elmi nəticələrindən istifadə etmək hüququ) istifadə və realizə imkanları öz əksini tapmışdır.[1] Paktın müddəalarından fərqli olaraq, Komitənin Ümumi Rəyi ümumiləşdirici mənada ifadə olunmuş müddəaları (məsələn, "digər statusuna görə" və s.) daha dəqiqləşdirməklə, onların əlillərə münasibətdə tətbiqinə şərait yaradır. Bu isə Beynəlxalq Paktda göstərilmədiyinə görə, əlillər üçün iqtisadi, sosial və mədəni hüquqların təmin edilməməsinə dair dövlətlərin gətirdiyi dəlillərin beynəlxalq-hüquqi baxımdan əsassız hesab edilməsini şərtləndirir. Digər tərəfdən, bu müddəaların Komitə tərəfindən müəyyənləşdirilməsi onun iştirakçı-dövlətlər tərəfindən daha effektiv icrasını zəruri edir ki, bu da sözügedən qurumun nəzarət mexanizmi rolunu oynaması ilə sıx şəkildə bağlıdır. Eyni zamanda "Əlilliyi olan şəxslər haqqında" Ümumi Rəydə BMT-nin əlillərin müda-

[1] Quinn G., Degener Th. Human Rights and Disability: the current use and future potential of United Nations human rights instruments in the context of disability. New-York: United Nations publications, 2002, pp.55-82
International labour conventions and recommendations. Volume 1: 1919-1951. Geneva: ILO, 1996, 660 p.; Volume 2: 1952-1976. Geneva: ILO, 1996, 643 p.; Volume 3: 1977-1995. Geneva: ILO, 1996, pp.188-195; Seatzu F. The UN Committee on Economic, Social and Cultural Rights and disability: General Comment No 5 and beyond // Human rights and international law, 2011, Vol. 5, No 2.

fiəsinə dair qəbul etdiyi bir sıra sənədlərə ("Əlilliyi olan şəxslərin imkanlarının bərabərləşdirilməsinə dair Standart Qaydalar", "Əlilliyi olan şəxslərə dair Ümumdünya Fəaliyyət Proqramı", "Əlillərə dair BMT-nin Onillik Sənədi" və s.) istinad olunur ki, bu da Ümumi Rəyin iqtisadi, sosial və mədəni hüquqlarla bağlı beynəlxalq hüquq normaları ilə əlillərin müdafiəsinə dair BMT standartları arasında əlaqələndirici vasitə və "körpü" funksiyasını ifadə edir.

Universal səviyyədə əlillərin hüquqlarının qorunması və müdafiəsi məsələsi təkcə dövlətlərarası təsisatlar səviyyəsində deyil, həm də vətəndaş cəmiyyətinin institutları, o cümlədən qeyri-hökumət təşkilatlarının əməkdaşlığı çərçivəsində də müzakirə obyekti olmuşdur. Bunun bariz nümunəsi kimi 2000-ci ildə Çin Xalq Respublikasının Pekin şəhərində keçirilən Əlillik məsələləri üzrə qeyri-hökumət təşkilatlarının Ümumdünya Zirvə Toplantısını və həmin tədbirin sonunda qəbul olunan "Yeni minillikdə əlillər haqqında Bəyannamə"ni göstərmək olar. Belə ki, Zirvə Toplantısında təmsil olunan əlillərin hüquqlarının müdafiəsinə dair tanınmış beynəlxalq qeyri-hökumət təşkilatları (məsələn, "Inclusion International", Ümumdünya Korlar İttifaqı, Ümumdünya Karlar Federasiyası və s.) müzakirəyə çıxarılan problemlərin həllinə öz töhfələrini verərək, onları dünya ictimaiyyətinin diqqətinə çatdırmışlar.[1] Bununla əlaqədar, aparılan müzakirələrin nəticəsi olaraq, Pekin Bəyannaməsi əlillik probleminin həlli ilə bağlı aşağıdakı prioritet istiqamətləri müəyyən etmişdir:

- əlillərin ümumi həyat keyfiyyətinin yaxşılaşdırılması, habelə bu kateqoriyadan olan şəxslərin məhrumiyyət, əzab-əziyyət və yoxsulluqdan mühafizə olunması;
- təhsil, təlim, ödənişli iş və qanunların qəbulu prosesində iştirak;
- ayrı-seçkilik yaradan münasibət və təcrübənin, eləcə də məlumat, hüquqi və infrastruktur maneələrin ləğvi;

[1] Kwok J.K.F., Chan R.R.H., Chan W.T. Self-help organizations of people with disabilities in Asia. London: Greenwood Publishing Group, 2002,190 p., pp.69

- əlillərin bərabər iştirakının təmin olunması üçün ehtiyatların genişləndirilmiş şəkildə bölgüsü.[1]

## 2.2. "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası əlillərin hüquqlarının müdafiəsinin əsas beynəlxalq-hüquqi bazası kimi

Əlillər və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunması və müdafiəsi, habelə onların sosiallaşması və cəmiyyətə inteqrasiyası ilə bağlı çoxsaylı universal beynəlxalq sənədlərin mövcudluğu yenə də bu sahədə yeni beynəlxalq-hüquqi sənədin qəbulu zərurətini meydana çıxarmış oldu. Bu zərurət isə özünü bir sıra aspektlərdə büruzə verməyə başlamışdır. Belə ki, *ilk növbədə,* bu kateqoriyadan olan şəxslərin cəmiyyətin həyatında bütün lazımi imkanlara malik bərabərhüquqlu subyekt kimi qəbulu, habelə onun dövlət tərəfindən yardım olunan passiv şəxslərdən hüquq daşıyıcılarına çevirmək zərurəti müvafiq beynəlxalq-hüquqi sənədin qəbulunu şərtləndirmişdir. Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, son onilliklərə qədər istənilən cəmiyyətin inkişafı sahəsində hər hansı vəzifə və ya məqsədlərin icrasına nail olunması və ya qarşıya çıxan problemin həlli zamanı əlillərin real vəziyyəti əksər hallarda nəzərə alınmamışdır. Bu isə əlillərin cəmiyyətdən təcridinə və onlarda bir sıra mənfi keyfiyyətlərin (depressiya, özünəinamsızlıq, avaraçılıq və dilənçilik, neqativ məqsədlər üçün istifadə obyektinə çevrilməsi və s.) formalaşmasına gətirib çıxarırdı. *İkincisi,* hüquqi baxımdan öhdəlik yaradan beynəlxalq sənəd əsasında əlillərin qarşısına çıxan problemlərin kompleks həlli, o cümlədən onların hüquqlarının effektiv müdafiəsi və təşviqi vacib meyarlardan biri olmuşdur. Buraya əlil uşaqların təhsillə hərtərəfli təmin olunması, əlil qadınların ayrı-seçkilikdən qorunması, cinsi bərabərlik kontekstində əlil qadın və kişilərin bərabərliyinin təmini kimi məsələlərdən tutmuş həmin şəxslərə məxsus subyektiv imkanların (yaşamaq hüququ; iş-

[1] Stein M.A. China and disability rights // International and Comparative Law Review, 2010, Vol. 33, No 1, pp. 12-13

gəncələrdən və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəza növlərindən azadolma; istismardan, zorakılıqdan və təhqirdən azadolma; şəxsi bütövlüyün qorunması; müstəqil həyat tərzi və yerli icmaya cəlb olunma; fərdi hərəkət etmək imkanı; əmək hüququ və məşğulluğun təmini; mədəni həyatda iştirak; asudə vaxtın və istirahətin təşkili və idmanla məşğul olma və s.) müdafiəsi kimi müddəalar daxildir. *Üçüncüsü,* əvvəlki dövrlərdə əlillərin hüquqlarına dair beynəlxalq sənədlərdə sahəvi nəzarət mexanizminin yaradılması və fəaliyyətinə dair hər hansı müddəaya rast gəlmək qeyri-mümkündür. Bu sahədə pozuntuların olması və onların aradan qaldırılması zərurəti, insan hüquqlarının və əsas azadlıqların realizəsi zamanı əlillərin səciyyəvi xüsusiyyətləri və şəxsi ehtiyaclarının nəzərə alınmasının vacibliyi, eləcə də onların müdafiəsinin müasir ictimai həyatın müxtəlif istiqamətləri (məsələn, ayrı-seçkiliyin qadağan olunması, davamlı inkişaf, yoxsulluğun azaldılması, yüksək texnologiyaların müasir həyatdakı rolu, qanunvericilik aktlarının təkmilləşdirilməsi və lazımi praktiki tədbirlərin görülməsi və s.) üzrə dövlətlərin öhdəliklərini həyata keçirməsinin mühümlüyü baxımından nəzarət mexanizminin olması artıq zərurətə çevrilmişdir.

Doğrudur, istər insan hüquqlarına dair ümumi beynəlxalq sənədlərdə *(məsələn, 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Paktı, 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası və s.),* istərsə də sahəvi beynəlxalq aktlarda *(məsələn, "Əqli geriliyi olan şəxslərin hüquqları haqqında" 1971-ci il Bəyannaməsi, 1975-ci ildə qəbul olunan "Əlillərin hüquqları haqqında Bəyannamə", BMT-nin 1982-ci il tarixli "Əlillərə dair Ümumdünya Fəaliyyət Proqramı" və 1993-cü ildə qəbul edilmiş "Əlillər üçün bərabər imkanların təmin edilməsinə dair Standart Qaydalar"ı və s.)* əlillərin hüquqlarının qorunması və müdafiəsinə bu və ya digər dərəcədə toxunulur. Lakin həmin normaların bir hissəsi qəbul edilmə zamanı ilə müqayisədə müasir tələblərdən geri qalır, yaxud yeni tendensiyaların beynəlxalq-hüquqi tən-

zimlənməsində müəyyən boşluqlar özünü göstərirdi. Məhz bu baxımdan, "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası və həmin beynəlxalq sənədə Əlavə Protokol mühüm əhəmiyyət kəsb edir.[1]

Bəzi müəlliflərin fikrincə, mahiyyət etibarilə heç bir yeni hüquq və azadlıqlar müəyyən etməyən 2006-cı il Konvensiyası əlil insanlara qarşı münasibət və yanaşma sistemində irəliləyişin göstəricisidir. Belə ki, əvvəllər əlil insanlar sırf xeyriyyəçilik, tibbi müalicə və sosial müdafiənin "obyekti qismində" qəbul edilirdilərsə, Konvensiya bu insanlara hüquqlara malik, bu hüquqları tələb etmək və öz həyatları barədə müstəqil qərar qəbul etmək, eləcə də cəmiyyətin fəal üzvləri qismində çıxış etmək iqtidarında olan şəxslər kimi yanaşmanı labüd edir.[2] Lakin bu fikirlə tam şəkildə razılaşmaq qeyri-mümkündür. Çünki sözügedən beynəlxalq-hüquqi sənəd təsbit etdiyi hüquq və azadlıqları əlilliyi olan şəxslərin səciyyəvi cəhətlərini nəzərə almaqla ehtiva etmişdir. Nümunə qismində təhsil hüququna əsaslanan inkluziv təhsili, turizm hüququ əsasında formalaşan müyəssər turizmi, yaxud əlillərin fərdi hərəkət etmək imkanını göstərmək olar. Qeyd olunan bu və ya digər məsələlər təkcə Konvensiyada birbaşa olaraq nəzərdə tutulmur, həm də həmin hüquqların ayrı-ayrılıqda realizəsi üçün ilkin və ümumi tənzimedici baza rolunu oynayır. Eyni zamanda əlil-qadın və əlil-uşaqların müdafiəsi, habelə əlilliyi olan şəxslərin hüquqlarının qorunmasına dair beynəlxalq nəzarət mexanizminin formalaşdırılması da bu sənədin gətirdiyi yeniliklərdən və onun əhəmiyyətini artıran amillərdən biridir.

Konvensiyada ayrı-ayrı kateqoriya şəxslərin, o cümlədən əlillərin mülki və siyasi, habelə iqtisadi, sosial və mədəni hüquqlarının (məsələn, yaşamaq hüququ, risk vəziyyətləri və fövqəladə

---

[1] Ghandi S. Blackstone`s international human rights documents. Eighth edition. Oxford: Oxford University Press, 2012, 488 p., pp.196-216

[2] Əskərov Ə.Q. Əlilliyi olan şəxslərin hüquqları üzrə konvensiya: perspektivlər və öhdəliklər / "Əlilliyi olan insanlar üçün bərabər hüquqlar və bərabər imkanlar" mövzusunda 31 yanvar 2008-ci il tarixdə keçirilmiş Konfransın materialları. Bakı, 2008, s. 50-54

humanitar vəziyyətlər, qanun qarşısında bərabərlik, ədalət mühakiməsinin təmin olunması, azadlıq və şəxsi toxunulmazlıq, işgəncələrdən və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəza növlərindən azadolma, istismardan, zorakılıqdan və təhqirdən azadolma, şəxsi bütövlüyün qorunması, yerdəyişmə azadlığı və vətəndaşlıq, müstəqil həyat tərzi və yerli icmaya cəlb olunma, fərdi hərəkət etmək imkanı, fikir və əqidələrin sərbəst ifadə olunması və informasiyadan istifadə imkanları, şəxsi həyatın toxunulmazlığı, evə və ailəyə hörmət, təhsil, sağlamlıq, abilitasiya və reabilitasiya, əmək və məşğulluq, qənaətbəxş həyat səviyyəsi və sosial müdafiə, siyasi və ictimai həyatda iştirak, mədəni həyatda iştirak, asudə vaxtın və istirahətin təşkili və idmanla məşğul olma) təmin edilməsinə yönəlmiş bir sıra müddəalar təsbit edilmişdir. Lakin bununla bağlı bir sıra çatışmazlıqları da qeyd etmək yerinə düşərdi. Belə ki, fikrimizcə, sözügedən beynəlxalq-hüquqi sənədin 10-cu maddəsində təsbit olunmuş yaşamaq hüququ insanın ayrılmaz, təbii və mütləq hüququ olduğundan onun yenidən təkrarlanması qənaətbəxş hal sayıla bilməz. Çünki bunu insan hüquqlarının qorunması və müdafiəsinə dair universal və regional beynəlxalq sənədlərin müddəaları da sübut edir. Əlillərin daha çox təzyiq, təhqir və təhdidə məruz qalması güman edilən sosial qrup olduğunu nəzərə alaraq, həmin maddədə ifadə olunmuş "yaşamaq hüququ"nun "təhlükəsiz yaşamaq hüququ" termini ilə əvəz olunması daha düzgün olardı. Belə ki, yaşamaq hüququndan fərqli olaraq, təhlükəsiz yaşamaq hüququ şəxsin həyatı ilə yanaşı, onun fiziki və mənəvi sağlamlığını, mülkiyyətinin kənar qəsdlərdən qorunmasını təmin edir. Məhz bu baxımdan, əlillərin müəyyən mənada köməksiz vəziyyətdə olduğunu və yuxarıdakı halların asanlıqla pozulma ehtimalını nəzərə alaraq, təhlükəsiz yaşamaq hüququnun Konvensiyada təsbitini daha düzgün hesab edirik. Bundan başqa, 2006-cı il Konvensiyasında çatışmayan hallardan biri də "bərabərlik hüququ"nun ehtiva edilməməsidir. Doğrudur, bununla bağlı məsələlərə müvafiq beynəlxalq-hüquqi sənədin 5-ci maddəsində toxunulsa da, bu, sırf bərabərliyin təşviqi və ayrı-seçkiliyin ləğvi kontekstində nəzərdən

keçirilir. Fikrimizcə, "bərabərlik hüququ"nun normativ təsdiqinin bir sıra hallar baxımından mühüm əhəmiyyət kəsb etməklə aşağıdakı redaksiyada verilməsi düzgün olardı:

*"1. Əlilliyi olan şəxslər digər insanlarla ümumi hüquqi bərabərliyə malik olmaqla, qanun və məhkəmə qarşısında bərabərliyə malikdirlər. Bu şəxslərin hüquqlarının təmin edilməsi ilə bağlı məhkəmə müdafiəsindən istifadəsi üçün hərtərəfli şərait və imkan yaradılmalıdır.*

*2. Əlil-kişi və əlil-qadınlar eyni hüquq və azadlıqlardan istifadə edirlər.*

*3. Əlillik əlaməti üzrə istənilən ayrı-seçkilik qadağan edilir və iştirakçı-dövlətlər əlilliyi olan şəxslərin istənilən zəmində ayrı-seçkilikdən bərabər və səmərəli hüquqi müdafiəsinə təminat verirlər.*

*4. İştirakçı-dövlətlər əlilliyi olan şəxslər üçün güzəşt, imtiyaz yaxud müəyyən müsbət üstünlüklər müəyyən edə bilərlər, yaxud əvvəlcədən nəzərdə tutulmuş bu qaydalardan imtina edə bilməzlər.*

*5. Əlilliyi olan şəxslər üçün nəzərdə tutulan güzəşt, imtiyaz, yaxud üstünlüklər heç bir halda ayrı-seçkilik kimi qiymətləndirilə bilməz. 6. Cəmiyyətin əlillərə qarşı tolerant davranması üçün məsuliyyət məsələlərinin nəzərdə tutulması da daxil olmaqla, bütün zəruri tədbirlər görülməlidir."*

Bununla yanaşı, qeyd etmək lazımdır ki, 2006-cı il Konvensiyasında öz əksini tapmış hüquqlar həm də hüququn digər sahələri və ya digər əlaqəli subyektiv imkanlarla qarşılıqlı əlaqəyə malikdir. Məsələn, Konvensiyanın 30-cu maddəsində əlillərin asudə vaxtın, turizmin, istirahət və idman tədbirlərinin təşkili ilə məşğul olanların xidmətlərindən istifadə imkanının təmin edilməsinə dair müddəanın öz əksini tapması bilavasitə sosial turizmlə qarşılıqlı əlaqəyə malikdir.[1] Hətta "Dünya Turizmi haqqında" 1980-ci il Manila Bəyannaməsində sosial turizmin məqsədi kimi

---

[1] Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı: "NAT" MMC, 2011, 482 s., s.64

cəmiyyətin əhalinin aztəminatlı hissəsinin istirahət hüququndan istifadəsinə cəhd göstərməsi vəzifəsi göstərilmişdir.

Həmçinin Konvensiyada əlillik dərəcəsi və statusuna malik olan ayrı-ayrı kateqoriya şəxslərin (məsələn, qadınlar, uşaqlar və s.) hüquqlarının qorunması da mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, Konvensiyanın 6-7-ci maddələrində bununla bağlı təsbit olunmuş normalar sahəvi digər beynəlxalq sənədlərin aidiyyəti müddəaları ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Nümunə qismində BMT-nin "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyasını[1] və ya 2008-ci il tarixli "İnsan hüquqları haqqında Yeniləşdirilmiş Ərəb Xartiyası"nı[2] göstərmək olar.

Hər bir beynəlxalq-hüquqi sənəddə olduğu kimi, 2006-cı il Konvensiyasının 4-cü maddəsində əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı dövlətlərin ümumi öhdəlikləri müəyyən olunmuşdur:

a) əhaliyə açıq olan və ya ona təqdim olunan obyekt və xidmətlərdən istifadə imkanını nəzərdə tutan minimum standartları və rəhbər istiqamətləri işləyib-hazırlamaq, onları tətbiq etmək və onlara riayət olunmasına nəzarət etmək;

b) əhaliyə açıq olan və ya ona təqdim olunan obyekt və xidmətləri təklif edən özəl müəssisələrin əlillərin onlardan istifadə edə bilməsi üçün bütün cəhətləri nəzərə almalarını təmin etmək;

c) bütün cəlb olunan tərəflər üçün əlillərin qarşılaşdıqları müyəssərlik problemləri üzrə təlimatlandırmanı təşkil etmək;

d) əhali üçün açıq olan binaları və digər obyektləri Brayl əlifbası ilə icra olunmuş işarələrlə asan oxunan və anlaşıqlı formada təchiz etmək;

e) əhali üçün açıq olan binaları və digər obyektləri onlardan istifadə edilməsi imkanını asanlaşdırmaq üçün xidmətçilərin və vasitəçilərin, o cümlədən bələdçilərin, qiraətçilərin və peşəkar lal-kar tərcüməçilərinin müxtəlif növ xidmətləri ilə təmin etmək;

---

[1] Shrivastava R. International Encyclopedia of women rights and children rights. Volume 2. New-Delhi: Mehra Offset Press, 2009, 601 p., pp.319-320

[2] Shelton D.L., Carozza P.G. Regional protection of human rights. Basic documents. Second edition. Oxford: Oxford University Press, 2013, 992 p., pp.543

f) əlillərin informasiyaya çıxış imkanını təmin etmək üçün onlara kömək və dəstək göstərilməsinin digər lazımi formalarını inkişaf etdirmək;

g) əlillərin, internet də daxil olmaqla, yeni informasiya-kommunikasiya texnologiyalarından istifadə etməsini həvəsləndirmək;

h) qabaqcadan da əldə edilməsi mümkün olan informasiya-kommunikasiya texnologiyalarının və sistemlərinin, onlardan istifadə imkanlarının minimum xərclə başa gəlməsinin layihələndirilməsini, işlənib-hazırlanmasını, istehsalını və yayılmasını həvəsləndirmək.

Elmi ədəbiyyatlarda isə 2006-cı il BMT Konvensiyasından irəli gələn beynəlxalq öhdəliklərin milli-hüquqi implementasiyasının zəruriliyini nəzərə alaraq, onların müəyyən təsnifatı irəli sürülür: 1) əlillərin hüquqlarının müdafiəsinə dair prinsiplərdən irəli gələn öhdəliklər; 2) kompleks öhdəliklər; 3) ümumi öhdəliklər; 4) əlillərlə bağlı əsas insan hüquqlarından irəli gələn öhdəliklər; 5) təşkilati xarakterli öhdəliklər.[1]

Lakin irəli sürülən hər hansı təsnifata baxmayaraq, Konvensiyada təsbit olunmuş öhdəliklərin icrası mühüm əhəmiyyət kəsb edir və ümdə vəzifələrdən biridir. Doğrudur, bütün öhdəliklərin eyni vaxtda icrası qeyri-mümkün olsa da, onların mərhələli əsaslarla təmini həyata keçirilməlidir. Məsələn, infrastruktur obyektlərinə və yaşayış binalarına əlillərin maneəsiz girişi üçün imkanların yaradılması müəyyən zaman, vəsait və konfiqurasiya xarakterli dəyişikliklərin yerinə yetirilməsini tələb edir. Lakin bu, heç də mövcud tələblərin qanunvericilik aktlarında və ya digər normativ-hüquqi aktlarda nəzərdə tutulmasına maneə törətmir.

Onu da qeyd etmək lazımdır ki, əhalinin həssas təbəqəsinə, xüsusilə əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara məxsus

[1] Лыхина Т.А. Права инвалидов: проблемы международно-правового регулирования и международные обязательства Российской Федерации. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. СПб., 2011, с.25

hüquqların qorunması və müdafiəsi bütövlükdə insan hüquqlarının realizəsindən fərqlənir. Doğrudur, hər iki halda beynəlxalq hüququn ümumi prinsipləri və insan hüquqlarının rəhbər başlanğıcları[1] əsas götürülməlidir. Lakin spesifik xüsusiyyətlərin nəzərə alınması da zəruri amillər sırasına daxildir. Məsələn, təhsil hüququ əlillər üçün inkluziv təhsilin inkişafı kontekstində, idmanla məşğul olmaq paralimpiya, deflimpiya və ya xüsusi olimpiya hərəkatının tələbləri çərçivəsində, istirahət hüququ və asudə vaxtın təşkili əlillərin spesifikliyinin nəzərə alınması ilə təmin edilməlidir.

2006-cı il Konvensiyasının əhəmiyyətini artıran və onu əlillərin hüquqlarının müdafiəsinə dair əvvəlki analoji beynəlxalq sənədlərdən fərqləndirən əsas məqamlardan biri də sahəvi nəzarət mexanizminin təsbit olunmasıdır. Belə ki, Konvensiyada ehtiva olunan öhdəliklərin həyata keçirilməsinin monitorinqi, əsasən iki səviyyədə həyata keçirilir:

**1) Dövlətdaxili səviyyədə monitorinq.** Bu istiqamətdə konkret iştirakçı-dövlətin qanunvericiliyindən və sahəvi qurumlarının təşkilati strukturlarından asılı olaraq əlaqələndirmə mexanizmlərinin fəaliyyət göstərdiyi monitorinq forması özünü büruzə verir. Şübhəsiz ki, vətəndaş cəmiyyətinin, əlillərin və onları təmsil edən təşkilatların nəzarət prosesinə tam şəkildə cəlb olunması da diqqəti çəkən məqamlardandır. Onu da qeyd etmək lazımdır ki, Konvensiyanın 33-cü maddəsinə əsasən, iştirakçı-dövlətlər özlərinin hüquqi və inzibati quruluşlarına müvafiq olaraq sözügedən beynəlxalq-hüquqi sənədin həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi üçün bir və ya bir neçə müstəqil mexanizmdən ibarət strukturu dəstəkləyir, möhkəmləndirir, təyin edir və ya təsis edirlər. Eyni zamanda bu mexanizmin təyin və ya təsis edilməsi zamanı insan hüquqlarının müdafiəsi və həvəsləndirilməsi ilə məşğul olan milli təsisatların statusuna və fəaliyyətinə aid olan prinsiplər də nəzərə alınır.

---

[1] Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı: "Şirvannəşr", 2007, 600 s.

Azərbaycan Respublikasının praktikasında bu monitorinq İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Konvensiyanın müddəalarının yerinə yetirilməsinin əlaqələndirilməsi isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir.

**2) Beynəlxalq səviyyədə monitorinq.** Beynəlxalq səviyyədə isə bu funksiyanı Əlillərin hüquqları üzrə Komitə həyata keçirir. Komitə 2006-cı il Konvensiyasının və ona əlavə Protokolunun qəbulu ilə yaranmışdır. Konvensiyanın qüvvəyə minməsi anında Komitə on iki ekspertdən ibarət olur. Konvensiyanın altmış dəfə ratifikasiyası və ya birləşdirilmələrdən sonra Komitənin üzvlük heyətinin tərkibi altı nəfər artaraq on səkkiz nəfərdən ibarət maksimuma çatır. Komitənin üzvləri yüksək əxlaqi və mənəvi keyfiyyətlərə malik olub, Konvensiyanın əhatə etdiyi sahədə yüksək səriştəyə və təcrübəyə malik olurlar. İştirakçı-dövlətlər namizədlərinin təqdimatı zamanı Konvensiyanın 4-cü maddəsinin 3-cü bəndində göstərilmiş müddəanı lazımi qaydada nəzərə almalıdırlar. Komitənin üzvləri coğrafi bölgü prinsipinə, sivilizasiyanın müxtəlif formalarının və əsas hüquq sistemlərinin, cinslərin tarazlı qaydada təmsil olunmasına və ekspert əlillərin iştirakına diqqət ayırmaqla iştirakçı-dövlətlər tərəfindən seçilir. Komitənin üzvləri dörd illik müddətə seçilir. Onlar yalnız bir dəfə təkrarən seçilə bilərlər.

Hər bir iştirakçı-dövlət BMT Baş Katibi vasitəsilə Komitəyə bu Konvensiyaya əsasən öhdəliklərin həyata keçirilməsi üçün görülən tədbirlər, bu Konvensiyanın müvafiq iştirakçı-dövlət üçün qüvvəyə minməsindən sonra iki il ərzində əldə olunan inkişaf haqqında ətraflı məruzə təqdim edir. Daha sonra iştirakçı-dövlətlər Komitəyə müraciət etdiyi hallarda dörd ildə bir dəfədən az olmamaqla növbəti məruzələri təqdim edirlər. Komitə məruzələrin məzmununu müəyyən edən rəhbər prinsipləri müəyyən edir. Hər bir məruzə Komitə tərəfindən nəzərdən keçirilərək lazımi qərar və tövsiyələr ilə əhatə olunur və müvafiq iştirakçı-dövlətə göndərilir. İştirakçı-dövlət seçiminə uyğun olaraq, istənilən informasiyanı Komitəyə cavab şəklində göndərə bilər. Komitə iştirak-

çı-dövlətlərdən bu Konvensiyanın həyata keçirilməsinə aidiyyəti olan əlavə informasiyanı tələb edə bilər.

İştirakçı-dövlət məruzənin təqdimatını gecikdirdikdə Komitə həmin ölkəyə bu barədə xəbərdarlıq edir. Bundan əlavə, hər bir iştirakçı-dövlət Komitə ilə əməkdaşlıq edərək onun üzvlərinə mandatlarının yerinə yetirilməsi ilə bağlı kömək göstərir. Komitə iki ildə bir dəfə BMT Baş Məclisinə və İqtisadi və Sosial Şuraya öz fəaliyyəti haqqında məruzə təqdim etməklə, iştirakçı-dövlətlərdən alınmış məruzə və məlumatların baxılmasına əsaslanan təkliflər irəli sürə və ümumi tövsiyələr verə bilər. Son nəticədə isə bu cür təklif və ümumi tövsiyələr iştirakçı-dövlətlərin izahları ilə birgə Komitənin məruzəsinə daxil edilir.

Konvensiyaya Əlavə Protokol isə Komitəyə sözügedən beynəlxalq-hüquqi sənədin müddəalarının pozulması nəticəsində qurban sayılan şəxslərdən və ya şəxslər qrupundan, yaxud onların adından məlumatlar almaq və onlara baxmaq səlahiyyəti vermişdir. Bununla belə, aşağıdakı məlumatların baxılması yolverilməz hesab olunur: 1) məlumat anonimdirsə; 2) müvafiq məlumatın təqdim olunması belə məlumatların verilməsi hüququndan sui-istifadə sayılırsa və ya Konvensiyanın müddəaları ilə uyğun deyildirsə; 3) eyni məsələ Komitə tərəfindən artıq baxılmışdırsa, yaxud digər beynəlxalq araşdırma və ya tənzimləmə proseduru çərçivəsində baxılmışdırsa və ya baxılmaqda davam edirsə; 4) mövcud olan bütün daxili müdafiə vasitələri tükənməmişdirsə.

Əgər Komitə Konvensiyada təsbit edilmiş hüquqların iştirakçı-dövlət tərəfindən ciddi surətdə və sistemli şəkildə pozulmasını bildirən dürüst məlumat əldə edərsə, o həmin iştirakçı-dövlətə bu məlumatın öyrənilməsində əməkdaşlıq etməyi və bu məqsədlə konkret məlumatla bağlı qeydlərini təqdim etməyi təklif edəcəkdir. Müvafiq iştirakçı-dövlət tərəfindən təqdim olunan istənilən qeydləri və həmin qeydlərdə ifadə olunan hər hansı digər dürüst məlumatı nəzərə almaqla, Komitə özünün bir və ya bir neçə üzvünə araşdırma aparmağı və bu barədə Komitəyə təcili məruzə təqdim etməyi tapşıra bilər. Zərurət meydana çıxdığı təqdirdə, aparılan araşdırma çərçivəsində iştirakçı-dövlətin razılığı ilə

onun ərazisinə səfərlər də təşkil edə bilər. Belə araşdırmanın nəticələri öyrənildikdən sonra, Komitə bu nəticələri istənilən şərhlər və tövsiyələr ilə birlikdə müvafiq iştirakçı-dövlətə göndərir. Komitə tərəfindən göndərilmiş nəticələr, şərtlər və tövsiyələr alındığı andan altı ay ərzində iştirakçı-dövlət ona öz qeydlərini təqdim edir.

Hətta aparılan elmi tədqiqatlar və praktiki araşdırmalar nəticəsində bəzi müəlliflər 2006-cı Konvensiyasının 33-cü maddəsində nəzərdə tutulan əlaqələndirmə və monitorinq mexanizmlərinin yaradılması ilə bağlı aşağıdakı təklifləri irəli sürmüşdür:

1) Milli qanunvericiliyi və beynəlxalq-hüquqi aktları bilmək;

2) Əlilliyin dərki və əlillik problemlərinin həllində təcrübəyə nail olmaq;

3) Monitorinq mexanizmlərini bilmək kimi prinsiplərə əsaslanaraq, əlilliklə bağlı müxtəlif sahə və qrupların (uşaq, gənclər, qadınlar, müharibə və münaqişə və s.) maraqlarını təmsil edən əlil təşkilatlarının nümayəndələrinin təmsilçiliyinin təmin olunması.[1]

Məlum olduğu kimi, 2 oktyabr 2008-ci il tarixli 686-IIIQ nömrəli Qanunla Azərbaycan Respublikası 2006-cı il Konvensiyasına qoşulmuşdur. Bu isə avtomatik olaraq Əlillərin hüquqları üzrə Komitənin monitorinq fəaliyyətinin realizəsinə şərait yaradır. Məhz bunun nəticəsi olaraq, Komitə ölkəmizin ilk hesabatı üzrə 2014-cü ilin aprel ayının 10-da yekun tövsiyələrini qəbul etmişdir. 2006-cı il Konvensiyasında təsbit olunan əsas prinsiplər və öhdəliklər, eləcə də xüsusi hüquqların təmini ilə bağlı mövcud olan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı müəyyən tövsiyələr Komitə, eyni zamanda görülən işlər və həyata keçirilən tədbirlərin müsbət tərəfini də xüsusilə vurğulamışdır.

[1] Rəhimov D.S. "Əlillərin hüquqları haqqında" Konvensiyasının milli təsbiti və monitorinqi prosesində vətəndaş cəmiyyətinin iştirakı / Avropa Əlilliyi olan İnsanların Müdafiəsi Gününə həsr olunmuş "Əlillərin hüquqlarının müdafiəsində əlaqələndirmə və monitorinq mexanizmlərinin rolu" mövzusunda dəyirmi masanın (27 aprel 2010) materialları. Bakı, 2010, s. 59-63

Bütün bunları isə aşağıdakı müddəalar şəklində qeyd etmək olar:

1) Azadlığın məhdudlaşdırılması növündə cəza tədbirinin Cinayət Məcəlləsindən çıxarılması;

2) Bu kateqoriyadan olan şəxslərin mənafeyinə toxunan bir sıra dövlət proqramlarının *(xüsusilə, "Əlilliyi olan şəxslərin hüquqları üzrə De-institusionalizasiya üzrə Dövlət Proqramı" və "Alternativ Qayğı və İnklüziv təhsil üzrə Dövlət Proqramı")* qəbulu və realizəsi;

3) Yeni inşa olunan və ya təmir edilən məhkəmə binalarının əlilliyi olan şəxslər üçün əlyetərli və müyəssər olmasını təmin edən şəraitin yaradılması;

4) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin başçılığı ilə aidiyyəti səlahiyyətli dövlət qurumlarının və müvafiq qeyri-hökumət təşkilatlarının nümayəndələrinin təmsil olunduğu İşçi Qrupunun yaradılması;

5) əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı region dövlətləri ilə əməkdaşlığın təşviqi və bu halın yüksək qiymətləndirilməsi.[1]

Tövsiyələrdə isə əsas yeri zəruri qanunvericilik aktları, xüsusilə əlillik anlayışını beynəlxalq hüquq normalarına uyğun şəkildə müəyyən edəcək hüquq normalarının işlənib hazırlanması, əlil qadın və uşaqların vəziyyətinin yaxşılaşdırılması üçün lazımi tədbirlərin icrası və digər məsələlər tutur.

Onu da qeyd etmək lazımdır ki, keçən müddət ərzində Komitənin verdiyi təklif və tövsiyələrin əksəriyyəti, demək olar ki, həyata keçirilmişdir. Belə ki Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli 137-IVQD nömrəli Qanunu ilə azadlığın məhdudlaşdırılması cəza növü kimi cinayət qanunvericiliyindən çıxarılmış, habelə Dövlət Başçısının 29 mart 2006-cı il tarixli 1386 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" təsdiq edilmiş və bu normativ-hüquqi aktın realizəsi istiqamətin-

[1] www.udpo.az/read.php?lang=1&content=1473

də müvafiq tədbirlər həyata keçirilməkdədir. Bundan başqa, Komitənin tövsiyələrindən biri də aidiyyəti səlahiyyətli dövlət qurumlarının və müvafiq qeyri-hökumət təşkilatlarının nümayəndələrinin təmsil olunduğu İşçi Qrupunun yaradılması olmuşdur. Eyni zamanda ölkədə qəbul olunmuş bir sıra dövlət proqramları (o cümlədən, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı", "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" və s.) dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyətlərinin iştirakını əsas prinsiplərdən biri kimi müəyyən edir. Qeyd olunanları nəzərə alaraq, 2014-cü ilin sentyabrın 17-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında Birgə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Üç illik müddət üçün imzalanan Memorandumda bir sıra tədbirlərin icrası sahəsində əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulmuşdur: əhalinin, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi ilə bağlı proqram və layihələrin hazırlanması; peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması sahələrində əməkdaşlığın həyata keçirilməsi; həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan işlərin təkmilləşdirilməsi; sosial sahədə fəaliyyət göstərən QHT-lərin potensialının gücləndirilməsi üçün birgə tədbir, təlim, seminarların təşkilində əməkdaşlığın təmini; yeni iş yerlərinin yaradılmasına yönəldilmiş tədbirlərin, əməyin ödənilməsi və mühafizəsi istiqamətində proqram və layihələrin hazırlanması; QHT-lər arasında müsabiqələrin təşkili[1] və s.

Həmçinin bu tədbirlərin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) üzrə hüquqi aktların qəbu-

[1] www.mlspp.gov.az/az/pages/17/40/information/600

lunda və fəaliyyət istiqamətləri ilə bağlı ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin olunması məqsədilə nazirlik yanında İctimai Şura da yaradılmışdır.[1]

Ümumiyyətlə, 2006-cı il Konvensiyasında əlillərlə bağlı müddəaların implementasiyası ilə əlaqədar iştirakçı-dövlətlərdə aparılan monitorinqlər zamanı beynəlxalq qurumların bir sıra məsələləri nəzərə alması zəruri şərtlərdən biridir:

- Ayrı-seçkiliyin psixi, əqli, ruhi və ya fiziki çatışmazlıqları ilə bağlı meydana çıxmasına dair müddəaların dövlətlərin qanunvericiliyində öz əksini tapıb-tapmaması;
- əlilliyin qüsurlu şəxslərlə xarici mühitdə mövcud olan maneələr arasında qarşılıqlı əlaqənin nəticəsi kimi meydana çıxmasına istinad edərək, sosial modelin qanunvericiliyə daxil edilib-edilməməsi;
- dövlətlərin qanunvericiliyində əsas diqqətin müxtəlif əlillik formalarının deyil, əksinə ayrı-seçkiliyin qadağan olunması və bərabərliyin təmin edilməsi kimi məsələlərə yönəldilib-yönədilməməsi.[2]

Bundan əlavə, Konvensiyanın 38-ci maddəsinə uyğun olaraq, BMT-nin digər orqanlarla qarşılıqlı əlaqəsinə dair müddəalar öz əksini tapmışdır ki, bu da iki aspektdən qiymətləndirilir. Belə ki, 2006-cı il Konvensiyasının effektiv şəkildə həyata keçirilməsinə yardım göstərmək və onun əhatə etdiyi sahədə beynəlxalq əməkdaşlığı təşviq etmək üçün Komitənin BMT-nin digər orqanları ilə qarşılıqlı münasibətləri iki istiqamətdə qurulur:

1) BMT-nin ixtisaslaşmış qurumları və digər orqanları bu Konvensiyanın onların mandatları altına düşən müddəalarının həyata keçirilməsi haqqında məsələyə baxılmasında iştirak etmək hüququna malikdir. Belə ki, Komitə məqbul hesab etdikdə, sahəvi ekspert rəyi vermək, yaxud müvafiq sahələrdə Konvensiyanın realizəsi ilə bağlı məruzələr təqdim etmək üçün BMT-nin ixtisas-

---

[1] www.mlspp.gov.az/az/search?s=ictimai+%C5%9Fura

[2] United Nations Office of the High Commissioner for Human Rights. Monitoring the Convention on the Rights of Persons with Disabilities. New-York & Geneva, 2010, 68 p.,pp.16

laşmış təsisatları və digər səlahiyyətli orqanları qarşısında vəsatətlə çıxış edə bilər.

2) Mandatının yerinə yetirilməsi zamanı Komitə zəruri hallarda insan hüquqları ilə bağlı beynəlxalq müqavilələrə əsasən, təsis olunan digər beynəlxalq orqanlarla məsləhətləşmək imkanına malikdir. Bu imkanın realizəsi isə məruzələrin təqdim olunmasına dair müvafiq prinsiplərdə, irəli sürülən təklif və ümumi tövsiyələrdə uzlaşmanın təmin edilməsi, habelə öz funksiyalarının yerinə yetirilməsi zamanı təkrarçılığa və hər hansı bir paralelliyə yol verilməməsi məqsədini daşıyır.

Eyni zamanda 2006-cı il Konvensiyasının tətbiqinin travma və xəstəliklərlə bağlı meydana çıxan qısamüddətli pozuntularla əlaqədar şəxslərə, eləcə də epizodik şəraitdə (məsələn, affekt vəziyyətində səhhətdə yaranan problemlər, astma və s.) sağlamlığı pozulan şəxslərə münasibətdə şamil olunması mümkündür. Bununla əlaqədar, qeyd etmək lazımdır ki, sözügedən beynəlxalq sənədin 1-ci maddəsinin 1-ci bəndində Konvensiyanın məqsədi bütün əlillərin hüquqları və əsas azadlıqlarının tam və bərabər şəkildə həyata keçirilməsinin təşviqi, müdafiəsi və təmin olunmasına yönəlmişdir. Məhz bu baxımdan, 2006-cı il Konvensiyasında təsbit olunan "əlillik" anlayışının "təkamül konsepsiyası"na əsaslanması ilə bağlı fikirlərə elmi-nəzəri ədəbiyyatlarda rast gəlmək mümkündür.[1] Lakin bir məsələni xüsusilə vurğulamaq yerinə düşərdi ki, hazırkı beynəlxalq-hüquqi tənzimetmədə əlilliyin qarışıq modeli özünü daha çox büruzə verməkdədir. Çünki 2006-cı il Konvensiyasının 1-ci maddəsində əlilliyə verilən təriflə əlaqədar ehtiva olunan *"müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya ruhi pozuntu"* müddəasındakı müxtəlif elementlər məhz ayrı-ayrı modellərin əlamətlərini özündə ehtiva edir. Belə ki, *"cəmiyyətin həyatında*

---

[1] Seatzu F. The United Nations Convention on the Rights of Persons with Disabilities: the fundamental principles // Human rights and international law, 2008, No 3, pp. 534-544

*tam və səmərəli iştiraka mane olan"* ifadəsi sosial modeli ifadə etdiyi halda, *"sabit fiziki, psixi, əqli və ya ruhi pozuntu"* frazası isə tibbi modelin mövcudluğunu göstərir. Eyni zamanda 2006-cı il Konvensiyasında "əlil" anlayışının müəyyən olunması zamanı digər beynəlxalq qurumların və BMT-nin aidiyyəti ixtisaslaşmış təsisatlarının normayaradıcılıq fəaliyyətinin də nəzərə alındığı aydın şəkildə görünür. Bunun bariz nümunəsi qismində 2006-cı il Konvensiyasında müəyyən olunan anlayışın Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş Məclisinin 2001-ci ildə keçirilən 54-cü sessiyasında qəbul olunmuş "Fəaliyyətin təsnifatı, əlillik və səhiyyə" adlı sənəddə də "fəaliyyət" həm tibbi və bioloji meyarlarla (yəni bədən funksiyaları və strukturu, sağlamlıq vəziyyəti), həm də sosial aspektlərlə (məsələn, ətraf mühit amilləri, cəmiyyətdə iştirak, fərdi amillər və s.) sırf bağlılığa malikdir. Qeyd olunanlardan məntiqi nəticəyə gəlmək mümkündür ki, əlillik fəaliyyətin pozulması ilə bağlı olduğuna görə, birinciyə məhz kompleks baxımdan yanaşmaq lazımdır. Digər tərəfdən, bir məsələni də nəzərə almaq lazımdır ki, 2006-cı il Konvensiyası "əlillik" anlayışını yalnız pozuntu baxımından müəyyən etmişdir. Lakin ÜST-nin Baş Məclisinin qəbul etdiyi 1976-cı il tarixli "Pozuntuların, əlilliklərin və qüsurların Beynəlxalq Təsnifatı" adlı sənəddə müvafiq termini pozuntudan irəli gələn məhdudiyyət və ya çatışmazlıq nöqteyi-nəzərdən müəyyən etmişdir.[1]

Bununla yanaşı, Konvensiyada əlillərlə bağlı verilən anlayışda və onların hüquqlarının müəyyən olunmasında müəyyən çatışmazlıqlar mövcuddur. Belə ki, Konvensiyanın 1-ci maddəsində əlillərə müvafiq beynəlxalq-hüquqi anlayış ("*müxtəlif manеələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar*") verilsə də, bunu bütöv tərif kimi qəbul etmək olmaz. Çünki

---

[1] Stucki G., Cieza A., Melvin J. The International Classification of Functioning, Disability and Health (ICF): a unifying model for the conceptual description of the rehabilitation strategy // Journal of Rehabilitation Medicine, 2007, Vol. 39, Issue 4, pp. 279-285

müasir dövrdə dünyada mövcud olan bir sıra xəstəliklər vardır ki, bu anlayışdan tamamilə kənarda qalır. Buna nümunə qismində İİV, yaxud QİÇS xəstəliyini göstərmək olar. Digər tərəfdən, Konvensiyanın tələblərindən və müəyyən etdiyi öhdəliklərdən biri də mövcud beynəlxalq-hüquqi sənəddə verilmiş anlayışa uyğun şəkildə əlillər barədə qanunvericilik aktının qəbuludur. Məhz bu baxımdan, bir sıra ölkələr əlillər barədə qanunvericilik aktlarına QİÇS-ə yoluxmuş şəxslərin müdafiəsinə dair müddəaları da daxil etmişlər.[1] Digər tərəfdən, simptomatik, yaxud asimptomatik formada qüsurları özündə daşıyan, ətraf aləmlə ünsiyyət zamanı müəyyən problemlərin yaranmasına gətirib çıxaran, maneə və ya ayrı-seçkilik səbəbindən onların cəmiyyətə tam daxil olması əksər hallarda reallaşmır. Burada söhbət təkcə İİV-ə yoluxmuş insanlardan getmir, eyni zamanda digər xəstəlikləri (məsələn, Hepatit, cüzam, xərçəng, diabet və s.) özündə daşıyan insanların 2006-cı il Konvensiyasının müdafiəsindən kənarda qalması da günümüzün problemli məsələlərindən biridir. Hətta insan hüquqlarının müdafiəsinə dair beynəlxalq məhkəmə mexanizmlərinin qərarları da bu sahədə yeniliklərin tətbiqinə şərait yaradır. Nümunə qismində Avropa İnsan Hüquqları Məhkəməsinin baxış predmetini təşkil edən *"Glor İsveçrəyə qarşı"* işi (2009) üzrə çıxarılan qərarı göstərmək olar ki, həmin sənəddə ərizəçinin diabet xəstəliyindən əziyyət çəkməsi və bu halın sürəkli olaraq davam etməsi əlillik kimi qiymətləndirilmişdir. Qeyd olunanları nəzərə alaraq, 2006-cı il Konvensiyasında əlillərə verilən anlayışın daha da dəqiqləşdirilməsi və tətbiq sferasının genişləndirilməsi, yaxud Əlillərin hüquqları üzrə Komitənin xüsusi rəyi ilə bu məsələnin aydınlaşdırılması məqsədəmüvafiq olardı.

Aparılan elmi araşdırmalarda isə "Əlillərin hüquqları haqqında" Konvensiya və ona Fakultativ Protokol əhalinin daha zəif

---

[1] Patterson D., Slattery E., Burke-Shyne N. The role of law in promoting the right to health for diverse communities / The World Bank. Volume 5: Fostering development through opportunity inclusion and equity. Edited by H.Cisse, N.K.M.Menon, M.C.C.Segger, V.O.Nmehielle. Washington: The World Bank, 2014, pp. 523-544

qruplarının müdafiəsi işində əsaslı rol oynayacaq mühüm beynəlxalq sənədlər,[1] yaxud mərkəzi paradiqma[2] qismində qiymətləndirilməklə yanaşı, bu sənədin qəbulu insan hüquqlarının ümumi sisteminin inkişafında mühüm mərhələ və əlillərin hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi institutunun formalaşması prosesinin başlanğıcı kimi[3] xarakterizə olunur.

Qeyd olunanları, habelə "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının beynəlxalq-hüquqi tənzimetməyə yeniliklər gətirməsini nəzərə alaraq, aşağıdakı nəticələrə gəlmək olar:

1) Bir sıra çatışmazlıqlarının mövcudluğuna baxmayaraq, 2006-cı il Konvensiyası hazırkı dövr üçün əlillərin hüquqlarının müdafiəsinə dair unikal beynəlxalq-hüquqi sənəd hesab olunmalıdır. Çünki əlillərin hüquqlarının təsbit olunması və sahəvi nəzarət mexanizminin müəyyən edilməsi bu beynəlxalq sənədin əhəmiyyətini artıran hallardan biridir. Eyni zamanda Konvensiyanın spesifik rəhbər başlanğıcları müəyyən etməsi isə "əlillər hüququ"nu insan hüquqlarının kompleks yarımsahəsi səviyyəsinə qaldırılmasına səbəb olan amillərdən biridir. Bununla yanaşı, mövcud sənəd əlillik dərəcəsinə malik olan və bu statusu daşıyan müxtəlif kateqoriya şəxslərin (məsələn, qadınların, uşaqların və s.) reabilitasiyası, habelə onların hüquqlarının təmin olunması üçün əsas beynəlxalq-hüquqi baza rolunu oynayır.

2) Konvensiyanın tətbiqi digər beynəlxalq-hüquqi sənədlərin müvafiq müddəaları və aidiyyəti beynəlxalq təşkilatların normayaradıcılıq fəaliyyəti ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Buna səbəb sözügedən beynəlxalq sənəddə əlil-qadınlar və

---

[1] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, s. 314-317

[2] Жаворонков Р.Н. Правовое регулирование труда и социального обеспечения инвалидов в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. докт. юрид. наук. Москва, 2014, с.22

[3] Лыхина Т.А. Права инвалидов: проблемы международно-правового регулирования и международные обязательства Российской Федерации. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. СПб., 2011, с.4

əlil-uşaqlarla bağlı müddəaların, habelə əlillərin konkret subyektiv imkanlarının təsbit olunmasıdır. Bundan əlavə, Konvensiyanın 3-cü maddəsində təsbit olunmuş prinsiplərin mahiyyət və məzmunu, eyni zamanda digər beynəlxalq sənədlərin müddəaları ilə birgə izah olunmalıdır.

3) Bu beynəlxalq-hüquqi sənəd insan hüquqlarının və əsas azadlıqların realizəsi zamanı əlillərin səciyyəvi xüsusiyyətləri və şəxsi ehtiyacları, habelə müasir ictimai həyatın müxtəlif istiqamətləri (məsələn, ayrı-seçkiliyin qadağan olunması, davamlı inkişaf, yoxsulluğun azaldılması, yüksək texnologiyaların müasir həyatdakı rolu, qanunvericilik aktlarının təkmilləşdirilməsi və lazımi praktiki tədbirlərin görülməsi və s.) nəzərə alınmaqla yerinə yetirilməlidir.

### 2.3. Regional səviyyədə əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığa ümumi baxış: hüquq normaları və institusional mexanizmlərin qarşılıqlı müqayisəsi

Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində regional müqavilə mexanizmləri də mühüm əhəmiyyət kəsb edir. Bunu bir sıra amillərlə əlaqələndirmək olar. *Birincisi,* hər bir regionun səviyyəvi xüsusiyyətləri (təbii, siyasi, sosial, mədəni, antropoloji və s.) mövcud olduğu kimi, həmin ərazilər üzrə insanların yaşayış şəraiti də eyni deyildir. Şübhəsiz ki, insanların maddi təminatının aşağı olduğu ərazilərdə (məsələn, Afrikanın əksər hissəsi, Asiyanın bir hissəsi, Latın Amerikasının bəzi dövlətləri) əlilliyə gətirib çıxaran halların aradan qaldırılması və onların sağlamlığının tam, yaxud qismən bərpası məsələləri arxa plana keçir. Doğrudur, universal beynəlxalq sənədlərdə sosial və iqtisadi hüquqların müdafiəsi kontekstində onların təminatının vacibliyi qeyd olunsa da, müxtəlif regionlar üzrə zəif inkişaf etmiş ölkələrdə real vəziyyət əksini sübut edir. *İkincisi,* iqtisadi cəhətdən zəif inkişaf etmiş region və ölkələrdə əlilliyə təsir edən amilləri təbii və qeyri-təbii olmaqla, iki qrupda birləşdirmək olar. Təbii amillə-

rə bu ərazilərdə yaşayan insanların yoluxucu xəstəliklərə (məsələn, malyariya, QİÇS/HİV, vəba, Ebola virusu və s.) daha tez yoluxması ehtimalının güclü olması ilə bağlıdır. Həmin xəstəliklər insanlar arasında ölüm hallarının artmasını şərtləndirməklə yanaşı, həm də əlilliyə səbəb olmaqla gələcək nəsillər üçün ciddi təhlükə törədir. Ayrı-ayrı regionlarda, xüsusilə iqtisadi baxımdan zəif inkişaf etmiş ərazilərdə yol və sənaye qəzaları, müharibələr (xüsusilə vətəndaş müharibələri) və insanlar arasında travmaların daha tez-tez baş verməsi isə əlilliyə təsir edən qeyri-təbii amillər kimi qiymətləndirilməlidir. Hətta sonuncu məsələlər BMT-nin hesabat və məruzələrində[1] də geniş şəkildə müzakirə obyekti olmaqda davam edir. *Üçüncüsü,* cəmiyyətdə əlillik hallarının aradan qaldırılmasına yönəlmiş tədbir, strategiya və proqramların vaxtında və lazımi qaydada həyata keçirilməsi son nəticədə həm əlillər üçün ciddi problemlərin yaranmasını, həm də onların cəmiyyətə normal adaptasiyasında mənfi halların üzə çıxmasını şərtləndirir. Belə ki, əlilləri əhatə edən mühitdən yararlanmanın (məsələn, insanlarla normal ünsiyyətin qurulması, bərabərliyin təmin olunması, onların xüsusi kateqoriya kimi fərqləndirilməməsi və cəmiyyətin bərabərhüquqlu üzvü kimi tanınması, siyasi proseslərdə maneəsiz iştirak və lazımi hüquqi xidmətlərdən istifadə etmək və s.), zəruri sosial-iqtisadi nemətlərə çıxış imkanlarının təminatının (məsələn, təlim-tədris, məşğulluq, mənzil təminatı, nəqliyyat və rekreasiya təminatı və s.), eləcə də bu kateqoriya şəxslərin lazımi istehlak məhsullarını və xidmətlərini maneəsiz və sərbəst şəkildə əldə etməsinin mümkünsüzlüyü müəyyən problemlər yaradır. Bu isə son nəticədə özünü bir sıra hüquqi və sosial problemlərin əyani təzahür vasitəsi (fiziki imkanlarla bağlı məhdudiyyətlərin yaranması; əlillərlə bağlı düzgün dövlət siyasətinin yeridilməməsi; problemlərin lazımi həllini nəzərdə tutmayan və real təcrübədə həyata keçirilməyən müddəaları ehtiva edən proqram və strategiyaların qəbulu; həmin şəxslərə qarşı ayrı-seçkilik hallarının yaranması və davam edərək inkişaf etməsi; əlillərlə cə-

[1] Paul C. The Market for Civil War // Foreign Policy, May/June 2003, pp. 40-45

miyyətin digər üzvləri arasında “dərin uçurumlar”ın yaranması; əlillərdə ciddi psixoloji (məsələn, depressiya, intihar və s.) və sosial problemlərin meydana çıxması və s.) kimi büruzə verir.

Bununla belə, iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir region çərçivəsində əlillərin hüquqi müdafiəsi və bərabərhüquqluluğunun təmin olunması kontekstində onların cəmiyyətə normal reabilitasiyasına cəhd edilir. Məsələn, üzv-dövlətlərinin əksəriyyətinin iqtisadi imkanlarının normal inkişaf etdiyi Avropa İttifaqı (Aİ) çərçivəsində əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı normalar, əsas etibarilə, iki formada özünü təzahür edir. Birinci halda, İttifaq çərçivəsində insan hüquqlarının müdafiəsinə dair qəbul olunmuş beynəlxalq-hüquqi sənədlərdə məhz əlillərlə bağlı məsələlərə də toxunulur. Belə ki, 2000-ci il tarixli “Əsas hüquqlar haqqında” Aİ Xartiyasında əlilliyə istinad edilən ayrı-seçkiliyin qadağan olunması (maddə 21) və əlilliyi olan şəxslərin inteqrasiyası (maddə 26) kimi müddəalar öz əksini tapmışdır. Bu normaların hər biri “Əlillərin hüquqları haqqında” 2006-cı il BMT Konvensiyasının 3-cü maddəsində təsbit olunmuş sahəvi prinsiplərin regional çərçivədə daha da möhkəmləndirilməsinə xidmət edir.

İkinci halda isə əlillərin hüquqlarının qorunması, müdafiəsi və realizəsi Aİ-nin institutlarının ayrı-ayrı normativ aktlarında və normayaradıcılıq fəaliyyətinin digər xarici ifadə formalarında həyata keçirilir. Nümunə qismində Aİ-nin “Əlilliyə dair Strategiya (2010-2020)”sı bütövlükdə müvafiq qurum və təşkilata üzv-dövlətlər arasında birgə fəaliyyətin həyata keçirilməsi üçün səkkiz əsas sahəni əhatə edir:

- Əlilliyi olan şəxslərin məhsul, xidmət, köməkçi qurğu və avadanlıqlar əldə etməsini özündə birləşdirən əlyetərlilik;
- Avropa vətəndaşları olaraq, əlilliyi olan şəxslərin bütün fundamental hüquqları həyata keçirməsini nəzərdə tutan iştirakçılıq;
- İstər təşkilat, istərsə də milli səviyyədə bərabərliyi təşviq edən siyasətin həyata keçirilməsinə dair təminatı ifadə edən bəra-

bərlik;

- Əmək bazarında əlilliyi olan şəxslərin sayının artmasını, eləcə də iş yerlərinə bu kateqoriya şəxslərin əlyetərliliyini ehtiva edən məşğulluq;

- Əlilliyi olan şagirdlərin əlyetərli təhsil sistemi və fasiləsiz təlim proqramlarından yararlanmasını nəzərdə tutan təlim-tədris;

- Əlilliyi olan şəxslərin üzləşdiyi geniş yayılmış sosial problemlərlə (məsələn, qeyri-bərabər gəlir, yoxsulluq riski, sosial təcrid və s.) mübarizəni nəzərdə tutan sosial müdafiə;

- Bu kateqoriya şəxslərin bərabər və əlyetərli şəkildə səhiyyə xidmətləri və imkanlardan istifadəsini nəzərdə tutan səhiyyə sistemi;

- Əlilliyi olan şəxslərin hüquqlarını beynəlxalq səviyyədə təşviq edən xarici fəaliyyət.

Onu da qeyd etmək lazımdır ki, Strategiyada öz əksini tapan müddəalar ümumilikdə üç əsas prioriteti (ağlabatanlılıq, davamlılıq və genişhəcmlilik) əhatə edir.[1]

Həmçinin Aİ Şurasının "Əlillərin məşğulluğu və sosial inteqrasiyanın təşviqi barədə" 15 iyul 2003-cü il tarixli Qətnaməsi bilavasitə əlillərin hüquqların qorunması və onların cəmiyyətə inteqrasiyasına dair üzv-dövlətlərə yönəlmiş müddəaları özündə ehtiva edir. Hətta bununla bağlı konkret istiqamətlər üzrə dövlətlər tərəfindən həyata keçirilməsi zəruri olan tədbirlər də göstərilmişdir:

1) əlillərə dair təşkilat və qurumlarla əməkdaşlığın həvəsləndirilməsi;

2) cəmiyyətin bütün aspektlərində əlillərin tam inteqrasiyasının və iştirakının təşviqi;

3) əmək bazarında əlillərin inteqrasiyası və iştirakına olan maneələrin aradan qaldırılması üçün səylərin davam etdirilməsi;

4) əlilliyi olan şəxslərin həyatın bütün sahələrinə uzunmüddətli müyəssərliyinə nail olunması məqsədilə səylərin daha da

[1] Magnusson L. After Lisbon – social Europe at the crossroads? Brussels: ETUI Printshop, 2010, pp.18

gücləndirilməsi;

5) ictimai həyatda, xüsusilə peşə həyatında bu kateqoriya şəxslərin iştirakının qarşısını alan maneələrin aradan qaldırılması, habelə həmin şəxslər üçün meydana çıxa biləcək yeni maneələrin yaradılmasının qarşısının alınması;

6) sosial təcrid və yoxsulluğun qarşısının alınması ilə bağlı gələcək milli fəaliyyət planlarının işlənib hazırlanması zamanı əlillik məsələlərinin əsaslandırılması.[1]

Bütövlükdə götürdükdə, sözügedən beynəlxalq qurum çərçivəsində əlillik və məşğulluq məsələsi, habelə onların qarşılıqlı əlaqəsi şəklində meydana çıxan problemlərin həlli üç ayrı-ayrı genişhəcmli istiqamətlər qrupundan ibarətdir:

1) Yüksək səviyyədə təmsil olunan rəhbərlik tərəfindən müəyyən olunan Aİ-nin qarşısında duran əsas məsələlərə ümumi yanaşma;

2) Üzv-dövlətlərin dövlət və hökumət başçılarını özündə birləşdirməklə, idarəedici qurum kimi formalaşan Avropa Şurası (Aİ-nin institutu qismində) tərəfindən müəyyən olunan məşğulluq siyasətinə daha da səciyyəvi yanaşma;

3) Avropa Komissiyası tərəfindən müəyyən olunan əlillik və məşğulluq məsələləri də daxil olmaqla, əlillik probleminə səciyyəvi yanaşma.[2]

Aİ-nin 2000-ci il tarixli "Məşğulluq sahəsində bərabərlik haqqında" Direktivi isə  işəgötürmə və məşğulluq sahəsində əlilliyə görə ayrı-seçkilik hallarına yol verilməsini birbaşa şəkildə qadağan edir.

Avropa regionunda insan hüquqlarının qorunması və müdafiəsi sahəsində digər beynəlxalq qurum – Avropa Şurası (AŞ) da mühüm əhəmiyyət kəsb edir. Aİ-dən fərqli olaraq, AŞ-da insan

---

[1] Allen R. Article 13 EC, evolution and current contexts / Equality law in an enlarged European Union. Understanding the article 13 Directives. Edited by H.Meenan. Cambridge: Cambridge University Press, 2007, pp. 38-72

[2] Lawson A. Disability and employment in the European Union: collective strategies and tools / Disability and equity at work. Edited by J.Heymann, M.A.Stein, G.Moreno. Oxford: Oxford University Press, 2014, p. 391-428

hüquqlarının qorunması, o cümlədən əlillərlə bağlı müddəalar iki mühüm beynəlxalq müqavilədə ("İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası, 1996-cı il tarixli "Dəyişdirilmiş Avropa Sosial Xartiyası") öz əksini tapmışdır. Belə ki, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 5.1-ci maddəsinin "e" bəndində azadlıqdan qanuni əsaslarla məhrum edilmənin elementlərindən biri qismində ruhi xəstələrin həbsə alınması çıxış edir. "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"nda isə bu məsələ əlillərin peşə istiqaməti hüququ (maddə 9) və peşə hazırlığı hüququnun (maddə 10) təmin edilməsi kontekstində nəzərdən keçirilir.[1] Əmək, sosial, təhsil və digər insan hüquqlarını müəyyən edən müddəaları nəzərdə tutan Xartiyanın səciyyəvi cəhəti isə ondan ibarətdir ki, həmin sənədin insana, onun şəxsiyyətinə, mənafelərinə və qanuni hüquqlarına münasibəti insanın mövqeyi, habelə dini və siyasi baxışları ilə bağlı deyildir. Bütün bu göstərilənlər Avropa Sosial Xartiyasının müasir zəmanənin demokratik ruhlu hüquqi sənəd kimi qiymətləndirilməsinə əsas verir.[2]

Bundan əlavə, AŞ çərçivəsində ayrı-ayrı orqanlar tərəfindən qəbul edilən müxtəlif çoxsaylı aktlar mövcuddur ki, həmin aktlar bilavasitə əlillərin hüquqlarının qorunmasına və müdafiəsinə xidmət edir. Bunun bariz nümunəsi sayılan AŞ Parlament Assambleyasının (AŞPA) 1992-ci il tarixli 1185 nömrəli "Əlillərin reabilitasiyasına dair siyasət üzrə" Tövsiyəsində əlilliyi olan şəxslərin üzləşdikləri maneələr xüsusilə vurğulanmışdır. Belə ki, qeyd olunan sənəddə nəzərdə tutulan anlayışa əsasən, əlillik dedikdə, bütün insanların normal halda malik olduğu ailə həyatında və cəmiyyətdə əlillərin iştirakına əngəl törədə bilən fiziki, psixoloji, ruhi, sosial, mədəni, hüquqi və digər maneələrlə şərtlənən məhdudiyyət başa düşülür. Yəni bu məhdudiyyətlərə hərəkət, görmə,

[1] Human rights in international law. Basic texts. 2nd edition. Strasbourg: Council of Europe Publishing, 2000, pp. 297

[2] Həsənzadə S.B. Əlillərin sosial müdafiəsi sahəsində hüquq islahatlarının əsas istiqamətləri. Bakı: "Təknur" nəşriyyatı, 2009, s.28

eşitmə, əqli/dərketmə və psixoloji narahatlıqlarla bağlı imkanların zəifliyi və çatışmazlıqların mövcudluğu, habelə qeyd olunan bir neçə hala eyni şəxsdə rast gəlinməsi daxildir. Eyni zamanda AŞPA-nın "Psixi xəstəliyin vəziyyəti barədə" 1977-ci il tarixli 818 nömrəli Tövsiyəsi, habelə AŞ Nazirlər Komitəsinin (AŞNK) müvafiq sahədə qəbul etdiyi bir sıra sənədlər ("Məcburi qaydada yerləşdirilmiş psixi pozuntudan əziyyət çəkən şəxslərin hüquqi müdafiəsinə dair Tövsiyə" (1983), "Əlillərin reabilitasiyasına dair davamlı siyasət haqqında" 1984-cü il Tövsiyəsi, "Əlillərə dair reabilitasiya siyasəti haqqında" 1992-ci il Tövsiyəsi, "Əlilliyi olan şəxslərin reabilitasiyasına dair davamlı siyasət haqqında" 1992-ci il Tövsiyəsi[1] və s.) də regional əməkdaşlığın inkişafında mühüm əhəmiyyət kəsb edir. Həmçinin "Əlilliyi olan insanların hüquqlarının və cəmiyyətdə iştirakının təşviq edilməsi üzrə Fəaliyyət Planı: 2006-2015-ci illər ərzində Avropada əlilliyi olan şəxslərin həyat keyfiyyətinin yaxşılaşdırılması" adlı sənəd proqram xarakterli müddəaları ifadə etməklə, AŞNK-nin normayaradıcılıq fəaliyyətinin nəticəsi hesab olunur. Həmin sənəd digər beynəlxalq normalardan fərqli olaraq müddəaları ayrı-ayrılıqda fəaliyyət istiqamətləri formasında özündə birləşdirir ki, bu da 15 fəaliyyət istiqamətindən ibarətdir. Həmin fəaliyyət istiqamətlərinə siyasi və ictimai həyatda iştirak, mədəni həyatda iştirak, informasiya və kommunikasiya, təhsil, məşğulluq, nəqliyyat, səhiyyə, reabilitasiya, sosial müdafiə, hüquqi müdafiə, zorakılıq və istismardan müdafiə, maarifləndirmə və s. məsələlər aiddir. Bununla yanaşı, sözügedən sənədin əhəmiyyəti ondan ibarətdir ki, əlillərə müəyyən fərdi xüsusiyyətləri, yaş, cins və milli mənsubiyyəti baxımından ayrı-ayrılıqda yanaşmaqla, onların spesifik ehtiyaclarının nəzərə alınmasının vacibliyini qeyd etmişdir. Məhz bu baxımdan, Fəaliyyət Planı əlil-uşaqlar və əlil-gənclər, əlil-qadınlar

[1] Degener Th. Disabled persons and human rights: the legal framework / Human rights and disabled persons: essays and relevant human rights instruments. Edited by Th.Degener, Y.Koster-Dreese. Dordrecht: Martinus Nijhoff Publishers, 1995, pp. 9-39

və əlil-qızlar, əlil-ahıllar, əlil-qaçqınlar, əlil-miqrantlar, milli azlığın nümayəndəsi olan əlil kateqoriyalarını fərqləndirmişdir.[1]

Avropa Şurası çərçivəsində əlillərin hüquqlarının müdafiəsinin səciyyəvi xüsusiyyətlərindən biri də bu kateqoriyadan olan şəxslərin beynəlxalq məhkəmə müdafiəsinin təmin olunmasıdır. Məlum olduğu kimi, Avropa Şurasının struktur tərkib hissəsi kimi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qəbul etdiyi çoxsaylı qərarların bir hissəsi əlillərin hüquqları və qanuni mənafelərinə toxunan məsələlərin hüquqi həllinə yönəlmişdir. Həmin qərarlarda daha çox əlillik meyarı əsasında insanlara qarşı ayrı-seçkiliyə yol verilməsi qadağan edilmişdir. Bu sahədə ilk belə addım Məhkəmənin *"Glor İsveçrəyə qarşı"* işi üzrə 2009-cu ildə çıxartdığı qərarı olmuşdur. Qərarın əhəmiyyəti ondan ibarətdir ki, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 14-cü maddəsinə istinad olunmaqla, əlillik meyarına əsaslanaraq insanların fərqləndirilməsi də ayrı-seçkilik hesab olunmuşdur. Belə ki, Konvensiyanın 14-cü maddəsinə uyğun olaraq, nəzərdə tutulan hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır. Məhz adıçəkilən qərarı ilə Məhkəmə 1950-ci il Konvensiyasının 14-cü maddəsində ifadə olunan *"hər hansı digər əlamətlərə görə"* kateqoriyasına əlilliyi də aid etmişdir. Bundan əlavə, ərizəçinin diabet xəstəliyindən əziyyət çəkməsi və bu halın sürəkli olaraq davam etməsi Məhkəmə tərəfindən əlillik kimi qiymətləndirilmişdir. Qərarda yekun nəticəyə gəlinmişdir ki, İsveçrə dövlət qurumları ərizəçinin fərdi tələblərinə cavab verən və onun problemlərinin həllinə müsbət təsir göstərəcək münasib yaşayış yeri ilə təmin olunmasını yerinə yetirməmişlər. Eyni zamanda qərarda qeyd olunmuşdur ki, "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyası ayrı-seç-

---

[1] www.coe.int/t/e/social_cohesion/soc-sp/Rec_2006_5%20Disability%20Action%20-Plan.pdf

kiliyə əsaslanan davranışdan əlillərin müdafiə olunması zərurəti ilə bağlı Avropa çərçivəsində və universal səviyyədə konsensusun əldə olunmasına əsas verir. İsveçrənin bu sənədə qoşulmadığına baxmayaraq, belə bir müddəanın qərara daxil edilməsi əlillərə qarşı yönələn ayrı-seçkilik, fərqləndirmə və ya istisna hallarının aradan qaldırılması istiqamətində mühüm addım sayılmalıdır.[1]

Həmçinin əlilliyə istinad etməklə, digər insan hüquqlarının pozulması faktları da AİHM-in qərarlarında öz əksini tapmışdır. Belə ki, Məhkəmənin 2010-cu ildə *"Alajos Kiss Macarıstana qarşı"* işi üzrə çıxartdığı qərarında ruhi pozuntu (manik və ya bipolyar depressiya) əmələ gəldiyinə görə müvəqqəti himayəyə verilən ərizəçinin Macarıstanda 2006-cı ildə keçirilən parlament seçkilərində iştirakdan məhrum olunması 1950-ci il Avropa Konvensiyasına 1 saylı Protokolun 3-cü maddəsinin (azad seçki hüququ) pozulması kimi qiymətləndirilmişdir. Ərizəçinin seçki hüququnun məhdudlaşdırılmasına səbəb isə həmin dövr üçün qüvvədə olan Macarıstan Konstitusiyasında himayədə olan şəxslərin seçki hüququndan istifadəsinin mütləq şəkildə qadağan olunmasına dair müddəanın mövcudluğu olmuşdur.[2]

Bundan əlavə, AİHM digər subyektiv imkanların müdafiəsi kontekstində əlillərin hüquqlarına və qanuni maraqlarına toxunmuşdur ki, bunu həmin məhkəmə mexanizminin qərarları da sübut edir. Həmin qərarların yaşamaq hüququ *(məsələn, "Jasinkis Latviyaya qarşı", "Nençeva və digərləri Bolqarıstana qarşı" və s.)*, işgəncələrin qadağan olunması *(məsələn, "Vincent Fransaya qarşı", Zarzicki Polşaya qarşı" və s.)*, azadlıq və toxunulmazlıq hüququ *(məsələn, "H.L. Birləşmiş Krallığa qarşı", "Stanev Bolqarıstana qarşı" və s.)*, ədalətli məhkəmə araşdırması hüququ *(məsələn, "Mocie Fransaya qarşı", Sktukaturov Rusiyaya qarşı"*

[1] Clifford J. The UN Disability Convention and its impact on European Equality Law // The Equal Rights Review, 2011, Vol. 6, pp. 11-25

[2] Harris D., O`Boyle M., Bates E., Cumber P. and et. Law of the European Convention on human rights. Third edition. Oxford: Oxford University Press, 2014, pp.929-930

*və s)*, şəxsi həyata və ailə həyatına hörmət hüququ *(məsələn, "Botta İtaliyaya qarşı", "Molka Polşaya qarşı" və s.)*, nikah hüququ *(məsələn, "Lashin Rusiyaya qarşı" və s.)*, mülkiyyət hüququ *(məsələn, "Koua Poirrez Fransaya qarşı", "Katai Macarıstana qarşı" və s.)*, təhsil hüququnun *(məsələn, "Gherghina Rumıniyaya qarşı" və s.)* müdafiəsinə yönəlməsinə baxmayaraq, əlillərlə bağlı müddəaları da özündə ethiva edir.

Digər regional sənəd – 1999-cu il tarixli "Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Amerikaarası Konvensiyanın 3-4-cü maddələri əlillərlə bağlı problemləri üç aspektdən nəzərdən keçirir. *Birinci halda* bu, əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin ləğvi və onların hərtərəfli inteqrasiyasının təşviqi üçün qanunvericilik, sosial, təhsil, əmək və digər zəruri tədbirlərin görülməsi ilə bağlıdır. Şübhəsiz ki, qeyd olunan tədbirlərin iştirakçı-dövlətlər tərəfindən görülməsi kompleks şəkildə qiymətləndirilməlidir. Çünki bu tədbirlərin özü də bir neçə tərkib elementindən ibarətdir. Buraya əmtəələr və xidmətlərə inteqrasiya, imkanların dəyərləndirilməsi və proqramların qəbulu, nəqliyyat-kommunikasiya xidmətlərinin təmini, mövcud maneələrin aradan qaldırılması və s. kimi məsələlərin həlli daxildir. Amerikaarası Konvensiyada təsbit olunan *ikinci kateqoriya məsələlərə* prioritet əsasların işlənib hazırlanması zərurətini meydana çıxaran sahələri aid etmək olar. Lakin bu istiqamət də öz-özlüyündə iki yarım qrupa ayrılır. Birinci yarımqrupda əlillərin fiziki sağlamlığının təmini əsas götürüldüyü halda, ikinci yarımqrupda daha çox psixoloji amillərin düzgün qiymətləndirilməsi tendensiyası özünü büruzə verir. Məhz bu baxımdan, birinci yarımqrupa nəticələrinin aradan qaldırılması mümkün olan əlilliyin bütün formalarının qarşısının alınması, əlilliyin erkən aşkar olunması və ona müdaxilə edilməsi, müalicə, reabilitasiya, təhsil, peşə təlimi, habelə bu kateqoriyadan olan şəxslərin sərbəstliyinin və həyat keyfiyyətinin optimal səviyyəsinin təmin olunması üçün hərtərəfli xidmətlərin təmini kimi məsələlər aiddir. Qeyd olunduğu kimi, sözügedən beynəlxalq-hüquqi sənəd həm də əlillər və onların cəmiyyətə inteqrasiyası ilə bağlı psixoloji aspektləri nə-

zərdən keçirir. Bütün bunları nəzərə alaraq, yuxarıda göstərdiyimiz ikinci yarımqrupa isə əlillərə hörmətin təşviqi, onların digər insanlarla yanaşı və bərabər yaşayış imkanlarının təmin olunmasına təhlükə və maneə törədən mühakimə, stereotip və digər münasibətlərin ləğvinə yönəlmiş ictimai maarifləndirmənin genişləndirilməsi kimi genişmiqyaslı məsələlər aiddir. Fikrimizcə, bu maarifləndirmənin düzgün həyata keçirilməsi öz-özlüyündə aşağıdakı nəticələrə gətirib çıxara bilər:

- Cəmiyyətin digər üzvlərinin əlillərə qarşı münasibətinin mühafizəkarlıqdan liberallığa doğru dəyişməsi, onları cəmiyyətin bərabərhüquqlu üzvü və bütöv imkanlara malik şəxsiyyət kimi qəbul etməsi;
- Müəyyən qüsura və ya maneəni özündə daşıdıqlarına görə, əlilliyi olan şəxslərin psixoloji cəhətdən düzgün istiqamətləndirilməsi, onların psixoloji travma və depressiya kimi hallardan qurtulması;
- Əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunması və müdafiəsinin təmin olunması, o cümlədən imkan və bacarıqlarına uyğun şəkildə onların işlə təmin olunması, bu kateqoriya şəxslər üçün lazımi şəraitin yaradılması sahəsində dövlətlərin öz öhdəliklərini icra etməsi;
- Bu sahədə dövlətlərin öhdəliklərinin yerinə yetirilməsi kontekstində qanunvericilik, inzibati, təşkilati və xüsusi tədbirlərin görülməsi, eləcə də dövlət strategiyası və proqramlarının işlənib hazırlanaraq həyata keçirilməsi;
- Bu sahədə ictimai nəzarətin və vətəndaş cəmiyyətinin rolunun genişləndirilməsi, xüsusilə əlillərin və onların ayrı-ayrı kateqoriyalarının müdafiəsi sahəsində qeyri-hökumət təşkilatlarının aidiyyəti qərarlarının qəbulunda iştiraka dair rolunun artırılması. Şübhəsiz ki, bununla bağlı Konvensiyanın 5-ci maddəsinin tələblərinin də nəzərə alınması vacib meyarlardan biridir.

1999-cu il Konvensiyasında *üçüncü aspekt* dövlət-əlil münasibətlərinin tənzimlənməsinə deyil, sırf dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmişdir. Bu əməkdaşlıq isə özünü

iki kontekstdə büruzə verir. Birinci forma əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin qarşısının alınması və ləğvi sahəsində bir-birlərinə lazımi köməkliklərin göstərilməsi şəklində təzahür etdiyi halda, ikinci forma effektiv əməkdaşlıq şəklində ehtiva edilmişdir. Bu əməkdaşlıq digərlərindən fərqli olaraq, iki əsas istiqamətdə dövlətlər arasında həyata keçirilir:

- əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərin müalicəsi, reabilitasiyası və onların cəmiyyətə inteqrasiyası ilə bağlı elmi və texniki araşdırmaların aparılması;
- bərabərlik şəraitində əlillərin sərbəstliyinin, özünəinamın və cəmiyyətə hərtərəfli inteqrasiyasının təşviqi və bunlara şərait yaradan vasitə və ehtiyatların inkişaf etdirilməsi.

Eyni zamanda Konvensiyada "əlillik" və "əlillərə qarşı ayrı-seçkilik" terminlərinin anlayışı *(bu barədə tədqiqat işinin müvafiq paraqraflarında məlumat verilmiş və lazımi təhlillər aparılmışdır – kurs. müəllifindir),* əlillərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Amerikaarası Komitənin yaradılması qaydası və digər məsələlər öz əksini tapmışdır.[1]

Pan-Amerika Səhiyyə Təşkilatı çərçivəsində 1990-cı ildə keçirilən Latın Amerikasında psixiatriya yardımının yenidən qurulmasına dair Konfransda qəbul olunan Karakas Bəyannaməsində isə psixi sağlamlığın qorunmasının strukturu, habelə əlilliyi doğuran təbii mühitdən təcrid etməklə xəstələrin psixiatriya müəssisələrində stasionar müalicəsindən müstəsna olaraq istifadə etməsi kimi məsələlər öz əksini tapmışdır. Eyni zamanda Bəyannamə, pasiyentlərin insan və vətəndaş hüquqlarına təhdid yarada bilən və zaman etibarilə müasir standartlara cavab verməyən psixi sağlamlığın qorunması xidmətlərinin ləğv edilməsi yolu ilə, psixi sağlamlığın qorunması hüququna dair xidmətlər və insan hüquqları arasında mühüm əlaqəni müəyyən edir. Həmçinin Bəyannamə zəruri olan hallarda xidmətlərin yenidən qurulması və forma-

[1] Collection of international instruments and legal texts concerning refugees and others of concern to UNHCR. Volume 3. Regional instruments: Africa, Middle East, Asia, Americas. New-York: United Nations Publications, 2007, pp. 1343-1347

laşdırılması üçün dövlətlərin milli qanunvericilikdən istifadə etmələrinin vacibliyini özündə ehtiva edir.[1]

Bundan əlavə, Amerika regionunda əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunması ilə bağlı digər sənədlərə də rast gəlmək mümkündür. Məsələn, 1996-cı il Qətnaməsi ilə təsdiq olunmuş "Amerika yarımkürəsində əlillərə dair Panama öhdəlikləri", "Əlillərin hüquqlarının və ləqayətinin qorunmasında Onillik Amerika Fəaliyyət Planı (2006 – 2016)", "Amerika yarımkürəsində əlillərin vəziyyətinə dair" 1993-cü il tarixli 1249 nömrəli və 1995-ci il tarixli 1356 nömrəli qətnamələr və s.

Afrika İttifaqında əlillərin hüquqlarının nizama salınması iki istiqamət üzrə – ümumi sosial təminat və təhlükəsizliyinin təmin olunması, digər tərəfdən sosial təhlükəsizliyin təmin olunması və sosial dəyərlərin qorunması, habelə sosial problemlərin həllinə yönəlmiş hüquq normaları, əsas etibarilə bir sıra aktlarda ümumiləşdirilmişdir:

- "Məşğulluq və yoxsulluğun azaldılması üzrə" 2004-cü il Bəyannaməsi və Fəaliyyət Planı Afrikada əhalinin, xüsusilə həssas təbəqəsinin davamlı yaşayış vasitələri ilə bağlı məsələlərini özündə əks etdirir. Bəyannamə hamı üçün bərabər imkanların təmin olunmasını ifadə etməklə, əhalinin həssas qruplarının yoxsulluğun azaldılması proqramı və siyasəti üzrə hüquq və imkanlarının genişləndirilməsi, eləcə də həmin proqramlarda bu təbəqənin nümayəndələrinin tam iştirakının təmin olunması ilə bağlı iştirakçı-dövlətlərin vəzifələrini müəyyən etmişdir.[2]
- 1999-cu il tarixli "Sosial Fəaliyyət Nizamnaməsi" sosial sahədə insan hüquqlarının qorunması ilə bağlı bir sıra prinsipləri ehtiva etmişdir. Məsələn, əsas insan hüquqlarına, habelə əhalinin

---

[1] Levav I., Restrepo H., Guerra de Macedo C. The Restructuring of Psychiatric Care in Latin America: A New Policy for Mental Health Services // Journal of Public Health Policy, 1994, Vol. 15, Issue 1, pp. 71-85

[2] Mangala J. Africa – EU partnership on migration, mobility and employment / Africa and the European Union: A strategic partnership. Edited by J.Mangala. New-York: Palgrave Macmillian, 2013, pp. 195-224

tələbat və arzularına hörmət olunması; sosial ədalətin məqsədlərinə nail olunması; sosial xidmətlərin hamı üçün bərabərliyi və mümkünlüyü.

Müəyyən etdiyi strateji istiqamətlərə uyğun olaraq, Nizamnamə milli sosial siyasətin işlənib hazırlanması, eləcə də planlaşdırma, proqramlaşdırma və həyata keçirilmənin bütün səviyyələrinə sosial aspektlərin daxil edilməsi ilə bağlı dövlətlərə çağırış xarakterli müddəaları özündə əks etdirmişdir.[1]

- Afrika İttifaqının 2008-ci il tarixli "Kontinental sosial siyasət haqqında Çərçivə Qərarı" isə əhalinin aztəminatlı və zəif təbəqəsinin, xüsusilə, valideyn himayəsindən məhrum olmuş uşaqların, əlilliyi olan şəxslərin və bu kateqoriyaya aid edilən uşaqların, qaçqınların və məcburi köçkünlərin, yaşlı nəslin nümayəndələri, İİV və QİÇS xəstəliyinə yoluxmuş şəxslərin hüquqlarının təşviqi və rifahının təmin edilməsinə yönəlmişdir. Qeyd olunan sənədə əsasən, sosial siyasət iki aspektdə nəzərdən keçirilir: a) hüquqlar və resurslara ədalətli çıxış imkanlarının təmin edilməsi vasitəsilə, cəmiyyətin müəyyən seqmentləri və ölkə daxilində müəyyən regionlar arasında bərabərliyin və ədalətliliyin təşviq olunması; b) mədəni eyniliklər və azadlığa yönələn səylər arasında mövcud olan sosial gərginliyə müraciət edilməsi.[2] Bundan əlavə, 2000-ci ildə Afrika İttifaqı Təşkilatını əvəz edən Afrika İttifaqının təsis aktında insan və xalqlar hüquqları və əsas azadlıqlarının müdafiəsi və təşviqi, demokratik institutlar və dəyərlərin bərqərar edilməsi, habelə qənaətbəxş idarəetmənin və qanunun aliliyinin təmin olunması, üzv-dövlətlərin xalqları arasında həmrəyliyin möhkəmləndirilməsi baxımından, dövlətlərin hökumətləri ilə vətəndaş cəmiyyətinin bütün həlqələri arasında tərəfdaşlığın formalaşdırılmasının zəruriliyi xüsusilə vurğulanmışdır. Məhz bu baxımdan, Təsis Aktının 4-cü maddəsinə əsasən, bir sıra prinsip-

---

[1] Mpedi L.G., Nyenti M.A.T. Key international, regional and national instruments regulating social security in the SADC: a general perspective. Johannesburg: SUN MeDIA MeTRO, 2015, 216 p., pp.75

[2] Garcia M., Moore C.M.T. The cash dividend. The rise of cash transfer programs in Sub-Saharan Africa. Washington: World Bank Publications, 2012, 436 p., pp.41-52

lər öz əksini tapmışdır:

1) Ağır şəraitlə (xüsusilə müharibə cinayətləri, soyqırım və insanlıq əleyhinə cinayətlərlə) əlaqədar məsələlərə Assambleyanın qərarı ilə dövlətlərə müdaxilə olunmasına dair İttifaq hüququnun mövcudluğu;

2) Gender bərabərliyinin təşviq olunması;

3) Demokratik prinsiplərə, insan hüquqlarına, hüquq qaydasına və məqbul idarəetməyə hörmət edilməsi.[1]

Eyni zamanda Təsis Aktının 13.1-ci maddəsinə əsasən, Afrika İttifaqının İcraiyyə Şurası əlilliyi və fiziki qüsuru olan şəxslərlə bağlı siyasəti özündə ehtiva edən sosial təminat daxil olmaqla, üzv-dövlətlərin ümumi maraqlarına dair siyasəti əlaqələndirməli və bu barədə müvafiq qərarlar qəbul etməlidir.[2] Təsis Aktına müəyyən düzəlişləri nəzərdə tutan 2003-cü il Protokolu siyasi, iqtisadi və sosial-mədəni sahələrdə qərarların qəbulu prosesində qadınların iştirakını nəzərdə tutur. Doğrudur, bu beynəlxalq sənəd öz-özlüyündə bir sıra şəxslərin, xüsusilə əlilliyi olan şəxslərin imkanlarını nəzərə almasa da, sonrakı mərhələdə, yəni 2004-cü ildə İqtisadi, Sosial və Mədəni Şura yaradılmışdır. Şuranın əsas məqsədi "İnkişaf və dəyişikliklər prosesində əhalinin iştirakına dair" Afrika Xartiyasında təsbit olunduğu kimi, Afrika İttifaqının həyatında əhalinin iştirakının təşviq olunmasıdır. Məhz bu baxımdan, Şuranın vətəndaş cəmiyyətini təmsil edən bütün qurumlarla, daha dəqiq ifadə etsək, qadınları, uşaqları, gəncləri, yaşlı təbəqəni, əlilliyi olan şəxsləri və xüsusi ehtiyacı olan şəxsləri təmsil edən təsisatlarla qarşılıqlı əməkdaşlığı həyata keçirilir.[3]

1981-ci il tarixli "İnsan və xalqların hüquqlarına dair Afrika

---

[1] Kioko B. The right of intervention under the African Union Constitutive Act: from non-interference to non-intervention // International Review of the Red Cross, 2003, Vol. 85, Issue 852, pp. 807-826

[2] Oyaro L.O. Africa at crossroads: The United Nations Convention on the rights of persons with disabilities // American University International Law Review, 2015, Vol. 30, Issue 2, pp. 347-377

[3] Reenen T.P.V., Combrinck H. The UN Convention on the rights of persons with disabilities in Africa: progress after 5 years // International journal of human rights, 2011, Vol. 8, No 14, pp. 133-165

Xartiyası"na Əlavə "Qadınların hüquqları haqqında" 2003-cü il Protokolunun 23-cü maddəsi də əlilliyi olan qadınların müdafiəsi məsələlərinə həsr olunmuşdur. Belə ki, bununla əlaqədar iştirakçı-dövlətlərin üzərinə müəyyən öhdəliklər qoyulmuşdur:

a) əlilliyi olan qadınların müdafiəsinin təmin olunması, eləcə də məşğulluğa, peşə və peşə hazırlığına, qərarların qəbulunda iştiraka çıxış imkanlarının yüngülləşdirilməsi üçün konkret tədbirlərin görülməsi;

b) əlilliyi olan qadınların, cinsi zəmində sui-istifadə, əlillik əlamətlərinə görə ayrı-seçkilik və ləyaqətli rəftar hüququ daxil olmaqla, zorakılığa məruz qalmamaq hüququnun təmin olunması.

Bundan əlavə, iştirakçı-dövlətlərin Protokolun 25-ci maddəsinə əsasən, zəruri hüquqi və digər vasitələrlə təmin etmək, 26-cı maddəyə uyğun olaraq, milli səviyyədə Protokolu həyata keçirmək öhdəliyi öz əksini tapmışdır.[1]

Həmçinin dövlətlərin 2007-ci il tarixli "Demokratiya, seçkilər və idarəetmə məsələləri üzrə Afrika Xartiyası"nın 8-ci maddəsində təsbit olunmuş əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi ilə bağlı qanunvericilik və inzibati tədbirlər qəbul etmək, 2009-cu il tarixli "Daxili məcburi köçkünlərin müdafiəsi və onlara yardım göstərilməsi haqqında" Kampala Konvensiyasının 9-cu maddəsində ehtiva olunan xüsusi ehtiyacı olan məcburi köçkünlərin, xüsusilə valideynlərindən ayrı düşmüş və ya kimsəsiz uşaqların, yaşlı insanların və əlilliyi olan şəxslərin müdafiəsi və onlara yardım göstərilməsi öhdəlikləri nəzərdə tutulur.

Eyni zamanda 2006-cı il tarixli "Afrika Gənclər Xartiyası"nın 24-cü maddəsinə uyğun olaraq, "əqli və fiziki ehtiyacı olan gənclər"ə xüsusi qayğı göstərilməsi və aşağıdakıların həyata keçirilməsi ilə bağlı iştirakçı-dövlətin üzərinə müəyyən öhdəliklər qoyulmuşdur:

1) Bu kateqoriya gənclərin təhsil, təlim, səhiyyə xidmətləri,

---

[1] Nsibirwa M.S. A Brief Analysis of the Draft Protocol to the African Charter on Human and Peoples' Rights on the Rights of Women // African Human Rights Law Journal, 2001. V. 1, pp. 41-63

məşğulluq, idman, bədən tərbiyəsi və əyləncəli tədbirlərə bərabər və effektiv çıxış imkanlarının təmin olunması;

2) əqli və fiziki qüsurları olan şəxslərin cəmiyyətə tam şəkildə inteqrasiyası üçün mənfi nəticələrə gətirib çıxaran maneələrin ləğvi istiqamətində işlərin aparılması, eləcə də həmin şəxslərin müvafiq infrastruktur və asan daşınmanın həyata keçirilməsinə köməklik göstərən xidmətlərlə təmin edilməsi.[1]

1990-cı il tarixli "Uşaqların hüquqları və rifahı haqqında Afrika Xartiyası" "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası ilə analoji oxşarlıq təşkil etsə də, bu sahədə tədqiqat aparan bəzi müəlliflər əlilliyi olan uşaqların hüquqlarının müdafiəsinin səviyyəsi baxımından bu iki sənəd arasında müəyyən fərqlərin mövcudluğunu önə çəkirlər.[2] Bununla belə, Afrika Xartiyasının 13-cü maddəsinə əsasən, əqli və ya fiziki əlilliyi olan hər bir uşaq onun ləyaqətinin təmin olunduğu, eləcə də özünə inamın və cəmiyyət həyatında aktiv iştirakın təmin edildiyi şəraitdə əqli, yaxud fiziki qüsurlarının qarşısını almaq hüququna malikdir. Eyni zamanda üzv-dövlətlərin üzərinə bu kateqoriya uşaqların qayğısına qalmaq və müraciət olunan yardımla təmin etmək üçün cavabdehlik daşıya biləcək, habelə uşağın şəraiti ilə uyğunluq təşkil edən resurslarla təmin etmək öhdəliyi qoyulur. Xartiyanın tələbinə əsasən, bu resurslar əlilliyi olan uşağın tam sosial inteqrasiya vasitələrinə, fərdi, mədəni və mənəvi inkişafa nail olmasına lazımi qaydada şərait yaradan təlim, məşğulluq üçün hazırlıq və rekreasiya imkanlarına effektiv çıxışını təmin etməlidir.

Əksər regionlarda olduğu kimi, Afrika regionunda da əlillərin hüquqlarının qorunması və müdafiəsi, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, reabilitasiyası və cəmiyyətə inteqrasi-

---

[1] Nilsson A.C. Children and youth in armed conflict. Volume I. Leiden: Martinus Nijhoff Publishers, 2013, 1638 p., pp.1469; Okonkwo U.U. Re-invoking the African youth charter in policy making at the state government level in Nigeria // Journal of Law and Conflict Resolution, 2011, Vol. 3, No 4, pp. 58-62

[2] Combrinck H. The Hidden Ones: Children with Disabilities in Africa and the Right to Education / Children's Rights in Africa: A Legal Perspective. Edited by Sloth-Nielsen J. Aldershot: Ashgate, 2008, pp. 299-322

yası konkret dövrləri əhatə edən müvafiq onillik sənədlərlə tənzimlənir. Belə ki, 1999-cu ilin iyulunda qəbul olunan və 1999-2009-cu illər üzrə icrası nəzərdə tutulan "Əlilliyi olan şəxslərlə bağlı Onillik Afrika Sənədi" "Əlilliyi olan şəxslərlə bağlı Onillik BMT Sənədi"nin tələblərinin, habelə inkişaf etməkdə olan və yenicə demokratiyaya qədəm qoymuş ölkələrin siyasi və sosial-iqtisadi reallıqları nəzərə alınmadan əlillərlə bağlı meydana çıxan problemlərin qlobal həllini nəzərdə tutan BMT layihələrinin regional davamı olaraq formalaşmışdır. Sənədin məqsədi əlilliyi olan şəxslərin cəmiyyətdə tam şəkildə iştirakının, bərabərliyinin və bu kateqoriya şəxslərin hüquqlarının genişləndirilməsinin təmin olunmasıdır. Həmin sənədin icrası ilə əlaqədar 2002-ci ildə "Qitə Fəaliyyət Planı" qəbul edilmiş, 2004-cü ildə isə Cənubi Afrikanın Keyp-Taun şəhərində Afrika Onilliyi üzrə Katiblik yaradılmışdır. Onillik Sənədin növbəti icra müddətinin 2019-cu iləd ək uzadılmasına və yuxarıda qeyd olunan tədbirlərə baxmayaraq, maliyyə ehtiyatlarının çatışmazlığına görə, "Qitə Fəaliyyət Planı"nın icrası çox ləng şəkildə həyata keçirilməkdədir.[1] Bütövlükdə "Əlilliyi olan şəxslərlə bağlı Onillik Afrika Sənədi" vasitəsilə aşağıdakı vəzifələrin iştirakçı-dövlətlər tərəfindən yerinə yetirilməsinin vacibliyi öz əksini tapmışdır:

a) əlilliyi olan şəxslərin tam və bərabər iştirakını təşviq edən milli strategiyaların, proqram və qanunvericilik aktlarının qəbulu və həyata keçirilməsi;

b) sözügedən kateqoriyaya daxil olan şəxslərin iqtisadi və sosial inkişaf prosesində iştirakının həvəsləndirilməsi;

c) bütün dövlət strukturlarında qərarların qəbulu ilə bağlı əlilliyi olan şəxslərin özünü təmsil etməsinin təşviqi;

ç) bu qrupdan olan şəxslər üçün yardım xidmətlərinin genişləndirilməsi;

d) əlilliyi olan uşaqlar, gənclər, qadınlar və yaşlı insanlar

[1] Chalklen S., Swartz L., Watermeyer B. Establishing the Secretariat for the African Decade of Persons with Disabilities / Disability and Social Change. Edited by B.Watermeyer and etc. Cape Town: Human Sciences Research Council Press, 2006, pp. 93-98

üçün xüsusi tədbirlərin görülməsinin daha da intensivləşdirilməsi;

e) reabilitasiya, təhsil, təlim, məşğulluq, idman, habelə mədəni və fiziki mühitlə bağlı imkanların əlilliyi olan şəxslər tərəfindən əldə edilməsinin təmini və bu kimi halların təkmilləşdirilməsi;

ə) insan hüquqlarının tərkib hissəsi kimi əlilliyi olan şəxslərin hüquqlarının qorunması və müdafiəsi;

f) qeyd olunan şəxsləri sıralarında birləşdirən əlil təşkilatlarının inkişafı və gücləndirilməsinin dəstəklənməsi;

g) müvafiq ehtiyat və lazımi resursların səfərbər olunması.[1]

Qeyd olunan sənədin real praktika ilə uzlaşdırılması və qarşılıqlı təhlilin aparılması nəticəsində belə qənaətə gəlmək olar ki, mövcud normaların "Əlilliyi olan şəxslərlə bağlı Onillik Afrika Sənədi"ndə təsbit olunması təqdirəlayiq haldır. Lakin onun realizəsinin tam mənada təmin edilməsi zərurəti son nəticədə onun çatışmazlıqlarını şərtləndirir. Belə ki, digər regionlardan fərqli olaraq, Afrikanın inkişafdan geri qalan və kasıb ölkələrində, bir tərəfdən sosial proqramların həyata keçirilməsi iqtisadi baxımdan qeyri-mümkün olduğu halda, digər tərəfdən bunun üçün lazımi ehtiyat və resursların çatışmazlığı da özünü büruzə verir. Eyni zamanda nəinki əlil və sağlamlıq imkanları məhdud olan, həmçinin tam sağlam vəziyyətdə olan xüsusi sosial qrupların (məsələn, uşaq, qadın və s.) hüquqlarının tapdanması, eləcə də onların müasir dövrdə köləliyin və köləliyə bənzər digər istifadə növlərinin subyekti qismində çıxış etməsi halı geniş vüsət almışdır. Digər tərəfdən, iqtisadi baxımdan fəal əhalinin əksəriyyəti arasında işsizlik və yoxsulluğun səviyyəsinin çox yüksək olduğu bir regionda əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası və cəmiyyətə adaptasiyası, çox şübhəsiz, reallıqdan uzaq olan bir məsələdir. Məhz bu baxımdan, Afrika regionu çərçivəsində əlillə-

[1] Bethsaida N. Defining the disabled person: an analysis of the continental plan of action for the African Decade of persons with disabilities / Advances in research and praxis in special education in Africa, Caribbean and the Middle East. Edited by K.Mutua, C.S.Sunal. Charlotte: Information Age Publishing, 2012, pp. 109-129

rin və sağlamlıq imkanları məhdud olan şəxslərlə bağlı müsbət tədbirlərin həyata keçirilməsi bilavasitə region ölkələrinin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Həmçinin tayfa adətlərinin mühafizəkar şəkildə qorunub saxlanması, məhəlli silahlı münaqişələrin geniş yayılması, habelə dövlət çevrilişi və qiyamların mütəmadi xarakter alması da regional iqtisadi inkişafı ləngidən və bu ərazidə yaşayan fərdlərin insan hüquqlarının pozulmasına təsir edən mühüm mənfi təzahür formalarıdır.

Digər regional qurumlardan fərqli olaraq, 1991-ci ildə yaradılan və keçmiş SSRİ-nin tərkibində olan əksər ölkələri öz sıralarında birləşdirən Müstəqil Dövlətlər Birliyində (MDB) isə əlillərin müdafiəsinin hüquqi əsasları fərqli kontekstdə özünü büruzə verir. Bu özünəməxsusluq MDB-nin səciyyəvi normativ aktlar qismində model qanunların qəbuluna üstünlük verməsi ilə bağlıdır. Lakin adıçəkilən təşkilat çərçivəsində əlillərin hüquqlarına dair qəbul olunmuş beynəlxalq müqavilələrin də əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Həmin beynəlxalq müqavilələr həm bütövlükdə əlillərə və onların statusuna, həm də konkret situasiya nəticəsində (məsələn, II Dünya Müharibəsi zamanı, Çernobıl AES-də baş verən qəzada və s.) meydana gələn əlillik məsələlərinə həsr olunmuşdur. Bu da keçmiş SSRİ-nin vaxtilə II Dünya Müharibəsində *(onu da qeyd etmək lazımdır ki, müvafiq məkanda bu müharibə daha çox "Böyük Vətən Müharibəsi" adı xatırlanır və rəsmi sənədlərdə də bu şəkildə ehtiva olunur)* iştirakı və nəticədə müharibədə iştirak edən üzv-dövlətlərin vətəndaşlarının əlil olmaları ilə bağlıdır. Digər tərəfdən, keçmiş SSRİ ərazisində baş verən qəzalar və həmin qəzalar nəticəsində əksər üzv-dövlətlərin vətəndaşlarının əlilliklə nəticələnən xəsarət alması, bəzi hallarda isə bu pozuntuların onların ailə üzvlərində (xüsusilə, övladlarında) özünü büruzə verməsi ilə əlaqədardır. Məhz bu baxımdan, SSRİ-nin dağıldığı və üzv-ölkələrin müstəqillik qazandığı şəraitdə ümumittifaq səviyyəli hadisələr zamanı əlil olmuş şəxslərin müdafiəsi və onların statusunun qarşılıqlı şəkildə tanınması xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunanları nəzərə alaraq, MDB çərçivəsində əlillərlə bağlı mövcud olan beynəlxalq

sənədləri və normativ aktları aşağıdakı qaydada təsnifləşdirmək olar:

1) Bütövlükdə insan hüquqlarının qorunması və müdafiəsinə yönəlməklə, özündə həm də əlillərin hüquqlarının müdafiəsinə dair normaları ehtiva edən ümumi xarakterli beynəlxalq sənədlər. Buraya 1994-cü il tarixli “Müstəqil Dövlətlərin vətəndaşlarının sosial hüquq və təminatları haqqında” Xartiya, 1995-ci il tarixli “İnsan hüquqları və əsas azadlıqları haqqında” Konvensiyanı aid etmək olar. Həmin sənədlərdə əlillərin hüquqlarının qorunması və müdafiəsi ayrı-ayrı subyektiv imkanların realizəsinin mümkünlüyü kontekstində nəzərdən keçirilir. Belə ki, Xartiyada müvafiq məsələ əlavə məşğulluq təminatı (maddə 3), istisna hallarda iş vaxtından əlavə işlərə, o cümlədən istirahət və bayram günlərində işlərə cəlb etmənin yolverilməzliyi (maddə 8), gecə vaxtı əlillərin işə cəlb edilməsinin qadağan olunması (maddə 9), pulsuz tibbi yardım almaq hüququ (maddə 33) və işəgötürənlərin vəzifələri (maddə 38) kontekstində nəzərdən keçirildiyi halda, Konvensiyada bu hal öz əksini sosial təminat hüququ (maddə 16), əmək qabiliyyətinin bərpası hüququ (maddə 18), texniki və peşə təhsilinin təmini və təşviqinə (maddə 28.1) dair normalarda tapmışdır.[1]

2) Əlillik probleminin aşkar olunması və onun həlli, habelə əlillərin hüquqlarının müdafiəsinə dair qəbul olunmuş beynəlxalq müqavilələr. Nümunə qismində “Əlillik problemlərinin həlli və əlillərə dair əməkdaşlıq haqqında” 1996-cı il Sazişini göstərmək olar. Belə ki, əlilliyin qarşısının alınması və profilaktikası, tibbi-sosial ekspertiza, əlillərin reabilitasiyası, eləcə də bu kateqoriyadan olan şəxslərin digərləri ilə yanaşı, bərabər imkanlardan yararlanması sahəsində əlaqələndirilmiş siyasətin həyata keçirilməsinə yönələn bu Saziş müvafiq problemin həlli ilə bağlı aşağıdakı istiqamətləri müəyyən etmişdir: a) ətraf həyat fəaliyyətinə əlillərin sərbəst daxil olması imkanlarının təmin edilməsinə dair ümumi normativ qaydaların işlənib hazırlanması; b) əlillərin reabilitasiyasının texniki vasitələrinə dair dövlətlərarası standartların işlə-

[1] www.cis.minsk.by/page.php?id=11326

nib hazırlanması; c) elmi-tədqiqat işlərinin yerinə yetirilməsi; ç) əlilliklə bağlı statistikanın təkmilləşdirilməsinin metodoloji əsaslarının, habelə mövcud problemlərə dair dövlətlərin hesabatlarının vahid forma və göstəricilərinin işlənib hazırlanması; d) əlillik problemi və əlillərlə məşğul olan mütəxəssislərin hazırlanması və onların hazırlığının təşkili.[1]

3) Qlobal səviyyədə baş vermiş silahlı münaqişələrdə iştirak nəticəsində və keçmiş SSRİ ərazisində ümumittifaq mənafeyinə toxunan hadisələrin qarşısının alınması zamanı əlil olmuş insanların hüquqlarına dair beynəlxalq sənədlər. Bu kateqoriyaya 1994-cü il tarixli "Böyük Vətən müharibəsi iştirakçıları və əlilləri, digər dövlətlərin ərazisində gedən hərbi əməliyyatlarda iştirak edənlər, həlak olmuş hərbi qulluqçuların ailələri üçün güzəşt və təminatların qarşılıqlı tanınması haqqında" Saziş və ona Əlavə 2015-ci il tarixli Protokol, "Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin güzəştli gediş hüquqlarının qarşılıqlı tanınması haqqında" 1993-cü il Sazişi, "Böyük Vətən müharibəsi iştirakçılarına, müharibə illərində arxa cəbhədə çalışan zəhmətkeşlərə və həlak olmuş döyüşçülərin dul qadınlarına 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi ilə əlaqədar olaraq əlavə güzəştlər və maddi yardım haqqında" 1994-cü il tarixli Sazişi, "Çernobıl və digər radiasiya fəlakəti və qəzaları, habelə nüvə sınaqları nəticəsində radioaktiv şüalanmanın təsirinə məruz qalmış vətəndaşların sosial müdafiəsi və sağlamlığının qorunması haqqında" 1994-cü il Sazişi, 2000-ci ildə imzalanmış "Çernobıl Atom Elektrik Stansiyasının bağlanması ilə əlaqədar Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin başçılarının Birgə Bəyanatı" və digər analoji sənədlər aiddir.

4) MDB-nin spesifik normativ aktı sayılmaqla, üzv-dövlətlərin qanunvericiliyinin harmonizasiyasına yönələn model qanunlar. Əlillərlə bağlı qəbul olunmuş model qanunlara nümunə qismində 26 mart 2002-ci il tarixli "Əhaliyə sosial xidmətin əsasları

[1] www.cis.minsk.by/page.php?id=8198

haqqında Model Qanun", 7 dekabr 2002-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Model Qanun", 18 noyabr 2005-ci il tarixli "Radiasiya qəzaları, nüvə sınaqları və hadisələri nəticəsində radioaktiv şüalanmaya məruz qalan vətəndaşların sosial müdafiəsi haqqında Model Qanun", 25 noyabr 2008-ci il tarixli "Əlillərin sosial müdafiəsi haqqında Model Qanun" və "Paralimpiya idmanı haqqında Model Qanun" və s.-ni göstərmək olar. Bir məsələni də qeyd etmək lazımdır ki, əlillərin hüquqlarının müdafiəsinə dair qəbul olunmuş model qanunlar, bir tərəfdən əlilliklə üzləşən şəxslərin problemlərinin həlli ilə bağlı milli hüquqi bazanın təkmilləşdirilməsi sahəsində MDB-yə üzv-dövlətlərin maraqlarını əks etdirir. Digər tərəfdən həmin sənədlərin təhlili və onların müqayisəli şəkildə araşdırılması MDB çərçivəsində əlillərin hüquqlarının müdafiəsi məsələsi ilə bağlı işlənib hazırlanmış yanaşmaların natamamlığını üzə çıxarır.[1] Bununla yanaşı, əlillərin hüquqlarının qorunması, xüsusilə onların sosial təminatı ilə bağlı MDB-nin üzv-dövlətlərinin qanunvericiliyini təhlil edən və aşağıdakı məsələlərdə müəyyən çatışmazlıqların olduğunu üzə çıxaran bəzi alimlər təşkilatın model qanunlarının əhəmiyyətini qeyd etmişlər:

- Milli ənənələr qorunub saxlanmaqla, dövlətlərin sosial sahədə qanunvericilik aktlarının harmonizasiyası;
- Cəmiyyət həyatına əlillərin həqiqi və tam inteqrasiyası, habelə cəmiyyətin siyasi, sosial, iqtisadi və mədəni inkişafında onların sərbəst və effektiv iştirakı;
- MDB-nin üzv-dövlətlərində sosial sahələrin vəziyyəti və fəaliyyətinə dair məlumatların aşkarlığı;
- Ümumi sosial məkanın formalaşdırılması;
- Müasir metodik və yeni texnologiyalardan istifadə olun-

[1] Яковлева Е.Н. Актуальные проблемы модельного нормотворчества СНГ по вопросам защиты прав инвалидов // Евразийский юридический журнал, 2014, № 11, с. 28-30

ması.[1]

Lakin bir sıra çatışmazlıqları da qeyd etmək yerinə düşərdi. Belə ki, mövcud sənədlərin milli qanunvericilik aktlarının Avropa standartlarına uyğunlaşdırılmasının ən yaxşı vasitələri hesab olunmasına baxmayaraq, reallıqda uyğunsuzluqlar daha çox özünü göstərir. Bu uyğunsuzluq isə daha çox özünü əlillərin müdafiəsinə dair universal beynəlxalq sənədlərin normaları və bu sahədə Avropa standartları ilə müqayisədə büruzə verir. Eyni zamanda model qanunların məqsədi üzv-dövlətlərin milli qanunvericiliyinin yaxınlaşdırılması və harmonizasiyasına yönəlməsinə baxmayaraq, MDB-yə üzv-dövlətlərin qanunvericilik aktları arasında ziddiyyətlər və uyğunsuzluqlar hələ də mövcud olaraq qalır. Belə ki, əlillərin hüquqlarının müdafiəsinə dair universal beynəlxalq sənədlər (xüsusilə, "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyası) əlillərin cəmiyyətə inteqrasiyası və sərbəst daxil olmasına, bir sıra subyektiv imkanların (məsələn, təhsil hüququ, sağlamlığın qorunması hüququ, əmək hüququ, fərdi hərəkət etmək hüququ və s.) realizəsi və müdafiəsi zamanı onların fərdi ehtiyaclarının nəzərə alınmasına, eləcə də maraqlarının təmsil olunduğu qərarların qəbulunda iştirak imkanlarının yaradılmasına daha çox önəm verir. Lakin MDB-nin model qanunları daha çox əlillərin sosial müdafiəsi problemini önə çəkir. Bununla yanaşı, zəif təsir qüvvəsi və qeyri-effektivliyi baxımından, MDB çərçivəsində qəbul olunan model qanunlar digər regional beynəlxalq təşkilatların normativ sənədləri, xüsusilə Avropa İttifaqının reqlament və direktivləri ilə müqayisədə çox geri qalır. Çünki sonuncular Avropa İttifaqı ərazisində üzv-dövlətlərin qanunvericiliyinin unifikasiyası və harmonizasiyası baxımından mühüm əhəmiyyət kəsb edir və praktiki təsiri də hiss olunmaqdadır. Həmçinin Avropa İttifaqının bu sənədləri şəxslərə pozulmuş hüquqlarının bərpası ilə əlaqədar məhkəməyə müraciət zamanı əsas hüquqi bazalardan biri qismin-

---

[1] Гашина Н.Н. Международно-правовое сотрудничество государств в сфере социальной защиты прав инвалидов на постсоветском пространстве: состояние и перспективы // Среднерусский вестник общественных наук, 2014, № 1, с. 164-169

də çıxış edir. Həmçinin əlillərin hüquqlarının müdafiəsi ilə MDB məkanında çatışmayan cəhətlərdən biri də bu təşkilatın qəbul etdiyi beynəlxalq sənədlərlə əlillərə verilən hüquqların yerinə yetirilməsi və realizəsinə dair hər hansı nəzarət mexanizmi, yaxud bu subyektiv imkanlar pozulduğu təqdirdə, onun bərpası üçün müraciət oluna bilən məhkəmə mexanizmi mövcud deyildir.

Əlillərin hüquqlarının qorunması sahəsində digər regional beynəlxalq qurumlar çərçivəsində qəbul olunan sənədlər də mühüm əhəmiyyət kəsb edir. Çünki bütün regional beynəlxalq qurumlar siyasi və ya coğrafi baxımdan formalaşdırılmır, eyni zamanda müxtəlif meyarlar (dil, din, iqtisadi və ya digər maraqlar və s.) əsasında təsis edilir. Məhz bu baxımdan, Ərəb Dövlətləri Liqası çərçivəsində qəbul olunan və formal baxımdan 2003-2014-cü illəri əhatə edən "Əlilliyi olan şəxslərlə bağlı Ərəb Onilliyi"ni göstərmək olar. Sənədin icrası ilə bağlı konkret tarix məhdudiyyətinin göstərilməsinə baxmayaraq, aktın təsir qüvvəsi və onun əsasında həyata keçirilən tədbirlər hələ də davam etməkdədir. Konkret olaraq əsas hədəf sahələrinə (təhsil; sağlamlıq; qanunvericilik; reabilitasiya və məşğulluq; əlil-qadınlar; əlil-uşaqlar; müyəssərlik və nəqliyyat; qloballaşma; yoxsulluq və əlillik; informasiya və məlumatlandırma; rekreasiya və idman) malik olan "Ərəb Onilliyi" əsas diqqəti yoxsulluğun azaldılması, eləcə də bu kontekstdə əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunmasına yönəltmişdir. Məhz bu baxımdan, "Ərəb Onilliyi"nin yerinə yetirilməsi ilə əlaqədar aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1) əlilliyi olan şəxslər arasında işsizlik səviyyəsinin aşağı salınması;

2) yoxsulluğun azaldılmasına dair strategiyalar vasitəsilə yoxsulluğun məhdudlaşdırılması məqsədilə müdaxilə tədbirlərinin görülməsi və əlillərin sayının yoxsulluq səbəbindən artmamasının təmin olunması;

3) tərkibində əlillərin də olduğu aztəminatlı ailələlərə yardım məqsədilə reabilitasiya proqramlarının həyata keçirilməsi,

eləcə də bu əlilliyi olan şəxslərin əqli imkan, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi və təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi;

4) işləmək iqtidarında olan, lakin cari vəziyyət üçün iş tapa bilməyən insanlara maliyyə yardımlarının göstərilməsi və onlara vəsaitlərin verilməsi qaydalarına uyğun olaraq, layiqli həyat səviyyəsinin təmin edilməsi üçün əmək qabiliyyəti olmayan əlillərə müəyyən formada köməklik göstərilməsi.[1]

Onu da qeyd etmək lazımdır ki, "Ərəb Onilliyi"nin Fəaliyyət Planı iki əsas implementasiya və monitorinq mexanizminin yaradılmasını özündə ehtiva etmişdir:

1) İştirakçı-dövlətlərdə milli səviyyədə müvafiq mexanizmlərin yaradılması. Bu mexanizmlərin strukturu əlillərlə bağlı aidiyyəti səlahiyyətli dövlət qurumu, müvafiq qeyri-hökumət təşkilatları və əlil təşkilatlarının nümayəndələrini əhatə edən milli komitənin yaradılması ilə formalaşdırılmışdır. Sözügedən qrup "Ərəb Onilliyi"nin milli səviyyədə yerinə yetirilməsinə nəzarət olunması, habelə Sosial Məsələlər üzrə Ərəb Nazirləri Şurasının Texniki Katibliyinə illik hesabatlar təqdim edir.

2) Ümumi inkişafın qiymətləndirilməsi üçün regional səviyyədə fəaliyyət göstərəcək implementasiya və monitorinq mexanizminin yaradılması. Fəaliyyət Planına uyğun olaraq, regional mexanizm qismində Ərəb Sosial Nazirləri Şurasının Texniki Katibliyi və Əlillər üzrə Ərəb Təşkilatının nümayəndələrini əhatə edən monitorinq komitəsinin yaradılması müəyyən edilmişdir.[2]

Beynəlxalq münasibətlərin getdikcə dərinləşməsi və genişlənməsi, habelə tərəfdaşlıq əlaqələrinin güclənməsi ümumi maraqların və ya üst-üstə düşən mövqelərin hər hansı beynəlxalq qu-

---

[1] Samoocha D., De Koning J., Zaeyen T., De Vet H.C., Bruinvels D.J., Nijhuis F., Van Der Beek A.J. Empowerment of people with a long-term work disability: development of the "VrijBaan" questionnaire // Disability and Rehabilitation, 2011, Vol. 33, Issue 9, pp. 734-742

[2] Flynn E. From rhetoric to action. Implementing the UN Convention on the rights of person with disabilities. Cambridge: Cambridge University Press, 2011, 490 p., pp.91-92

rum çərçivəsində əlaqələndirilməsi zərurətini şərtləndirir. Məhz Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın yaradılması həmin zərurətin təzahür formalarından biri sayılmalıdır. 1997-ci ilin oktaybrında Fransanın Strasburq şəhərində təsis olunan bu beynəlxalq qurum öz sıralarında Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanı birləşdirir. Doğrudur, təşkilatın formalaşması prosesində və ondan sonrakı müəyyən müddət ərzində təşkilatın üzvü olmasına baxmayaraq, Özbəkistan 2002-ci ildə öz iştirakına dair fəaliyyətin dayandırılması, 2005-ci ildə isə müvafiq qurumu tərk etmək barədə qərar qəbul etmişdir. Nizamnaməsinə uyğun olaraq, GUAM-ın əsas məqsədləri qismində bir sıra müddəalar çıxış edir:

- Demokratik dəyərlərin təsdiqi, hüququn aliliyinin təmini və insan hüquqlarına hörmət;
- Davamlı inkişafın təmin olunması;
- Beynəlxalq və regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi;
- Ümumi təhlükəsizlik məkanının yaradılması, eləcə də iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi naminə Avropaya inteqrasiyanın dərinləşdirilməsi;
- Sosial-iqtisadi, nəqliyyat, enerji, elmi-texniki və humanitar potensialın inkişaf etdirilməsi;
- Qarşılıqlı maraq kəsb edən sahələrdə siyasi əlaqələrin və praktiki əməkdaşlığın intensivləşdirilməsi.[1]

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq arenada yüksək mövqe və nüfuza malik olması üçün GUAM-ın dəyərli koordinatların vahid sisteminə əsaslanması zəruridir. Məhz bu baxımdan, demokratiya və iqtisadi inkişafın mövcudluğu daha həllediciidir. Bütün bunlar isə bir tərəfdən demokratik institutların möhkəmləndirilməsi və insan hüquqlarının təmini, digər tərəfdən üzv-dövlətlərdə yaşayan əhalinin yüksək həyat şəraiti və standartları-

[1] Государственная внешнеэкономическая политика Российской Федерации. Учебник. Стандарт третьего поколения. Под общ. ред. А.Г. Авшарова. СПб.: Питер, 2012, 528 с.

nın təmin olunmasının əsasını təşkil edir. Geniş mənada, GUAM-ın yaradılması təşkilata üzv-dövlətlərin vətəndaşlarının həyat standartları və keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı ümid və tələblərə cavab verməlidir. Təşkilatın strategiyası isə üzv-dövlətlərin ümumi potensialından tam istifadə, eləcə də onların rifah halına və sabitliyə nail olunmasına yönəlmiş müvafiq islahat və inkişaf planlarının həyata keçirilməsi üçün regionda lazımi şəraitin yaradılmasıdır.[1]

Bununla yanaşı, təkcə siyasi bəyanat və mövqelərin mövcudluğu GUAM çərçivəsində möhkəm inteqrasiya əsasları üçün kifayət etmir, eyni zamanda iqtisadi əlaqələrin intensivləşdirilməsi və genişləndirilməsi vacibdir. Məhz bu baxımdan, bəzi müəlliflərin fikrincə, qeyd olunan beynəlxalq təşkilat daxilində iqtisadi inteqrasiya üçün bir sıra zəruri addımların atılması məqsədəmüvafiq hal kimi qiymətləndirilə bilər:

- GUAM-ın iqtisadi maraqları və prioritet istiqamətlərinin dəqiq şəkildə müəyyən olunması və onların təhlili;
- Təşkilata üzv-dövlətlər üçün vahid iqtisadi məkanın yaradılması məqsədilə qanunvericilik aktlarının harmonizasiyası;
- Heç bir məhdudiyyət olmadan azad ticarət zonalarının yaradılması və təsdiqi;
- Daxili və xarici iqtisadi siyasətin bir sıra istiqamətlərinin uzlaşdırılması;
- Təşkilat daxilində vahid gömrük ittifaqının formalaşdırılması;
- GUAM-a yeni üzvlərin inteqrasiyası.[2]

Əlillərlə bağlı məsələlərin hüquqi baxımdan tənzimlənməsi-

[1] Чечелашвили В. Организация за Демократию и Экономическое Развитие – ГУАМ: реальность, возможности и перспективы // Журнал «Центральная Азия и Кавказ» (специальный выпуск), 2008, № 3-4, с. 8-15

[2] Молдован А.А. Активизация экономического сотрудничества в рамках ГУАМ как инструмент реализации стратегических интересов стран-членов в регионе / Проблемы и перспективы развития сотрудничества между странами Юго-Восточной Европы в рамках Черноморского экономического сотрудничества и ГУАМ. Сборник научных трудов. Севастополь, 2009, с. 287-290

nə gəldikdə, digər regional qurumlardan fərqli olaraq, GUAM çərçivəsində bununla bağlı xüsusi sənəd qəbul edilməmişdir. Lakin konkret və ya kompleks sahələr üzrə onun strategiyasını müəyyən edən aktlarda bu məsələyə toxunulmuşdur. Belə ki, "Sahəvi əməkdaşlığın inkişafına dair GUAM Strategiyası"nda əlillər də daxil olmaqla, bütün kateqoriya istifadəçilərin ümumi informasiyaya bərabər çıxış imkanlarına dair birgə dövlətlərarası layihələrin işlənib hazırlanması və təmin olunmasına dair müddəa öz əksini tapmışdır.[1]

Bununla belə, GUAM çərçivəsində əlillərin hüquqlarının qorunması ilə bağlı çatışmayan cəhət bu kateqoriya şəxslərin hüquqlarının qorunması və müdafiəsinə dair hər hansı beynəlxalq-hüquqi sənədin olmamasıdır. Çünki üzv-ölkələrin keçmiş SSRİ tərkibində vahid məkanda birləşməsi, istər-istəməz müəyyən dövr üçün (təxminən 70 ilə yaxın mərhələ) onların ümumi tarixi və maraqlarının olması həmin sənədin qəbulu zərurətini şərtləndirir. Eyni zamanda əlilliyin yaranmasına gətirib çıxaran müharibə və silahlı münaqişələrin, habelə texnogen fövqəladə halların (məsələn, II Dünya Müharibəsi, Əfqanıstan müharibəsi, Çernobıl AES-də qəza və s.) mövcudluğu nəticəsində üzv-dövlətlərin vətəndaşlarının zərər çəkməsi əlillərin hüquqlarının qorunması sahəsində beynəlxalq-hüquqi sənədin qəbulunun vacibliyini ön plana çəkir. Həmin sənəddə bu sahədə əməkdaşlığın istiqamət və sahələri, qarşılıqlı fəaliyyət üçün spesifik olan rəhbər başlanğıclar, üzv-dövlətlərdə onların hüquqlarının vahid və bərabər əsaslarla tanınmasını şərtləndirən müddəalar, habelə bu sahədə mövcud olan qanunvericilik aktlarının harmonizasiyası və unifikasiyasının həyata keçirilməsi ilə normaların qeyd olunması gələcəkdə məqbul hal kimi qiymətləndirilməlidir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bir sıra hallarda, xüsusilə texnogen fövqəladə hallarda meydana çıxan əlillik təkcə əlil olmuş şəxsin fiziki və ya bioloji sağlamlığında qüsur və ya maneələrin meydana gəlməsinə səbəb olmur. O, həm də gələcək nəsillərin fiziki sağlamlığına müəyyən

[1] www.guam-organization.org/node/349

mənada təsir göstərir. Nümunə qismində 1986-cı ildə Ukraynada Çernobıl AES-də baş verən partlayış nəticəsində yaranmış radioaktiv şüaların ətraf ərazilərə yayılmasını və həmin partlayış nəticəsində sıradan çıxmış 4-cü enerji blokunun təhlükəsiz vəziyyətə gətirilməsini göstərmək olar. Həmin hadisədən zərər çəkmiş şəxslərlə bağlı mövcud statistik rəqəmlər də bunu deməyə əsas verir. Belə ki, sözügedən qəzanın aradan qaldırılmasının ilk iki ilində 650 min insan xilasetmə işlərinə cəlb edilmişdir ki, onların da 15 mini hadisədən bir neçə il keçdikdən sonra dünyasını dəyişmişdir. Qeyri-rəsmi məlumatlara görə, qəzanın aradan qaldırılmasında iştirak edən təxminən 95-100 min adam məruz qaldığı şüalanma nəticəsində vəfat etmiş, xilasetmə işlərində çalışan təxminən 500-550 min adam isə ağır xəstəliyə tutulmuşdur. Eyni zamanda bu qəzadan faciədən sonra həmin yerdə doğulan uşaqların 90 faizində əlillik yaranmışdır. Bununla yanaşı, həmin ərazidə təhlükəsizlik tədbirlərinin görülməsi üçün keçirilən əməliyyatlarda 130 nəfər, AES-də qəzanın aradan qaldırılmasında isə 8 minə yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. İştirakçı vətəndaşlarımızın, demək olar ki, hamısı radioaktiv şüalanmaya məruz qalmışdır.[1] Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, həmin ərazidə yüksək dərəcəli radiaktiv şüalanmanın mövcudluğu, habelə xilasetmə tədbirlərində iştirak edən şəxslər üçün xarici qamma şüalanması dərəcəsinin yüksək həddə olması baxımından, 1986-cı ilin iyun-oktyabr aylarında təhlükə zonaları təsnifləşdirilmişdir: 1) xüsusi nəzarət zonası (2 mR/saat – 5 mR/saat); 2) I dərəcəli təhlükə zonası (5 mR/saat – 20 mR/saat); 3) II dərəcəli təhlükə zonası (20 mR/saat – 100 mR/saat); 4) AES-in və sənaye sahəsinin daxil olduğu III dərəcəli təhlükə zonası (100 mR/saat və daha çox).[2]

Beləliklə, qeyd olunanları nəzərə alaraq, aşağıdakı nəticələrə gəlmək olar:

1) Ayrıca sosial qrupa mənsub olan və xüsusi ehtiyaclara

---

[1] www.sherg.az/pre.php?id=52934

[2] Поленов Б.В. Защита жизни и здоровья человека в XXI веке. Восемь источников опасности для человечества. М.: ООО «Группа ИДТ», 2008, с.395

malik olan əlillər, onların mövcud olduğu qüsurlardan asılı olmayaraq, bütün hüquqlara və əsas azadlıqlara malikdirlər. Eyni zamanda bu hüquqların həyata keçirilməsi dövlətlərin beynəlxalq hüquq normaları ilə müəyyən olunan öhdəliklərinə riayət etməsindən asılıdır. Yəni əlillərin hüquqları ilə dövlətin vəzifələri bir nöqtədə cəmləşməklə, birincilərin layiqli həyat səviyyəsinin təmin olunması və onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

2) Əlillərin hüquqlarının müdafiəsinə və qorunmasına dair beynəlxalq hüquq normalarından göründüyü kimi, bununla bağlı dövlətlərin öhdəlikləri qanunvericilik, inzibati və xüsusi tədbirlərin görülməsindən ibarətdir. Lakin sadəcə əlillərin hüquqları ilə bağlı dövlətdaxili aktların qəbulu və ya müvafiq beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyası heç də bu hüquqların tam təmin edilməsi və müdafiəsi demək deyildir. Bunun üçün zəruri tədbirlər görülməli, əlillərin vəziyyətinin yaxşılaşdırılması və onların üzləşdiyi problemlərin həlli təcrübədə öz əksini tapmalıdır. Məsələn, əlillərin təhsil, tibbi yardım və digər hüquqlarının müdafiəsi ilə bağlı normanın qəbulu onun realizəsi zamanla daha effektiv və təsirli olur.

3) Dövlətlərin iqtisadi və sosial vəziyyətinin geriliyi əlillərin hüquqlarının qorunması və müdafiəsinin təxirə salınması üçün hüquqi baxımdan əsas sayıla bilməz. Şübhəsiz ki, müəyyən məsələlərdə (müavinətlərin məbləği, təhsil və ya səhiyyə xidmətlərinin səviyyəsinin yuxarı və ya aşağı olması, beynəlxalq əməkdaşlığın inkişaf səviyyəsinin müxtəlifliyi və s.) fərqlər özünü büruzə versə də, hüquqların müdafiəsi və qorunmasından imtina bütövlükdə yolverilməzdir.

4) Əlillərin hüquqları ilə bağlı beynəlxalq standartlara dövlətlər tərəfindən əməl olunmasının gücləndirilməsi məqsədilə vətəndaş cəmiyyəti institutlarının rolu artırılmalıdır. Bu məsələdə isə sahəvi ictimai təşkilatların yaradılması, onların sayının artırılması və fəaliyyətinin aktivləşdirilməsi zəruri amillərdən biridir.

# III FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏCRÜBƏSİNDƏ ƏLİLLƏRİN HÜQUQLARININ REALİZƏSİNİN ƏSAS FORMALARI: QANUNVERİCİLİK NORMALARININ VƏ İNSTİTUSİONAL MEXANİZMLƏRİN FƏALİYYƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

## 3.1. Dövlətdaxili qanunvericilikdə əlillərin hüquqlarının müdafiəsinin əsas aspektləri: kompleks sistemləşdirmə və ümumi qiymətləndirmə

Müstəqillik qazadıqdan və beynəlxalq hüququn tamhüquqlu subyektinə çevrildikdən sonra Azərbaycan Respublikası xüsusi sosial təbəqəni təşkil edən əlillərin hüquqlarının müdafiəsi və qorunması, eləcə də onların sosial təminat və müxtəlif istiqamətlər üzrə cəmiyyətə adaptasiyası, ictimai həyatın ayrı-ayrı sahələrində əlillərin iştirakının təmin olunması və onlar arasında neqativ halların qarşısının alınmasına yönəlmiş çoxsaylı qanunvericilik aktları qəbul etmişdir. Şübhəsiz ki, bu halda, müvafiq beynəlxalq müqavilə normaları və aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş tövsiyələr də nəzərə alınmış, habelə həmin normaların dövlətdaxili qanunvericiliyə implementasiyası həyata keçirilmişdir.

Əlillərin hüquqlarının qorunması ilə bağlı Azərbaycan Respublikasının dövlətdaxili qanunvericilik aktlarını bütövlükdə qiymətləndirərkən onları iki əsas qrupa bölmək olar:

1) əlillərlə bağlı ümumi müddəaları müəyyən edən, əlilliyi doğuran səbəblərin aradan qaldırılması və əlillərin reabilitasiyası ilə bağlı ümumi müddəaları nəzərdə tutan sahəvi qanunvericilik aktları.

2) ölkə ərazisində meydana çıxan müxtəlif ictimai münasibətləri nizama salmaqla yanaşı, əlillərin də hüquqlarının müdafiəsinə toxunan qanunvericilik aktları.

Birinci qrupa daxil olan qanunvericilik aktlarını təhlil edərkən, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasını

qeyd etmək yerinə düşərdi. Şübhəsiz ki, Konstitusiya bütün sahələr üçün ümumi və rəhbər müddəa rolunu oynamaqla, sahəvi qanunvericilik aktlarının qəbulu və müvafiq münasibətlərin tənzimlənməsində ilkin hüquqi əsası müəyyən edir. Əlillərin hüquqlarının müdafiəsinə dair normaların təsbit olunmasına gəldikdə isə Azərbaycan Konstitusiyasının yalnız 38-ci maddəsində ehtiva olunan əlilliyə görə sosial təminat hüququnun təmin edilməsinə dair müddəanı göstərmək olar.[1] Həmin müddəalar əlilliyi olan şəxslərin dövlət tərəfindən müdafiəsi, onların sosial təminatı, müavinət və digər vasitələrlə təminatı üçün əsas hüquqi baza rolunu oynayır.[2] Bundan əlavə, 26 noyabr 2016-cı il tarixdə keçirilən referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə "*Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar"* müddəasının əlavə olunması onlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi və cəmiyyətin digər üzvləri ilə bərabərliyin təmin olunması istiqamətində atılmış mühüm addım sayılmalıdır.

Əlillərin hüquqlarının təmin olunması, müdafiəsi və realizəsi ilə bağlı sahəvi qanunvericilik aktı qismində isə 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun çıxış edir.[3] Bununla belə, Qanunun adından da göründüyü kimi, bu təkcə əlilləri deyil, həm də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların sosial adaptasiyası və onların hüquqlarının təmin edilməsinə yönəlmişdir. Bu, bir tərəfdən əhalinin həssas kateqoriyalarından sayılan əlil-uşaqların hüquqlarının beynəlxalq hüquq normalarının tələbləri və öhdəlikləri nəzərə alınmaqla

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun" nəşriyyatı, 2009, 68 s., s.15

[2] Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2010, s.183-187

[3] www.e-qanun.az/framework/7652

təmin olunması, digər tərəfdən 18 yaşına çatmayan şəxslərin səciyyəvi və fərqli psixoloji, fiziki, mənəvi və intellektual imkanlara malik olması ilə xarakterizə oluna bilər.

Bütövlükdə götürdükdə isə "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun həmin şəxslərlə bağlı müxtəlif müddəaları özündə əks etdirir ki, bütün bunları da aşağıdakı qaydada təsnifləşdirmək olar:

- Əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşına çatmayan şəxslərin hüquqi statusunun müəyyənləşdirilməsi, onların reabilitasiyası və cəmiyyətə adaptasiyası ilə bağlı ümumi məsələləri (məsələn, tibbi-sosial ekspertizanın həyata keçirilməsi; psixoloji-tibbi-pedaqoji komissiya; əlilliklə və uşaqların sağlamlıq imkanları məhdudluğu ilə bağlı tələbatın müəyyənləşdirilməsi; şəxsin əlil və 18 yaşınadək sağlamlıq imkanları məhdud olan sayılması; əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə dair dövlət siyasətinin həyata keçirilməsində müəssisələrin, idarələrin və təşkilatların iştirakı və s.) nəzərdə tutan normalar. Bir məsələni də qeyd etmək lazımdır ki, həmin kateqoriya şəxslərin reabilitasiyasının üç forması – tibbi reabilitasiya, peşə-əmək reabilitasiyası və sosial reabilitasiya qanunvericilikdə ayrı-ayrılıqda nəzərdən keçirilmişdir.
- Əlilliyin, uşaqların sağlamlıq imkanlarının məhdudluğunun qarşısının alınması, eləcə də əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasına dair normalar (məsələn, müvafiq sferada dövlət siyasətinin və dövlət proqramlarının müəyyənləşdirilməsi; sağlam həyat tərzinin təbliği; işçilərin təhlükəsiz əmək şəraiti ilə təmin olunması; uşaqlar arasında sağlamlıq imkanları məhdudluğunun profilaktikası və s.);
- Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların tərbiyəsi, təhsili və peşə hazırlığı ilə bağlı müddəalar (məsələn, məktəbəqədər yaşlı sağlamlıq imkanları məhdud uşaqların təlim və tərbiyəsi; məktəb yaşlı sağlamlıq imkanları məhdud uşaqların evdə təhsili; sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar

təhsili; stasionar müəssisələrdə sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyəsi və s.);

• Əlillərin işə düzəldilməsi ilə bağlı münasibətləri tənzimləyən müddəalar (məsələn, işəgötürənlərin əmək qabiliyyətini itirmiş şəxsləri işə düzəltmək vəzifəsi; həmin şəxslərin əməyindən istifadə üçün ixtisaslaşdırılmış iş yerləri yaradılmasına qoyulan tələblər; müvafiq əməyi tətbiq edən müəssisələr üçün üstünlüklər və güzəştlər; işçilərin əmək şəraiti və s.);

• Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların maneəsiz olaraq sosial infrastrukturdan istifadə imkanlarının təmin olunmasına yönəlmiş şəraitin yaradılmasını nəzərdə tutan normalar (məsələn, sosial infrastruktur obyektlərinin layihələşdirilməsi və tikintisi zamanı əlillərin və sağlamlıq imkanları məhdud uşaqların tələbatının nəzərə alınması; istifadədə olan sosial infrastruktur obyektlərinin əlillərin və sağlamlıq imkanları məhdud uşaqların istifadəsi üçün uyğunlaşdırılması; yaşayış binalarının əlillərin, sağlamlıq imkanları məhdud uşaqların müyəssər olması və istifadə etməsi üçün uyğunlaşdırılması və s.);

• Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların maddi, sosial-məişət və tibbi təminatı ilə bağlı müddəalar (məsələn, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara sosial yardımın növləri; sosial yardımın növünün müəyyən edilməsi; əlilə, sağlamlıq imkanları məhdud uşağa texniki və digər reabilitasiya vasitəsi verilməsi; əlillərə, sağlamlıq imkanları məhdud uşaqların ailələrinə mənzil-məişət xidməti və s.);

• Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına dair münasibətləri nizama salan normalar (məsələn, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarının yaradılması; dövlət və əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları; əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarının iqtisadi fəaliyyəti üçün şərait yaradılması və s.).[1]

Qeyd olunanlarla yanaşı, əlillərin hüquqlarının qorunması,

[1] www.e-qanun.az/framework/7652

müdafiəsi və realizəsində digər qanunvericilik aktları da mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan, yuxarıda aparılan təsnifatın ikinci bəndi, yəni ölkə ərazisində meydana çıxan müxtəlif ictimai münasibətlərin nizama salınması kontekstində, eyni zamanda əlillərin hüquqlarının müdafiəsinə də toxunan qanunvericilik aktları isə çoxsahəli və çoxşaxəli olduğundan, onların müəyyən meyarlar əsasında təsnifləşdirilməsini məqsədəmüvafiq hesab etmək olar:

**1) Sosial siyasət və sosial təminat, habelə onların ayrı-ayrı komponentlərinin həyata keçirilməsi ilə bağlı müxtəlif münasibətlərin nizama salınması kontekstində əlillərin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş qanunvericilik aktları.** Məsələn, "Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli Qanun, "Sosial müavinətlər haqqında" 7 fevral 2006-cı il tarixli Qanun, 18 fevral 1997-ci il tarixli "Sosial sığorta haqqında" Qanun, "Ünvanlı dövlət sosial yardımı haqqında" 21 oktyabr 2005-ci il tarixli Qanun, 22 iyun 1999-cu il tarixli "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanun, "İcbari sığortalar haqqında" 24 iyun 2011-ci il tarixli Qanun, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" 11 may 2010-cu il tarixli Qanun, 25 dekabr 2007-ci il tarixli "Sığorta fəaliyyəti haqqında" Qanun, 31 may 2007-ci il tarixli "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" 31 may 2007-ci il Qanunu, "Yaşayış minimumu haqqında" 5 oktyabr 2004-cü il tarixli Qanun, "Veteranlar haqqında" 28 iyun 1994-cü il Qanunu, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" 3 sentyabr 1993-cü il tarixli Qanun və s.

Qeyd olunan qanunvericilik aktlarının hər biri ayrı-ayrılıqda əlillərin hüquqi statusu ilə bağlı səciyyəvi və sahəvi müddəaları özündə ifadə edir. Belə ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" 21 oktyabr 2005-ci il tarixli Qanununun 9-cu maddəsinə əsasən, ünvanlı sosial yardımın təyin olunması zamanı yardımın

verilməsi üçün ailə tərkibində nəzərə alınmayan şəxslər sırasına, həmçinin tam dövlət təminatında olan şəxslər də aid edilir. Məhz bu baxımdan, müvafiq qanunvericilik aktının tələbinə uyğun olaraq, əlillər də tam dövlət təminatında olan şəxslər kateqoriyasına daxildir.[1]

"Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli Qanunun 7-ci maddəsinə uyğun olaraq, əlillik şəxsin çətin həyat şəraitində hesab edilməsinin əsaslarından biri qismində çıxış edir. Bununla yanaşı, sözügedən qanunvericilik aktında öz əksini tapan digər bir sıra müddəalar (məsələn, evdə (səyyar) sosial xidmət (maddə 19), yarımstasionar - (günərzi) sosial xidmət (maddə 20) və s.) bilavasitə əlillərin hüquqi statusu və sosial vəziyyəti ilə bağlı məsələlərə toxunur.

22 iyun 1999-cu il tarixli "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 1-ci maddəsi isə bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşınadək şəxslərin də valideyn himayəsindən məhrum olmuş uşaqlar kateqoriyasına aid edilməsini nəzərdə tutur.

Bütün bunların davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 4 may 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Bilgəh Müharibə və Əmək Əlilləri üçün Pansionatın (Qocalar evi) əsaslı təmiri və yeni korpusun tikintisi, eləcə də gözdən əlillər üçün tədris bərpa mərkəzinin tikintisinə dair müddəalar nəzərdə tutulmuşdur. Dövlət Başçısının 17 yanvar 2014-cü il Sərəncamı ilə təsdiq olunmuş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda isə Mərdəkan qəsəbəsində yerləşən Əlillər üçün Müalicə Pansionatının yenidən qurulması, Şağan qəsəbəsindəki Müharibə Əlilləri üçün Müalicə Pansionatının əsaslı təmiri, eləcə də Zabrat qəsəbəsi, Vidadi küçəsi 1 ünvanda Gözdən Əlillər Cəmiyyətinə məxsus ya-

[1] www.mlspp.gov.az/az/pages/4/24/information/75

rımçıq binanın uçmaq təhlükəsi olan konstruksiyalarının sökülməsi kimi məsələlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.[1]

Ölkəmizin davamlı inkişaf konsepsiyasına inteqrasiyası və bu konsepsiyadan irəli gələn çoxsaylı vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayan[2] dövlətdaxili normativ hüquqi akt – Dövlət Başçısının 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı Dövlət Proqramı”nda isə əlillərin hüquqlarının təmin olunması və müdafiəsi, əsas etibarilə, iki aspektdən nəzərdən keçirilir: a) kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması kontekstində yaşlıların təhsil sisteminin təkmilləşdirilməsi (yaşlı əlillərin cəmiyyətə inteqrasiyasına yol açan təhsilin həyata keçirilməsi); b) sosial müdafiə kontekstində (əlillərin yeni yaşayış yerləri ilə təmin olunması; münasib həyat və fəaliyyət şəraitinin yaradılması məqsədilə məişətdə, nəqliyyatda və ictimai yerlərdə zəruri avadanlıqların quraşdırılması).[3]

Elmi-nəzəri baxımdan yanaşdıqda isə sosial siyasət – əlillərin, təqaüdçülərin, çoxuşaqlı və kasıb ailələrin, valideyn himayəsindən məhrum olmuş uşaqların və digər bu kateqoriya şəxslərin məşğulluğu, həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsi, habelə vətəndaşların sosial təminat, sığorta və sosial xidmət sahəsində həyata keçirilən siyasət kimi xarakterizə olunur. Bu həm də təhsil, səhiyyə, elm və mədəniyyət, ailə, uşaq və gənclərin dəstəklənməsi sahəsində humanist və ədalətli sayılan siyasi xətdir.[4]

**2) Məşğulluq və işədüzəlmə, eləcə də peşə və əmək fəaliyyətinin müxtəlif aspektlərini tənzimləməklə əlillərin də müvafiq istiqamətlər üzrə hüquqlarının qorunmasına toxunan**

---

[1] www.senaye.gov.az/az/normative_programs/baku_development

[2] Əlizadə A.A. Davamlı inkişaf və ekoloji sivilizasiyanın əsasları // “Azərbaycan” qəzeti, 9 yanvar 2014, № 2, s. 5.

[3] www.minenergy.gov.az/db/law_307974773_7329.pdf

[4] Соловьева О.В. Социальная адаптация детей-сирот к рыночным условиям современного российского общества. Автореферат дисс. на соиск. учен. степ. кандидата социологических наук. Саратов, 2007, с.12

**qanunvericilik aktları.** Məsələn, 21 iyul 2000-ci il tarixli “Dövlət qulluğu haqqında” Qanun, “Məşğulluq haqqında” 2 iyul 2001-ci il tarixli Qanun, “Əmək pensiyaları haqqında” 7 fevral 2006-cı il tarixli Qanun, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında” 22 iyun 2001-ci il tarixli Qanun, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq olunması haqqında” 4 dekabr 2009-cu il tarixli Qanun, 26 may 2006-cı il tarixli “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanun, “Konstitusiya Məhkəməsi haqqında” 23 dekabr 2003-cü il tarixli Qanun, “İcra haqqında” 27 dekabr 2001-ci il Qanun, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” 29 iyun 2001-ci il tarixli Qanun, “Notariat haqqında” 26 noyabr 1999-cu il tarixli Qanun, “Məhkəmələr və hakimlər haqqında” 10 iyun 1997-ci il tarixli Qanun, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” 22 iyun 2010-cu il tarixli Qanun və s.

“Dövlət qulluğu haqqında” 21 iyul 2000-ci il tarixli Qanunda nəzərdə tutulan dövlət qullluqçusunun əsas hüquqları (maddə 19) və dövlət qulluqçularının pensiya təminatına (maddə 23) dair normalarla bağlı məsələlərdə əlillərlə bağlı müddəalar da öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” da əlillərin hüquqlarının qorunması və müdafiəsi, habelə həmin kateqoriyaya mənsub şəxslərin peşə məşğuliyyətinin inkişaf etdirilməsi və onların cəmiyyətə adaptasiyası kontekstində sosial vəziyyətlərinin yaxşılaşdırılmasını nəzərdə tutur. Məhz buna görə də, sözügedən normativ-hüquqi aktın işçi qüvvəsinə tələbatın stimullaşdırılması və insan kapitalının inkişaf etdirilməsi sahəsində vəzifələrindən biri qismində məhz əlillərin cəmiyyətə, o cümlədən əmək bazarına inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması çıxış edir. Bundan əlavə, Dövlət Proqramının həyata keçirilməsi isə əlaqədar nəzərdə tutulan Tədbirlər Planına əsasən, əlillərin və sağlamlıq imkanları məhdud olan şəxslərin məşğullu-

ğunun inkişaf etdirilməsi ilə bağlı aşağıdakı müddəalar öz əksini tapmışdır:

a) əlillərin müvafiq iş yerləri ilə təmin edilməsi məqsədi ilə boş iş yerləri (vakansiyalar) haqqında vahid informasiya bazasının təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;

b) əlillərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi;

c) əlillər üçün xüsusiləşdirilmiş modul tipli peşə təlimi proqramlarının hazırlanması və həyata keçirilməsi;

d) əlillərin sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədi ilə güzəştli kreditlərin verilməsinin dəstəklənməsi;

e) əlillərin məşğulluğunun təmin edilməsi işinin gücləndirilməsi məqsədi ilə regionlarda əlillər üçün münasib ixtisaslaşdırılmış istehsal sahələrinin yaradılmasının dəstəklənməsi;

f) əlillərin səmərəli məşğulluğunun təmin edilməsi məqsədi ilə psixoloji və peşəyönümlü testlərin hazırlanması.[1]

**3) Uşaq hüquqlarının qorunması kontekstində əlil-uşaqların qayğı ilə əhatə olunması və onların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə dəyərləndirilməsinə yönəlmiş qanunvericilik aktları.** Məsələn, 19 may 1998-ci il tarixli “Uşaq hüquqları haqqında” Qanun, Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)”, Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı” və s.

“Uşaq hüquqları haqqında” Qanunun 25-ci maddəsinə əsasən, dövlət və bələdiyyə bədən tərbiyəsi-idman təşkilatlarında digər kateqoriya olan uşaqlarla (aztəminatlı ailələrdən olan uşaqlar; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş

---

[1] www.ses.gov.az/az/menu-69.html

uşaqlar; məktəbəqədər yaşlı uşaqlar) yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara bədən tərbiyəsi-idman xidmətlərinin pulsuz göstərilməsinə dair müddəalar öz əksini tapmışdır. Bundan əlavə, Qanunun 35-ci maddəsi bilavasitə sağlamlıq imkanları məhdud uşaqların müdafiəsi ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinə yönəlmişdir ki, bu da həmin uşaqların növbədənkənar və müəyyən olunmuş qaydada tibbi, defektoloji və psixoloji yardım almaq hüququnun təmin olunmasını, eləcə də dövlət tərəfindən bu kateqoriyaya mənsub uşaqların sosial və psixoloji reabilitasiyasına, imkanlarına uyğun təhsil almalarına, peşə seçmələrinə, əməyə cəlb olunmalarına köməklik göstərilməsi, o cümlədən uşaqların sağlamlıq imkanlarının məhdudluğunun qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsini nəzərdə tutur. Sözügedən qanunvericilik aktı həm də sağlamlıq imkanları məhdud uşağa qulluq edən şəxslərə verilən güzəştlərlə bağlı müddəaları (maddə 36) da özündə ehtiva edir.

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın əsas məqsədi "Uşaq hüquqları haqqında" BMT Konvensiyasında təsbit olunmuş uşağın şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxtlik, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyi nəzərə alınaraq, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsinin təmin edilməsidir.

Onu da qeyd etmək lazımdır ki, Dövlət Proqramının tənzimetmə predmeti sayılan de-institusionalizasiyanın əhatə etdiyi dövlət uşaq müəssisələrinə, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbləri və sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər də aid edilir. Bundan əlavə, Dövlət Proqramında sağlamlıq imkanları məhdud olan uşaqlarla bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə dair aşa-

ğıdakı müddəalar nəzərdə tutulmuşdur:

a) sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli təlim-tərbiyə müəssisələrinin bir hissəsinin reabilitasiya mərkəzlərinə çevrilməsi;

b) ailələrə verilmiş sağlamlıq imkanları məhdud uşaqların müəyyən hissəsinin ümumtəhsil məktəblərinə inteqrasiyası və bu məktəblərdə onların sağlam uşaqlarla birgə təhsilinin təşkili üçün tədbirlərin görülməsi;

c) ailələrə verilmiş sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması, onların səhiyyə və reabilitasiya xidmətləri ilə təmin edilməsi;

ç) sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazasının yaradılması və ailələrə verilmiş bu kateqoriyadan uşaqların vəziyyətinin monitorinqinin aparılması.[1]

Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"na əsasən, xəstəliklərin və əlillik hallarının əksəriyyətinin təməlinin uşaq yaşında qoyulduğunu nəzərə alaraq, uşaqlar arasında xəstəliklərin vaxtında aşkar edilməsi məqsədi ilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti vurğulanmışdır.

Onu da qeyd etmək lazımdır ki, əlil-uşaqların cəmiyyətə reabilitasiyası və onların cəmiyyətə adaptasiyası, habelə qarşılıqlı inteqrasiyanın həyata keçirilməsində bu kateqoriya uşaqların rolunun qiymətləndirilməsi elmi-nəzəri araşdırmalarda müzakirə obyekti olaraq qalmaqdadır. Belə ki, bu sahədə ailənin rifahını önə çəkən və onun vacibliyini vurğulayan bəzi müəlliflər ailə rifahının təmin olunmasını bir sıra amillərlə (hüquqi, sosial-iqtisadi, psixoloji, dini-mənəvi və əxlaqi-mənəvi) əlaqələndirdiyi[2] hal-

---

[1] www.edu.gov.az/az/page/83/1377

[2] Шохина Е.А. Политические аспекты социальной защиты семьи и охраны детства в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. канд. полит. наук. М., 2009, с.16

da, digər kateqoriya alimlər isə əlil-uşaqların ailələrə adaptasiyası imkanlarını müəyyən edən üç amilin mövcudluğunu xüsusilə qeyd edirlər:

- sosial-demoqrafik amillər;
- valideynlərin uyğunlaşması potensialı;
- əlil-uşaqların yaşı və reabilitasiya potensialı.[1]

Ümumilikdə götürdükdə isə sosial inteqrasiyaya iki əsas yanaşma mövcuddur. Birinci yanaşma əlil-uşaqların adi cəmiyyətə uyğunlaşması və onların adaptasiyasını şərtləndirir. Sözügedən yanaşmanın birtərəfliliyi və məhdudiyyəti qəbul etmədiyini nəzərə alaraq, bu halda şəxsiyyətin inteqrasiya prosesinin ikitərəfli kontekstdə aparılması zəruridir. Digər tərəfdən, əlil-uşaqlar bu prosesdə təkcə inteqrasiyanın obyekti hesab edilmirlər, həm də onun məcburi subyektinə və fəal iştirakçısına çevrilirlər. Sosial-pedaqoji reabilitasiya zamanı əlil-uşaqların sosial adaptasiyası onların sosial mühitlə qarşılıqlı uyğunlaşması və qarşılıqlı qəbulunun aktiv yaradıcı prosesi sayılır. İkinci yanaşma isə həm uşağın cəmiyyətə adaptasiyası, həm də cəmiyyətin bu uşaqların qəbuluna hazır olmasını şərtləndirir. Lakin qeyd olunan məsələ ilə bağlı ciddi çatışmazlıq ondan ibarətdir ki, əksər hallarda cəmiyyət həmin uşaqları qeyri-mükəmməl, lazımi insani keyfiyyətlərə malik olmayan tərzdə və alçaldıcı mənada qəbul edir. Bu da öz növbəsində ciddi mənfi tendensiyaların və nəticələrin yaranmasına gətirib çıxarır. Məhz bu baxımdan, ikinci yanaşmanın müəyyən çatışmazlıqlarını qeyd edən bəzi müəlliflərin fikrincə, sosial mühit tərəfindən əlil-uşaqlara adekvat münasibətin formalaşdırılmasına, ailə və cəmiyyətin qarşılıqlı əlaqəsi vasitəsilə əlil-uşaqların sosial funksiyaları yerinə yetirməsinə hazırlanmasına, habelə sosial mühitin münasibəti və ictimai fikirlərin dəyişdirilməsinə dair məqsədyönlü sosial-pedaqoji əsərlərin yaradılması zəruridir. Bundan əlavə, sosial tərəfdaşlıq naminə əlil-uşaqların problemlə-

[1] Кулагина Е.В. Адаптация семей с детьми-инвалидами к современным экономическим условиям. Автореф. дисс. на соиск. учен. степ. канд. экон. наук. М., 2004, с.12-13

rinin həllinə ailə, cəmiyyət, idarələrarası və dövlət strukturlarının cəlb olunmasının vacibliyi qeyd olunur.[1]

**4) Elm, təhsil və mədəniyyət sahəsində münasibətlərin tənzimlənməsi kontekstində əlillərin bu sahədə cəmiyyətə adaptasiyasının təmin olunmasına dair normaları ehtiva edən qanunvericilik aktları.** Məsələn, 5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanun, 21 dekabr 2012-ci il tarixli "Mədəniyyət haqqında" Qanun, Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" və s.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili sahəsində yaranan münasibətləri tənzimləyən, habelə xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edən "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" 5 iyun 2001-ci il tarixli Qanununun 3-cü maddəsinə əsasən, xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət vərdişinin formalaşdırılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir. 21 dekabr 2012-ci il tarixli "Mədəniyyət haqqında" Qanunun 14.2.4-cü maddəsinə uyğun olaraq, əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların qanunvericiliklə nəzərdə tutulan qaydada mədəni sərvətlərdən güzəştli istifadəsi dövlət tərəfindən təmin edilir.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standart-

---

[1] Аргунова Т.П. Интеграция детей-инвалидов в социум посредством социально-педагогической реабилитации. Автореф. дисс. на соиск. учен. степ. канд. педаг. наук. Якутск, 2009, с.10

lara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair Xüsusi Tədbirlər Planı"nda əlillər üçün sosial xidmətlərin təşkili və geniş sosial proqramlarda onların iştirakının təmin edilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda isə gözdən əlil olan şəxslərin bu sahədə vərdişlərinin təkmilləşdirilməsi və bununla da onların cəmiyyətə inteqrasiyasının hüquqi əsasları müəyyən edilməklə yanaşı, həm də bu sahədə həyata keçirilməsi zəruri olan tədbirlər siyahısı da nəzərdə tutulmuşdur: a) gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədi ilə kitabxana fondlarının xüsusi nəşrlərlə komplektləşdirilməsi; b) gözdən əlil insanların intellektual səviyyəsinin yüksəldilməsi məqsədi ilə respublika əhəmiyyətli və mərkəzi kitabxanaların nəzdində fəaliyyət göstərən informasiya mərkəzlərində xüsusi proqramlı kompüterlərin quraşdırılması; c) gözdən əlillərin informasiya təminatını yaxşılaşdırmaq məqsədi ilə xüsusi proqramların hazırlanması; ç) gözdən əlillər üçün Respublika Kitabxanasının müasir avadanlıqla təchiz edilməsi.[1] Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nda nəşriyyat-poliqrafiya işinin inkişaf etdirilməsi kontekstində gözdən əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün ədəbi-bədii, elmi və tədris kitablarının nəşrinin dəstəklənməsinin vacibliyi öz əksini tapmışdır.

Bu sahədə əlillərin qarşılaşdıqları problemləri araşdıran bir sıra müəlliflərin fikrincə, müəyyən hallarda əlilliyi olan şəxslər ümumi tarixi damğalama, ayrı-seçkiliyə və təcridetmə siyasətinə məruz qalma kimi hallarla üzləşirlər. Bu isə nəticə etibarilə, əlillərin tez-tez insan hüquqları və əsas azadlıqlarından, xüsusilə, təhsil hüququ, əmək hüququ, yaşayış minimumu, yaşadığı icmada

---

[1] www.anl.az/el/emb/MK-90/senedler/2008_7_oktyabr_proqram.pdf

tam şəkildə iştirak hüququndan məhrum olma kimi məsələləri şərtləndirir. Bununla əlaqədar, qabaqlayıcı, müdafiə və təşviqat vasitəsi qismində çıxış edən qanunvericilik, siyasət və proqramlaşdırma əlilliyi olan şəxslərlə bağlı meydana çıxan xüsusi zərərli təzahür formaları, o cümlədən evdə, ailədə, məktəbdə, sosial xidmət müəssisələrində və qaçqın düşərgələrində özünü büruzə verən onun müxtəlif növlərinə qarşı yönəlməlidir.[1]

**5) Nəqliyyat və rabitə sahəsində vətəndaşların yüksək keyfiyyətli xidmətlərlə təmin olunması kontekstində onların müvafiq hüquqlarının müdafiəsi, eləcə də bu istiqamətdə dövlət siyasətinin həyata keçirilməsinə əsaslanmaqla, əlillərlə bağlı müddəaları da özündə birləşdirən qanunvericilik aktları.** Məsələn, 22 dekabr 1999-cu il tarixli "Avtomobil yolları haqqında" Qanun, "Yol hərəkəti haqqında" 3 iyul 1998-ci il tarixli Qanun və s.

**6) Bədən tərbiyəsi və idmanın inkişafı, habelə bununla əlaqədar meydana çıxan münasibətlərin tənzimlənməsinə yönəlmiş münasibətlərin nizama salınması kontekstində əlillərin bədən tərbiyəsi və idman imkanlarının təşviq olunması ilə bağlı müddəaları özündə birləşdirən qanunvericilik aktları.** Məsələn, "Atçılıq haqqında" 27 fevral 2007-ci il tarixli Qanun, 30 iyun 2009-cu il tarixli "Bədən tərbiyəsi və idman haqqında" Qanun və s.

Hətta "Bədən tərbiyəsi və idman haqqında" Qanunun 22-ci maddəsi birbaşa olaraq sağlamlıq imkanları məhdud uşaqların və əlillərin adaptiv bədən tərbiyəsi, eləcə də fiziki reabilitasiyası ilə bağlı münasibətlərin tənzimlənməsinə yönəlmişdir. Belə ki, sözügedən müddəaya uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqlar və əlillər arasında bədən tərbiyəsi və idmanın inkişafı son nəticədə onların reabilitasiyasına xidmət edir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, təhlil olunan statusa malik şəxslər üçün idmanın inkişafı spesifik rəhbər başlanğıclara əsaslanır: 1)

[1] Lord J.E, Ashley M.S. Prospects and practices for CRPD implementation in Africa // African Disability Rights Yearbook, 2013, Vol. 1, pp. 97-114

idmanla məşğul olmanın üstünlüyü; 2) idmanın yayılmasının kütləviliyi; 3) idmanın müəssərliyi.[1]

Bundan əlavə, bu kateqoriya şəxslərin adaptiv bədən tərbiyəsi və fiziki reabilitasiyası ilə bağlı digər müddəalar təsbit edilmişdir: a) sözügedən sosial qrupa mənsub olan şəxslərin bədən tərbiyəsi və idmanla məşğul ola bilmələri üçün şərait yaradılması, bununla bağlı xüsusi avadanlıq və ləvazimatların alınmasına köməklik göstərilməsi, habelə onların bədən tərbiyəsi və idman sisteminə inteqrasiyasının dəstəklənməsi; b) müvafiq məsələ ilə bağlı xüsusi kadr hazırlığının, elmi-metodiki və tibbi təminatın, o cümlədən həkim nəzarətinin həyata keçirilməsi; c) fiziki reabilitasiya və sosial adaptasiya məsələlərinin reabilitasiya mərkəzlərində, əlillərin bədən tərbiyəsi-idman klublarında, eləcə də digər bədən tərbiyəsi-idman təşkilatlarında yerinə yetirilməsi; ç) müvafiq təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlar və əlillər üçün onların fərdi qabiliyyətləri və sağlamlıqlarının vəziyyəti nəzərə alınmaqla, adaptiv bədən tərbiyəsi və adaptiv idman vasitələrindən istifadə etməklə xüsusi dərslərin təşkili; d) bu kateqoriya şəxslərin iştirakı ilə aidiyyəti dövlət və yerli özünüidarəetmə qurumları, həmçinin bədən tərbiyəsi-idman təşkilatları tərəfindən bədən tərbiyəsi-idman və bədən tərbiyəsi-sağlamlıq tədbirlərinin keçirilməsinin təşkili; e) uşaq-gənclər idman-adaptiv məktəbləri, uşaq-gənclər adaptiv fiziki hazırlıq klublarının yaradılması və bununla bağlı müəyyən cəhdlərin həyata keçirilməsi; ə) Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri, onların yerli şöbələri, idman klublarının yerləşdikləri dövlət mülkiyyətində olan binalardan və digər obyektlərdən pulsuz istifadə etmək hüququna malik olması.[2]

**7) Sağlamlığın qorunması hüququnun realizəsi və müdafiəsinin müxtəlif aspektləri ilə bağlı münasibətlərin nizama**

[1] www.mys.gov.az/docs/ganun/20100526013712427.html

[2] www.mys.gov.az/docs/ganun/20100526013712427.html

**salınmasına yönəlmiş, eləcə də bu sahədə əlillərin hüquqlarının müdafiəsinin spesifik xüsusiyyətlərinə toxunan qanunvericilik aktları.** Məsələn, "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" 7 mart 2012-ci il Qanunu, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklərlə mübarizə haqqında" 11 may 2010-cu il tarixli Qanun, 23 may 2006-cı il tarixli "Onkoloji yardım haqqında" Qanun, "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" 3 may 2005-ci il tarixli Qanun, "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" 3 may 2005-ci il tarixli Qanun, 23 dekabr 2003-cü il tarixli "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanun, "Narkoloji xidmət və nəzarət haqqında" 29 iyun 2001-ci il tarixli Qanun, 12 iyun 2001-ci il tarixli "Psixiatriya yardımı haqqında" Qanun, "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" 2 may 2000-ci il tarixli Qanun, 14 aprel 2000-ci il tarixli "Yoluxucu xəstəliklərin immunprofilaktikası haqqında" Qanun, "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" 28 oktyabr 1999-cu il tarixli Qanun, 25 aprel 1997-ci il tarixli Qanunla təsdiq edilmiş "Əhaliyə tibbi yardımın göstərilməsi, virusologiya müəssisələri üzrə elmi tədqiqatların aparılması və virus preparatlarının istehsalı ilə məşğul olan işçilərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyə yoluxma, habelə bununla əlaqədar baş vermiş əlillik 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu və ölüm hadisələrinin dövlət icbari sığortası qaydaları haqqında" Əsasnamə və s.

26 iyun 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda əlillərin dövlət tibb müəssisələrində pulsuz tibbi nəzarət olunmaq hüququ (maddə 12) və əlillərin və sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial yardım almaq hüququ (maddə 21) öz əksini tapmışdır.[1]

Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, bəzi tədqi-

[1] www.sehiyye.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html

qatçıların da qeyd etdiyi kimi, əksər dövlətlərin milli təhlükəsizlik strategiyalarında və proqramlarında əhalinin sağlamlığının qorunması və səhiyyənin möhkəmləndirilməsi milli təhlükəsizliyin təmin edilməsinin vacib şərti kimi nəzərdə tutulur. Bu məqsədə nail olmaq üçün isə müəyyən tələblərin (əhalinin uzunömürlülüyünün artırılması; əlillik və ölüm faizinin aşağı salınması; profilaktika və tibbi yardım standartlarının təkmilləşdirilməsi; dərman preparatlarının təhlükəsizliyi, keyfiyyəti və effektivliyinə nəzarətin təmin olunması və s.) yerinə yetirilməsi ümdə və əsas vəzifələrdən biri qismində çıxış edir. Lakin bu tələblərin içərisində ən əsası təhlükəsiz və effektiv dərman vasitələrinin təminatıdır ki, bu da əhalinin sağlamlığının qorunmasının, o cümlədən əlillərin sağlamlığının təmin edilməsinin prioritet bazası sayılır.[1]

**8) Torpaqdan istifadə və torpaq üzərində mülkiyyətin tənzimlənməsi, o cümlədən bununla bağlı digər məsələləri tənzimləyən, lakin bu sahədə əlillərin hüquqlarını özündə ifadə edən qanunvericilik aktları.** Məsələn, "Torpaq islahatı haqqında" 16 iyul 1996-cı il tarixli Qanun, 7 may 1999-cu il tarixli "Torpaq bazarı" haqqında Qanun və s.

**9) Ekologiyanın qorunması və ətraf mühitdən istifadə kontekstində əlillərin sahəvi hüquqlarının müdafiəsi və realizəsini qeyd edən müddəalar.** Məsələn, Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2008-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri Normaları" və s.

Məlum olduğu kimi, ekologiyanın qorunması və ətraf mühitdən istifadə ekoloji təhlükəsizliyin təmin olunması ilə sıx bağlılığa malikdir. Ekoloji təhlükəsizliyin təmin olunması isə öz-özlüyündə bəzi müəlliflər tərəfindən qeyd olunan bir sıra tədbirlərin görülməsinin zəruriliyini şərtləndirir: a) müvafiq sferada dövlət idarəçiliyinin gücləndirilməsi; b) ekoloji hüquqpozmalar törədən

---

[1] Маличенко В.С. Международно-правовые механизмы обеспечения безопасности обращения лекарственных средств. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М., 2015, с.4

şəxslərin məsuliyyətə cəlb olunması praktikasının təkmilləşdirilməsi; c) ətraf mühitin mühafizəsi sahəsində hüquqpozmalara görə məsuliyyəti müəyyən edən inzibati hüquq normalarının zəifliyinin aradan qaldırılması; ç) dövlətdaxili səviyyədə “Ekoloji Standartlar Məcəlləsi”nin işlənib hazırlanması və qəbulu, habelə həmin sənəddə ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən müddəaların təsbit olunması; d) ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi; e) insanların ekoloji təlim-təhsil sisteminin və ekoloji mədəniyyətinin yüksəldilməsi, mütəxəssislərin hazırlıq səviyyəsinin artırılması.[1]

Onu da qeyd etmək lazımdır ki, bu istiqamət üzrə qəbul olunan və əlillərin hüquqlarına toxunan qanunvericilik aktları iki xüsusiyyət baxımından qiymətləndirilməlidir. Birinci istiqamət üzrə sadəcə ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin olunması əsas vəzifə kimi qarşıya qoyulduğu halda, bu vəzifələrin icrası kontekstində insan hüquqlarının, xüsusilə ekoloji hüquqların müdafiəsi və qorunması ikinci tərəf qismində çıxış edir. Sonuncu halda isə əlillərin və sağlamlıq imkanları məhdud olan şəxslərin səciyyəvi keyfiyyətləri, tələbat və ehtiyacları, eləcə də maraq və mənafeləri mütləq şəkildə nəzərə alınmalıdır.

**10) Cinayətkarlığın qarşısının alınması və aradan qaldırılmasına yönəlmiş, habelə əlil kateqoriyasına mənsub şəxslər tərəfindən törədilən ictimai təhlükəli əməllərin ləğvi ilə bağlı müddəaları özündə əks etdirən qanunvericilik normaları.** Məsələn, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” 28 iyun 2005-ci il tarixli Qanun və s.

**11) Cəza-icra sahəsində və cinayət prosesində insan hüquqlarının qorunması baxımından əlillərin bu istiqamətlərdə lazımi subyektiv imkanlarının müdafiəsinə dair müddəaları özündə ehtiva edən qanunvericilik aktları.** Məsələn, “Həbs

[1] Məhərrəmov A.A. Ekoloji təhlükəsizliyin beynəlxalq və dövlətdaxili hüquqi aspektləri (nəzəri və praktiki problemlər). Bakı: “Aypara-3 MMC”, 2010, s.38-40

yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 may 2012-ci il tarixli Qanun, 11 dekabr 1998-ci il tarixli "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanun və s.

Bu kateqoriyadan olan qanunvericilik aktları nəinki cəza-icra və cinayət prosesində insan hüquqlarının qorunması və müdafiəsinə xidmət edir, həm də cəzanın əxlaqi əsaslarının təmin olunması və onun faydalılığı ilə bağlı problemlərin həllinə öz təsirini göstərir. Cəzanın faydalılığına gəldikdə isə onu bir sıra əlamətləri baxımından xarakterizə etmək mümkündür: 1) cəzanın faydalılığının onun əxlaqiliyin mühüm şərti qismində çıxış etməsi, habelə cəzanın mübahisəsiz və zəruri vasitə olması; 2) qanunun qüvvəyə mindiyi andan cəzanın qorxuyaratma – xəbərdaredici təsirinin realizəsi prosesinin başlaması; 3) cəzanın dinamik proses olub, bir-biri ilə ayrılmaz surətdə qarşılıqlı şərtlənən mərhələlərdən (cinayət-hüquqi sanksiya, cəzanın təyini, cəzanın icrası) ibarət olması; 4) cəzanın faydalılığının hər bir millətin minilliklərlə formalaşmış psixologiyasının səciyyəvi xüsusiyyətlərindən asılı olması.[1]

Qeyd olunan təsnifat üzrə qanunvericilik aktlarının təhlili göstərir ki, əlillərin cəmiyyətə reabilitasiyası bütövlükdə hərtərəfli və çox mürəkkəb bir prosesdir. Eyni zamanda bu, dövlət tərəfindən tənzimlənməsi zəruri olan əsas fəaliyyət istiqamətlərindən sayılmaqla, həm də əlillər və cəmiyyət arasında qarşılıqlı münasibətlərin və qarşılıqlı anlaşmanın düzgün qurulmasından da daha çox asılıdır. Hətta aparılan elmi araşdırmalarda da reabilitasiya əlillərə fəaliyyətin optimal fiziki, intellektual, psixi və ya sosial səviyyələrinə nail olmaq imkanının verilməsinin, habelə onların həyatının dəyişməsi və sərbəstliyinin artırılmasına gətirib çıxaran vasitələrin təqdim olunmasının dəstəklənməsi prosesi kimi xarakterizə edilir. Bununla yanaşı, çoxaspektli tədbirlərin həyata keçirilməli olduğu əsas istiqamətlərə (patoloji proseslərin inkişafının

[1] Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2016, s.108-134

qarşısının alınması və əlillərin sağlamlığının bərpası; şəxsiyyətin bərpası; əlillərin əmək qabiliyyətinin təmini və onların əmək fəaliyyətinə qaytarılması; əlillərin cəmiyyətə tam inteqrasiyası üçün imkanların təmin olunması) malik olan əlillərin reabilitasiyası özündə bir sıra zəruri fəaliyyət sahələrini birləşdirir:

- erkən diaqnoz, diaqnostika və müdaxilə;
- tibbi xidmət;
- sosial sahədə məsləhətləşmələr və yardım göstərilməsi;
- əlillərin sərbəst şəkildə fərdi özünəqulluğa və müstəqil həyat yoluna hazırlanması;
- köməkçi texniki vasitələr, daşıma vasitələri, sosial-məişət qurğuları və s. ilə təmin olunma;
- peşə istiqaməti, peşə-texniki hazırlıq, məşğulluq kimi məsələlərin də daxil olduğu peşə əmək qabiliyyətinin bərpası üzrə xüsusi xidmətlər.[1]

Beləliklə, qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının milli qanunvericiliyində əlillərin hüquqlarının müdafiəsi və qorunmasının əsas aspektlərinin təsbit olunması ilə bağlı aşağıdakı nəticələrə gəlmək olar:

- Müvafiq kateqoriya şəxslərin hüquqlarının qorunması, reabilitasiyası və adaptasiyası ilə bağlı tənzimetmə Azərbaycan Respublikasının əksər qanunvericilik aktlarını əhatə edir. Bununla yanaşı, icrası müəyyən dövrləri nəzərdə tutan müxtəlif dövlət proqramları və tədbirlər planları da əlillərin hüquqlarının müdafiəsinin bu və ya digər aspektlərinə toxunmaqla, müvafiq sferada tənzimetmə ilə bağlı mövcud olan boşluqların aradan qaldırılmasına xidmət edir.
- Gələcəkdə sosial cəhətdən əhalinin bəzi həssas qruplarına mənsub olan əlillərin (məsələn, əlil-qadın və s.) cəmiyyətə adaptasiyası, habelə onlara xüsusi qayğı ilə bağlı ayrıca sənədin qəbulu məqsədəmüvafiq hal kimi qəbul oluna bilər. Çünki istər bey-

[1] Карякина О.И., Карякина Т.Н. Основы реабилитации инвалидов. Учебное пособие. Волгоград: Изд-во Волгоградского государственного университета, 1999, с.9-10

nəlxalq hüquqi sənədlərdə, istərsə də dövlətdaxili qanunvericilik aktlarında (məsələn, əmək qanunvericiliyi və s.) qadınlara münasibətdə müəyyən güzəştlərin tətbiqi əlil-qadınlarla bağlı ayrıca dövlətdaxili sənədin qəbulu zərurətini ortaya qoyur.

## 3.2. Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində fəaliyyət mexanizminin formalaşmasında dövlət orqanlarının yeri və rolu: müasir tendensiya və yeni yanaşmalara nəzəri və praktiki baxış

XX əsrin 40-50-ci illərindən etibarən insan hüquqları meyarı, eləcə də onun qorunması və müdafiəsi zərurəti meydana çıxdığı andan etibarən dövlətin bu sahədəki rolu və öz öhdəliklərini vicdanla icrası məsələsi də aktuallaşmışdır. Bununla yanaşı, əhalinin həssas təbəqəsinin (məsələn, qadınlar, uşaqlar, əlillər və sağlamlıq imkanları məhdud şəxslər, aztəminatlı ailələr və s.) hüquqlarının qorunması və müdafiəsi beynəlxalq birliyin xüsusi diqqət və nəzərində olmuşdur. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, subyektiv imkanların beynəlxalq sənədlərdə təsbit olunması və onun dövlətdaxili qanunvericiliyə sadəcə implementasiyası heç də məsələnin tam həlli demək deyildir. Bunun üçün beynəlxalq nəzarət mexanizmlərinin səmərəli fəaliyyəti nəticəsində dövlətin öhdəliklərinin icrası vəziyyətinin yoxlanılması, habelə müvafiq tədbirlərin (qanunvericilik, inzibati, xüsusi və s.) həyata keçirilməsi səviyyəsinin qiymətləndirilməsi əsasında yekun tövsiyələrin qəbulu xüsusilə vacibdir. Məhz bunun nəticəsi olaraq, hüquq normaları ilə real praktiki vəziyyət arasında qarşılıqlı əlaqə düzgün qurulur və birincinin daim işlək mexanizmə çevrilməsi təmin olunur. Qeyd olunan münasibətlərin həyata keçirilməsində isə dövlət onun aidiyyəti və səlahiyyətli qurumlarının vasitəsilə çıxış edir. Onların fəaliyyətinin nəticəsi isə bütövlükdə dövlət tərəfindən beynəlxalq hüquq normalarının icrası vəziyyətinin qiymətləndirilməsini şərtləndirir. Bu baxımdan, dövlətin üzərinə qoyulan vəzifələr həcminə və miqyasına görə çoxşaxəli olmaqla, bir sıra elementləri (məsələn, hüquqi, maliyyə, maddi-tex-

niki, sosial-iqtisadi, informasiya-təbliğat, kadr, elmi və s.) özündə ehtiva edir.[1]

Beynəlxalq hüquq tamhüquqlu subyekt kimi, Azərbaycan Respublikası müstəqilliyini yenidən əldə etdikdən sonra bu sahədə mühüm addımlar atmışdır. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 12.1-ci maddəsində dövlətin ali məqsədi kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi göstərilmişdir. Əvvəlki redaksiyadan fərqli olaraq, layiqli həyat səviyyəsinin təmininə dair müddəa 18 mart 2009-cu ildə keçirilmiş ümumxalq səsverməsi – referendum nəticəsində dövlətin ali sənədinə əlavə edilmişdir. Bunun əsas səbəbi isə şəraitin dəyişməsi və insan hüquqlarının qorunmasına dair ictimai münasibətlərin inkişafı, habelə beynəlxalq-hüquqi sənədlərin müddəalarından irəli gələn öhdəliklərin icrası ilə əlaqədardır. Belə ki, Azərbaycan Respublikasının 2 oktyabr 2008-ci il tarixli 687-IIIQ nömrəli Qanunu ilə 2006-cı ildə qəbul olunmuş “Əlillərin hüquqları haqqında” BMT Konvensiyasına qoşulduqdan sonra beynəlxalq öhdəliklərin icrası məqsədilə əməli addımlar atılmış, həyata keçirilən islahatlar daha modernləşdirilərək dünya təcrübəsinə uyğunlaşdırılmışdır. Konstitusiyada ehtiva olunan layiqli həyat səviyyəsi dedikdə isə müasir sivilizasiyanın bəxş etdiyi nemətlərə malik olmaq və onlardan istifadə nəzərdə tutulur. Yəni bu həm maddi nemətləri (məsələn, lazımi mənzil şəraiti, nəqliyyat vasitələri, rasional və kalorili qidalanma), həm də qeyri-maddi nemətləri (məsələn, təhsil almaq, tibbi yardım almaq və sağlamlığın qorunması hüququnun verdiyi imkanlardan yararlanmaq, bədən tərbiyəsi və idman, məişət xidməti, mədəni, mənəvi və elmi dəyərlər və s.) özündə birləşdirir.[2]

Bu sahədə digər məsələ aidiyyəti dövlət qurumlarının fəaliyyətinin hüquq normalarının yerinə yetirilməsinə təsirinin öyrə-

---

[1] Агеева А.В. Конституционно-правовой статус семьи в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Челябинск, 2014, с.21

[2] Yenə orada, 17

nilməsidir. Onu da qeyd etmək lazımdır ki, bütövlükdə dövlət idarəçiliyinin formalaşması üçün konkret dövlətin tarixi inkişaf yolu və dövlətçilik ənənələri, habelə beynəlxalq hüquq normaları və beynəlxalq qurumların müəyyən tövsiyələri nəzərə alınmaqla, lazımi hüquqi bazanın yaradılması və nəzarət mexanizminin qurulması xüsusilə vacib məsələdir. Həmçinin formalaşdırılan və inkişaf etdirilən dövlət idarəçiliyinin sürətlə dəyişən ictimai münasibətlərə adekvat və çevik reaksiyası, habelə bununla bağlı gün-gündən dərinləşən və genişlənən beynəlxalq münasibətlər kontekstində dövlətin maraqları da mütləq şəkildə nəzərə alınmalıdır. Eyni zamanda qurulan mexanizmin və idarəçiliyin vətəndaşla münasibətlərinin şəffaflaşdırılması, məmur-vətəndaş asılılığının qismən aradan qaldırılması da zəruri şərtlərdən biridir. Bunu müasir dövrdə durmadan genişlənən elmi-texniki tərəqqinin nailiyyətləri və informasiya-texnologiyalarının hərtərəfli inkişafı da tələb edir. Digər tərəfdən, istənilən halda konkret tədbirlərin həyata keçirilməsi üçün əsas şərtin və mərhələnin zəruriliyini ortaya qoyur: 1) planlaşdırma; 2) icra mexanizmi və qaydası; 3) nəzarət və monitorinq mexanizmi.

Bunlardan hər hansı biri olmadıqda və ya düzgün qurulmadıqda mənfi halların yaranmasına gətirib çıxarır. Onu da qeyd etmək lazımdır ki, həmin zəncirvari həlqələr formalaşdırılarkən həm hər bir ölkə və konkret inzibati-ərazi vahidi üçün səciyyəvi olan yerli şərait və milli dövlətçilik ənənələri, həm də beynəlxalq hüquq normaları nəzərə alınmalıdır.

Qeyd olunan məsələlər son nəticədə idarəetmə mədəniyyətinin formalaşmasına gətirib çıxarır. Dövlət idarəçiliyi mədəniyyəti də bütöv kompleks olmaqla, mahiyyət və məzmun etibarilə özünün ayrı-ayrı element və hissələrinə malikdir. Məhz bununla əlaqədar, dövlət idarəçiliyi mədəniyyəti bütöv və kompleks kateqoriya kimi aşağıdakı məsələləri özündə ehtiva edir:

- universal və xüsusi biliklərin, bacarıq, mütəşəkkillik, mənəviyyat və ictimai proseslərin, insanın şüuru, davranışı və fəaliyyətinin bilavasitə idarə edilməsinə istiqamətlənən məqsədyönlü

fəaliyyət;

- dövlət tərəfindən qoyulan məqsədlərə nail olunması, vətəndaşların maddi və mənəvi tələbatlarının təmin olunması, ideallar, dəyərlər və məqsədlərin həyata keçirilməsi naminə cəmiyyətin həyat fəaliyyətinə hüquqi dövlətin təsir texnologiyalarının işlənib hazırlanması və reallaşdırılması;

- səlahiyyətli şəxslər tərəfindən insanların davranış və fəaliyyət qaydalarının müəyyən edilməsi, həyat tələbatlarına, habelə cəmiyyətin və dövlətin inkişaf maraqlarına cavab verən ictimai münasibətlərin tənzimlənməsi;

- müxtəlif funksiyalar və səlahiyyətlərə malik olan idarəetmə subyektləri və obyektlərinin məcmusu kimi daim inkişaf etməkdə olan dövlət idarəçiliyi sisteminin effektiv fəaliyyəti;

- dövlət idarəçilik sisteminin həyat qabiliyyəti və effektivliyini, onun zamanın çağırışlarına cavab vermək və ölkənin rəqabətə davamlılığı və təhlükəsizliyini təmin etmək qabiliyyətinin permanent inkişafını təmin edən idarəçilik qərarlarının qəbul edilməsi və yerinə yetirilməsi, eləcə də innovativ fəaliyyətin həyata keçirilməsi.[1]

Təbii ki, hər bir quruluş dövlətçilik formalarına öz düzəlişlərini verərək, idarəetmənin prioritetlərini və tiplərini dəyişdirmişdir. Quldarlıq quruluşu dövründə yol verilənlər, bəlkə də zəruri olanlar feodalizm dövründə aktuallığını çox tezliklə itirmişdir. Avropada maarifçilik və reformasiya dövrü fərdin azadlıq və hüquqlarının yeni tərzdə başa düşülməsinə və tamamilə yeni dərk olunmasına yol açmışdır. Bu gün qloballaşma dünya proseslərinin ümumi nizamına, iqtisadiyyata, siyasətə və sosiomədəni məkana yeni düzəlişlər edir. Politoloqların dövlətin funksiyaları adlandırdığı metaforaların bəzən dəyişməsinə, dövlətçiliyin formalarının, xarakterinin, keyfiyyət və mənasının zaman-zaman təkmilləşməsinə baxmayaraq, bir məsələ şəksizdir: istənilən dövlətçiliyin əsasını onun milli mənafeyi və idealı, bir-birini tamamla-

---

[1] Məmmədov F.T. İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi. Dərs vəsaiti. Bakı: “Apostrof” Çap Evi, 2013, 672 s., s.343

yan və millətin, dövlətin inkişaf və tərəqqisini də əvvəlcədən müəyyənləşdirən iki amil təşkil edir.[1] Digər tərəfdən, müasir dövrdə idarəetməni xarakterizə edən əsas səciyyəvi xüsusiyyətlərdən biri də onun çoxsəviyyəliliyi və bu halın bütün sistemlər (sosial, dövlət, ictimai-siyasi, hüquqi, hərbi, ekoloji, texniki, aqrar və s.) üçün universal xarakterə malik olmasıdır. Həmçinin dövlət idarəetmə mexanizmin effektliliyinin artırılmasında idarəetmə prosesində yaranan inzibati-hüquqi münasibətlərin tənzimlənməsi, eləcə də idarəetmə subyektləri ilə obyekti arasında qarşılıqlı əlaqə də özünəməxsus şəkildə mühüm rol oynayır.[2]

Müstəqillik qazandıqdan sonra, xüsusilə, ötən əsrin 90-cı illərinin ortalarından etibarən ölkəmizdə dövlət idarəetmə sistemi sahəsində islahatlar daha da intensivləşməyə başlamışdır. Məhz Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 29 dekabr 1998-ci il tarixli 53 nömrəli Fərmanı da bunu sübut edir. Fərmana uyğun olaraq, dövlət idarəetməsi sistemində aparılan islahatların dörd istiqamət üzrə qurulması nəzərdə tutulmuşdur: 1) dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması; 2) audit sisteminin islahatı; 3) dövlət idarəetmə sisteminin islahatı; 4) hüquq və məhkəmə sisteminin islahatı.[3]

Eyni zamanda müasir dövrdə bu məsələ mütəmadi şəkildə təkmilləşdirilməsi və yeni inkişaf tendensiyasına uyğunlaşdırılması üçün daim diqqət mərkəzində saxlanılır. Bunu Dövlət Başçısının 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsi-

---

[1] Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik və müstəqillik yolu ilə. Yanvar 2002 – dekabr 2006. II cild (məqalələr, çıxışlar, müsahibələr). Bakı: "XXI – Yeni Nəşrlər Evi", 2006, 672 s., s.127-128

[2] Rzayev Ə.H. Dövlət idarəetmə mexanizmi: mahiyyəti və prinsipləri // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, 2008, № 3, s. 158-165

[3] Bədəlova R.İ. Azərbaycanda dövlət qulluğunun əsasları və inkişaf meyilləri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2011, № 4, s. 178-191

yası da sübut edir.[1] Belə ki, Konsepsiyanın əsas prioritetlərindən birini də qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi təşkil edir. Konsepsiyada nəzərdə tutulan hədəflərə çatmaq üçün bu prioritet çərçivəsində institusional potensialın gücləndirilməsi özündə üç əsas istiqaməti birləşdirir:

- dövlət sektorunda insan resurslarının inkişafı;
- "elektron hökumət" fəaliyyətinin genişləndirilməsi;[2]
- institusional islahatların davam etdirilməsi.

Qeyd olunan istiqamətlərə, xüsusilə sonuncunun daha da intensivləşdirilməsi və qarşıya qoyulmuş məqsədlərə uyğun şəkildə həyata keçirilməsi bununla bağlı bir sıra tədbirlərin gələcəkdə icrasını şərtləndirir. Buraya həm milli mexanizmlərin təkmilləşdirilməsi (dövlət orqanlarında idarəçilik metod və mexanizmlərinin təkmilləşdirilməsi; vətəndaş və təşkilatların xidmətlərdən sadə, asan və sərbəst istifadəsi üzrə kompleks tədbirlərin davam etdirilməsi; elektron kanallar vasitəsilə ictimaiyyətə təqdim edilən dövlət xidmətlərinin sayının artırılması), həm də bu sahədə beynəlxalq təcrübənin nəzərə alınması (dövlət qurum və müəssisələrinin fəaliyyət sahələri üzrə prioritet inkişaf məqsədlərinin müəyyən edilməsi; həmin məqsədlərin qəbul edilmiş müvafiq dövlət proqramlarına uyğunlaşdırılması və onların səmərəli reallaşdırılması baxımından hər bir dövlət qurum və müəssisəsinin strateji plan hazırlayaraq həyata keçirməsi) daxildir.[3]

Bundan əlavə, digər dövlətdaxili sənədlərdə də müvafiq məsələnin tənzimlənməsi tendensiyasına rast gəlmək mümkündür. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq olunmuş

---

[1] Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: "Letterpress" nəşriyyat evi, 2011, 440 s., s.37-38

[2] Əliquliyev R.M., Ələkbərov R.Q., Fətəliyev T.X. Elektron elmi: cari vəziyyəti, problemləri və perspektivləri // "İnformasiya cəmiyyəti problemləri" jurnalı, 2015, № 2, s. 4-15

Hacızadə M.F. İnformasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meyilləri // "İnformasiya cəmiyyəti problemləri" jurnalı, 2015, № 2, s. 71-81

[3] www.president.az/files/future_az.pdf

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın strateji məqsədlərindən biri də institusional islahatların davam etdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsidir. Ümumilikdə isə elmi-nəzəri araşdırmalarda dövlət idarəetməsinin təsnifatı və bu təsnifatdan irəli gələn hər bir növə konkret yanaşmalar da mövcuddur. Bütövlükdə isə dövləti idarəetməsinin dörd modeli fərqləndirilir:

1) liberal model. Bu modeldə cəmiyyətin üzvlərinin tələbat və ehtiyacları ilə dövlət idarəetməsinin bu məsələyə reaksiyası tam şəkildə uzlaşır. Yəni dövlət idarəetməsinin sistemi cəmiyyətin təsiri altında formalaşmaqla, onun maraqlarına maksimum dərəcədə cavab verir.

2) avtoritar model. Bu halda dövlətin fəaliyyəti cəmiyyət tərəfindən müəyyən reaksiya və hərəkətlərin meydana çıxmasına səbəb olur.

3) lider modeli. Sözügedən modeldə dövlət orqanlarının fəaliyyəti yüksək səviyyəli hakimiyyət orqanlarının qəbul etdiyi qərarlarla müəyyən olunur və bunlara uyğun tənzimlənir.

4) müşahidəçi modeli. Bəzi hallarda "müşahidə şurası modeli" adlanan bu modeldə proqram, plan və qərarlar rəsmi dövlət rəhbərlərinin müstəsna təşəbbüsü ilə qəbul olunmur, onlar yalnız iyerarxik strukturun daxilində meydana gəlir. Daha dəqiq ifadə olunsa, rəhbərlər bununla bağlı edilən təkliflərin təsdiq olunması və ya rədd edilməsi istiqamətində "süzgəc" rolunu oynayır.[1]

Göstərilən modelləri Azərbaycan praktikasına tətbiq etsək, bu halda avtoritar model istisna olmaqla, digər üç modelin səciyyəvi keyfiyyətlərini birləşdirən kompleks idarəetmə modelinin mövcudluğu qənaətinə gəlmək mümkündür. Belə ki, Azərbaycan dövlətinin yürütdüyü siyasət ölkə əhalisinin maraqları və ehtiyacları ilə tam uzlaşır. Dövlət orqanlarının yaradılması və fəaliyyəti

[1] Калинин А.М. Экономические основы становления современных систем государственного управления. Автореф. дисс. на соиск. учен. степ. канд. эконом. наук. Москва, 2007, с.9

xüsusi qanunvericilik aktları, habelə Dövlət Başçısının fərman və sərəncamları ilə tənzimlənir. Bu halda müasir həyatın tələbləri ilə dövlət idarəetməsi sahəsində aparılan islahatlar tam şəkildə uyğunlaşdırılır. Digər tərəfdən, mövcud dövlət proqramları və tədbirlər planlarının icrası məqsədilə, ayrı-ayrı qurumlar çərçivəsində fəaliyyət planlarının qəbulu özünü büruzə verir. Qanunvericilik aktlarından fərqli olaraq, fəaliyyətin proqram və ya planlar əsasında həyata keçirilməsinin müsbət cəhəti ondan ibarətdir ki, qarşıya çıxan problemlər konkret müddət çərçivəsində və dövlət orqanlarının əməkdaşlığı şəraitində kompleks şəkildə həll olunur. Bu isə vaxt itkisinin və qanunvericilik aktlarının tətbiqi üçün əlavə sənədlərin qəbulunun qarşısını alır. Məhz ölkəmiz 2003-cü ildən etibarən tənzimetmənin bu formasına daha çox üstünlük verməkdədir.

Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlət orqanlarının ayrı-ayrılıqda roluna və payına isə onların fəaliyyət istiqamətləri və səlahiyyətləri baxımından yanaşmaq daha düzgün olardı. Məhz bu baxımdan, ilk növbədə bu qurumların təsnifləşdirilməsi və sistemləşdirilməsi zəruridir ki, bu da sonradan onların əlillərin hüquqlarının qorunmasındakı yerini daha dəqiq müəyyən etməyə əsas verir. Digər tərəfdən, sistemləşdirmə və təsnifləşdirmənin aparılması həm də bu sahədə görülən işlərin düzgün qiymətləndirilməsi kontekstində qabaqcıl təcrübənin tətbiqi və meydana çıxan çatışmazlıqların hərtərəfli nəzərdən keçirilməsinə əsas verir. Qeyd olunanları nəzərə alaraq, əlillərin hüquqlarının qorunması və müdafiəsi mexanizminin formalaşdırılmasına görə ölkəmizdə mövcud olan dövlət qurumlarını aşağıdakı qaydada təsnifləşdirmək olar:

1) Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə uyğun olaraq, hakimiyyətlərin bölünməsi prinsipinə əsaslanmaqla, bu bölgünün hər bir qolu üzrə ali hakimiyyət funksiyalarını həyata keçirən qurumlar (məsələn, Azərbaycan Respublikasının Prezidenti, Milli Məclis, məhkəmələr);

2) özünəməxsus hüquq, vəzifə və səlahiyyətlərə malik olmasına baxmayaraq, öz fəaliyyətində əlillərin və sağlamlıq im-

kanları məhdud şəxslərin hüquqi statusuna mütəmadi toxunan dövlət qurumları (məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi və s.);

3) spesifik fəaliyyət istiqamətinə malik olmaqla, zəruri hallarda və yaranan hüquq münasibətlərinin tələb etdiyi şəraitdə əlillərlə bağlı məsələlərə toxunan qurumlar (məsələn, Maliyyə Nazirliyi, Statistika Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Mərkəzi Bank və s.);

4) insan hüquqlarının müdafiəsinə dair beynəlxalq hüquq normalarının tələbləri və aidiyyəti beynəlxalq təşkilatların tövsiyələri, habelə dünya təcrübəsi əsasında formalaşdırılan qurumlar (məsələn, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı));

5) dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsinə dair ölkəmizdə aparılan islahatların tərkib hissəsi qismində çıxış edən, habelə vətəndaşlara göstərilən xidmətlərin şəffaflaşdırılması və təkmilləşdirilməsinin nəticəsi sayılmaqla, Azərbaycanın qabaqcıl təcrübəsinin yeni modeli olan qurumlar (məsələn, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi).

Onu da qeyd etmək lazımdır ki, bu təsnifat təkcə müvafiq dövlət orqanlarının səlahiyyətlərindən irəli gəlmir. Belə ki, Dövlət Başçısının 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 2.8-ci bəndində əlillərin və sağlamlıq imkanları məhdud uşaqların təlim və peşə hazırlığının, onlara göstərilən xidmətlərin (sosial xidmət, inkluziv təhsil və s.) keyfiyyətinin yaxşılaşdırılması məqsədilə xüsusi olaraq tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanmasına dair tələbin ehtiva olunması və bununla bağlı məsul qurumların dairəsinin müəyyənləşdirilməsi də təklif etdiyimiz təsnifatın irəli sürülməsini

zəruri edir.[1]

Təklif etdiyimiz təsnifat üzrə ali hakimiyyət orqanlarının fəaliyyəti çoxşaxəli olmaqla, özünü müxtəlif istiqamətlər baxımından büruzə verir. İlk növbədə Azərbaycan Respublikasının dövlət büdcəsinin Milli Məclisin təsdiqinə təqdim olunması, dövlət iqtisadi və sosial proqramların təsdiq olunması, habelə Konstitusiyanın 109-cu maddəsində nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirən Azərbaycan Respublikası Prezidenti hakimiyyətlərin bölünməsi prinsipinə uyğun olaraq, müvafiq sferada bir sıra tədbirlərin həyata keçirilməsinə öz töhfəsini verməkdədir. Bir məsələni də nəzərə almaq lazımdır ki, 2003-cü ildən sonrakı dövrdə ölkəmiz sosial dövlət olmaqla, sosial yönümlü tədbir, layihə və proqramların maliyyələşdirilməsini yüksələn xətt üzrə daim inkişaf etdirmişdir. Qeyd etmək lazımdır ki, sosial dövlətin əsas prinsipi – iqtisadiyyatın istənilən sistemli və struktur dəyişikliyindən asılı olmayaraq, hər bir insanın layiqli həyatı üçün zəruri şəraitin yaradılmasıdır. Sosial dövlət dövlətin imkanları çərçivəsində onun üzərinə götürdüyü vətəndaşlarının maddi və mənəvi tələblərini, müəyyən həyat səviyyəsinin təmin edilməsini bildirir. Dövlətin yeritdiyi sosial yönümlü siyasət çətin proseslərdən ibarət olsa da, son nəticədə sosial dövlət sosial bərabərsizliyin aradan qaldırılması, sosial ədalətin nailiyyəti məqsədilə daim azad bazar iqtisadiyyatı ilə bölüşdürücü proseslərin zərurəti arasında çətin həll olunan tarazlığı nizamlamalıdır.[2]

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, sosial siyasət geniş mənada əhalinin və onun müxtəlif qruplarının sosial vəziyyətinin saxlanılması və dəyişdirilməsi istiqamətində aparılan siyasət anlamında ifadə olunur. Bu siyasətin əsas məqsədi öz-özlüyündə sosial vəziyyətə təsir göstərilməsindən ibarətdir. Sosial vəziyyət

---

[1] Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı. Bakı, 2012, 71 s., s.14

[2] Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar; nəzəri və praktiki məsələlər. Dərs vəsaiti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2008. 368 s., s.55

isə əhalinin və onun müxtəlif təbəqələrinin həyat fəaliyyətinin kompleks xarakteristikası hesab olunur. Yəni sosial qrupların və təbəqələrin həyat tərzi müxtəlif amillərin təsiri nəticəsində baş verir. Bununla yanaşı, sosial vəziyyəti müəyyənləşdirən müəyyən ictimai şərtlər mövcuddur ki, bu sıraya cəmiyyətin əsaslandığı ictimai-iqtisadi quruluş (məsələn, bazar iqtisadiyyatı, sosialist istehsal üsulu, inzibatı amirlik prinsipi və s.), mülkiyyət münasibətləri, iqtisadi şərtlər, ekoloji təhlükəsizlik, sosial təhlükəsizlik və sosial müdafiə aid edilir.[1] Bununla yanaşı, bir məsələyə də toxunmaq lazımdır ki, sosial müdafiə sosial siyasətin tərkib hissəsi olmaqla, əhalinin həssas təbəqəsinin, o cümlədən əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin həyat şəraiti və keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rola malikdir. Nəzəri baxımdan əhalinin sosial müdafiəsinin iki modeli – sosial-demokratik və neoliberal yönümlü sosial müdafiə fərqləndirilir. Sosial-demokratik yönümlü modeldə dövlətin aparıcı rolu və ümummilli sosial idarəetmə mexanizmləri üstünlük təşkil etdiyi halda, neoliberal yönümlü modeldə sosial-iqtisadi proseslərə dövlətin müdaxiləsi hiss olunacaq dərəcədə zəif şəkildə özünü büruzə verir. Digər tərəfdən, sosial müdafiənin sisteminin ayrı-ayrı hissələri olaraq dövlət və fərd çıxış edir ki, bu da sosial müdafiə məsələsində məsuliyyətin fərqli xarakteristikası ilə özünü büruzə verir. Belə ki, hər bir vətəndaşa yönələn qayğı və dəstəyə görə dövlətin məsuliyyət daşıdığı birinci sistemdən fərqli olaraq, ikinci sistemdə hər bir fərdin özünün və ailəsinin, uşaqlarının taleyinə görə məsuliyyət daşıması təzahür edir.[2]

Qeyd olunanları AR praktikası kontekstində nəzərdən keçirsək, belə qənaətə gəlmək olar ki, ölkəmiz 2003-cü ildən sonra sosial-demokratik yönümlü modelə üstünlük verməyə başlamışdır. Bu sahədə həyata keçirilən sosial siyasət, ilk növbədə hüquq nor-

---

[1] Musayev A.F., Qarayev İ.Ə. Sosial siyasət və iqtisadi inkişaf // "Azərbaycanın vergi jurnalı", 2013, № 1, s. 67-86

[2] Денисова И.П., Клиновенко В.Р. Социальная политика. Ростов на Дону: Феникс, 2007, с. 329-330

malarına, habelə hüquqi tənzimetmə ilə cəmiyyətin real həyatı arasında münasibətlərin düzgün qurulmasına əsaslanır. Hətta bu sahədə tədqiqat aparan bəzi müəlliflərin fikrincə, sosial siyasətin hüquqi bazası iki istiqamətdə yaranır və inkişaf edir:

1) beynəlxalq hüquq normalarının yaradılması;

2) Azərbaycanda sosial siyasətin hüquqi bazasının yaradılması və beynəlxalq hüquq normaları ilə unifikasiyası.[1]

Lakin bu fikirlə razılaşmaq qeyri-mümkündür. Çünki beynəlxalq hüquq normalarının yaradılması zamanı təkcə beynəlxalq hüquqi tənzimetmənin ehtiyacları deyil, həm də ayrı-ayrı dövlətlərin təcrübəsi də nəzərə alır. Yəni beynəlxalq hüquq normalarının formalaşmasına dövlətlərin təcrübələrinin təsirini birmənalı inkar etmək olmaz. Digər tərəfdən, müəllifin qeyd etdiyi *"sosial siyasətin hüquqi bazasının yaradılması və beynəlxalq hüquq normaları ilə unifikasiyası"* (kurs. müəllifindir – S.Ə.) mərhələsi heç də istənilən zaman özünü doğrultmur. Çünki Azərbaycanın sosial siyasətinə dair hüquqi bazası formalaşdırılarkən onun beynəlxalq hüquqla üzərinə götürdüyü öhdəliklər nəzərə alınır. Sahəvi dövlətdaxili qanunvericilik aktı ilə müvafiq beynəlxalq müqavilənin qəbulu arasında zaman fərqi olduqda isə müəyyən dəyişikliklərin edilməsi zərurəti də meydana çıxır. Bunun bariz nümunəsi qismində Azərbaycan Respublikasının 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanunu ilə "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının qarşılıqlı əlaqəsini göstərə bilərik. Eyni zamanda söhbətin sosial siyasət sahəsindən getdiyini nəzərə alaraq, insan hüquqlarının qorunması sahəsində dövlətin ümumi və davranış öhdəliklərini, habelə tədricən yerinə yetirilməli olan öhdəliklərini də xatırlatmaq yerinə düşərdi. Nəhayət, ölkəmizin sosial siyasət sahəsində hüqu-

[1] Rəcəbli H.M. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası (komparativ təhlil). Siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2008, s.21

qi bazasının beynəlxalq hüquq normaları ilə unifikasiyası məsələsinə gəldikdə, bu fikrin yanlış olması özünü aydın şəkildə büruzə verir. Çünki unifikasiya vahid normaların tətbiqini nəzərdə tutduğu halda,[1] Azərbaycan Respublikası inkorporasiya üsulundan istifadə edir. Bunu Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsində təsbit olunmuş *"Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir"* müddəası da sübut edir.

Ölkəmizdə sosial siyasətin hüquqi bazasının formalaşdırılması ilə bağlı məsələlər isə müstəqillik qazandıqdan sonra yenidən nəzərdən keçirilməyə başlamışdır. Çünki keçmiş SSRİ-nin tərkibində olması təkcə Azərbaycan Respublikasının sosial, iqtisadi, siyasi, idarəetmə həyatına təsir etməmişdir, eyni zamanda hüquqi təcrübənin formalaşmasına da sirayət etmişdir. Şübhəsiz ki, kommunist ideologiyasının və inzibati-amirlik sistemi həyatın bütün sahələrində olduğu kimi, hüquqi məsələlərə də nüfuz etmişdir. Yəni hüquq normaları bütövlükdə hakimiyyətdə olan totalitar imperiyanın yeganə partiyasının təsiri altında formalaşmış və onun iradəsini diktə etmişdir. Müstəqillik qazandıqdan sonra bu sahədə mühüm addım Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1996-cı il tarixli "Hüquqi İslahat Komissiyası"nın yaradılması haqqında" Sərəncamı olmuşdur. Komissiya yeni normativ-hüquqi aktların işlənib hazırlanması sahəsində mühüm işlər görmüşdür. Bu qanunvericilik aktlarının böyük bir qismi bilavasitə dövlət idarəçiliyi sisteminin inkişafına, dövlət qulluğunun təşkilinə və təkmilləşdirilməsinə, habelə dövlət qulluqçularının sosial müdafiəsinin təmin olunmasına yönəlmişdir.[2] Bundan əlavə, aparılan hüquqi islahatların məntiqi davamı kimi 24 dekabr 2002-ci

---

[1] Романов П.В., Ярская-Смирнова Е.Р. Политика инвалидности: социальное гражданство инвалидов в современной России. Саратов: Изд-во «Научная книга», 2006, с.133

[2] Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik və müstəqillik yolu ilə. Yanvar 2002 – dekabr 2006. II cild (məqalələr, çıxışlar, müsahibələr). Bakı: "XXI – Yeni Nəşrlər Evi", 2006, 672 s., s.574

il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanununun qəbulu isə ölkədə insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasına uyğunlaşdırmaq məqsədi daşımışdır. Konstitusiya qanununda insan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas şərtləri, məhdudlaşdırılması qadağan olunan insan hüquqları, məhkəmələrin və şəxslərin Konstitusiya Məhkəməsinə müraciət və şikayət etmək hüququ və s. müddəaların nəzərdə tutulması bu məqsədin həyata keçirilməsinə yönəlmişdir. Bununla yanaşı, Konvensiyada göstərilən hüquq və azadlıqların səmərəli qorunmasını və hüququn tətbiqinin Avropa standartları səviyyəsinə çatdırılmasını təmin etmək üçün İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının öyrənilməsi və təhlili istiqamətində də ölkədə mühüm işlər görülməyə başladı.[1]

Sosial siyasət sahəsində hüquqi tənzimetmənin ikinci mərhələsi kimi 2003-cü ildən sonrakı dövrü xüsusilə qeyd etmək lazımdır. Həmin dövrdən etibarən, Azərbaycanın sosial-demokratik yönümlü siyasi xətt yürütməsi onun bu sahədəki qanunvericilik bazasına da əsaslı təsir göstərdi. Belə ki, bu dövrdən sonra qəbul olunan hüquqi aktlar qanun şəklində deyil, daha çox konkret illəri əhatə edən və kompleks tədbirləri özündə birləşdirən dövlət proqramları, konsepsiya və strategiya formasında özünü büruzə vermişdir. Bunun əsas üstünlüyü ondan ibarətdir ki, bir tərəfdən tənzimetmə və icra məsələləri kompleks qiymətləndirilməklə bir sıra dövlət qurumlarının məsələyə cəlb olunmasını ehtiva edir, digər tərəfdən, sənədin icra müddəti bitdikdən sonra analoji yeni sənədin qəbulu dəyişən ictimai münasibətlər və real zərurətə daha çevik uyğunlaşdırılır. Qanunvericilik texnikası baxımından isə sənədin tez-tez dəyişikliyə uğraması tendensiyası aradan qalxır. Şübhəsiz ki, bu növ sənədlərdə də müvafiq beynəlxalq-hüquqi sə-

---

[1] Baxşıyeva N.Ə. İnzibati hüquqi mübahisələr üzrə məhkəmə icraatı (nəzəri aspektlər). Bakı: "E.L." NPŞ MMC, 2014, 400 s., s.304-305

nədlərin tələbləri və beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınır. Bunun bariz nümunəsi kimi Azərbaycan Respublikası Prezidentinin 4 noyabr 2014-cü il tarixli 827 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"na diqqət yetirərkən, pensiya təminatı sahəsində beynəlxalq təcrübənin nəzərə alınmasının vacibliyi qənaətinə gəlmək mümkündür. Hətta sözügedən sənəddə göstərilmişdir ki, BƏT, eləcə də Avropa Şurasının sosial təminat sahəsində müvafiq konvensiyaları və tövsiyələri bir qayda olaraq qocalığa, əlilliyə və ailə başçısını itirməyə görə təminatları nəzərdə tutmaqla yanaşı, bu ödənişlərin məcburi sosial sığorta vasitəsilə gerçəkləşdirilməsi mexanizmlərinə istinad edir.

Əlillərin hüquqlarının qorunması kontekstində onların həyat şəraitinin və sosial müdafiəsi Dövlət Başçısı tərəfindən qəbul olunan digər aktlarda da öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 20 iyun 2014-cü il tarixli Sərəncamında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin 2014-2018-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər planının hazırlanması nəzərdə tutulmuşdur. Bundan əlavə, Dövlət Başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilli-

yinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (tibb təhsilində əsas və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində təhsil haqqının qanunvericiliklə nəzərdə tutulan təhsil xərcləri miqdarında dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi qeyd olunmuşdur.

Bütövlükdə isə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, habelə Azərbaycanın sosial-demokratik yönümlü dövlət kimi formalaşdırılmasının əsas hüquqi bazası qismində Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərmanı çıxış edir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 114-cü maddəsinə uyğun olaraq, Prezidentin yuxarı icra orqanı olmaq etibarilə, icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə yaradılan, eləcə də Dövlət Başçısına tabe olan və qarşısında cavabdehlik daşıyan qurum Nazirlər Kabinetidir (NK). Eyni zamanda NK dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edən qurum olmaq etibarilə, əlillərlə bağlı məsələlərin həlli üçün bir sıra aktlar qəbul etmişdir. Məsələn, "İkinci Dünya Müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 08.07.2002-ci il tarixli 103 nömrəli Qərar, "Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin MDB dövlətlərinə nəqliyyatda gediş güzəştlərinin ödənilməsi haqqında" 1999-cu il 25 avqust tarixli 133 nömrəli qərarına dəyişiklik edilməsi barədə" 12.06.2006-cı il tarixli 141 nömrəli Qərar, "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata

keçirilməsi haqqında" 10.05.1994-cü il tarixli 185 nömrəli qərarı və həmin sənədə dəyişikliklər edilməsini nəzərdə tutan 16.02.2005-ci il tarixli 030 nömrəli qərar, 07.03.2005-ci il tarixli 038 nömrəli Qərarla təsdiq olunmuş "20 Yanvar əlillərinin, milli münaqişə zəminində əlil olanların, sağlamlıq imkanları məhdud uşaqların və digər kateqoriyalardan olan I və II qrup əlillərin, Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil edilməklə, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, HİV/AİDS–lə xəstələnmiş vətəndaşların, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorların dərman preparatları ilə təmin olunması Qaydası", 5 noyabr 2013-cü il tarixli 320 nömrəli Qərarla "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası" və s.

Həmçinin NK-nin qəbul etdiyi aktlarda əlillərin şəraitinin yaxşılaşdırılmasına xidmət edən tədbirlərə münasibətdə müəyyən güzəştlər tətbiq olunur. Nümunə qismində sözügedən qurumun 14 oktyabr 2013-cü il tarixli 305 nömrəli Qərarı ilə təsdiq olunmuş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"n 4.2-ci bəndinə əsasən, əlillər üçün xüsusi olaraq hazırlanmış avtonəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsinə AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiqedici sənədi əsasında güzəştli qaydada (gömrük ödənişləri alınmadan) icazə verilməsinə

dair müddəanı göstərmək olar.[1]

Bununla yanaşı, Nazirlər Kabineti müəyyən dövrü əhatə edən konkret illər üçün əlillərin sosial müdafiəsi ilə bağlı tədbirlərin həyata keçirilməsinin iqtisadi əsaslarına dair müvafiq aktlar qəbul etmişdir. Nümunə qismində 12.02.2004-cü il tarixli 9 nömrəli, 07.02.2005-ci il tarixli 24 nömrəli, 25.01.2006-cı il tarixli 023 nömrəli, 13.02.2007-ci il tarixli 030 nömrəli, 03.02.2009-cu il tarixli 017 nömrəli, 23.02.2010-cu il tarixli 038 nömrəli qərarlarla təsdiq olunmuş və müvafiq illəri əhatə edən əlillərin sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə dair dövlət proqramlarını göstərmək olar.

Əlillərlə bağlı Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətinin roluna gəldikdə qeyd etmək lazımdır ki, Konstitusiyanın 94-cü maddəsini təhlil edərkən Milli Məclisin müəyyən etdiyi ümumi qaydaların bir qismi bu və ya digər şəkildə əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara aid olunur. Məsələn, fiziki şəxslərin statusu; əqdlər və mülki müqavilələr; mülkiyyət hüququ, o cümlədən xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ, digər əşya hüquqları; ailə münasibətləri kontekstində himayəçilik və qəyyumluq məsələləri; müxtəlif mal, iş və xidmətlərə görə ödənilməsi zəruri olan vergi, rüsum və ödənişlər; müvafiq kateqoriyadan olan şəxslərin əmək münasibətlərinin tənzimlənməsi və onların sosial təminatının müəyyənləşdirilməsi; cinayətlərin və başqa hüquqpozmaların törədilməsinə görə məsuliyyət tədbirlərinin müəyyənləşdirilməsi zamanı əlillər və sağlamlıq imkanları məhdud şəxslər üçün müəyyən güzəştlərin nəzərdə tutulması; hərbi qulluq və dövlət qulluğu; nəqliyyat işi; statistika və müvafiq standartların müəyyənləşdirilməsi; sığorta və s.

Qeyd olunan məsələlər üzrə qəbul olunan qanunvericilik aktları dövlətin müvafiq sahədəki ümumi siyasətinin, onun tərkib elementləri və istiqamətlərini, bu sahədə fəaliyyətin rəhbər başlanğıclarını, dövlət-vətəndaş münasibətlərini, habelə beynəlxalq

[1] www.cabmin.gov.az/?/az/pressreliz/view/1159

hüquq normaları ilə dövlətdaxili qanunvericilik arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi və beynəlxalq hüquq normalarının dövlətdaxili hüquqa implementasiyasını məcəlləşdirməklə, konkret münasibətlərin və ayrı-ayrı halların nizama salınması və bu sahədə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına hüquqi zəmin yaradır. Bütövlükdə isə 1918-ci ildən Azərbaycanda formalaşan parlamentarizm ənənəsi müasir dövrdə özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.[1]

Bu kateqoriyadan olan dövlət qurumlarına həmçinin məhkəmələr aiddir ki, onlar da istər Konstitusiyanın 125-ci, istərsə də "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il Qanununun 3-cü maddəsinə əsasən, ədalət mühakiməsi yolu ilə məhkəmə hakimiyyətini, habelə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətini həyata keçirir. Əlillərin hüquqlarının qorunması və müdafiəsi ilə bağlı məhkəmə hakimiyyətinin rolunu iki aspektdən qiymətləndirmək olar:

1) müxtəlif məsələlərlə (məsələn, cinayət, mülki, ailə, əmək, inzibati və s.) bağlı baxılan iş üzrə tərəf qismində əlillərin mənafeyinə dair qərarın çıxarılması və onun icraya yönəldilməsi;

2) bütövlükdə məhkəmə praktikasının qiymətləndirilməsi və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi kontekstində ədalət mühakiməsinin həyata keçirilməsi zamanı əlillərin hüquq və azadlıqlarının beynəlxalq hüquq normalarına və dövlətdaxili qanunvericiliyə uyğun şəkildə qorunması, müdafiəsi və realizəsinin təmin olunması.

Tədqiqatın obyekti və predmeti nöqteyi-nəzərindən bizi daha çox ikinci məsələ maraqlandırdığına görə, Konstitusiyanın 131-cü maddəsinin I hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il Qanununun 79-cu maddəsinə uyğun olaraq, Ali Məhkəmənin Plenumu tərəfindən məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatların verilməsi məsələsinə to-

---

[1] Əliyev S.F., Şükürov N.H. Parlament hüququ. Dərslik. Bakı: "Qanun nəşriyyatı", 2015, s.88-104

xunmaq daha məqsədəmüvafiq olardı. Belə ki, Plenumun "Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 29 oktyabr 2009-cu il tarixli 01/2009 nömrəli qərarının 6-cı bəndinə əsasən, on yaşına çatmış uşaq sağlamlıq vəziyyətinə görə məhkəmə iclasına gələ bilmirsə (məsələn, uşaq anadangəlmə əlildirsə və hərəkət etməkdə məhduddursa), məhkəmə uşağın maraqlarını nəzərə alaraq övladlığa götürülməsi ilə əlaqədar uşağın rəyini olduğu yerdə öyrənə bilər. Bununla yanaşı, sözügedən qərarın 27-ci bəndində göstərilmişdir ki, tərbiyə prosesini əhəmiyyətli dərəcədə çətinləşdirən və ya mümkünsüz edən övladlığa götürmədən sonra uşağın sağlamlığında əqli çatışmazlığa və ya irsi əyintilərə malik olmasının aşkarlandığı hallarda məhkəmələr uşağın mənafeyindən çıxış edərək övladlığa götürməni ləğv etməyə haqlıdır. Belə hallarda övladlığa götürmənin ləğvi zamanı buna övladlığa götürənin davranışının səbəb olmaması qətnamədə göstərilməlidir.[1] Bununla yanaşı, Plenumun "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 3 noyabr 2009-cu il tarixli 2 nömrəli qərarının 3-cü bəndində həbs qətimkan tədbirinin seçilməsi zamanı məhkəmələrin təkcə prosessual əsasları formal şəkildə qiymətləndirməyərək, digər hallarla yanaşı, təqsirləndirilən şəxsin sağlamlığını da nəzərə almasının vacibliyi, habelə 10-cu bəndində ev dustaqlığı qətimkan tədbirinin seçilərkən məhkəmələrin, həmçinin təqsirləndirilən şəxsin sağlamlığını da nəzərə almasının zəruriliyi ehtiva edilmişdir.[2] Eyni zamanda Plenumun "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 08 oktyabr 2010-cu il tarixli 02/2010 nömrəli qərarının 7-

[1] www.supremecourt.gov.az/post/view/167
[2] www.supremecourt.gov.az/post/view/168

ci bəndində I və II qrup əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara ictimai işlər növündə cəzanın tətbiqinin qeyri-mümkünlüyü barədə Cinayət Məcəlləsinin 47-ci maddəsinin məhkəmələr tərəfindən cəzaların təyin edilməsi zamanı nəzərə alınmasının vacibliyi vurğulanmışdır.[1] Bundan əlavə, "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 15 noyabr 2013-cü il tarixli 5 nömrəli Plenum qərarının 1-ci bəndində məhkəmələrin diqqəti yol hərəkəti qaydalarını pozmuş şəxsin hadisədən bilavasitə əvvəl sağlamlıq durumunun müəyyən edilməsinə yönəltməsi nəzərdə tutulmuş, eləcə də 12-ci bəndində isə yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair işlərə tam, hərtərəfli və obyektiv baxılmasının təmin olunması və qanuni və əsaslı qərarların qəbul edilməsi üçün sürücülərin sağlamlıq vəziyyətinin yoxlanılmasının mühüm əhəmiyyət kəsb etdiyi bildirilmişdir.[2]

Bununla yanaşı, Plenumun "Respublika məhkəmələri tərəfindən mənzil qanunvericiliyinin tətbiqi təcrübəsi haqqında" 16 oktyabr 1992-ci il tarixli 2 nömrəli qərarının 19-cu bəndinə əsasən, müvafiq əlillərin mənafeyinin nəzərə alınmasına dair iki müddəa öz əksini tapmışdır:

1) Xidməti yaşayış sahəsinin işdən azad olunmuş kirayəçisinin ailəsində müharibə əlilləri və SSRİ-nin, Azərbaycan Respublikasının müdafiəsində və ya digər hərbi xidmət vəzifəsini yerinə yetirərkən yaralanma, kontuziya və ya şikəstlik nəticəsində və yaxud cəbhədə xəstələnməklə əlaqədar əlil olmuş digər hərbi qulluqçular, Daxili İşlər Nazirliyi orqanlarının sıravi və rəis heyətindən olan, xidməti vəzifəsini yerinə yetirərkən yaralanma, kontuziya və ya şikəstlik nəticəsində əlil olmuş şəxslər, 1 və 2-ci qrup əmək əlilləri, hərbi qulluqçular sırasından 1 və 2-ci qrup əlillər və onlara bərabər tutulan şəxslər olduqda başqa yaşayış sahəsi verilməklə çıxarılır.

---

[1] www.supremecourt.gov.az/post/view/169
[2] www.supremecourt.gov.az/post/view/175

2) SSRİ-nin və Azərbaycan Respublikasının müdafiəsi və ya digər hərbi xidmət vəzifəsini yerinə yetirərkən həlak olmuş və ya xəbərsiz itkin düşmüş hərbi qulluqçuların və partizanların ailə üzvlərinin çıxarılması məsələsi həll edilərkən qüvvədə olan qanunvericiliyə görə belə ailənin üzvünə həlak olanın və ya xəbərsiz itkin düşənin himayəsində olub, buna görə pensiya alanlar, valideynlər, pensiya almasından asılı olmayaraq başqa nikaha girməmiş ər (arvad), öz ailəsi olmayan və ya ailəsi olsa da, yetkinlik yaşına çatana kimi əlil olmuş uşaqlar, həmçinin ailəsi olan, lakin hər iki valideyni həlak olmuş və ya itkin düşmüş uşaqlar daxil edilməlidir.[1]

Əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin mənafeyinə toxunan, habelə onların hüquq və azadlıqlarının bu və ya digər formada müdafiəsinə yönəlmiş məhkəmə qərarlarından danışarkən, Konstitusiya Məhkəməsinin Plenumunun 27 mart 2014-cü il tarixli "Hərbi qulluqçuların pensiya təminatı haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunlarının bəzi müddəalarının zamana görə tətbiq edilməsi baxımından şərh edilməsinə dair" qərarını da qeyd etmək yerinə düşərdi.[2]

Yuxarıda təhlil olunan məsələlər, eləcə də istər Ali Məhkəmənin, istərsə də Konstitusiya Məhkəməsinin təcrübəsi məhkəmə icraatında beynəlxalq hüquq normalarının tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.[3] Bu, bir tərəfdən ölkəmizdə hüquqi dövlətin qurulması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması baxımından xüsusi önəm kəsb etdiyi halda, digər tərəfdən beynəlxalq hüquq normalarının milli qanunvericilik üzərində üstünlüyünün göstəricisi sayıla bilər.

Ölkəmizdə özünəməxsus hüquq, vəzifə və səlahiyyətlərə malik olmasına baxmayaraq, hüquq subyektliliyindən irəli gəlməklə öz fəaliyyətində əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqi statusu ilə mütəmadi əlaqəli olan dövlət qurum-

[1] www.supremecourt.gov.az/post/view/132
[2] www.constcourt.gov.az/decisions/291
[3] Seyidov Ə.C. Azərbaycan Respublikası məhkəmə icraatında beynəlxalq hüquq normalarının tətbiqi. Bakı: "Gənclik", 2002, 242 s.

ları (məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi və s.) mövcuddur ki, əlillərlə bağlı həyata keçirilən dövlət siyasətinin müvafiq istiqamətlər üzrə icrasını təmin edir. Həmin qurumlardan, ilk növbədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) adını çəkmək daha düzgün olardı. Belə ki, Dövlət Başçısının 11 yanvar 1999-cu il tarixli 72 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinin 1.1-ci bəndinə uyğun olaraq, sözügedən qurum digər sahələrlə (əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi, əhalinin məşğulluğu, demoqrafiya, tibbi-sosial ekspertiza) yanaşı, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası sahəsində dövlət siyasətinin həyata keçirilməsinə cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanı hesab olunur. Bundan əlavə, bu nazirliyin fəaliyyət istiqamətinin bir neçəsi sırf əlillərlə bağlı hüquqi münasibətlərin nizama salınması və onlara toxunan məsələlərin həyata keçirilməsinə aiddir:

- əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasının və sosial müdafiəsinin təşkil edilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi;
- əlillərə qanunvericiliyə uyğun olaraq sosial-məişət xidmətlərinin göstərilməsinin təmin olunması;
- əlillərin nəqliyyat vasitələri ilə təmin olunması üzrə kompleks tədbirlərin aidiyyəti qurumlarla birlikdə həyata keçirilməsi;
- öz səlahiyyətləri daxilində əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasının və sosial müdafiəsinin təşkili, onların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları və digər reabilitasiya vasitələri ilə təmin edilməsi;
- qanunvericiliyə uyğun olaraq əlillərin və sağlamlıq imkanları məhdud uşaqların tibbi, peşə-əmək və sosial reabilitasiyası sahəsində xüsusi proqramların hazırlanması və icrası;
- əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasının gücləndirilməsi məqsədi ilə əlillərin bərpa mərkəzləri

şəbəkəsinin işinin təkmilləşdirilməsi və mövcud qanunvericiliyə uyğun olaraq ölkənin müxtəlif regionlarında yeni reabilitasiya mərkəzlərinin yaradılmasının təmini;

- əlillərlə və sağlamlıq imkanları məhdud uşaqlarla bağlı informasiya bazasının yaradılması və mütəmadi olaraq təkmilləşdirilməsi;

- istedadlı əlillər və sağlamlıq imkanları məhdud uşaqlar arasında tətbiqi sənət, incəsənət, musiqi, bədən tərbiyəsi və idman sahələrində aidiyyatı qurumlarla birlikdə müvafiq tədbirlərin keçirilməsinin təşkili;

- Azərbaycan Respublikasında fəaliyyət göstərən əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları ilə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi sahəsində əməkdaşlığın həyata keçirilməsi;

- əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara, eləcə də adıçəkilən qurumun tabeliyində olan internat evlərində, pansionatlarda yaşayan bu kateqoriyadan olan şəxslərə tibbi və sosial-məişət xidmətinin təşkili, müvafiq sosial xidmətlərin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə lazımi tədbirlərin görülməsi və bu sahədə öz səlahiyyətləri daxilində nəzarətin həyata keçirilməsi.[1]

Bundan əlavə, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara lazımi şəraitin yaradılması, habelə onların cəmiyyətə inteqrasiyası istiqamətində ƏƏSMN tərəfindən müəyyən tədbirlər həyata keçirilmişdir ki, bunu statistik rəqəmlər də sübut edir. Belə ki, 2015-ci il ərzində görülən işlərə nəzər salarkən belə qənaətə gəlmək olar ki, pərakəndə işçi qüvvəsinin daha səmərəli və etibarlı fəaliyyətini təmin etmək məqsədilə "Əmək Birjaları" tərəfindən 19 nəfər əlil müvəqqəti xarakterli işlərlə göndərilmişdir. Bundan əlavə, müvafiq dövr ərzində Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən olan 199 şəxs mənzillə və 82 nəfər isə fərdi evlə təmin olunmuş,

[1] www.mlspp.gov.az/az/pages/289

eləcə də Bakının Nərimanov rayonunda 132 mənzilli yaşayış binası gözdən əlil şəxslərin istifadəsinə verilmişdir. Əlillərin dövlət hesabına avtomaşınlarla təminatı onların həyat şəraitinin yaxşılaşdırılmasında və cəmiyyətə inteqrasiyasında xüsusi rol oynayır. 2015-ci ildə 400 nəfər imtiyazlı şəxs avtomobillə pulsuz təmin edilmişdir. 2015-ci il ərzində ayrı-ayrı ildönümlərlə əlaqədar, həmçinin sosial-məişət problemlərinin həllinə köməklik məqsədilə ümumilikdə 10216 nəfər əlilliyi olan şəxs və şəhid ailələri birdəfəlik yardımlarla təmin olunmuş, 78 nəfər əlilin tibbi reabilitasiya olunmaları ilə bağlı xərclər ödənilmişdir. Hazırda Nazirliyin tabeliyində olan əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən 12349 nəfər tənha ahıl və əlilə evdə (səyyar) sosial xidmət göstərilir. Tibbi-sosial ekspertiza sahəsində şəffaflığın təmin olunmasına nəzarətin xeyli güclənməsinin nəticəsi olaraq, 2015-ci ildə əlilliyi olan şəxslərdən tam reabilitasiya olunanların sayı 5340 nəfər, hissəvi reabilitasiya olunanların sayı isə 3345 nəfər təşkil etmişdir. 2015-ci il ərzində tibbi-sosial ekspert komissiyalarına ilkin əlillik müəyyən edilməsi məqsədi ilə 35575 nəfər müraciət etmiş və bu şəxslərdən 27023 nəfəri, yəni 75,9%-i əlil hesab edilmişdir. İlkin əlil hesab edilənlərin sayı 2014-cü ilə nisbətən 3969 nəfər azalmışdır. Həmçinin 177917 nəfər şəxs təkrar müayinə edilmiş və bunlardan 172468 nəfəri əlil hesab edilmişdir. 2015-ci ildə əlilliyi olan şəxslərə 1273 ədəd əlil arabası, 539 ədəd eşitmə aparatı verilib, ümumilikdə 5727 nəfərə protez-ortopedik xidmət göstərilib. Nazirliyin bərpa mərkəzlərində 6105 nəfər bərpa-müalicə xidməti ilə təmin olunmuş, eləcə də 135 nəfər əlilliyi olan şəxsin və 130 nəfər sağlamlıq imkanları məhdud uşağın xarici ölkələrdəki reabilitasiya mərkəzlərində bərpa-müalicəsi təşkil etmişdir. Əlilliyi olan insanların məşğulluğuna şərait yaradılması və onların əmək bazarına maneəsiz çıxışının dəstəklənməsi məqsədilə 2015-ci ildə 473 əlilliyi olan şəxs işlə təmin edilmiş, 204 nəfər isə peşə hazırlığı kurslarına cəlb edilmişdir.[1]

---

[1] www.mlspp.gov.az/Senedler-2016/2015%20HESABAT-%C6%8F%C6%8FSMN.pdf

Eyni zamanda Prezidentin “Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında” 14 sentyabr 2015-ci il tarixli 595 nömrəli Fərmanı ilə ƏƏSMN-nin mərkəzləşdirilmiş informasiya sistemində Tibbi Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) yaradılmışdır. Bununla da əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi üçün vətəndaşlara elektron formada müraciət etmək imkanın verilməsi, əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi məqsədi ilə edilmiş müraciətlər, keçirilmiş müayinələr, qəbul edilmiş qərarlar barədə məlumatları elektron formada real vaxt rejimində TSERAS-a ötürülməsinin təmin edilməsi, əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi ilə bağlı məlumatların əldə edilməsi imkanını yaratmaq məqsədi ilə müayinə olunan şəxslərin, işəgötürənlərin və fəaliyyəti ilə bağlı bu məlumatdan istifadə edən dövlət orqanlarının “Elektron hökumət” portalı vasitəsilə TSERAS-a çıxışının təmin edilməsi sahəsində tədbirlər həyata keçirilmiş və sistemin tətbiqinə başlanılmışdır.

Səlahiyyətlərinin icrası zamanı və funksiyaları çərçivəsində əlillərlə bağlı məsələlərə toxunan mərkəzi icra hakimiyyəti orqanlarından biri də Səhiyyə Nazirliyidir (SN). Belə ki, Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.2-ci bəndinə əsasən, əhalinin sağlamlıq vəziyyətini öyrənmək, xəstəliklərin qarşısını almaq, əlillik və ölüm hallarının azaldılması, insanların uzunömürlülüyünün təmin olunması ilə bağlı tədbirləri həyata keçirmək sözügedən mərkəzi icra hakimiyyəti qurumunun hüquqlarından biri qismində çıxış edir.[1] Bununla yanaşı, SN-nin bir sıra digər normativ aktları da məhz əlillərin hüquqlarının realizəsi və müdafiəsi, habelə onların sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Nümunə qismində Nazirliyin Kollegiyasının 13 oktyabr 2014-cü il tarixli 39 nömrəli qərarı ilə təsdiq olunmuş “Reziden-

---

[1] www.sehiyye.gov.az/sehiyye-nazirliyinin-esasnamesi.html

turanı bitirən həkim-mütəxəssislərin iş yerlərinə göndərilməsi Qaydaları", 15 may 2014-cü il tarixli 24/2 nömrəli qərarı ilə təsdiq olunmuş "İcbari tibbi müayinələrin keçirilməsi Qaydası"nı və "İşçinin peşə xəstəliyinə tutulmağı ehtimalı yüksək olan iş yerlərinin siyahısı"na dair Təlimat"ı və s. göstərmək olar.

Azərbaycan Respublikası Prezidentinin 1 mart 2005-ci il tarixli 203 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnaməsinin 8.16-cı bəndinə əsasən, Təhsil Nazirliyinin (TN) funksiyalarının müəyyən hissəsini inkişafında və ya davranışında qüsur olan yetkinlik yaşına çatmayanlara pedaqoji və digər yardım göstərən müəssisələrin inkişafı üçün tədbirlərin görülməsi, aidiyyatı icra hakimiyyəti orqanlarının iştirakı ilə sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin təhsilinin təşkili, inkişafında qüsurlar olan yetkinlik yaşına çatmayanları aşkar edən psixoloji-tibbi-pedaqoji komissiyaların yaradılması təşkil edir. Hətta bununla TN-nin daxili normativ aktları sözügedən qurumun bu sahədəki siyasətinin həyata keçirilməsinin vasitəsi qismində çıxış edir. Nümunə qismində təhsil nazirinin 18 mart 2015-ci il tarixli "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrası barədə" 311 nömrəli əmrini və həmin əmrlə təsdiq olunan müvafiq Fəaliyyət Planını göstərmək olar.[1]

Fəaliyyəti üçün hüquqi baza sayılan əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) vəzifələri sırasına, həmçinin əlil qadınların və uşaqların problemlərinin dövlət orqanları tərəfindən həlli məqsədi ilə müvafiq vəsatətlərin qaldırılması daxildir.[2] Bundan əlavə, Komitənin tabeçiliyində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi (Şüvəlan, Goranboy, Zaqatala, Qəbələ, İsmayıllı, Göygöl, Ağdam, Hacıqabul, Saatlı, Sabirabad, Zərdab) fəaliyyət göstərir. Komitənin Kollegiyasının 15 aprel 2013-cü il tarixli 26-7 nömrəli qərarı ilə təsdiq edilmiş əsasnaməyə uyğun fəaliyyət gös-

---

[1] www.edu.gov.az/az/page/408/10298
[2] www.scfwca.gov.az/?page_id=812

tərən bu mərkəzlər alternativ qayğı modelində, icmada risk qruplarından olan uşaq, qadın və ailələrə göstərilən dəstəyi özündə birləşdirən, xidmətdən kənar, lakin xidmətə yönələn fors-major situasiyalarda lazımi dəstəyi və fəaliyyəti həyata keçirir. Onu da qeyd etmək lazımdır ki, həmin mərkəzlərin fəaliyyətindən bəhrələnən şəxslər arasında fiziki və əqli əlilliyi olan, habelə sağlamlıq imkanları məhdud uşaqlar və onların ailə üzvləri də vardır.[1] Eyni zamanda AQUPDK əlillərin cəmiyyətə inteqrasiyası, habelə onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına dair bir sıra tərəfdaş layihə və proqramlarda iştirak edir. Nümunə qismində Komitənin BMT İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda rolu", habelə müasir dövrdə yeniləşdirilmiş şəkildə icra olunan "Gənc və əlilliyi olan qadınların iqtisadi və sosial həyatda səlahiyyətləndirilməsi" layihəsini[2] göstərmək olar.

Bu sahədə digər dövlət qurumu qismində Gənclər və İdman Nazirliyi (GİN) çıxış edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 392 saylı Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Əsasnaməsi"nə əsasən, Nazirliyin vəzifələri sırasında əlillərlə bağlı müddəalar öz əksini tapmışdır ki, bu da özünü aşağıdakılarda büruzə verir:

- əlil, xüsusilə də müharibə əlili olan gənclərin problemlərinin aidiyyatı icra hakimiyyəti orqanları tərəfindən həll edilməsi məqsədi ilə müvafiq vəsatətlər qaldırmaq;
- əlil olan gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmaları, idman yarışlarında iştirak etmələri üçün əlverişli şərait yaratmaq, belə gənclər arasında ölkə və beynəlxalq idman yarışlarını, o cümlədən Paralimpiya və Surdolimpiya Oyunlarını, Ümumdünya Xüsusi Olimpiya Oyunlarını təşkil etmək və bu yarışlarda əlil idmançıların iştirakını təmin etmək.[3]

[1] www.scfwca.gov.az/?page_id=87
[2] www.scfwca.gov.az/?s=%C9%99lil&lang=az
[3] www.mys.gov.az/ministry/aboutm

Spesifik səlahiyyətlərə və fəaliyyət sferasına malik olan dövlət qurumları da səlahiyyətlərinə uyğun tədbirlərin icrası zamanı, o cümlədən zəruri hallarda və yaranan hüquq münasibətlərinin tələb etdiyi şəraitdə əlillərin hüquqlarının qorunması və müdafiəsi, eləcə də onlarla bağlı qarşıya çıxan problemlərin həllində özünəməxsus rol oynamışlar. Bu məsələdə həmin qurumlar tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlar xüsusi əhəmiyyətə malikdir. Məsələn, *Mərkəzi Bank* (İdarə Heyətinin 18 dekabr 2013-cü il tarixli 25/3 nömrəli qərarı ilə təsdiq olunmuş “Ödəniş statistikası hesabatının tərtibi və təqdim edilməsi haqqında Təlimat” və s.), *Maliyyə Nazirliyi* (Kollegiyanın 23 sentyabr 2014-cü il tarixli Q-20 nömrəli qərarı ilə təsdiq olunmuş “Fiziki şəxslərə təqdim edilən avtomobil nəqliyyatı vasitələrinin tam sığortası üzrə sığorta Qaydaları”, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin məzmununun və formasının təsdiq edilməsi haqqında” 30 iyun 2014-cü il tarixli Q-14 nömrəli qərarı və s.), *Dövlət Statistika Komitəsi* (Kollegiyanın 03 dekabr 2014-cü il tarixli “Tibbi-Sosial Ekspert Komissiyasının fəaliyyəti haqqında” 7-TSEK №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” 38/09 nömrəli və “18 yaşadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu haqqında” 7-TSEK №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” 39/09 nömrəli, “İnternat evləri, ahıllara və əlillərə xidmət göstərən digər müəssisələr haqqında” 1-sosial təminat №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” 31 iyul 2014-cü il tarixli 23/09 tarixli qərarları və s.), *Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi* (Kollegiyanın 27 oktyabr 2015-ci il tarixli 150111500009 nömrəli “Sərnişin stansiya qurğuları və avtomobilləri Standartı”, 14 dekabr 2015 tarixli 150111500015 nömrəli qərarı ilə təsdiq olunmuş “Mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirilmədə meyarların tətbiq

edilməsi Standartı” və s.) və s.

Yuxarıda qeyd olunan bir sıra normativ aktlarda əlillərin müvafiq istiqamətlər üzrə hüquqlarının qorunması və bu kateqoriyadan olan şəxslər üçün müyəssərliyin təmin olunmasına dair müddəalar öz əksini tapmışdır. Məsələn, *Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin* Kollegiyasının 27 oktyabr 2015-ci il tarixli 150111500009 nömrəli qərarı ilə təsdiq olunmuş “Sərnişin stansiya qurğuları və avtomobilləri Standartı”nın 7.1-ci bəndində müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtobusların salonlarının daxili tərtibatında əlillər üçün oturacaq yerlərinə dair texnoloji məlumatın göstərilməsi, eləcə də 7.6-cı bəndində isə uşaq və əlillər üçün yerlər göstəricisinin lövhəsinin müvafiq yerlərlə üzbəüz pəncərə yerinin üzərində vurulmasına dair tələb öz əksini tapmışdır. Bundan əlavə, adıçəkilən sənəddə iki qapılı, fərdi konstruksiya əsasında hazırlanan, habelə əllə idarə olunan əlil avtonəqliyyat vasitələrinin taksi minik avtomobilləri kimi istismarının qadağan olunmasına dair müddəa da ehtiva edilmişdir. Bununla yanaşı, sözügedən qurumun Kollegiyasının 14 dekabr 2015 tarixli 150111500015 nömrəli qərarı ilə təsdiq olunmuş “Mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirilmədə meyarların tətbiq edilməsi Standartı”na əsasən, tikilən və ya tikilməsi nəzərdə tutulan mehmanxana və mehmanxana tipli obyektlərdə təkərli əlil arabası və ya köməyə qismən ehtiyacı olan əlil şəxslər, elektrik təkərli araba, kor və ya görmə qüsuru olan şəxslər, habelə kar və ya eşitmə qüsuru olan şəxslər üçün şəraitin yaradılması və lazımi yerlərin müəyyənləşdirilməsi tələbi qoyulmuşdur. *Maliyyə Nazirliyinin* Kollegiyanın 23 sentyabr 2014-cü il tarixli Q-20 nömrəli qərarı ilə təsdiq olunmuş “Fiziki şəxslərə təqdim edilən avtomobil nəqliyyatı vasitələrinin tam sığortası üzrə sığorta Qaydaları”nda Sığorta ödənişinin verilməsi və onun əsasları, sığorta riskləri, sığorta hadisəsi və ona dair bəzi tələblər kimi məsələlərdə əlillik meyarı da nəzərə alınmışdır. Eyni zamanda bu qurumun Kollegiyasının “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin

itirilməsi hallarından icbari sığorta müqaviləsinin məzmununun və formasının təsdiq edilməsi haqqında" 30 iyun 2014-cü il tarixli Q-14 nömrəli qərarının 12.3-cü bəndində göstərilmişdir ki, sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunana əlillik növbəti müayinə müddəti göstərilmədən təyin edildikdə, ona qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanan aylıq sığorta ödənişi məbləğləri cəm halda birdəfəlik olaraq verilir.

Müstəqillik əldə etdikdən sonra beynəlxalq hüquq normalarının tələbləri və beynəlxalq təşkilatların tövsiyələrinə əsasən formalaşdırılan bir sıra mexanizmlərin insan hüquqları və əsas azadlıqlarının müdafiəsi sahəsində fəaliyyəti xüsusilə nəzərə çarpmağa başlamışdır. Nümunə qismində 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu ilə təsis edilən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilini (Ombudsmanı) göstərmək olar. İnsan hüquqlarının müxtəlif aspektləri, o cümlədən əhalinin həssas təbəqəsinə daxil olan əlillərin hüquqlarının qorunması və müdafiəsi daim Müvəkkilin diqqət mərkəzində olmuşdur. Belə ki, Müvəkkilin 04 may 2005-ci il tarixli 111 nömrəli Sərəncamına müvafiq olaraq əhalinin müxtəlif kateqoriyalarının, o cümlədən əlillərin hüquq və azadlıqlarının müdafiəsi işinin əlaqələndirilməsinin təmin edilməsi məqsədilə Ombudsman yanında müxtəlif sahələr üzrə ictimai əsaslarla fəaliyyət göstərən "ixtisaslaşdırılmış müşavirlər" institutu yaradılmış və Aparatın əməkdaşları sırasından müvafiq sahələr üzrə ixtisaslaşdırılmış müşavirlər təyin edilmişdir. İxtisaslaşdırılmış müşavirlərə mütəmadi olaraq müvafiq sahələr üzrə milli qanunvericilik və beynəlxalq-hüquqi aktların, bu sahədə ölkədəki vəziyyətin təhlil edilməsi, ayrı-ayrı istiqamətlər üzrə təkliflər və tədbirlər planının hazırlanması bir vəzifə olaraq tapşırılmışdır. Ombudsmanın əlillərin hüquqları üzrə ixtisaslaşdırılmış müşaviri də öz növbəsində işini Müvəkkilin məlum Sərəncamına uyğun quraraq, onun əlillərin hüquqlarının müdafiəsi üzrə vermiş olduğu xidməti tapşırıqları icra edir.[1]

[1] Mahmudov M.B. Ombudsmanın fəaliyyətində əlillərin sosial-hüquqi müdafiəsi / Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin fəaliyyətinin beş

Əlillərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsman öz səlahiyyəti çərçivəsində zəruri tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumları qarşısında vəsatətlə çıxış etmiş, eləcə də müəyyən təkliflərin realizəsini irəli sürmüşdür. Görülən işlər və verilən təkliflər istər qanunvericilik aktlarının təkmilləşdirilməsi və müvafiq beynəlxalq-hüquqi sənədlərə uyğunlaşdırılması, istərsə də cari problemlərin həlli baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2014-cü il üzrə illik məruzəsi"ndə də göstərildiyi kimi, UNİSEF-in Azərbaycandakı Nümayəndəliyinin, aidiyyəti dövlət orqanlarının və ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının təklifləri də nəzərə alınmaqla "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun, "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Proqramının (2015-2020-ci illər)" layihələri daha da təkmilləşdirilməsi üçün ictimai müzakirəyə təqdim edilmiş, müvafiq rəy və təkliflər hazırlanaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir. Eyni zamanda 2006-cı il Konvensiyasına uyğun olaraq hazırlanmış və Müvəkkilin təkliflərinin böyük bir qisminin nəzərə alındığı "2014-2020-ci illərdə İnklüziv təhsilin inkişafına dair Dövlət Proqramı"nın və "Bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri olan fəaliyyət şəraitinin yaradılması Qaydaları"nın layihələrində müxtəlif mətnlərdən, Brayl əlifbasından, toxunmaqla duyulan ünsiyyətdən, böyük şriftdən, mümkün multimedia vasitələrindən, eləcə də çap materiallarından və audio vasitələrdən, habelə mümkün informasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla, ünsiyyətin gücləndirici və alternativ metodlarından, üsul və formatlarından istifadə ilə bağlı tədbirlər və digər mühüm məsələlər öz əksini tapmışdır.

---

illiyinə həsr olunmuş "Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı" mövzusunda elmi-praktiki konfransın materialları. E.Süleymanovanın ümumi redaktəsi ilə. Bakı, 2007, s. 345-371

Həmçinin Müvəkkil ölkəmizin qanunvericiliyinə “əlilliyi olan şəxs” termininin daxil edilməsi ilə hazırda istifadə olunan qeyri-münasib terminlərdən imtina olunması üçün müvafiq qanunvericilik aktlarının Konvensiyaya uyğun olaraq təkmilləşdirilməsini təklif etmişdir. Bununla yanaşı, Müvəkkil müxtəlif səbəblərdən əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara (autizm və daun sindromlu, eşitmə və nitq problemli və s.) kompleks reabilitasiya xidmətlərinin (tibbi, sosial, psixo-pedaqoji və s.) göstərilməsi üçün müxtəlif profilli reabilitasiya-inkişaf mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi, bu sahədə ixtisaslaşmış kadrların hazırlanması, respublikanın şəhər və rayonlarının uşaq müalicə-profilaktika və təhsil müəssisələrində surdoloji və loqopedik kabinetlər şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı məsələlər də Müvəkkilin irəli sürdüyü təkliflər sırasındadır. Bundan əlavə, Müvəkkil Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Əlil Təşkilatları İttifaqı tərəfindən hazırlanmış və təsdiq edilməsi üçün Nazirlər Kabinetinə təqdim edilmiş “Bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri fəaliyyət şəraitinin yaradılması Qaydaları”n daha da təkmilləşdirilərək təsdiqinin və icrasının sürətləndirilməsini təklif etmişdir.[1]

Eyni zamanda qayğıya daha çox ehtiyacı olan qrupların bir sıra problemlərinin həlli məqsədilə Ombudsmanın təklif etdiyi müddəaların bir hissəsi əlillərin vəziyyətinin yaxşılaşdırılması, habelə onların hüquqlarının qorunması və müdafiəsi səviyyəsinin daha da təkmilləşdirilməsi məsələlərinə aiddir. Həmin təkliflər qismində aşağıdakıları göstərmək olar:

- “Avropa Sosial Xartiyası”nın digər müddəaları ilə yanaşı, 15-ci (əlil şəxslərin müstəqillik, sosal inteqrasiya və ictimai həyatda iştirak etmək hüququ) maddəsinin Azərbaycan Respublikası tərəfindən tədricən ratifikasiya edilməsi;
- ölkəmizin BƏT-in 1952-ci il tarixli 102 nömrəli “Sosial təminatın minimum normaları haqqında” Konvensiyasına qoşul-

[1] www.ombudsman.gov.az/az/view/pages/59

ması;

- "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli, 258 saylı Fərmanına əlavə və dəyişikliklər edilməsi (Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərin vəfatından sonra onların arvadına (ərinə), valideynlərinə, 18 yaşına çatmamış və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlarına, uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına, qanunla onları saxlayan şəxs olmadıqda baba və nənələrinə təyin edilməsi, 18 yaşına çatmamış və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqları, uşaq evlərində tərbiyə olunan qardaş və bacıları tədris müəssisələrində əyani təhsil aldıqda, həmin təqaüd təhsili bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək ödənilməsi məqsədilə);

- əlilliyi olan şəxslərin məşğulluq probleminin həlli məqsədi ilə onlar üçün bərabər imkanların yaradılması, qanunvericiliklə nəzərdə tutulmuş qaydada kvota üzrə iş yerlərinin müəyyən edilməsinə diqqətin artırılması, onların işlə təmin olunması üçün nəzərdə tutulan kvotaların yerinə yetirilməsində fəallıq göstərən işəgötürənlərin həvəsləndirilməsi üçün tədbirlərin həyata keçirilməsi;

- əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsil imkanlarının genişləndirilməsi məqsədilə təhsil qanunvericiliyinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, həmçinin "İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi prosesinin sürətləndirilməsi;

- ölkəmiz tərəfindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatı çərçivəsində 27 iyun 2013-cü ildə qəbul olunmuş "Korların, görmə qüsurlu və çap informasiyasını qavramaq imkanı məhdud olan şəxslərin nəşr edilmiş əsərlərə çıxış imkanlarını asanlaşdırmaq haqqında" Mərakeş Müqaviləsinin ratifikasiya edilməsi;

- BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının 33.2-ci maddəsi ilə nəzərdə tutulmuş müstəqil monitorinq mexa-

nizmi funksiyalarının Müvəkkil tərəfindən həyata keçirildiyi nəzərə alınaraq, müvafiq Konstitusiya Qanununa əlavə və dəyişikliklərin edilməsi.[1]

Bütövlükdə, hazırda əlillərin müdafiəsi və onların hüquqlarının qorunması sahəsində Ombudsmanın fəaliyyəti danılmazdır. Bu hal təkcə beynəlxalq-hüquqi normaların və dövlətdaxili qanunvericilik aktlarının realizəsi kontekstində deyil, həm də praktiki tədbirlərin həyata keçirilməsində özünü büruzə verir.[2]

Ölkəmizdə korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması istiqamətində atılan addımların ən mühümü sayılan, habelə məmur-vətəndaş münasibətlərinin şəffaflaşdırılması, dövlət qurumlarının xidmətlərindən istifadə etmək istəyən vətəndaşların əlavə xərclərdən və vaxt itkisindən azad olunması sahəsində regional və qlobal səviyyədə uğurlu layihələrdən olan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi son illər korrupsiyanın qarşısının alınmasında çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı ilə yaradılmış Agentlik aşağıdakı tədbirləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı sayılır:

- ölkə ərazisində "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi;
- xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi;
- nəzarət və qiymətləndirmənin aparılması;
- dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası;
- elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi.

Fəaliyyət istiqaməti etibarilə, Agentlik öz işini vahidlik və

[1] www.ombudsman.gov.az/az/view/pages/59

[2] Süleymanova E.T. Əlilliyi olan insanların hüquqi müdafiəsi və cəmiyyətə inteqrasiyası sahəsində Ombudsmanın fəaliyyəti / "Əlilliyi olan insanların cəmiyyətə inteqrasiyası: problemlər və perspektivlər" mövzusunda 5 may 2008-ci il tarixdə keçirilmiş Konfransın materialları. Bakı, 2008, s. 70-77

əlaqələndirmə, nəzarət, qiymətləndirmə, dövlət qulluqçularının etik davranış qaydalarının həyata keçirilməsinin təmini, qeydiyyat-uçot işlərinin aparılması əsasında qurur. Səciyyəvi fəaliyyət dəyərlərinə və prinsiplərinə malik olan Agentlik, eyni zamanda hər birinin özünəməxsus müəyyən strateji hədəflərə malik olduğu beş strateji məqsədə *(dövlət xidmətlərinin əlçatanlığının təmin edilməsi; elektron xidmətlərin inkişafı və genişləndirilməsi; inkişaf yönümlü və rəqabətcil insan resurslarının idarəedilməsi sisteminin qurulması; səmərəliliyi və effektivliyi təmin edən yeni korporativ idarəetmə sisteminin formalaşdırılması; "ASAN xidmət" brendinin ölkədaxili və beynəlxalq nüfuzunun artırılması)* malikdir.[1]

Agentliyin fəaliyyətinin əsas özəyini və aparıcı istiqamətini, habelə vətəndaş-məmur münasibətlərinin formalaşdırılmasında mühüm mexanizm sistemini məhz "ASAN xidmət"lər (Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) şəbəkəsi təşkil edir. Şəbəkə Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli 685 nömrəli Fərmanı ilə Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmışdır. Sözügedən Fərmanla "ASAN xidmət" mərkəzlərdə fəaliyyətin həyata keçirilməsi və vətəndaşlara xidmət göstərilməsi mexanizminin əsas müddəaları öz əksini tapmışdır. Yeri gəlmişkən, vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən mərkəzlərin "ASAN xidmət" mərkəzləri adlandırılması xüsusi olaraq seçilmişdir. "ASAN xidmət", ilk növbədə, dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən yeni yanaşmanın formalaşdırılmasıdır. Bu, dövlət idarəçiliyinə özəl sektorda geniş yayılmış "müştəri məmnunluğu" ideyasının inkorporasiya edilməsidir və ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verəcək.[2]

---

[1] Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. Strateji Plan 2014-2016. Bakı, 2014, 15 s. – www.asan.gov.az/uploads/images/stp.pdf

[2] www.apa.az/print/266564

Agentlik vətəndaşlara xidməti iki formada – aktiv və proaktiv formada həyata keçirir.[1] Aktiv formada fəaliyyətin təşkil "ASAN xidmət" mərkəzləri vasitəsilə təmin edilir. "ASAN xidmət" mərkəzləri isə müxtəlif dövlət orqanları tərəfindən göstərilən xidmətlərin "bir qapı" prinsipi əsasında vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini, həmin xidmətlərin göstərilməsinin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, rahatlıq prinsipləri və qanunvericiliyin tələbləri əsasında həyata keçirilməsinə nəzarəti təmin edən qurumlardır. Proaktiv formada xidmət isə "səyyar xidmət" vasitəsilə həyata keçirilir. Əgər aktiv xidmətlərin əldə edilməsi üçün vətəndaşın birbaşa olaraq "ASAN xidmət" mərkəzinə gəlməsi tələb olunursa, "səyyar xidmət"lərdə xidmətin realizəsi bilavasitə vətəndaşın öz evində təmin olunur. Bu xidmətlər müasir texnoloji avadanlıqlarla təchiz edilmiş nəqliyyat vasitələrindən istifadə edilməklə həyata keçirilir. Qeyd etmək lazımdır ki, bu xidmətdən digər kateqoriya şəxslərlə yanaşı, əlillər və sağlamlıq imkanları məhdud uşaqlara da çoxsaylı səyyar xidmətlərin göstərilməsi məqsədilə peşəkar səviyyədə istifadə olunur.

Dövlət idarəetməsi və institusional mexanizmlərin təkmilləşdirilməsi kontekstində vətəndaşlara göstərilən xidmətlərin yüksək səviyyədə qurulması və məmur süründürməçiliyinin qarşısının alınması, eləcə də vaxt itkisinin qarşısının alınması müxtəlif universal və regional beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Azərbaycanla bağlı dərc etdiyi hesabatında,[2] habelə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarının Ofisinin

---

[1] Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. Strateji Plan 2014-2016. Bakı, 2014, 15 s. – www.asan.gov.az/uploads/images/stp.pdf

[2] Organization for Economic Co-operation and Development. Anti-Corruption Network for Eastern Europe and Central Asia. Istanbul Anti-Corruption Action Plan. Third Round of Monitoring. Azerbaijan Monitoring Report. Paris, 2013, 93 p.

Biznes və İnsan hüquqları üzrə İşçi Qrupu,[1] Dünya Bank,[2] Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi,[3] BMT-nin İnkişaf Proqramı[4] tərəfindən yüksək qiymətləndirilmişdir.

Ümumiyyətlə, "ASAN xidmət" modeli Azərbaycan Respublikası praktikasında dövlət idarəçiliyi sahəsində innovativ model sayılır. Bunu onun fəaliyyəti, vətəndaş məmnunluğunun təmin olunması, dövlət qurumları ilə vətəndaşlar arasında qarşılıqlı münasibətlərin effektivliyinin və keyfiyyətinin genişləndirilməsi, eyni zaman kəsiyində müxtəlif dövlət xidmətlərindən yararlanmaq imkanı, onlayn və digər analoji ödəmə vasitələrinə üstünlük verilməsi və korrupsiya riskinin minimuma endirilməsi, məmurla vətəndaş arasında birbaşa əlaqənin minimuma endirilməsi və ya aradan qaldırılması, vətəndaşların növbə gözləməsi rejiminin elektron formada müəyyən edilməsi və digər məsələlər sübut edir.[5]

Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində Agentliyin konkret praktiki fəaliyyətinə gəldikdə isə bununla bağlı sözügedən qurumun normativ aktlarını göstərmək olar. Belə ki, Agentliyin Kollegiyasının 4 oktyabr 2013-cü il tarixli 9/14-05 nömrəli "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının şöbələrinin və tabeliyində olan "ASAN xidmət" mərkəzlərinin əsasnamələrinin təsdiq edilməsi haqqında" qərarının 3.1.6-cı, eləcə də 10 aprel 2014-cü il tarixli 1/1-07 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Prezidenti ya-

---

[1] Statement at the end of visit to Azerbaijan by the United Nations Working Group on Business and Human Rights, Baku, 27 August 2014 – www.ohchr.org/EN/News-Events/Pages/DisplayNews.aspx?NewsID=14965&LangID=E

[2] Azərbaycanın diplomatik xidmət orqanlarının rəhbərləri 3 saylı Bakı "ASAN xidmət" mərkəzində olmuşlar // "Yeni Azərbaycan" qəzeti, 7 mart 2015

[3] www.diplomatmagazine.com/issues/2014/september-october/888-azerbaijan-s-e-government-based-one-stop-shop.html

[4] www.undp.org/content/undp/en/home/presscenter/speeches/2014/10/02/helen-clark-speech-at-the-iv-baku-international-humanitarian-forum

[5] Azerbaijan`s E-Government based one-stop-shop – www.diplomatmagazine.com-/issues/2014/september-october/888-azerbaijan-s-e-government-based-one-stop-shop.html

nında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili Qaydaları”nın 7.7-ci maddəsinə əsasən, kənardan qulluğa və yardıma ehtiyacı olan I qrup əlillərin, habelə sağlamlıq imkanları məhdud uşaqların səyyar xidmət üçün nəzərdə tutulan ödənişlərdən azad olunması və bu kateqoriya şəxslərlə bağlı səyyar xidmətin əlavə ödəniş aparılmadan həyata keçirilməsi təsbit olunmuşdur.

Görülən işlərin statistik göstəricilərdə öz əksini tapması da Agentliyin fəaliyyətinin düzgün və şəffaf qaydada qurulmasının, nəticə etibarilə vətəndaşların məmnunluğunun ifadə formasının təzahürü sayıla bilər. Belə ki, 2015-ci il ərzində Bakı şəhərində həyata keçirilən səyyar xidmət üzrə 1946 vətəndaş müraciətinə baxılmışdır. Onlardan 282 nəfəri kənardan qulluğa ehtiyacı olan əlillərin, 2 nəfəri isə sağlamlığı məhdud olan uşaqların payına düşür. Bakı şəhərində həyata keçirilən səyyar xidmət fəaliyyətə başladığı gündən etibarən ümumilikdə 2854 müraciətə baxılmışdır ki, onların da 489-u kənardan qulluğa ehtiyacı olan əlillər, 10-u isə sağlamlığı məhdud olan uşaqlardır. Bundan əlavə, 2014-2015-ci illər ərzində Bakıda həyata keçirilən səyyar asan xidmətlərə müraciət edən vətəndaşların sosial statusuna nəzər salarkən, belə qənaətə gəlmək olar ki, müraciət edənlərin 17,10%-ni kənardan qulluğa ehtiyacı olan əlillər, 0,40%-ni isə sağlamlıq imkanları məhdud uşaqlar təşkil edir.[1] Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın III fəslinə dair həyata keçirilməsi Agentliyə həvalə edilmiş tədbirlərin icrası üzrə 2014-cü ildə Bakı şəhərində yaşayış və iş yerini, habelə olduğu

---

[1] “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2015-ci il üzrə Hesabatı”. Bakı, 2015, 37 s. – www.vxsida.gov.az/images/files/DA_Hesabat_2015.pdf

yeri tərk etmədən xidmətlərə müraciət imkanı təmin edilmiş və müvafiq səyyar xidmət üzrə 880 müraciətə baxılmış, 754 hazır sənəd verilmişdir. Müraciət edənlərin 208-ci kənardan qulluğa ehtiyacı olan əlillər, 8-i isə sağlamlıq imkanları məhdud olan uşaqlardır.[1]

Onu da qeyd etmək lazımdır ki, Agentlik təkcə vətəndaşlara qanunvericiliklə nəzərdə tutulan xidmətlərin həyata keçirilməsini təmin etmir, eyni zamanda əhalinin həssas təbəqəsi üçün bir sıra təşviqedici layihələrin icrasına da xüsusi diqqət yetirir. Bunun bariz nümunəsi kimi ASAN könüllüləri tərəfindən 2015-ci il ərzində əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə (uşaqlara), qaçqınlara və məcburi köçkünlərəköməklik edilməsi, hüquqi və mədəni maarifləndirmə işinin aparılması, uşaq və gənclərin təhsilinin, tərbiyəsinin, fiziki və əqli inkişafının, idmanın və sağlam həyat tərzinin, mədəni və mənəvi irsin qorunmasının təbliği, ətraf mühitin mühafizəsi ilə bağlı bir çox layihələr ("Yaşıl ASAN" təşəbbüsü, "ASAN məktub", "Hərəyə bir kitab bölüşək", Əl işləri sərgisi, Milli filmlərin təqdimatı, "ASAN bələdçi", "Hər uşaq bir çiçəkdir", Uşaq hüquqları günü, Xalqların sülh hüququ və s.) həyata keçirilmişdir.[2]

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, əlilliyə dair dövlət siyasətinin həyata keçirilməsində hansı dövlət qurumunun iştirak etməsindən asılı olmayaraq, sözügedən dövlət siyasəti onların bərabərhüquqluğunun təmin edilməsi baxımından iki strategiyanın həyata keçirilməsini şərtləndirir:

1) Əlilliyi olan şəxslər kateqoriyası müəyyənləşdirilir, eləcə də şəxsi göstəriciləri müəyyən olunmaqla və şəxsiyyəti eyniləşdirilməklə, onlara xüsusi xidmətlər təqdim olunur.

2) Bu şəxslərə xidmətlər kateqoriyası xüsusi əsaslarla təqdim olunur.

Hər iki halda əlillərə xüsusi kateqoriyalı şəxs statusu verilir,

[1] www.vxsida.gov.az/redirect/post/pid/1162

[2] "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2015-ci il üzrə Hesabatı". Bakı, 2015, s.31-32 – www.vxsida.gov.az/images/files/DA_Hesabat_2015.pdf

cəmiyyətə adaptasiyası və inteqrasiyası, habelə bunlardan irəli gələn digər problemlər (depressiyanın aradan qaldırılması, özünütəsdiq və özünəinam hisslərini formalaşdırmaq və s .) də həll olunur.[1]

Təhlil olunanları nəzərə alaraq, əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində fəaliyyət mexanizminin formalaşmasında Azərbaycan Respublikasının dövlət orqanlarının yeri və rolu, habelə bu sahədə meydana çıxan yeni tendensiya və yanaşmalarla bağlı aşağıdakı nəticələrə gəlmək olar:

1) İlk növbədə, hüquq normalarının yerinə yetirilməsinə dövlət qurumlarının fəaliyyətinin təsirinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, bütövlükdə dövlət idarəçiliyinin formalaşması üçün konkret dövlətin tarixi inkişaf yolu və dövlətçilik ənənələri, habelə beynəlxalq hüquq normaları və beynəlxalq qurumların müəyyən tövsiyələri nəzərə alınmaqla, lazımi hüquqi bazanın yaradılması və nəzarət mexanizminin qurulması xüsusilə vacib məsələdir. Eyni zamanda formalaşdırılan və inkişaf etdirilən dövlət idarəçiliyinin sürətlə dəyişən ictimai münasibətlərə adekvat və çevik reaksiyası, habelə bununla bağlı gün-gündən dərinləşən və genişlənən beynəlxalq münasibətlər kontekstində dövləti maraqlar da mütləq şəkildə nəzərə alınmalıdır. Həmçinin qurulan mexanizmin və idarəçiliyin vətəndaşla münasibətlərinin şəffaflaşdırılması, məmur-vətəndaş asılılığının qismən aradan qaldırılması da zəruri şərtlərdən biridir. Bunu müasir dövrdə durmadan genişlənən elmi-texniki tərəqqinin nailiyyətləri və informasiya-kommunikasiya texnologiyalarının hərtərəfli inkişafı da tələb edir. Digər tərəfdən, istənilən halda konkret tədbirlərin həyata keçirilməsi bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan üç həlqənin vacibliyini ortaya qoyur: 1) planlaşdırma; 2) icra mexanizmi və qaydası; 3) nəzarət və monitorinq mexanizmi.

---

[1] Романов П.В., Ярская-Смирнова Е.Р. Политика инвалидности: социальное гражданство инвалидов в современной России. Саратов: Изд-во «Научная книга», 2006, с.23-34

Bunlardan hər hansı biri olmadıqda və ya düzgün qurulmadıqda mənfi halların yaranmasına gətirib çıxarır. Onu da qeyd etmək lazımdır ki, həmin zəncirvari həlqələr formalaşdırılarkən hər bir ölkə və konkret inzibati-ərazi vahidi üçün səciyyəvi olan yerli şərait, milli dövlətçilik ənənələri və beynəlxalq hüquq normaları nəzərə alınmalıdır.

2) 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycanın bütövlükdə idarəetmə sistemində həyata keçirilən dəyişikləri və gedən inkişaf tendensiyasını üç mərhələyə ayırmaq olar. Birinci mərhələ 1991-1995-ci illəri əhatə edir ki, həmin illərdə ölkədə mövcud olan dövlətin fəaliyyət mexanizminin müstəqil və suveren dövlətin tələb və ehtiyacları ilə uyğunlaşdırılması prosesi daha çox təzahür etmişdir. Bu, bir tərəfdən təxminən 70 ildən çox olan bir dövrdə Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olması nəticəsində qanunvericilik aktları və idarəetmə mexanizminin müvafiq imperiyanın hüquq normaları ilə idarə olunması, digər tərəfdən isə birpartiyalı sistemin, dövlət-partiya münasibətlərinin vahid nöqtədə cəmləşdiyi və mərkəzdən idarə olunma xüsusiyyətlərinin mövcud olduğu totalitar rejimdən plüralizm, hüquqi dövlət, hakimiyyətlərin bölünməsi prinsipinin fəaliyyət göstərdiyi demokratik rejimə keçidlə əlaqədardır. Lakin bu dövrdə Ermənistan-Azərbaycan silahlı münaqişəsinin davam etməsi, torpaqlarımızın 20%-nin işğalı, daxili anarxiya və özbaşınalıqların olması, habelə əhalinin yoxsulluq səviyyəsinin və inflyasiyanın maksimum dərəcəyə çatması bu prosesin zəif şəkildə aparılmasına səbəb olmuşdur. İkinci mərhələ 1995-2003-cü illəri əhatə edir. Bu dövr hüquqi islahatların güclənməsi, beynəlxalq hüquq normalarının implementasiyası və dövlətdaxili qanunvericilik aktlarının beynəlxalq hüquqa uyğunlaşdırılması, dövlət idarəetməsinin yenidən qurulması ilə xarakterizə olunur. Buna 1994-cü ilin may ayının 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması, 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu, beynəlxalq hüquq normalarının implementasiyası prosesinin sürətləndirilməsi və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin genişləndirilməsi, insan hüquqlarının müdafiəsinə dair döv-

lətdaxili qanunvericilik aktlarının qəbulu, dövlət qurumlarının əksəriyyətinin yeniləşdirilmiş strukturunun təşkili və əsasnamələrinin təsdiqlənməsi kimi məsələlər təkan vermişdir. Eyni zamanda həmin dövrdə, yəni 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) təsis edilmişdir. Üçüncü mərhələ isə 2003-cü ildən hal-hazıradək olan dövrü əhatə edir. Sözügedən dövrdə ayrı-ayrı istiqamətlər üzrə konkret illəri əhatə edən dövlət proqram, fəaliyyət planı və strategiyalarının qəbulu və bu sahədə müxtəlif dövlət qurumlarının fəaliyyətinin kompleks şəkildə əlaqələndirilməsi xarakterik keyfiyyətlərdən biridir. Eyni zamanda bu mərhələdə Azərbaycan sosial-demokratik yönümlü xətti əsas yol kimi seçərək, vətəndaşların, xüsusilə əhalinin həssas təbəqəsinin (o cümlədən, əlillərin) sosial vəziyyətinin yaxşılaşdırılması və onların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilməkdədir. Hətta bununla əlaqədar, eləcə də yoxsulluğun azaldılması və davamlı inkişaf, ölkəmizin gələcək inkişafına dair strateji hədəflərinə dair dövlətdaxili aktlar qəbul edilmişdir. Eyni zamanda korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması istiqamətində mühüm addım sayılan və ölkəmizin "ixtirası" sayılan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması da məhz bu dövrün məhsulu sayılır.

3) Əlillərin hüquqlarının qorunması və müdafiəsi təkcə aidiyyəti qurumların səlahiyyəti çərçivəsində deyil, demək olar ki, əksər dövlət orqanlarının fəaliyyətində özünü büruzə verir. Eyni zamanda əlillərə vahid məkan çərçivəsində xidmətlərin göstərilməsi (məsələn, "ASAN xidmət" mərkəzlərində) onların rahatlığının təmin olunması və vaxt itkisinin azaldılması, habelə məmur-vətəndaş münasibətləri sahəsində şəffaflığın artırılmasına xidmət edir.

4) Ölkəmizdə əlillərin bir sıra hüquqlarının qorunması sahəsində müəyyən çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi məqsədəmüvafiq olardı. Bu, xüsusilə

"Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının 30-cu maddəsində təsbit olunmuş istirahət hüququnun təmin edilməsi kontekstində sosial turizmin inkişafı üçün zəruri tədbirlərin görülməsi, habelə sözügedən beynəlxalq hüquqi sənədin 29-cu maddəsində əlillərin siyasi və ictimai həyatda iştirak məsələsinin təşviq olunmasında özünü büruzə verir. Doğrudur, müxtəlif dövlətdaxili sənədlərdə ("Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və s.), xüsusilə Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli 838 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsinə dair Tədbirlər Planının 2.3.7-ci bəndində mövcud məsələnin göstərilməsi bu sahəyə xüsusi diqqətin artırılmasını tələb edir. Sosial turizmin inkişafına dair məsələ bir sıra beynəlxalq sənədlərdə (məsələn, Ümumdünya Turizm Təşkilatının 1980-ci il tarixli Manila Bəyannaməsi və s.) öz əksini tapmışdır. Eyni zamanda əlillərin ictimai və siyasi həyatda, o cümlədən passiv seçki hüququndan istifadə məsələləri təşviq olunmalıdır. Heç olmazsa, yerli özünüidarəetmə səviyyəsində - bələdiyyələrdə təmsil olunmaq, yerli sosial müdafiə və sosial inkişaf, habelə yerli iqtisadi inkişaf proqramlarının qəbulu və icrasında yaxından iştirak etmək istənilən halda öz problemlərinin daha düzgün qabardılmasına əsas verə bilər. Bu həm də müxtəlif sosial layihələrdə ayrı-ayrı kateqoriya əlillərin iştirakı və onların maraqlarına toxunan məsələləri əhatə etməsinə də şərait yaradacaqdır. Digər tərəfdən, onların ictimai və siyasi həyatda yaxından iştiraklarının həvəsləndirilməsi özünütəsdiqin və özünəinamın əsas vasitələrindən biridir.

5) Müasir elmi-texniki tərəqqinin nailiyyətlərindən və informasiya texnologiyalarının yaratdığı imkanlardan yararlanmaqla, əlillərin informasiya-kommunikasiya texnologiyalarından istifadəsinə şərait yaradılması üçün zəruri tədbirlərin görülməsi zəruri-

dir. Bu hal, eyni zamanda onlar arasında işsizlik probleminin həlli və məşğulluğun təmin olunmasına müsbət təsir göstərə, o cümlədən müxtəlif sahələrdə həmin şəxslərin yaxından iştirakına öz töhfəsini bəxş edə bilər.

# NƏTİCƏ

Aparılan tədqiqat işini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, əlillər əhalinin həssas təbəqəsini təşkil etməklə, öz sıralarında müxtəlif kateqoriyadan olan şəxsləri (qadınlar, uşaqlar, qaçqınlar, yerli xalqlar, turistlər, miqrantlar və s.) birləşdirir. Bu isə əlillərin statusu və onların hüquqlarının müdafiəsinə kompleks yanaşmanı tələb edir. Eyni zamanda insan hüquqları və əsas azadlıqların realizəsi zamanı, əlillərin səciyyəvi şəxsi ehtiyacları mütləq şəkildə nəzərə alınmalıdır. Əlillərin hüquqlarına kompleks yanaşmanı zəruri edən amillərdən biri də onların müdafiəsinə dair normaların digər beynəlxalq sənədlərdə, eləcə də BMT-nin ixtisaslaşmış təsisatlarının və insan hüquqlarının müdafiəsinə dair nəzarət mexanizmlərinin sənədlərində təsbit olunmasıdır.

XX əsrin 40-cı illərindən başlayaraq, əlillərin hüquqları insan hüquqlarının müdafiəsinin tərkib hissəsi sayılmağa başlamışdır. Doğrudur, ilk öncə, ümumi insan hüquqlarına dair müddəalarda təsbit olunmasına baxmayaraq, sonrakı illərdə bu sahədə "xüsusiləşmə" özünü daha çox büruzə verməyə başlamışdır. Bu sahədə inkişafın ən mühüm nöqtəsi 2006-cı ildə "Əlillərin hüquqları haqqında" Konvensiyanın qəbulu olmuşdur. Həmin sənədin özündə də müəyyən çatışmazlıq və boşluqların olmasına baxmayaraq, bu sahədə mütərəqqi addım hesab olunmalıdır. Eyni zamanda Konvensiyanın qəbulu nəticəsində Əlillərin hüquqları üzrə Komitənin fəaliyyətə başlaması bu kateqoriyadan şəxslərin hüquqlarının müdafiəsinin effektivliyinə də müsbət təsir göstərmişdir.

Hər bir beynəlxalq hüquq normasının və icrası mexanizminin effektivliyi dövlətdaxili qanunvericilik aktlarına implementasiyanın səviyyəsindən asılıdır. Şübhəsiz ki, bu sahədə maraq kəsb edən məsələlərdən biri beynəlxalq hüquq normaları ilə Azərbaycan Respublikasının qanunvericiliyinin qarşılıqlı əlaqəsinin təhlil olunmasıdır. Bunun üçün, ilk növbədə, nəzərə almaq lazımdır ki, Azərbaycan təxminən 70 il keçmiş SSRİ-nin tərkib hissəsi ol-

maqla, vahid məkan çərçivəsində unifikasiya olunmuş qanunvericilik aktlarından istifadə etmişdir. 1991-ci ilin oktyabrında müstəqillik qazandıqdan və beynəlxalq hüququn tamhüquqlu üzvünə çevrildikdən sonra ölkəmizin beynəlxalq sənədlərə mərhələlərlə qoşulması və bununla da qanunvericilik sisteminin inkişafı nəzərə çarpmağa başlamışdır. Məhz bu baxımdan 1991-ci ildən hal-hazıradək Azərbaycanın bütövlükdə idarəetmə sistemində həyata keçirilən dəyişiklikləri və qanunvericilik sisteminin formalaşmasında gedən inkişaf tendensiyasını üç mərhələyə ayırmaq olar. Birinci mərhələ 1991-1995-ci illəri əhatə edir ki, həmin illərdə ölkədə mövcud olan dövlətin fəaliyyət mexanizminin müstəqil və suveren dövlətin tələb və ehtiyacları ilə uyğunlaşdırılması prosesi daha çox təzahür etmişdir. Bu, bir tərəfdən təxminən 70 ildən çox olan bir dövrdə Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olması nəticəsində qanunvericilik aktları və idarəetmə mexanizminin müvafiq imperiyanın hüquq normaları ilə idarə olunması, digər tərəfdən isə birpartiyalı sistemin, dövlət-partiya münasibətlərinin vahid nöqtədə cəmləşdiyi və mərkəzdən idarə olunma xüsusiyyətlərinin mövcud olduğu totalitar rejimdən plüralizm, hüquqi dövlət, hakimiyyətlərin bölünməsi prinsipinin fəaliyyət göstərdiyi demokratik rejimə keçidlə əlaqədardır. Lakin bu dövrdə Ermənistan-Azərbaycan silahlı münaqişəsinin davam etməsi, torpaqlarımızın 20%-nin işğalı, daxili anarxiya və özbaşınalıqların olması, habelə əhalinin yoxsulluq səviyyəsinin və inflyasiyanın maksimum dərəcəyə çatması bu prosesin zəif şəkildə aparılmasına səbəb olmuşdur. İkinci mərhələ 1995-2003-cü illəri əhatə edir. Bu dövr hüquqi islahatların güclənməsi, beynəlxalq hüquq normalarının implementasiyası və dövlətdaxili qanunvericilik aktlarının beynəlxalq hüquqa uyğunlaşdırılması, dövlət idarəetməsinin yenidən qurulması ilə xarakterizə olunur. Buna təkan verən səbəblər qismində 1994-cü ilin may ayının 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması, 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu, beynəlxalq hüquq normalarının implementasiyası prosesinin sürətləndirilməsi və beynəlxalq təş-

kilatlarla qarşılıqlı əlaqələrin genişləndirilməsi, insan hüquqlarının müdafiəsinə dair dövlətdaxili qanunvericilik aktlarının qəbulu, dövlət qurumlarının əksəriyyətinin yeniləşdirilmiş strukturunun təşkili və əsasnamələrinin təsdiqlənməsi kimi məsələlər təkan vermişdir. Eyni zamanda həmin dövrdə, yəni 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) təsis edilmişdir. Üçüncü mərhələ isə 2003-cü ildən hal-hazıradək olan dövrü əhatə edir. Sözügedən dövrdə ayrı-ayrı istiqamətlər üzrə konkret illəri əhatə edən dövlət proqram, fəaliyyət planı və strategiyalarının qəbulu və bu sahədə müxtəlif dövlət qurumlarının fəaliyyətinin kompleks şəkildə əlaqələndirilməsi xarakterik keyfiyyətlərdən biridir. Eyni zamanda bu mərhələdə Azərbaycan sosial-demokratik yönümlü xətti əsas yol kimi seçərək, vətəndaşların, xüsusilə əhalinin həssas təbəqəsinin (o cümlədən əlillərin) sosial vəziyyətinin yaxşılaşdırılması və onların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilməkdədir. Hətta bununla əlaqədar, eləcə də yoxsulluğun azaldılması və davamlı inkişaf, ölkəmizin gələcək inkişafının strateji hədəflərinə dair dövlətdaxili aktlar qəbul edilmişdir. Eyni zamanda korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması istiqamətində mühüm addım və ölkəmizin "ixtirası" sayılan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması da məhz bu dövrün məhsulu sayılır.

Bütün bu proseslər isə əlillərin hüquqlarının müdafiəsinə də öz təsirini göstərmişdir. Lakin bu sahədə Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı müəyyən çatışmazlıqlar qalmaqdadır.

Qeyd olunanları nəzərə alaraq, əlillərin hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq hüquq normalarının və qanunvericilik aktlarının təkmilləşdirilməsinə təsir göstərə biləcək aşağıdakı bəndlər üzrə müvafiq təklif və tövsiyələrin irəli sürülməsini məqsədəmüvafiq hesab edirik:

1. Məlum olduğu kimi, digər qruplarla (məsələn, qadınlar, uşaqlar, yerli xalqlar və s.) yanaşı, əlillər də əhalinin həssas təbə-

qəsini təşkil edən kateqoriyaya aiddir. Lakin əlilləri digər belə qruplardan fərqləndirən əsas cəhət ayrı-ayrı əlamətlər baxımından (yaş, cins, tarixi köklər və inkişaf, milli mənsubiyyət, sosial vəziyyət və s.) onların tərkibinin müxtəlifliyi ilə bağlıdır. Yəni əlil dedikdə, müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya ruhi pozuntuları olan insanlar başa düşülməklə yanaşı, həm də cins və yaş etibarilə ayrı-ayrı şəxsləri (məsələn, əlil-uşaqlar, əlil-qadınlar, əlil-kişilər, yerli xalqa məxsus əlil və s.) öz sıralarında birləşdirir. Bundan əlavə, onların hüquqlarının qorunması istər hüquq normaları, istərsə də təşkilati mexanizmlər baxımından yalnız sahəvi meyarlarla deyil, sahələrarası aspektlərlə müəyyən olunur. Belə ki, əlillərin hüquqlarının qorunması sahəsində mövcud olan beynəlxalq hüquq normaları və institusional mexanizmlərlə yanaşı, digər beynəlxalq sənədlər *(məsələn, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Yerli xalqların hüquqları haqqında" 2007-ci il Bəyannaməsi və s.)* və insan hüquqlarının ayrı-ayrı aspektlərinin müdafiəsi üzrə nəzarət qurumlarının *(məsələn, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə, Uşaq Hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə, AİHM, Sosial Hüquqlar üzrə Avropa Komitəsi, İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası)* əlillərlə bağlı fəaliyyəti və mövqeyi də diqqəti cəlb edir. Eyni zamanda BMT-nin müxtəlif ixtisaslaşmış təsisatlarının *(məsələn, BƏT, İKAO, ÜST, ÜTT, ÜPT, BDT, YUNESKO, ÜƏMT, FAO, Dünya Bankı və s.)* normayaradıcılıq və praktiki fəaliyyətində əlillərin mənafeyinə toxunan və ya onların vəziyyətini yüngülləşdirən çoxsaylı nümunələr vardır. Həmçinin əlillərə məxsus subyektiv imkanların (məsələn, bərabərlik hüququ, təhsil hüququ, əmək hüququ, şəxsi həyatın toxunulmazlığı, sağlamlığın qorunması hüququ və s.) realizəsi zamanı müvafiq sahəvi beynəlxalq sənədlərə istinad olunmaqdadır. Çünki bu normalar ümumi müddəaları təsbit etməklə, spesifik əlamətlərin, yəni inkluzivliyin də

mütləq şəkildə nəzərə alınmasını ehtiva edir. Qeyd olunanları nəzərə alaraq, "Əlillərin beynəlxalq-hüquqi müdafiəsi"ni beynəlxalq insan hüquqları hüququnun sahələrarası və institutlararası elementlərini özündə ehtiva edən kompleks yarımsahəsi kimi nəzərdən keçirmək lazımdır. Bunu həm yuxarıda sadalanan keyfiyyətlər, həm də müasir beynəlxalq hüquqda əlillərin hüquqlarının müdafiəsinə dair spesifik rəhbər başlanğıcların formalaşması da sübut edir.

2. Bir sıra çatışmazlıqlarının mövcudluğuna baxmayaraq, 2006-cı il Konvensiyası hazırkı dövr üçün əlillərin hüquqlarının müdafiəsinə dair unikal beynəlxalq-hüquqi sənəd hesab olunmalıdır. Çünki əlillərin hüquqlarının təsbit olunması və sahəvi nəzarət mexanizminin müəyyən edilməsi bu beynəlxalq sənədin əhəmiyyətini artıran hallardan biridir. Eyni zamanda Konvensiyanın spesifik rəhbər başlanğıcları müəyyən etməsi isə "əlillər hüququ"nu insan hüquqlarının kompleks yarımsahəsi səviyyəsinə qaldırılmasına səbəb olan amillərdən biridir. Bununla yanaşı, mövcud sənəd əlillik dərəcəsinə malik olan və bu statusu daşıyan müxtəlif kateqoriya şəxslərin (məsələn, qadınların, uşaqların və s.) reabilitasiyası, habelə onların hüquqlarının təmin olunması üçün əsas beynəlxalq-hüquqi baza rolunu oynayır.

3. Fikrimizcə, "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasına müəyyən dəyişikliklərin edilməsi daha düzgün olardı. Belə ki, ilk növbədə, sözügedən beynəlxalq hüquqi sənədin 1-ci maddəsində əlillərlə bağlı verilən anlayışda və onların hüquqlarının müəyyən olunmasında müəyyən çatışmazlıqlar mövcuddur. Çünki müasir dövrdə meydana çıxan, irsi amillərlə bağlı olmayan və insanlarda müəyyən qüsurların yaranması ilə nəticələnən (məsələn, İİV, cüzam, Hepatit, xərçəng, diabet və s.) bir sıra xəstəliklərə düçar olmuş şəxslərin müdafiəsi Konvensiyanın təsir dairəsindən kənarda qalır. Lakin insan hüquqlarının müdafiəsinə dair digər beynəlxalq nəzarət mexanizmlərinin, xüsusilə AİHM-in qərarlarında bu xəstəliklərin bəzisi (məsələn, diabet və s.) əlilliyə səbəb olan xəstəlik kimi xarakterizə edilmişdir. Qeyd olunanları nəzərə alaraq, 2006-cı il Konvensiyasında əlillərə veri-

lən anlayışın daha da dəqiqləşdirilməsi və tətbiq sferasının genişləndirilməsi, yaxud Əlillərin hüquqları üzrə Komitənin xüsusi rəyi ilə bu məsələnin aydınlaşdırılması məqsədəmüvafiq olardı.

Bundan əlavə 2006-cı il Konvensiyasına digər bir sıra müddəaların daxil edilməsi, xüsusilə, bəzi terminlərin izahı *(məsələn, "sosial məhdudiyyət", "maneə", "qüsur")*, "yaşamaq hüququ"nun "təhlükəsiz yaşamaq hüququ" termini ilə əvəz olunması, "bərabərlik hüququ" adlı maddənin əlavə edilməsi hazırkı ictimai münasibətlərin tənzimlənməsi üçün çox vacib və zəruri vəzifədir.

4. 2006-cı il Konvensiyasının 10-cu maddəsində təsbit olunmuş yaşamaq hüququ insanın ayrılmaz, təbii və mütləq hüququ olduğundan onun yenidən təkrarlanması qənaətbəxş hal sayıla bilməz. Çünki bunu insan hüquqlarının qorunması və müdafiəsinə dair universal və regional beynəlxalq sənədlərin müddəaları da sübut edir. Əlillərin daha çox təzyiq, təhqir və təhdidə məruz qalması güman edilən sosial qrup olduğunu nəzərə alaraq, həmin maddədə ifadə olunmuş "yaşamaq hüququ"nun "təhlükəsiz yaşamaq hüququ" termini ilə əvəz olunması daha düzgün olardı. Belə ki, yaşamaq hüququndan fərqli olaraq, təhlükəsiz yaşamaq hüququ şəxsin həyatı ilə yanaşı, onun fiziki və mənəvi sağlamlığını, mülkiyyətinin kənar qəsdlərdən qorunmasını təmin edir. Məhz bu baxımdan, əlillərin müəyyən mənada köməksiz vəziyyətdə olduğunu və yuxarıdakı halların asanlıqla pozulma ehtimalını nəzərə alaraq, təhlükəsiz yaşamaq hüququnun Konvensiyada təsbitini daha düzgün hesab edirik.

5. "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasında çatışmayan hallardan biri də "bərabərlik hüququ"nun ehtiva edilməməsidir. Doğrudur, bununla bağlı məsələlərə müvafiq beynəlxalq-hüquqi sənədin 5-ci maddəsində toxunulsa da, bu, sırf bərabərliyin təşviqi və ayrı-seçkiliyin ləğvi kontekstində nəzərdən keçirilir. Lakin bu norma bütövlükdə analoji münasibətlərin tənzimləyici vasitəsi sayıla bilməz. Fikrimizcə, "bərabərlik hüququ"nun normativ təsdiqinin bir sıra hallar baxımından mühüm əhəmiyyət kəsb etməklə aşağıdakı redaksiyada verilməsi daha

düzgün olardı:

*"1. Əlilliyi olan şəxslər digər insanlarla ümumi hüquqi bərabərliyə malik olmaqla, qanun və məhkəmə qarşısında bərabərliyə malikdirlər. Bu şəxslərin hüquqlarının təmin edilməsi ilə bağlı məhkəmə müdafiəsindən istifadəsi üçün hərtərəfli şərait və imkan yaradılmalıdır.*

*2. Əlil-kişi və əlil-qadınlar eyni hüquq və azadlıqlardan istifadə edirlər.*

*3. Əlillik əlaməti üzrə istənilən ayrı-seçkilik qadağan edilir və iştirakçı-dövlətlər əlilliyi olan şəxslərin istənilən zəmində ayrı-seçkilikdən bərabər və səmərəli hüquqi müdafiəsinə təminat verirlər.*

*4. İştirakçı-dövlətlər əlilliyi olan şəxslər üçün güzəşt, imtiyaz yaxud müəyyən müsbət üstünlüklər müəyyən edə bilərlər, yaxud əvvəlcədən nəzərdə tutulmuş bu qaydalardan imtina edə bilməzlər.*

*5. Əlilliyi olan şəxslər üçün nəzərdə tutulan güzəşt, imtiyaz, yaxud üstünlüklər heç bir halda ayrı-seçkilik kimi qiymətləndirilə bilməz. 6. Cəmiyyətin əlillərə qarşı tolerant davranması üçün məsuliyyət məsələlərinin nəzərdə tutulması da daxil olmaqla, bütün zəruri tədbirlər görülməlidir."*

6. 26 noyabr 2016-cı il tarixdə keçirilən referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə "*Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar"* müddəasının əlavə olunması onlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi və cəmiyyətin digər üzvləri ilə bərabərliyin təmin olunması istiqamətində atılmış mühüm addımdır. Çünki yeni müddəanın əlavə olunmasına qədər, 38-ci maddədə öz əksini tapan sosial təminat hüququnun təmin edilməsi və müdafiəsinə dair norma istisna olmaqla, Azərbaycan Respublikasının Konstitusiyasında digər hər hansı tənzimləyici vasitəyə rast gəlmək qeyri-mümkün idi. Yeri gəlmişkən, əlilliyə görə ayrı-seçkiliyin qadağan edilməsinə dair norma-

lara bir sıra dövlətlərin (məsələn, Almaniya, Avstriya, CAR, Finlandiya, İsveç və s.) konstitusiyalarında da rast gəlmək mümkündür.

7. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il tarixli Qanunun yenisi ilə əvəz olunmasına səbəb olan bir sıra hallar mövcuddur. İlk növbədə, qanunda istifadə olunan "əlil" terminin tərifi "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasının tələbləri ilə tam şəkildə uyğunlaşdırılmalıdır. İkincisi, bu kateqoriyaya daxil olan şəxslərin "əlil" deyil, "əlilliyi olan şəxs", yaxud "sağlamlıq imkanları məhdud şəxs" adlandırılması daha düzgün olardı. Çünki bu sahədə beynəlxalq hüquq normaları ilə ziddiyyətlər mövcuddur. Hətta bununla bağlı Azərbaycan Respublikasının 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" və 5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" qanunları arasında mövcud olan ziddiyyətləri də qeyd etmək lazımdır. Üçüncüsü, 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanunun dəyişdirilməsini zəruri edən hallardan biri də köhnəlmiş və müasir ictimai münasibətlərlə uzlaşmayan, habelə digər qanunvericilik aktları ilə ziddiyyət təşkil edən müddəaları, yaxud terminləri nəzərdə tutmasıdır. Məsələn, Qanunun 26-cı maddəsində "işverən", "kolxoz" kimi kateqoriyalardan istifadə olunur ki, bu həm əmək qanunvericiliyi, həm də digər qanunvericilik aktları ilə uyğunsuzluq təşkil edir.

8. Azərbaycan Respublikasının milli qanunvericiliyində əlillərin hüquqlarına dair prinsiplərin öz əksini tapmasına diqqət yetirilməlidir. Çünki əlillərin hüquqlarının qorunmasına yönəlmiş

sahəvi milli qanunvericilik aktı sayılan "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" 25 avqust 1992-ci il tarixli Qanun bir sıra müddəalar, o cümlədən prinsiplərin ehtiva olunmaması baxımından 2006-cı il Konvensiyası ilə uyğunsuzluq təşkil edir. Doğrudur, müyəssərlik prinsipinin bir sıra elementlərinin təsbit olunması heç də prinsipin bütövlükdə qanunvericilik baxımından əhatə olunması demək deyildir. Digər tərəfdən, Konvensiyada təsbit olunan digər rəhbər başlanğıcların bəzisinə isə qanunda rast gəlmək qeyri-mümkündür. Şübhəsiz ki, Qanunun və Konvensiyanın qəbul tarixləri arasında fərq nisbəti də nəzərə alınmalıdır. Lakin hüququn dinamiklik funksiyası imkan verir ki, yeni qanunvericilik aktı qəbul olunmaqla, dəyişən ictimai münasibətləri tənzimləsin.

9. Azərbaycan Respublikasında əlillərlə bağlı münasibətlərin tənzimlənməsi üçün xüsusi qanunvericilik aktının – 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanunun mövcudluğuna baxmayaraq, həmin sənəddə əlil-qadınlarla bağlı müddəalara rast gəlmək qeyri-mümkündür. Eyni vəziyyət ölkənin digər qanunvericilik aktlarında da müşahidə edilməkdədir.

İstər elmi-nəzəri araşdırmalar, istərsə də beynəlxalq təşkilatların hesabatlarında qeyd olunan müddəaları nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, əlil-qadınlar üçtərəfli ayrı-seçkiliyə məruz qalırlar:

- Birinci halda onlar sadəcə qadın kimi gender bərabərsizliyinin qurbanına çevrilirlər. Bu neqativ meyillərin yaranmasına, həmçinin regional aspektlər, hüquqi normaların icrası üzərində nəzarət mexanizmlərinin zəifliyi, digər sosial normaların (dini normalar, əxlaq normaları, "tayfa" adətləri, "yaşca böyüklərin, ağsaqqalların" fikirlərinin ümumməcburi hüquq normalarını üstələməsi və s.) hüquqi normalardan üstün mövqeyə malik olması və

s. kimi amillər də təsir göstərir. Yəni belə hallarda qadın "hüquqsuz obyekt" statusunu daşıyır.

- İkinci hal əlillərin öz arasında olan gender bərabərsizliyi ilə bağlıdır. Belə ki, bir sıra hüquqların, xüsusilə təhsil hüququ, əmək hüququ, azadlıq hüququ, istismar və zorakılıqdan müdafiə hüququ, işgəncələrdən müdafiə hüququnun realizəsində əlil-qadınlar əlil-kişilərə nisbətən daha çox pozuntuya məruz qalırlar. Digər tərəfdən, əlil-kişilərə nisbətən əlil-qadınların cəmiyyətə tam daxil olması və inteqrasiya imkanları da əksərən məhdud formada həyata keçirilir.

- Üçüncü halda isə bütövlükdə əlil-qadınların cəmiyyət tərəfindən qəbul edilməsində müəyyən problemlər meydana çıxmaqdadır. Onların əlillik statusu əmək, təhsil, nikah hüququ kimi subyektiv imkanların pozulması, işgəncə, qeyri-insani, ləyaqəti alçaldan rəftar və ya cəzaya (məsələn, fiziki və ya ruhi əzab, etinasızlıq, qorxu və iztirab, süni mayalanma, embrionu implantasiya etmə, məcburi tibbi sterilizasiya, analıq imkanlarından məhrum olunması və övladlarından ayrı yaşamağa məcbur edilmə və s.) məruz qalmasına səbəb olan hallar qismində çıxış edir. Mövcud kontekstdə, həmçinin əlil-qadınların məişət zorakılığının qurbanına çevrilmə halları və ehtimalı da güclüdür. Bu məsələni aidiyyəti beynəlxalq hökumətlərarası və ya qeyri-hökumət təşkilatlarının hesabatları da sübut edir.

Bundan əlavə, Azərbaycan Respublikası 2 oktyabr 2008-ci il tarixli 686-IIIQ nömrəli Qanunla "Əlillərin hüquqları haqqında" 2006-cı il Konvensiyasına qoşulmuşdur. Konvensiyanın 6-cı maddəsi isə əlil-qadınlarla bağlı müddəaları özündə ehtiva edir.

Beləliklə, beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası və ölkəmizin beynəlxalq öhdəliklərinin icrasının zəruriliyini, habelə yuxarıda qeyd olunan ümumi qlobal problemləri nəzərə alaraq, əlil-qadınlar və onların hüquqlarının müdafiəsi ilə bağlı müddəanın Azərbaycan Respublikasının qanunvericiliyinə daxil edilməsi çox vacibdir. Bu, ya əlil-qadınlarla bağlı xüsusi qanunvericilik aktının qəbulu, ya da mövcud

qanunvericilik aktlarına (xüsusilə 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun, "Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli Qanun, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" 10 oktyabr 2006-cı il tarixli Qanun) ayrıca müddəaların daxil edilməsi vasitəsilə təmin edilməlidir. Çünki istər adıçəkilən qanunvericilik aktlarında, istərsə də digər normativ-hüquqi aktlarda əlil-qadınların müdafiəsinə dair normalara rast gəlinmir.

10. Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına əlillərə qarşı ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı müddəanın daxil edilməsi daha effektiv ola bilər. Nümunə qismində Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nı göstərmək olar. Doğrudur, həmin sənəddə irqi ayrı-seçkiliklə mübarizə, o cümlədən qadınlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi ilə bağlı müddəalar öz əksini tapsa da, əlillik meyarı üzrə yol verilə bilən ayrı-seçkiliyin qarşısının alınması və onun aradan qaldırılmasına dair hər hansı norma mövcud deyildir. Cəmiyyətə adaptasiyadan kənarda qalmaqla və işsiz təbəqəsini formalaşdırmaqla, nəticədə psixoloji gərginliyə daha çox məruz qalan qrup kimi əlillər yoxsulluğun "inkişafı" üçün aparıcı meyar rolunu oynaya bilər. Məhz bu baxımdan, sözügedən Dövlət Proqramına əlillik meyarı üzrə ayrı-seçkiliyin qarşısının alınması və qadağan olunmasına dair müddəa daxil edilməlidir.

11. Əlillərin hüquqlarının qorunması və müdafiəsi təkcə Azərbaycan Respublikasının aidiyyəti qurumlarının səlahiyyəti çərçivəsində deyil, demək olar ki, əksər dövlət orqanlarının fəaliyyətində özünü büruzə verir. Eyni zamanda əlillərə vahid məkan çərçivəsində xidmətlərin göstərilməsi (məsələn, "ASAN xidmət" mərkəzlərində) onların rahatlığının təmin olunması və vaxt

itkisinin azaldılması, habelə məmur-vətəndaş münasibətləri sahəsində şəffaflığın artırılmasına xidmət edir.

12. Əlilliyin tibbi modeli ilə yanaşı, digər modellərin də səciyyəvi cəhətlərindən istifadə olunması zəruridir. Çünki sonrakı mərhələlərdə əlillərin cəmiyyətə adaptasiyası, ruh düşgünlüyünə yol verilməməsi və onların psixoloji vəziyyətinin düzgünlüyünün təmin olunması, əmək-peşə münasibətlərinin düzgün qurulması, sosial həyat şəraiti ilə bağlı təminatın lazımınca həyata keçirilməsi həmin şəxslərin gələcək həyatında mühüm rol oynayır.

13. "Əlil" və "əlillik" terminlərinin mahiyyət və məzmunun müəyyən olunması zamanı məsələyə birtərəfli deyil, kompleks şəkildə yanaşmaq lazımdır. Belə ki, həmin kateqoriyalarla yanaşı, "sosial məhdudiyyət", "maneə", "qüsur" və digər bu kimi anlayışları təhlil etməklə, əlil kateqoriyasına daxil olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi və onların hüquqlarının müdafiəsi daha düzgün şəkildə təmin edilmiş olar.

14. Əlillərə qarşı ayrı-seçkiliyə qarşı mübarizə təkcə dövlətlər tərəfindən ümumi tədbirlərin görülməsi və beynəlxalq hüquqla nəzərdə tutulan öhdəliklərinin icrası vasitəsilə deyil, həmçinin qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyəti institutlarının fəal iştirakı ilə həyata keçirilməlidir. Bu, bir tərəfdən müvafiq məsələnin həlli ilə bağlı səlahiyyətli dövlət qurumlarına zəruri köməklik göstərilməsi ilə bağlı olduğu halda, digər tərəfdən aidiyyəti beynəlxalq qurumlara (xüsusilə Əlillərin hüquqları üzrə Komitəyə) təqdim olunan hesabatların ətraflı və şəffaf şəkildə tərtib olunmasının əsasını təşkil edə bilər.

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................................ 3

**I FƏSİL. Əlillərin hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin əsas xüsusiyyətləri və mühüm istiqamətləri: nəzəri və praktiki tənzimetmə meyillərinin təhlili**. ...................................................... 10

1.1. “Əlil” və “əlillik” anlayışları əlillərin hüquqlarının qorunmasının əsas meyarı kimi: elmi-nəzəri araşdırmaların və hüquq normalarının müqayisəli analizi ........................................................................ 10

1.2. Əlillərin hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi və təminatında sahəvi prinsiplərin yeri və rolu ...................................... 29

1.3. Beynəlxalq hüquq normalarında və dövlətdaxili qanunvericilikdə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunması ................................. 65

**II FƏSİL. Əlillərin hüquqlarının müdafiəsində universal və regional müqavilə və institusional mexanizmlərin təhlili: qarşılıqlı təsir vasitələrinin ümumi xarakteristikası**...................................... 89

2.1. Əlillərin hüquqlarının qorunması və müdafiəsinə universal mexanizmlərin təsirinin əsas aspektləri: müqayisəli təhlil və sistemli yanaşma ....................................................................................... 89

2.2. “Əlillərin hüquqları haqqında” 2006-cı il BMT Konvensiyası əlillərin hüquqlarının müdafiəsinin əsas beynəlxalq-hüquqi bazası kimi ........................................................................................... 126

2.3. Regional səviyyədə əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığa ümumi baxış: hüquq normaları və institusional mexanizmlərin qarşılıqlı müqayisəsi............................ 144

**III FƏSİL. Azərbaycan Respublikasının təcrübəsində əlillərin hüquqlarının realizəsinin əsas formaları: qanunvericilik normalarının və institusional mexanizmlərin fəaliyyətinin müqayisəli təhlili** ........................................................................ 175
3.1. Dövlətdaxili qanunvericilikdə əlillərin hüquqlarının müdafiəsinin əsas aspektləri: kompleks sistemləşdirmə və ümumi qiymətləndirmə ........................................................................ 175
3.2. Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində fəaliyyət mexanizminin formalaşmasında dövlət orqanlarının yeri və rolu: müasir tendensiya və yeni yanaşmalara nəzəri və praktiki baxış ..... 196
**NƏTİCƏ**........................................................................ 241

**SƏBİNƏ ƏLİYEVA**

# ƏLİLLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ İMPLEMENTASİYASI

***Monoqrafiya***

Çapa imzalanma tarixi: 19.04.2019
Format: 70x100 1/16.
Çap vərəqi: 16. Sifariş № 156. Tiraj: 200

“Red N Line” NPM